**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

**YEDDİNCİ CİLD**

**Bakı – 2013**

**Seyyid Əliəkbər Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, "Qələm" nəşriyyatı, 2012. 394 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor: Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın "Qurani-Kərimdə xitablar" mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 01 iyul 2012-ci tarixli DK-360/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir.

# QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR
## (Üçüncü nümunənin davamı)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

## TƏQVANI GÜCLƏNDİRƏN AMİLLƏR

Ötən bəhslərimizdə Qurani-Kərimdə Allahın möminlərə etdiyi xitablardan üçüncü nümunə olaraq “Ali-İmran” surəsinin 102-ci ayəsi haqda söhbət açdıq. Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək təqvalı olmalarını təkid edir. Bu ayə barəsində söhbət edərkən təqvanın mənası, onun insan üçün çox böyük əhəmiyyət kəsb etməsi haqda kifayət qədər bəhs etdik. Həmçinin təqvalı insanın sifət və xüsusiyyətləri barədə danışıb, təqvanın insanın bu dünyası və axirəti üçün faydalarından söz açdıq. Burada çox yaxşı olar ki, həmin mövzuya aid bir mətləbi də nəzərinizə çatdıraq. Həmin mətləb budur ki, görəsən hansı amillər insanda təqvanın güclənməsinə səbəb olur? Bu sualın cavabı Quran ayələrində açıq-aydın bəyan olunmuşdur. Məsələn, “Ənam” surəsinin 151-153-cü ayələrinə diqqət yetirdikdə görürük ki, Allah-təala bu ayələrdə müşriklər barədə söz açdıqdan sonra insanda təqvanı gücləndirən amillərdən bir neçəsini bəyan edir.

Bu ayələrdən əvvəlki ayələrdə isə müşriklərin İslam Peyğəmbərinə(s) etdiyi etiraz və inadkarlıqlardan söz açılır. Ayədə açıqlanılan məsələnin qısa məzmunu

bundan ibarətdir ki, onlar Peyğəmbərin(s) sözlərini, yəni Allahın nazil etdiyi hökmləri qəbul etmirdilər. Onlar öz ehkamlarının yaxşı olduğunu iddia edərək Həzrət Peyğəmbərin(s) sözlərini qəbul etmir və Allahın nazil etdiyi hökmlərə əhəmiyyət vermirdilər. Allah-təala onların barəsində Peyğəmbərə(s) belə buyurur:

قُلْ فَلِلّهِ الْحُجَّةُ الْبَالِغَةُ فَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ

-De: "Beləliklə, yetərli (heç kimin rədd etmək qüdrətinə malik olmadığı) höccət (dəlil-sübut) Allaha məxsusdur və əgər O, (yaradılışda qəti iradə ilə) istəsəydi, sizin hamınızı (məcburi surətdə) hidayət edərdi."[1]

Bu ayədə bəyan olunur ki, Allah-təala müşriklərlə höccəti tamamlayır. Sual oluna bilər ki, Allah-təala hansı məsələlərdə müşriklərlə höccətini tamamlamışdır? Cavab belədir ki, Allah-təala həm Özünün yeganəliyi və təkliyi, yəni tövhid haqda, həm də peyğəmbərlərin vasitəsilə göndərdiyi hökmlər barədə müşriklərə höccətini tamamlayır. "Höccət" ərəb dilində dəlil-sübut deməkdir. Odur ki, ayədə işlənmiş "höccətül-baliğə" ifadəsi "yetərli dəlil-sübut" mənasındadır. Əlbəttə, Allahın höccəti tamamlaması müfəssəl bir məsələ olduğu üçün sadəcə olaraq bir neçə kəlmə ilə bu məsələnin üzərindən keçirəm. Çünki bu ayədə Allahın höccəti tamamlamasının iki mənası var ki, biri bu dünyaya, digəri isə qiyamətə aid olan məsələlərdir. Ayədə işlənmiş "yetərli dəlil-sübut" ifadəsi o deməkdir ki, hər bir kəs bu dəlil-sübutun qarşısında aciz qalır. Yəni bu dəlil-sübutun qarşısında hər hansı bir bəhanə gətirə və ya deməyə bir sözü qalmır.

[1] Ənam surəsi, ayə 149.

Allahın insana bu dünyada tamamladığı höccətə gəldikdə isə, bu iki cürdür. Onlardan biri Allahın göndərdiyi peyğəmbərlər, ikincisi isə insana verdiyi ağıldır. Bir çox hədislərdə bu məsələyə rast gəlmək mümkündür.

قَالَ الكَاظِمُ(ع): إنَّ لِلَّهِ عَلَي النَّاسِ حُجَّتَينِ: حُجَّةً ظَاهِرَةً وَحُجَّةً بَاطِنَةً؛ فَأَمَّا الظَّاهِرَةُ فَالرُّسُلُ وَالانْبِيَاءُ وَالائِمَّةُ عَلَيْهِمُ السَّلاَمُ، وَأَمَّا البَاطِنَةُ فَالعُقُولُ

-İmam Kazım(ə) buyurur: "Allahın insanlar üzərində iki höccəti vardır: zahiri və daxili höccət. Zahiri höccət peyğəmbərlər və məsum imamlardır. Daxili höccət isə ağıldır."[1]

Qeyd olunan hədisdən açıq-aydın başa düşülür ki, Allahın bu dünyada insanlar üçün iki höccəti vardır. Onlardan biri zahiri höccətdir ki, Allah-təala peyğəmbərləri və məsum imamları yer üzündə insanlar üçün dəlil-sübut qərar vermişdir. Onlar insanlarla Allah-təala arasında olan vasitəçi və höccətlərdir. Qurani-Kərimdə Həzrət Peyğəmbər(s) barədə buyurulan bir neçə ayədə görürük ki, Allah-təala onun sözünü Öz sözü bilir. Yəni Həzrət Peyğəmbər(s) hər nə buyurursa, bu, Allahın sözləridir. Ona itaət etmək Allaha itaət etmək deməkdir. Həmçinin Allah-təala öz höccətini insanın daxilində qərar vermişdir ki, bu da onun ağlıdır. İnsan yaxşını pisdən, nuru zülmətdən, haqqı batildən, uzağı yaxından və bir çox başqa məsələləri öz ağlının vasitəsilə ayırd edə bilir. Əgər insan öz ağlının vasitəsilə bəzi məsələləri ayırd edə bilməyib çətinliyə düşsə, o zaman Allahın zahiri

[1]Təfsiri-nümunə,6-cı cild, səh.26.

höccətləri, yəni peyğəmbər və məsum imamlar ona kömək edərək doğru yolu göstərirlər.

Ayədəki “yetərli dəlil-sübut” ifadəsinin ikinci mənası isə axirətə aid edilir. Yəni Allah-təala möhkəm, yetərli dəlillərlə müşrikləri, yoldan çıxanları və başqa bu kimi adamları məhkum edəcəkdir. Bu barədə də bir çox hədislər nəql olunmuşdur və indi onlardan birinə diqqət yetirək:

قَالَ الصَادِقُ(ع): اِنَّ اللهَ تَعَالَى يَقُولُ لِلعَبدِ يَومَ القِيَامَة عَبدِى أَكُنتَ عَالِمًا فإن قَالَ نَعَم، قَالَ لَهُ أَفَلا عَمِلتَ بِمَا عَلِمتَ؟ وَ اِن قَالَ كُنتُ جَاهِلاً قَالَ لَهُ أَفَلا تَعلَّمتَ حَتّى تَعمَل؟ فَيَخصِمُهُ فَتِلْكَ الْحُجَّةُ الْبَالِغَةُ

-İmam Sadiq(ə) “De: Beləliklə yetərli dəlil-sübut Allaha məxsusdur” ayəsinin şərhində belə buyurmuşdur: “Allah-təala qiyamət günü bəndəyə buyurar: “Ey mənim bəndəm! Sən (göndərdiyim hökmləri, peyğəmbərlərin buyurduqlarını) bilirdinmi?” Əgər “Bəli” - deyə cavab versə, Allah-təala ona buyurar: “Bildiyin şeyə nə üçün əməl etmədin?” “Bilmirdim” - deyə cavab versə, Allah buyurar: “Bəs niyə öyrənmədin ki, biləsən və əməl edəsən?” O (bəndə) öz cavabını alar və məhkum olunar. Budur yetərli, qəti və aydın höccət.”[1]

Odur ki, qeyd olunan ayədə Allah-təala müşriklərlə höccəti tamamladığını bəyan etdikdən sonra buyurur:

فَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ

---

[1]Təfsiri-nümunə,6-cı cild, səh.26.

-O istəsəydi sizin hamınızı (məcburi surətdə) hidayət edərdi.

Allah-təala insana ağıl verdiyi üçün həqiqət yolunu insanın özünün axtarıb tapmasına və ona itaət etməsinə imkan yaradır. O, insana ixtiyar verdiyinə görə də onu heç bir şeyə məcbur etmir. Sadəcə olaraq bütün yolları açıq-aydın dəlillərlə insana göstərmiş və onu seçim qarşısında qoymuşdur. İnsan da ixtiyari olaraq həmin yollardan birini seçməlidir. Əgər səadət yolunu seçsə, səadətə yetişər, yaxud bədbəxtlik yolunu seçsə, heç şübhəsiz, bədbəxtliyə düçar olacaqdır.

Sonrakı ayələrdə Allah-təala Peyğəmbərə(s) belə göstəriş verir ki, onlar öz ehkamlarını bir kənara qoysunlar və Həzrət(s) onların təqvalı olaraq səadətə çatmaları üçün lazım olan ehkam və məsələləri onlara öyrətsin. Əgər insan Allahın halal-haramını öyrənib ona riayət etsə, təqvalı olar və əldə etdiyi bu təqvanın da nəticə və bəhrələrini görər.  Yəni təqvanın insanın dünya və axirətindəki nəticələr o insanlara aiddir ki, təqvalı olmuş olsunlar. “Ənam” surəsinin 151-153-cü ayələrində buyurulur:

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ
إِحْسَانًا وَلاَ تَقْتُلُواْ أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ وَلاَ تَقْرَبُواْ
الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ
بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

-De: “Gəlin Rəbbinizin sizə haram etdiyini oxuyum (və o budur ki): heç bir şeyi Ona şərik qoşmayın, valideynlərə yaxşılıq edin, övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Sizə və onlara ruzini Biz

veririk. Və pis işlərə – istər aşkar olsun, ya gizlin (əməli və etiqadi günahlara, yaxud camaatın gördüyü və görmədiyi günahlara) – yaxınlaşmayın. Həmçinin Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı - (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla – öldürməyin. Bəlkə düşünəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır.”

وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ لاَ نُكَلِّفُ نَفْسًا إِلاَّ وُسْعَهَا وَإِذَا قُلْتُمْ فَاعْدِلُواْ وَلَوْ كَانَ ذَا قُرْبَى وَبِعَهْدِ اللّهِ أَوْفُواْ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

-Və yetimin malına o, (cismani və ruhi baxımdan) həddi-büluğa çatana kimi gözəl bir tərz istisna olunmaqla, yaxınlaşmayın. Ölçü və çəkini ədalətlə tam şəkildə verin. Biz heç bir kəsin üzərinə (əqidə və əməllərdə) öz imkanından artıq vəzifə qoymuruq. (Hakim və şahid kimi və ya fitva vermək məqsədilə) danışanda, hətta qohum(larınız barəsində) olsa da belə, ədalətli olun. Və (şəriətin əsas və qollarını qəbul etməkdə) Allahın əhd-peymanına kamil surətdə vəfalı olun. Bəlkə öyüd götürəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır.

وَأَنَّ هَـذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ

-Və (tövsiyə etdi ki,) bu (əmrlər) Mənim doğru yolumdur. Buna görə də ona tabe olun və başqa yollara tabe olmayın ki, sizi Onun yolundan (sapdıraraq) pərakəndə edər. Bəlkə təqvalı olasınız deyə Allahın sizə tövsiyə etdiyi bunlardır.

## GÜNAHLARDAN ÇƏKİNMƏK

Qeyd olunan ayələrdə Allah-təala 10 günahı sadaladıqdan sonra bəyan edir ki, əgər bu günahlardan çəkinsəniz, bəlkə onda təqvalı ola bilərsiniz. Belə görürük ki, təqva insanda birdən-birə əmələ gəlmir. İnsan yalnız günahlardan çəkinməklə təqvaya nail ola bilər. Ataların belə bir məsəli var: "Halva-halva deməklə ağız şirin olmaz." Təqva elə bir şeydir ki, yalnız günahlardan çəkinməklə və lazımi məsələlərə əməl etməklə yaranır. Yəni insanlarda təqvanı gücləndirən ən əsas amillərdən biri günahlardan çəkinməkdir. Əgər insan günahlardan çəkinməsə və özünü günahların çirkabı ilə bürüsə, o zaman həmin şəxsdə təqvadan heç bir əsər-əlamət belə qalmayacaqdır. Burada çox yaxşı olar ki, ayələrdə bəyan olunmuş günahların hansı günahlar olduğunu diqqətinizə ərz edim.

### 1. ALLAHA ŞƏRİK QOŞMAYIN

Müşriklər İslam Peyğəmbəri(s) ilə mübahisə edib onun sözlərini qəbul etmirdilər. Öz qanunlarının onlara kifayət etdiyini bildirərək başqa ehkam və qanunlara ehtiyac duymadıqlarını iddia edirdilər. Beləliklə onlar Peyğəmbərin(s) gətirdiyi ehkam və qanunları qəbul etməkdən boyun qaçırırdılar. Allah-təala Peyğəmbərə(s) göstəriş verdi ki, onlara özlərindən qanunlar düzəltməməyi başa salsın. Onlara desin ki, gəlin sizi Allahın buyurduğu və hər birinizi səadət və xoşbəxtliyə çatdıran qanun və ehkamlardan xəbərdar edim.

Burada bir mətləbə diqqət yetirmək lazımdır ki, insanlar üçün qanunlar yazan hər bir kəs mütləq insanların bütün cəhətlərindən xəbərdar olmalıdır. Belə olduqda

görürük ki, insan öz-özünü hələ də yaxşı tanıya bilmir. Çünki onun müxtəlif xüsusiyyət və cəhətləri olduğundan yalnız Ulu Tanrı onun üçün qanunlar və ehkamlar müəyyən edə bilər. Məsələn, mağazadan müasir texnologiyalar əsasında istehsal edilmiş bir soyuducu, televizor və s. kimi məişət avadanlıqları aldıqda onun qutusunun içərisində mütləq istifadə qaydaları qeyd olunmuş bir kitabça çıxır. Bu ona görədir ki, həmin məişət avadanlığını alan şəxs öncə həmin qeydləri yaxşıca oxuyub öyrənsin və onu öz bildiyi kimi işlədib xarab etməsin. Çünki həmin məişət avadanlığı kitabçada yazılmış qaydalar əsasında istifadə olunmalıdır. Əks təqdirdə həmin avadanlıq tez bir zamanda sıradan çıxacaq və yararsız vəziyyətə düşəcəkdir. Həmin məişət avadanlığını istehsal edən müəssisə isə onun bütün texniki incəliklərini bildiyi üçün insanların ondan necə istifadə etmələrini həmin kitabçada göstərmişdir.

Allah-təala insanları yaratdıqdan sonra onların bir-birilərindən necə bəhrələnmələrindən ötrü peyğəmbərlər və kitablar göndərmişdir. İnsan öz-özünü tanımadığı üçün onu səadətə və ya bədbəxtliyə aparan yolları və qanunları da bilmir. Öz-özünə müəyyən etdiyi qanunlar isə onu səadətə çatdıra bilməz. Bu dünyada görürük ki, insan yaranandan bəri hüquqşünaslar, psixoloqlar, fiziklər və müxtəlif elm sahələrində çalışan alimlər insan barədə öz nəzəriyyələrini söyləmiş, fikirlərini irəli sürmüş və yaxud qanunlar işləyib hazırlamışlar. Amma az bir müddətdən sonra isə onlar insan barədə irəli sürdükləri nəzəriyyələrin, fikir və qanunların səhv olduğunu anlamış və müəyyən dəyişikliklər etməyə məcbur olmuşlar. Əgər bəzilərinin işləyib hazırladığı ayrı-ayrı qanunların cəmiyyətdə daha uzun müddət qüvvədə qalması müşahidə olunmuşsa, bu da

həmin müddətdə onların iqtidarda olmaları ilə birbaşa bağlı olmuşdur. Yəni onların insanlar üçün müəyyən etdikləri qanunların arxasında silah, hədə-qorxu gəlmə, öldürmək kimi amillər dayandığından həmin qanunların müddəti nisbətən uzun sürmüşdür.

Tarixə diqqət yetirdikdə belə qanunların ən uzun müddətlisi yetmiş ildən artıq olmamışdır. Hər bir kəs yaxşı başa düşür ki, insanlar üçün qanunlar müəyyən edən şəxs mütləq onları olduğu kimi tanımalıdır. İnsan təkcə maddi cəhətlərə malik deyil, onun mənəvi cəhətləri də var ki, yalnız Ulu Tanrı bu cəhət və xüsusiyyətlərdən xəbərdardır. Əgər bir həkim xəstənin xəstəliyindən xəbərdar olmasa, onu necə müalicə edə bilər. Təbiidir ki, həkim xəstənin xəstəliyini və onun səbəblərini bilmədən həmin adamın müalicəsi ilə məşğul olsa, xəstənin vəziyyəti acınacaqlı ola bilər və o, xoşagəlməz nəticələrlə üzləşər. Təkcə cismani deyil, ruhi xəstəliklər də eynilə belədir. Ruhi xəstəliklər insan üçün cismani xəstəliklərdən daha pis və təhlükəli olur. Əgər insan adam öldürürsə, müxtəlif cinayətlər törədirsə və bu kimi başqa çirkin işlər görürsə, bütün bunlar onun ruhunun xəstəlikləridir.

Harada görünüb ki, cismani xəstə olan bir insan belə bir xəstəliyə görə adam öldürsün? Harada görünüb ki, başı və ya mədəsi ağrıyan bir insan cinayət törətsin? İnsanın böyrək və yaxud ürəyinin ağrıması onu hər hansı bir qətl hadisəsini törətməyə vadar etmir. İnsanı müxtəlif cinayətlərə sövq etdirən xəstəliklər onun ruhunun xəstəlikləridir. Təkəbbürlülük, paxıllıq, şəhvətpərəstlik və şöhrətpərəstlik kimi ruhi xəstəliklər insanları minlərlə dəhşətli cinayətlərə vadar edə bilir. Vəzifəpərəst bir insan öz təkəbbürlülüyünə və vəzifəsinə görə minlərlə insanın qətlinə səbəb ola bilər. Öz adını yaşatmaq üçün

milyonlarla insanın qətlinə fərman verir. Dünyanı bir-birinə qatan xəstəliklər insanın ruhunun xəstəliyi ilə bağlıdır. Ona görə də insan ilk növbədə bu xəstəliklərinin əlacını tapmalı və özünü müalicə etdirməlidir.

Odur ki, insanlar üçün qanunlar və ehkamlar müəyyən edən şəxslər onların hər bir cəhətindən xəbərdar olmalıdır. İnsanın hər bir cəhətindən xəbərdar olan isə yalnız və yalnız onu yaradan uca və əzəmətli Allahdır. Allah-təala ilk növbədə insana ehkamları öyrədir və sonra isə onlara əməl etməyi təkid edir. Əgər insan Allahın buyurduğu qanun və ehkamları öyrənib onlara riayət etsə, o zaman səadət və xoşbəxtliyin nə olduğunu başa düşər. Yuxarıda qeyd etdiyimiz üç ayədə Allah-təala Həzrət Peyğəmbər(s) vasitəsilə 10 cür günah əməli sadalayır və onlardan çəkinmək barədə insanlara göstəriş verir. Dünya və axirət xoşbəxtliyinə nail olmaq üçün insana lazım olan təqva həmin ehkama riayət etmək və bu haramlardan çəkinmək sayəsində əldə edilir. Həm də müvafiq ayələrdə sadalanan haramlardan çəkinməyi Allah-təala təkidlə buyurmuşdur. Həmin ehkamlardan biri belədir:

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا

-De: “Gəlin Rəbbinizin sizə haram etdiyini oxuyum (və o budur ki): Ona şərik qoşmayın.”

Bu ayədə Allah-təala ilk növbədə insanı Ona şərik qoşmaqdan çəkindirir. İnsan bilməlidir ki, ona nicat verən ən əsas məsələ tövhiddir. Əgər insan tövhidi başa düşsə, Allahın yeganəliyinə inanıb buna əməl etsə, bu məsələni əqidə prinsipi kimi özündə möhkəmləndirə bilsə, o zaman insaniyyət, bəndəlik və səadətin ilk mərhələsinə qədəm qoymuş olar. Çünki hər bir şeyin başlanğıcı tövhiddir. Bunu təkcə dildə demək insan üçün kifayət etmir. Yəni

dildə etiraf etdikdən sonra insan qəlbən buna inanıb əməli ilə də onu həyata keçirməlidir. Buna görə də insan ilk növbədə heç bir şeyi Allaha şərik qoşmamalıdır. Yəni Allah-təalanın insanları çəkindirdiyi ilk günah şirkdir. Əgər insan şirkin nə olduğunu başa düşüb ondan çəkinə bilsə, bu zaman tövhidin də nə olduğunu anlayacaqdır.

Əlbəttə, tövhid və şirk barədə çox danışmaq olar və gələcək bəhslərimizdə Allahın lütfü ilə bu barədə ətraflı söhbətlərimiz olacaqdır. Amma burada bir qədər şirk barəsində məlumatlanmağımız yaxşı olardı. Yəni gəlin baxaq görək ki, Quran ayələrində və hədislərdə şirk necə mənalandırılır?

## Quran baxımından şirk

Qurani-Kərimə diqqət yetirdikdə şirk barəsində çoxlu ayələrə rast gəlmək mümkündür. Burada həmin ayələrdən şirkin mənası ilə bağlı iki ayəni diqqətinizə çatdırıram. Allah-təala "Loğman" surəsinin 13-cü ayəsində Loğmanın öz oğluna etdiyi vəsiyyəti belə bəyan edir:

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

-Və (yadına sal,) o zamanı ki, Loğman oğluna nəsihət edərkən ona dedi: "Ey mənim əziz oğlum, Allaha şərik qoşma, çünki şirk olduqca böyük bir zülmdür."

Bu ayədən açıq-aydın şəkildə görürük ki, dünyada ən böyük zülm insanın Allaha şərik qoşmasıdır. Yəni insan Allaha şərik qoşmaqla ən azından özünə böyük zülm etmiş olur. Şirkdən böyük günah yoxdur və hətta bu elə böyük günahdır ki, Quran ayələrinə və hədislərə əsasən bağışlanılmayan bir günah sayılır.

“Nisa” surəsinin 116-cı ayəsində oxuyuruq:

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Şübhəsiz, Allah Ona şərik qoşulmasını bağışlamaz və ondan başqasını (ondan başqa və ya aşağı günahları) istədiyi şəxs üçün bağışlayar. Allaha şərik qoşan kəs həqiqətən uzun-uzadı bir azğınlığa düçar olmuşdur.

Bu ayədə şirkin bağışlanılmayan bir günah olduğunu bəyan etdikdən sonra bildirilir ki, hər kəs Allaha şərik qərar versə, uzun-uzadı bir azğınlığa mübtəla olmuşdur. Bəzən insan yoldan çıxdıqda harayına kimsə çata bilir və yaxud yolu tapmaq üçün bir vasitə yaranır. Amma bəzən insan yolu elə azır ki, nə kimsənin səsi ona yetişir, nə də onun səsi kiminsə qulağına çatır.

## Şirkin mənası

Şirkin mənasına gəldikdə isə bunu qısaca olaraq aşağıdakı kimi açıqlaya bilərik:

1. Allahdan başqa hər bir şeyə arxalanmaq şirkdir. Yəni əgər insan Allahdan başqasına söykənib ona arxalansa, bu şirkdir;

2. Allahın yaratdığı məxluqata Allahlıq məqamı vermək şirkdir. Yəni hər kim Allahdan başqasına Allahlıq məqamı versə, deməli Allaha şərik qoşmuşdur;

3. Hər hansı bir güc-qüdrəti Allahın qüdrətindən üstün saymaq Allaha şərik qoşmaqdır;

4. Qeyd-şərtsiz Allahdan başqasına itaət etmək şirkdir. Yəni bunun şərti odur ki, hər kəs kimin sözünə qulaq asırsa, həqiqətdə ona bəndəlik etmişdir;

قَالَ البَاقِرُ(ع): مَن اَصْغَى اِلَى نَاطِقٍ فَقَد عَبَدَهُ فَإِن كَانَ النَّاطِقُ يُؤَدِّى عَنِ اللهِ عَزَّوَجَلّ فَقَد عَبَدَ اللهَ وَاِنْ كَانَ النَّاطِق يُؤَدِّى عَنِ الشَّيْطَان فَقَد عَبَدَ الشَّيْطَان

-İmam Baqir(ə) buyurur: "Kim bir söz danışana qulaq asarsa, ona bəndəlik etmişdir. Əgər danışan Allah kəlamını söyləyərsə, eşidən şəxs həqiqətən də Allaha ibadət etmişdir. Əgər danışan şeytan tərəfindən danışarsa, eşidən şəxs həqiqətdə şeytana ibadət etmişdir."[1]

5. Allahın qüdrəti qarşısında hər hansı bir qüdrətə bağlanıb nicat yolunu onda bilmək Allaha şərik qoşmaqdır. Yəni insan Allahın qüdrətindən savayı hər hansı başqa bir qüdrətə bağlansa, deməli Allaha şərik qoşmuşdur.

Burada şirk barəsində Quran ayəsinə əsasən incə bir məsələyə diqqət yetirək. Həzrət Nuh Peyğəmbər(ə) öz qövmünü Allaha itaət və ibadət etməyə çağırırdı. Lakin qövmü onun sözlərinə məhəl qoymadı. Axırda Nuh(ə) Allahın əmri ilə gəmi düzəltməyə başladı. Peyğəmbərin(ə) yanından ötən müşriklər onu ələ salmağa başladılar və müxtəlif ibarələrlə Həzrətə(ə) söz atırdılar. Nuh(ə) onlara dedi: "Bir gün gələr ki, biz sizi ələ salarıq." Beləliklə gəmi hazır olduqdan sonra quyular qaynayıb daşmağa və göydən yağış yağmağa başladı. Gəmi yavaş-yavaş hərəkətə gəldi. Nuhun(ə) oğlanlarından biri müşriklərə qoşulmuş və atasının dəvətini qəbul etməmişdi. Gəmi yerdən qalxmazdan öncə Nuh(ə) oğluna dedi: "İman gətirməyənlərin hamısı boğulub məhv olacaq. Nə qədər ki,

---

[1] Mizan, 7-ci cild, səh. 3420.

gec deyil iman gətir və gəmiyə min. Sonra sənin üçün gec olacaq.”

قَالَ سَآوِي إِلَى جَبَلٍ يَعْصِمُنِي مِنَ الْمَاء قَالَ لاَ عَاصِمَ الْيَوْمَ مِنْ أَمْرِ اللّهِ إِلاَّ مَن رَّحِمَ وَحَالَ بَيْنَهُمَا الْمَوْجُ فَكَانَ مِنَ الْمُغْرَقِينَ

-(Oğlu) dedi: “Tezliklə məni sudan qoruyacaq bir dağa sığınacağam. Nuh dedi: Bu gün Allahın rəhm etdiyi kəsdən başqa Onun əmrindən bir qoruyan yoxdur. (Bu zaman) bir dalğa o ikisinin arasını kəsdi və (Nuhun oğlu) suda boğulanlardan oldu.”[1]

Nuhun(ə) oğlu burada Allahın nazil etdiyi bəladan dağa sığınacağını deyir. Onun bu sözləri şirk sözlərdir. Yəni insan Allahın qüdrət və əzəməti qarşısında özünə bir arxa və söykənəcək axtarırsa, bu şirkdir.

قَالَ الصَادِقُ(ع): فِي قَولِ الله تَعَالى عَزَّ وَجَلّ "وَمَا يُؤمِن أَكثرهم بِالله اِلّا وَهُم مُشرِكُون"

قَالَ: هُوَ الرَّجُلُ يَقُولُ: لَولا فِلانٌ لَهَلَكتُ وَلَولا فِلانٌ لَأَصَبتُ كَذَا وَكَذَا وَلَولا فِلانٌ لَضَاعَ عِيَالِي أَلا تَرى اَنَّهُ قَد جَعَلَ الله شَرِيكاً فِي مُلْكِهِ يَرْزُقُهُ وَ يَدْفَعُ عَنْهُ. فَقِيلَ لَهُ لَوْ قَالَ: لَوْ لا أَنْ مَنَّ اللَّهُ عَلَيَّ بِفُلانٍ لَهَلَكْتُ. قَالَ: لا بَأْسَ بِهَذَا.

-İmam Sadiq(ə) “Və onların  çoxu Allaha ancaq şərik qoşaraq iman gətirərlər.”[2] ayəsinin şərhində belə buyurur:

---

[1] Hud surəsi, ayə 43.
[2] Yusuf surəsi, ayə 106.

-İnsan belə “əgər filankəs olmasaydı, mən məhv olardım, filankəs olmasaydı, mən belə-belə olardım, filankəs olmasaydı, ailəm məhv olardı” - deyəndə görmürsənmi ki, bu sözlərlə Allahın hakimiyyətində, ona ruzi verən, onu müdafiə edən, çətinlikləri ondan uzaqlaşdıran Allaha şərik qoşur?” Rəvayətçi deyir ki, ərz etdim: “Bəs əgər Allah filankəsin vasitəsilə mənə kömək etməsəydi, məhv olardım,” - desə necə?” Buyurdu: “Bəli, belə desə, eybi yoxdur.”[1]

Hər şeyi yaradan Allahdır. Bütün hakimiyyət Allahındır. Nicat verən, ruzi verən, öldürən və dirildən də Odur. İnsanın alıb-verdiyi hər bir nəfəs Onun izni ilədir. Hər kim də əgər birinə şəfa verirsə, o da Allahın izni və icazəsi ilədir. Əgər Peyğəmbər(s) insanlara şəfaət edirsə, Allahın izni ilə bu işi görür. Əgər İmam Hüseyn(ə) və digər məsumlar şəfaət edirsə, onlar da Allahın izni ilə bunu edirlər. Əgər Həzrət İsa(ə) anadangəlmə koru sağaldırsa, ölüləri dirildirsə, bütün bunların hamısı Allahın icazəsi ilədir.

## Dində pərakəndəlik və ayrı-seçkilik salmaq

Şirkin mənasında olan mətləblərdən biri İslam Peyğəmbərinin(s) gətirdiyi dində təfriqə və ayrı-seçkilik salmaqdır. Yəni Peyğəmbərin(s) gətirdiyi din və göstərdiyi yol birdir. Bütün iman gətirənlər bu dinə bağlı olmalı və bundan başqa heç bir yolu tutmamalıdırlar. Hər bir kəs dində ayrı-seçkilik salıb özünə başqa yol seçsə və ya təfriqə salsa, deməli Allaha şərik qoşmuşdur. Allah birdir və Onun dini də birdir. Heç bir kəsin ixtiyarı yoxdur

---

[1] Mizanül-hikmə,6-cı cild, səh.2722.

ki, bu dində pərakəndəlik salıb dini firqələrə ayırsın. Hər kəs bu işi görmüş olsa, bidət etmiş və Allaha şərik qoşmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): فِي قَولِ الله تَعَالى عَزَّ وَجَلّ "إِنَّ الَّذِينَ فَرَّقُواْ دِينَهُمْ وَكَانُواْ شِيَعًا" هُم أَصْحَاب الْبِدَع وَأَصْحَاب الْأَهْوَاء لَيْسَ لَهُمْ تَوْبَة وَأَنَا بَرِيءٌ مِنْهُمْ وَهُمْ مِنَّا بُرَآء

-Həzrət Peyğəmbər(s) "Şübhəsiz, dinlərini parçalayan və dəstə-dəstə olan kəslər[1]..." ayəsinin şərhində belə buyurdu: "Onlar bidət əhli və öz nəfsani hisslərinin ardıcıllarıdır. Onlar üçün heç bir tövbə yoxdur. (Tövbələri qəbul deyil). Mən onlardan uzağam, onlar da məndən uzaqdırlar."

Həzrət Peyğəmbər(s) Allahın dinini insanlara çatdırmış və bu dinin salamat qalması və davam etdirilməsi üçün Allah tərəfindən Əli ibn Əbu Talibi özünə vəsi təyin etmişdir. Bundan başqa hər kəs dində özünə bir yol seçib firqə və məzhəblər yaratsa, çox böyük günaha düşmüşdür. Onların tövbələri də qəbul deyil. Çünki onlar tutduqları səhv yol vasitəsilə milyonlarla insanı həqiqi yoldan çıxarmış və bədbəxtliyə sürükləmişlər. Bidət əhlinin yoldan çıxardıqları insanlar dünyadan getmiş olsalar, onları necə geri qaytarmaq olar. Məsələn, bir nəfər digərini yoldan azdırdıqda böyük bir günaha düçar olur. Bu günahın tövbəsi odur ki, azdırdığı həmin insanı düz yola qaytarsın. Əgər həmin şəxs dünyasını dəyişmiş olsa, onu necə dirildib düz yola qaytara bilər. Buna görə də

[1] Ənam surəsi, ayə 159.

dində təfriqə yaradan, bidət qoyan insanın tövbəsi qəbul deyil.

## Müşriklərin bütlərini söymək olmaz

Təəccüblü də olsa şirkin mənalarından biri bütpərəstlərin pərəstiş etdiyi bütləri söyməkdir. Şirk o qədər incə bir məsələdir ki, insan çox vaxt ona tərəf getdiyindən xəbərsiz olur. Bəzən də insan şirkin içində olduğu halda bundan xəbərsiz olur. Yəni bu proses o qədər gizli şəkildə baş verir ki, insan birdən ayıldıqda işin-işdən keçdiyini görür. Müşriklərin ibadət etdiyi bütləri ona görə söymək olmaz ki, onlar da dönüb sənin ibadət etdiyin Allahı söyərlər.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الشِّرْكَ أَخفَى مِن دَبِيبِ النَّمل عَلَى صَفاةٍ سَوداءَ فِي لَيلةٍ ظَلماءَ. كَانَ الْمُؤمِنُونَ يَسُبُّونَ مَا يَعبُدُ الْمُشرِكُونَ مِن دُونِ اللهِ فَكَانَ الْمُشرِكُونَ يَسُبُّونَ مَا يَعبُدُ الْمُؤمِنُون فَنَهَى اللهُ الْمُؤمِنينَ عَن سَبِّ آلِهَتِهِم لِكَيلا يَسُبَّ الْكُفَّار إِلهَ الْمُؤمنين فَيَكُونَ الْمُؤمِنُون قَد أَشرَكُوا بِاللهِ مِن حِيثُ لا يَعلَمون

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, şirk qarışqanın gecə vaxtı hamar qara daş üzərində gəzməsindən də gözəgörünməzdir. Möminlər müşriklərin Allahdan başqa ibadət etdikləri bütləri söydükdə onlar da möminlərin ibadət etdiyi məbudu (Allahı) söydülər. Buna görə Allah-təala kafirlərin bütlərini söyməyi möminlərə qadağan etdi ki, onlar da möminlərin məbudunu söyməsinlər. Beləliklə, möminlər xəbərləri olmadan beləcə şirkə mürtəkib oldular."

Sonra Peyğəmbər(s) bu ayəni ("Ənam" surəsi, ayə108) oxudu: "Kafirlərin Allahın əvəzinə çağırdıqlarını

(bütləri və cinləri) söyməyin ki, onlar da ədavət və nadanlıq üzündən Allahı söyərlər."[1]

Odur ki, Allah-təala möminlərə hətta kafir və müşrik insanların ibadət etdiyi bütləri belə söyməyə icazə vermir. Allah-təala insana ağıl, məntiq və elm vermişdir. Müsəlmanlar Allahın dinini qəbul etmişlər və gözəl, ağıllı məntiqə malikdirlər. Ən gözəl məntiq İslam dininə əsaslanılan məntiqdir. Odur ki, hər bir kəslə əyləşib elmi dialoqa girməyin yolları vardır. Əgər kafir və müşrik insanlar məntiqli və ağıllı sözləri qəbul edib Allahın dininə gələrlərsə, bu, onların özləri üçün faydalıdır. Əgər dini qəbul etməzlərsə, yenə də özləri bilərlər. Peyğəmbərin(s) də vəzifəsi insanları başa salmaq, həqiqət yolunu göstərmək və bu yolda çalışmaqdır. Allah-təala Peyğəmbəri(s) insanların başını kəsməyə, asmağa və ya öldürməyə göndərməyib. Allah Öz dinini peyğəmbərin vasitəsilə camaata çatdırır. Bu dini qəbul edib- etməmək məsələsində isə hər bir kəs ixtiyar sahibidir. Dini qəbul edib-etməmək məsələsində kimisə məcbur etməyə heç kimin ixtiyarı yoxdur. Həmçinin müsəlmanlara İslamı qəbul etməyənləri və bütpərəstlərin bütlərini söyməyə icazə verilmir. Əgər hansısa bir müsəlman bütpərəstlərin pərəstiş etdiyi bütləri söysə və onlar da qayıdıb müsəlmanların ibadət etdiyi Allahı söysə, o zaman həmin müsəlman şəxs özü də bilmədən müşrik olmuşdur. Çünki bir müşrikin cəsarətlənib Allah-təalanı söyməsinə səbəb olmuşdur.

---

[1] Mizanül-hikmə,6-cı cild, səh. 2722.

## Bidət

Şirkin mənalarından biri bidətdir. Demək olar ki, bütün alimlər bidəti belə mənalandırmışlar: “Dində olmayan bir şeyi dinə daxil etməyə bidət deyilir.” Yəni hər kəs dində olmayan bir məsələni dinin adından danışsa, bu bidətdir.

قَالَ الصَّادِقُ(ع): مَن ابتَدَعَ رَأياً فَأَحَبَّ عَلَيهِ اَو أَبغضَ عَلَيهِ

-İmam Sadiq(ə) buyurur: “Bidət odur ki, insan öz fikrini (dinin adından) deyir və onun fikri ilə razılaşanı sevir, razılaşmayanla isə düşmənçilik edir.”[1]

Yəni bidətin mənalarından biri budur ki, insan öz şəxsi fikrini dinin adından söyləyib onu meyar kimi qəbul etmiş olsun. Hər kəs onun irəli sürdüyü fikirlə razılaşsa, həmin şəxsdən xoşu gələr və hər kəs onunla razılaşmasa, düşmənçilik edər. Bu işin özü də şirkdir. Heç bir kəsin ixtiyarı yoxdur ki, kiminsə düşüncələrini öz şəxsi fikri ilə qatıb-qarışdırsın. Hər bir kəs kiminsə şəxsi fikrini qəbul edib-etməmək məsələsində ixtiyar sahibidir. Yəni kimsə öz şəxsi fikrini zorla kiməsə qəbul etdirə bilməz. Həmçinin heç bir kəsə öz şəxsi fikrini dinin adından danışmağa da ixtiyar verilməyib. Hər kəs öz şəxsi fikrini dinin adından söyləsə, deməli, bidət etmişdir və dində təfriqə yaratmışdır. Allah-təala “Ənam” surəsinin 159-cu ayəsində belə insanlar haqda buyurur:

إِنَّ الَّذِينَ فَرَّقُواْ دِينَهُمْ وَكَانُواْ شِيَعًا لَّسْتَ مِنْهُمْ فِي شَيْءٍ إِنَّمَا أَمْرُهُمْ إِلَى اللّهِ ثُمَّ يُنَبِّئُهُم بِمَا كَانُواْ يَفْعَلُونَ

[1] Mizanül-hikmə,6-cı cild, səh.2718.

-Şübhəsiz, dinlərini parçalayan (onun əsas və qollarının bəzilərini qəbul, bəzilərini isə rədd edən, yaxud dinlərində müxtəlif məzhəblər yaradan) və dəstə-dəstə olan kəslərlə sənin heç bir əlaqən (onların əməllərinə görə heç bir məsuliyyətin və onların cəzasında heç bir iştirakın) yoxdur. Onların işi yalnız Allaha qalmışdır. O, sonra (axirət günü) onları gördükləri işdən xəbərdar edəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ اللَّهُ لَا يَقْبَلُ لِصَاحِبِ بِدْعَةٍ صَوْمًا وَلَا صَلَاةً وَلَا صَدَقَةً وَلَا حَجًّا وَلَا عُمْرَةً وَلَا جِهَادًا وَلَا صَرْفًا وَلَا عَدْلًا

-İslam Peyğəmbəri(s) buyurur: "Allah-təala bidət qoyan insanın orucunu, namazını, sədəqəsini, həccini, ümrəsini, cihadını, sərfini (malından camaata xərclədiyini) və ədalətini qəbul etməz."[1]

Qeyd olunan ayə və hədisdən də açıq-aydın məlum olur ki, dində bidət etmək olmaz və hər kəs bu işi görmüş olsa, o, şirkə düçar olmuşdur. Bəli, hər kəs öz fikrini söyləyə bilər, amma dinin adından yox. Məsələn, bir insan deyə bilər ki, mən vəfat etmişləri ziyarət etmirəm. Çünki bu işdən xoşum gəlmir. Amma ixtiyarı yoxdur desin ki, dində vəfat etmiş şəxsləri ziyarət etmək buyurulmayıb. Əgər bu iş dində haram və qadağan olsaydı, o zaman Peyğəmbər(s) vəfat etmişləri ziyarət etməzdi. Heç bir kəs deyə bilməz ki, İslamda kiminsə ölüsünə ağlaması haramdır. Odur ki, heç bir kəsə icazə verilmir ki, dinin

---

[1] Mizanül-hikmə,1-ci cild, hədis 1649.

adından öz fikrini söyləsin. Çünki dinin öz kitabı və qayda-qanunları vardır. Hər kəs bu qanunlara riayət edir etsin, etmirsə də etməsin. Amma qeyd etdiyimiz kimi, heç bir kəsin bu qanunlara müdaxilə edib dinin adından öz şəxsi fikrini yürütməyə ixtiyarı yoxdur.

Odur ki, dində olmayan bir fikri dinin adından danışmaq bidətdir. Hər kəs öz şəxsi fikrini söyləyə bilər, amma dinin adından yox. Kiminsə dinin halalını haram, haramını da halal etməyə qətiyyən ixtiyarı çatmır. Hər kəs Qurani-Kərim və Həzrət Peyğəmbərin(s) adından söz söyləmək istəyirsə, o zaman Quran ayələrindən və Peyğəmbərin(s) ehkamlarından danışmalıdır. Başqa heç bir fikir və sözü dinin adından söyləyə bilməz. İmam Hüseynin(ə) Yezidlə apardığı mübarizəsinə diqqət yetirdikdə görürük ki, Həzrət(ə) elə bu dediyimiz məsələnin üstündə mübarizə aparırdı. Yezid Allahın halalını haram, haramını da halal etmişdi. Yezid Həzrət Peyğəmbərin(s) yerində əyləşib Həzrətin(s) adından danışmaq istəyirdi. İmam Hüseyn(ə) buyurdu: “Yezidin bu hərəkətlərinə qarşı məndən daha layiqli şəkildə etiraz edən kimdir? Çünki özüm Peyğəmbərdən(s) belə eşitmişəm: Əgər bir zülmkar Allahın halalını haram, haramını da halal etsə və bu zaman hər kəs onun hərəkətlərinə qarşı öz etirazını bildirməsə, həmin zülmkarla birlikdə (cəhənnəmə) gedəcəkdir.”

## Allahın və Peyğəmbərin(s) işlərinə qarşı etiraz etmək

Şirkin mənalarından biri də hər hansı bir şəxsin hətta ürəyində olmuş olsa da belə Allahın və Peyğəmbərin(s) işlərinə, onların ehkam və qanunlarına qarşı etiraz etməsidir.

قَالَ الصَّادِقُ(ع): لَوْ أَنَّ قَوْماً عَبَدُوا اللَهَ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَقَامُوا الصَّلاَةَ وَآتَوُا الزَّكَاةَ وَحَجُّوا البَيْتَ الحَرَامَ وَصَامُوا شَهْرَ رَمَضَانَ، ثُمَّ قَالُوا لِشَيْءٍ صَنَعَهُ اللَهُ أَوْ صَنَعَهُ رَسُولُ اللَهِ صَلَّي اللَهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ: أَلاَ صَنَعَ بِخِلاَفِ الَّذِي صَنَعَ؟ أَوْ وَجَدُوا ذَلِكَ فِي قُلُوبِهِمْ، لَكَانُوا بِذَلِكَ مُشْرِكِينَ... إلى أن قال:فَعَلَيْكُمْ بِالتَّسْلِيمِ

-İmam Sadiq(ə) buyurur: “Bir qövmün heç bir şəriki olmayan Allaha ibadət etmələrinə, namaz qılmalarına, zəkat verməlerinə, həccə getmələrinə, ramazan ayının orucunu tutmalarına baxmayaraq, əgər “Allah və ya Peyğəmbər(s) filan işi nə üçün belə görür və başqa cür etmir? Yaxud başqa cür etsəydilər yaxşı olardı” - desələr, həmçinin dildə də olmasa ürəklərində etiraz etsələr, buna görə də müşrik olarlar.”

Sonra İmam(ə) “Nisa” surəsinin 65-ci ayəsini oxudu: “Amma belə deyildir (onların imanları yoxdur). Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər.”

Sonra Həzrət(ə) buyurdu: “Sizə də (səmimi qəlbdən) Allaha və Peyğəmbərə(s) təslim olmağı tapşırıram.”[1]

Allah-təala “Məaric” surəsinin 1-2-ci ayələrində buyurur:

سَأَلَ سَائِلٌ بِعَذَابٍ وَاقِعٍ لِّلْكَافِرينَ لَيْسَ لَهُ دَافِعٌ

-İstəyən şəxs elə bir əzab istədi ki, (mütləq) baş verəcək. Kafirlər üçün və onun qarşısını alan olmaz.

## Noman ibn Haris, yaxud Nəzr ibn Harisin Inadkarlığı

Təfsir alimləri bu ayə ilə bağlı olaraq belə yazırlar: “Həzrət Peyğəmbər(s) sonuncu həcc ziyarətindən qayıdarkən Qədr-Xumda özündən sonra Həzrət Əlini(ə) ümmətə imam təyin etdiyini dedi. Noman ibn Haris bunu eşidən kimi Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah(s), bizə Allahın təkliyini buyurdun, biz də qəbul etdik. Bizə namaz qılmağı tapşırdın, namaz qıldıq. Zəkat verməyi, oruc tutmağı və s. əməlləri göstəriş verdin, biz də yerinə yetirdik. Bütün bunlarla kifayətlənməyib indi də öz əmin oğlu Əlini bizə hakim təyin etmək istəyirsən? Bu, sənin öz işindir, yoxsa Allahın əmridir?”

Peyğəmbər(s) buyurdu: “And olsun Allaha ki, mən bu işi özbaşıma etməmişəm. Bu məsələni Allahın əmri olaraq sizə çatdırdım.”

Noman Peyğəmbərin(s) bu sözləri ilə heç cür razılaşmayıb əllərini yuxarı qaldıraraq “Ənfal” surəsinin 32-ci ayəsini oxudu.

---

[1] Üsuli-Kafi,2-ci cild, hədis-2. Mizanül-hikmə,6-cı cild, hədis-9296.

اللَّهُمَّ إِن كَانَ هَذَا هُوَ الْحَقَّ مِنْ عِندِكَ فَأَمْطِرْ عَلَيْنَا حِجَارَةً مِّنَ السَّمَاءِ أَوِ ائْتِنَا بِعَذَابٍ أَلِيمٍ

-Ey Allah! Əgər (Peyğəmbərin bu sözü) haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli əzab göndər!

Bu ayə müşriklərin barəsində nazil olmuşdur. Müşriklər də İslamın haqq olmasına şəkk edib belə demişlər. Noman bu duanı edən kimi Allah-təala bir quş vasitəsilə onun başına xırda bir daş saldı. Daş onun başından girib dəvəsinin qarnının altından çıxdı və dəvəsi də özü də öldü.

Təfsir alimlərinin tədqiqatlarına əsasən Noman əzaba düçar olandan sonra Allah-təala "Məaric" surəsinin ilk ayələrini nazil etdi: "Bir nəfər vaqe olacaq əzab istədi."

Mərhum Əllamə Əmini "Əl-Ğədir" kitabında bu rəvayəti qeyd etdikdən sonra bunu təsdiq edən 30 nəfər əhli-sünnə aliminin adını çəkmişdir.

Əlbəttə, Peyğəmbərin(s) sözlərinə qarşı etiraz edən təkcə Noman ibn Haris olmayıb. Tarix boyu onun kimi xəbis insanlara rast gəlmək mümkündür. Noman Peyğəmbərin(s) sözlərini qəbul etmədiyi üçün öz-özünə qarğış etdi və bəlaya düçar oldu. Başqa insanlar da var ki, Peyğəmbərin(s) işlərinə etiraz etmişlər, amma özlərinə qarğış etməmişlər. Əgər Allah-təala bir nəfərə möcüzə şəklində bəla göndərirsə, bu o demək deyil ki, Allahın işlərinə etiraz edən hər bir kəsə bu dünyada cəza verir. Allah- təala cəza və mükafatlarının çoxunu qiyamət gününə saxlayıb.

## Müaviyənin inadkarlığı və xəbisliyi

Qədr-Xum günündə Peyğəmbər(s) Həzrət Əlini(ə) imam təyin edərkən Müaviyə də camaatın içərisində idi. Peyğəmbər(s) söhbətini qurtardıqdan sonra Müaviyə iki nəfərlə (Abdullah ibn Qeys və Müğeyrə ilə) birgə ayağa qalxıb üz-gözünü turşudaraq çıxıb getdilər. Həmin hadisədən sonra cənab Cəbrayıl(ə) nazil olub bu ayələri Peyğəmbərə(s) gətirdi:

فَلَا صَدَّقَ وَلَا صَلَّى. وَلَكِن كَذَّبَ وَتَوَلَّى. ثُمَّ ذَهَبَ إِلَى أَهْلِهِ يَتَمَطَّى. أَوْلَى لَكَ فَأَوْلَى

-O, nə (Allahın dəvətini və Peyğəmbərin(s) sözlərini) təsdiq etdi və nə də itaət edərək namaz qıldı. Lakin təkzib etdi və üz döndərdi. Sonra da təkəbbürlə yeriyərək öz adamlarına tərəf getdi. Vay sənin halına, cəhənnəm sənə daha çox layiqdir.

Peyğəmbər(s) bu ayələri eşitdikdə Müaviyənin hərəkətinə görə qəzəbləndi və onu çağırıb cəzalandırmaq istədi. Cəbrayıl(ə) ərz etdi: "Ya Rəsulallah, o, səndən sonra sənin böyük düşmənlərindən biridir. Amma Allah-təala indi onu cəzalandırmağını məsləhət bilmir."

## Üsamə ibn Zeydin qoşun başçısı təyin olunması və bəzi ağsaqqalların etirazı

Qədr-Xum hadisəsindən sonra hicrətin 10-cu ilində rumluların müsəlmanlara hücum etmək ehtimalı artdı. Onlar müsəlmanlarla müharibə etmək istəyirdilər. Peyğəmbər(s) müsəlmanlara qoşunun hazır vəziyyətə gətirilməsi barədə göstəriş verdi. Qoşun hazır olduqdan sonra Peyğəmbər(s) Üsamə ibn Zeydi həmin qoşuna başçı

təyin edib bayrağı da ona verdi. Üsamə o zaman gənc bir oğlan idi. Onun ancaq 20 yaşı olardı. Həmin ərəfələrdə Peyğəmbər(s) bərk xəstələnmiş və qızdırma içində yorğan-döşəyə düşmüşdü. Tarixi mənbələrdən də məlum olur ki, həmin günlər Həzrət Peyğəmbərin(s) ömrünün son günləri idi. Üsamənin qoşun başçısı təyin olunması da bəzi ağsaqqallara ağır gəlirdi. Odur ki, onlar bir-biri ilə pıçıldaşmağa başlamışdılar. Etiraz əlaməti olaraq deyirdilər ki, bizim kimi ağsaqqallar olduğu halda nə üçün Peyğəmbər(s) Üsaməni qoşun başçısı təyin etdi? Onlar bu kimi sözlər deyərək öz aralarında pıçıldaşır və etirazlarını bildirirdilər. Həzrət Peyğəmbər(s) onların bu kimi etirazlarından xəbər tutduqdan sonra xəstə və narahat halda evdən çıxıb məscidə gəldi. Camaatı toplayıb minbərə çıxdı və buyurdu: “Eşitdim ki, Üsaməni qoşun başçısı təyin etməyim bəzilərinə ağır gəlir. And olsun Allaha ki, yaşının az olmasına baxmayaraq, Üsamə belə bir iş üçün daha layiqli və məsləhətlidir. Mən Üsaməni çox istəyirəm. Onun barəsində yaxşılıq edin və başqalarına da tapşırın ki, ona kömək etsinlər. Çünki o və atası çox yaxşı insandırlar.”[1]

Beləliklə, hər hansı bir adamın Allah və Peyğəmbərin(s) gördükləri hər bir işə hətta ürəyində belə etiraz etməsi şirkdir. Ola bilsin ki, bir çox məsələlər kiminsə ağlına batmasın və ya onu həzm edə bilməsin. Amma bu o demək deyildir ki, Allaha qarşı öz etirazını bildirməlidir. Hər bir halda Allaha və Peyğəmbərinə(s) qarşı etiraz etmək şirkdir. Buna görə də insan tövhidi başa düşmək üçün ilk növbədə şirkdən uzaqlaşmalıdır.

---

[1] Cavanların güzgüsü, səh.10.Təbəqati ibn Səd,2-ci cild, səh.190.

## Şirkin əlamətləri

Yuxarıda şirkin mənaları haqda müəyyən qədər bəhs etdik. Bu bəhsimizdə isə istərdim ki, Quran ayələrinə istinad edərək şirkin bir neçə əlaməti haqda söhbət edək. Çünki şirkin özünün də əlamət və nişanələri vardır. Odur ki, hər kəs öz düşündüyü və özünə sərf etdiyi kimi şirkin müxtəlif əlamətlərini irəli sürüb camaatı buna təhrik etməməlidir. Əgər Allah din və kitab göndəribsə, deməli hər bir şeyin əlamətini bəyan etdiyi kimi şirkin də əlamətlərini bəyan etmişdir. Həmin əlamətlərdən bir neçəsinə diqqət yetirək.

### 1.Allahın və Peyğəmbərin(s) qanunlarına qarşı etiraz etmək

Şirkin əlamətlərindən birincisi Allah və Peyğəmbərin(s) qanunlarına qarşı etiraz etməkdir. Əgər bir insan Allahı qəbul edibsə, Peyğəmbəri(s) və ilahi qanunları qəbul edibsə, Allah və Peyğəmbərin(s) hər hansı bir qanununa hətta ürəkdə də olsa belə etiraz etməyə haqqı yoxdur. Əgər bir kəs Allahı və onun qanunlarını qəbul etmirsə, bu başqa məsələdir və onunla Allahın söhbəti qiyamət gününə qalacaq, cəzasını da çəkəcəkdir. Amma hər kəs Allahı, Peyğəmbəri(s) və Quranı qəbul edibsə, heç bir vəchlə onun qanunlarına etiraz edə bilməz. Belə ola bilməz ki, bir insan dildə müsəlman olduğunu iddia etsin, amma əməldə kafir olmuş olsun. Ola bilsin ki, ilahi qanunların bəzisi həmin insanın istəkləri ilə düz gəlməsin. Amma bu o demək deyildir ki, insan həmin qanunlara qarşı etiraz etməlidir. Allahın hər bir qanunu istər insanın nəfsi ilə uyğun gəlsin, istərsə də uyğun gəlməsin insanın

səadət və xoşbəxtliyi üçündür. Hər bir müsəlman Allahın asan və çətin qanunları qarşısında tam təslim olmalı və etiraz etməməlidir. Allah-təala “Bəqərə” surəsinin 87-ci ayəsində belə buyurur:

أَفَكُلَّمَا جَاءكُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى أَنفُسُكُمُ اسْتَكْبَرْتُمْ فَفَرِيقاً كَذَّبْتُمْ وَفَرِيقاً تَقْتُلُونَ

-Bəs nə üçün hansısa bir peyğəmbər sizə ürəyinizə yatmayan bir şey gətirəndə təkəbbür göstərdiniz, bir dəstəni (peyğəmbərləri) təkzib edir, bir dəstəni isə öldürürdünüz?!

İbn Abbas deyir: “İslamın ilk çağlarında bəzi müsəlmanlar Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: Ya Rəsulallah, biz sənə iman gətirməmişdən öncə öz qohum-əqrəbamızın içərisində əziz və hörmətli insanlar idik. Onlar bizim sözümüzə baxar, hörmətimizi saxlayardılar. Amma sənə iman gətirəndən, müşriklərdən ayrıldıqdan, namaz qılıb oruc tutandan sonra onlar bizi saymır və bizə qarşı hörmətsizlik edirlər. Ya Rəsulallah, icazə ver, biz gedib onlara qarşı cihad edək. Beləliklə, əvvəlki izzət və hörmətimizi geri qaytaraq. Həzrət Peyğəmbər(s) onlara buyurdu: Mənə bu gün onlarla cihad etmək əmr olunmayıb. Mənə əmr olunub ki, bu gün camaatı Allahın vəhdaniyyətinə çağırım, onlara öyüd-nəsihət verim və haqq yolu onlara göstərim. Kim qəbul edir etsin, etmirsə də etməsin.”

Bu hadisənin üstündən bir müddət keçdikdən sonra müsəlmanlar Mədinəyə hicrət etdilər. Müsəlmanların vəziyyəti artıq yaxşılaşmışdı. Bir zaman gəldi ki, Allah-təala cihad hökmünü nazil etdi. Peyğəmbər(s) müsəlmanlara cihad hökmünü əmr etdikdə İslamın

əvvəllərində Məkkədə müşriklərlə cihad etməyə can atan həmin müsəlmanlar süstlük göstərdilər. Bir zaman cihada can atan və müşriklərlə savaşmaq istəyən bəzi müsəlmanlar illər ötdükdən sonra cihad hökmü gəldikdə döyüşə getmək istəmədilər. Belə olduqda Allah-təala "Nisa" surəsinin 77-ci ayəsini nazil etdi:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ قِيلَ لَهُمْ كُفُّواْ أَيْدِيَكُمْ وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ إِذَا فَرِيقٌ مِّنْهُمْ يَخْشَوْنَ النَّاسَ كَخَشْيَةِ اللّهِ أَوْ أَشَدَّ خَشْيَةً وَقَالُواْ رَبَّنَا لِمَ كَتَبْتَ عَلَيْنَا الْقِتَالَ لَوْلا أَخَّرْتَنَا إِلَى أَجَلٍ قَرِيبٍ قُلْ مَتَاعُ الدَّنْيَا قَلِيلٌ وَالآخِرَةُ خَيْرٌ لِّمَنِ اتَّقَى وَلاَ تُظْلَمُونَ فَتِيلاً

-Məgər cihad hökmündən qabaq Məkkədə (müşriklərlə döyüşdən) əl saxlayın, namaz qılın və zəkat verin deyilən (lakin döyüşə tələsən), amma (Mədinədə) döyüş yazılan və qərara alınan zaman bir dəstəsi insanlardan Allah qorxusu qədər və ya ondan da artıq qorxan və "ey Rəbbimiz, nə üçün bizə döyüş qərara aldın (yazdın)? Nə üçün bizə azacıq bir möhlət vermədin?" - deyən kəsləri görmədinmi?! De: "Dünyanın mənfəəti (çox) azdır və təqvalılar üçün axirət daha yaxşıdır. Orada sizə hətta xurma çərdəyinin yarığındakı nazik tel qədər zülm olunmayacaq və sizin haqqınızdan kəsilməyəcəkdir."

Bu ayədən görürük ki, istər çətin olsun, istərsə də asan Allahın qanunu insanlar üçün qanundur. Qanun asan olduqda riayət edib, çətin olduqda isə Allaha qarşı etiraz etmək şirkin əlamətlərindəndir. Təkcə o zamanlar deyil, hazırkı dövrdə də bir çox müsəlmanlara rast gəlmək olur ki, Allahın bir sıra qanunlarını qəbul etmək istəmirlər. Məsələn, elə insanlar vardır ki, zəkat və xüms barədə qanunları qəbul edə bilmirlər. Bəzi müsəlmanlar isə

orucluğa qarşı etiraz edirlər. Bəziləri deyirlər ki, orucluq üç gün olsun, bəziləri isə üç ay olsa daha yaxşı olar deyirlər. Əgər qanun ilahi qanundursa və necə buyurulubsa, eləcə də ona riayət etmək hər bir müsəlman üçün vacibdir.

Bəni-İsrail Fironun cəngindən nicat tapdıqdan sonra Allah-təala onlara əmr verdi ki, Fələstinə köçsünlər. Həzrət Musa(ə) Allahın bu əmrini onlara söylədikdə onlar etiraz edib dedilər: "Fələstində Əmaliqə hökmranlıq edir. Ora getməyimiz bizim üçün çox çətin olacaq. Biz ora getsək onlarla döyüşməli olacağıq. Yaxşısı budur sən özün get, Allah da sənə kömək etsin və oranı Əmaliqə kimi zalımlardan, eləcə də onun tərəfdarlarından təmizlə. Oranı zülmkarların əlindən təmizlədikdən sonra biz də ora gələrik."

Allah-təala Musaya(ə) əmr etdi ki, qoy onlar Sina səhrasında sərgərdan qalsınlar. Onları Fironun əlindən azad edib azadlığa çıxardıq və istədikləri nemətləri də onlara verdik. Onlar isə naşükürlük edib Allahdan boyun qaçırdılar.

Onlar qırx il sina çölündə sərgərdan qaldılar. Allah-təala onlara belə cəza verdi. Qırx il keçdikdən sonra onların bir hissəsi öz əməllərinə görə peşman oldular. Musa Peyğəmbərə(ə) yaxınlaşıb dedilər: "Biz tutduğumuz əmələ görə peşman olmuşuq." Allah-təala onların peşmançılıqlarını qəbul edib bağışladı. "Bəqərə" surəsinin 57-ci ayəsində onlar barədə buyurulur:

وَظَلَّلْنَا عَلَيْكُمُ الْغَمَامَ وَأَنزَلْنَا عَلَيْكُمُ الْمَنَّ وَالسَّلْوَى كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ

-Və (Sina səhrasında sərgərdan qaldığınız zaman) buluddan başınız üzərində kölgəlik düzəltdik və sizə “mənn” (bir növ ağac şirəsindən hazırlanmış yemək) və bildirçin endirdik (və dedik:) “ruziniz etdiyimiz pak təamlardan yeyin.”

Allah-təala onları bağışladıqdan, gözəl və pak ruzilər verdikdən sonra onlar yenə də öz inadkarlıqlarını və naşükürlüklərini davam etdirdilər. Onlar Musaya(ə) dedilər: “Allahın göndərdiyi bu ruzilər bizim üçün azdır. Biz müxtəlif və rəngarəng yeməklər istəyirik.”

“Bəqərə” surəsinin 61-ci ayəsində bu haqda belə oxuyuruq:

وَإِذْ قُلْتُمْ يَا مُوسَى لَن نَّصْبِرَ عَلَىَ طَعَامٍ وَاحِدٍ فَادْعُ لَنَا رَبَّكَ يُخْرِجْ لَنَا مِمَّا تُنبِتُ الأَرْضُ مِن بَقْلِهَا وَقِثَّآئِهَا وَفُومِهَا وَعَدَسِهَا وَبَصَلِهَا قَالَ أَتَسْتَبْدِلُونَ الَّذِي هُوَ أَدْنَى بِالَّذِي هُوَ خَيْرٌ اهْبِطُواْ مِصْراً فَإِنَّ لَكُم مَّا سَأَلْتُمْ وَضُرِبَتْ عَلَيْهِمُ الذِّلَّةُ وَالْمَسْكَنَةُ وَبَآؤُوْاْ بِغَضَبٍ مِّنَ اللَّهِ ذَلِكَ بِأَنَّهُمْ كَانُواْ يَكْفُرُونَ بِآيَاتِ اللَّهِ وَيَقْتُلُونَ النَّبِيِّينَ بِغَيْرِ الْحَقِّ ذَلِكَ بِمَا عَصَواْ وَّكَانُواْ يَعْتَدُونَ

-Və (yadınıza salın) o zaman(ı) ki, dediniz: “Ey Musa, biz bir cür yeməyə heç cür dözməyəcəyik. Buna görə də bizim barəmizdə öz Rəbbini çağır ki, bizim üçün yerin bitirdiyi şeylərdən – göyərti, xiyar, sarımsaq, mərcimək və soğan çıxarsın.” Musa dedi: “Siz daha yaxşının yerinə alçaq şey istəyirsiniz? (İndi ki, belədir) bir şəhərə (şəhərlərdən birinə) gedin ki, istədiyiniz şeylər sizin üçün hazırdır.” Və onlara (alınlarına həqirlik,) xarlıq və möhtaclıq damğası vuruldu və Allahın qəzəbinə layiq

oldular. Bu (xarlıq) ona görə idi ki, onlar həmişə Allahın nişanələrinə kafir olur və Allahın peyğəmbərlərini haqsız yerə öldürürdülər. Bu (küfr və peyğəmbərlərin öldürülməsi isə) ona görə idi ki, onlar itaətsizlik edir və həmişə öz hədlərini aşırdılar.

Beləliklə, görürük ki, Allahın verdiyi nemətlərə, göndərdiyi hökm və əmrlərə qarşı hər hansı bir etiraz şirkin əlamətidir. Allahın və Peyğəmbərin(s) qanunlarına qarşı etiraz edən insan öz iman və qəlbinin işıqlı olmamasından xəbər verir. İman odur ki, insan Allahın qanunları qarşısında baş əyib təslim olsun. Əgər Allah namaz qılmağı əmr edirsə, günahdan çəkinməyi, canından keçməyi əmr edirsə, iman gətirən insan baş üstə deyib əməlində də bunu təsdiq etməlidir. Hər kəs İlahi qanunlara qarşı azacıq da olsa ürəyində etiraz etsə, deməli şirk girdabına düçar olmuşdur.

## 2. Tağuta (büt, azğın və zülmkara) arxalanmaq və itaət etmək

Şirkin ikinci əlamət və nişanəsi budur ki, insan tağuta arxalanıb ona itaət etsin. Bütün peyğəmbərlərin əsas hədəflərindən biri də bu olmuşdur ki, insanları tağutlara pərəstiş etməkdən çəkindirib Allaha ibadət etməyə yönəltsinlər. "Nəhl" surəsinin 36-cı ayəsində belə buyurulur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

-Əlbəttə, Biz hər bir ümmətin içərisindən bir peyğəmbər seçdik ki: "Allaha ibadət edin və tağut(lar)dan uzaq olun."

"Tağut" ərəb dilində "həddi aşmağ"a deyilir. Məsələn, kasanı su ilə doldurduqda həmin su kasadan yerə

tökülərsə həmin suyun daşmasına tağut deyilir. “Tüğyan” kəlməsi isə “daşmaq” mənasını verir. Hər bir insan həddini aşıb tüğyan etsə, ona tağut deyilir. Yəni hər bir insan öz imanından və insaniyyət həddindən çıxsa, ona tağut deyilir. Buna nümunə olaraq Firon, Nəmrud, Müaviyə və Yezid kimi tağutları məsəl çəkmək olur.

İmam Sadiqdən(ə) “tağut”un mənasını soruşduqda Həzrət(ə) belə cavab verdi: “Sözün qısası belədir ki, hər hansı bir hakim biz əhli-beytin sözlərinə uyğun olmayan hökmlər versə tağutdur.”[1]

Həzrət Peyğəmbər(s) özündən sonra iki böyük əmanət qoyub getmişdir. Onlardan biri Allahın kitabı olan Qurani-Kərim, digəri isə Əhli-beytidir. Qanunlar baxımından İslam dininin həddi Quran, həmin qanunların icraçısı isə Peyğəmbər(s) və Əhli-beytidir. Buna görə də Əhli-beyt(ə) Peyğəmbərdən(s) sonra Quranın təfsirçisi və icraçısıdır. Hər kəs İlahi qanunlardan kənara çıxsa, tağutdur. Həmçinin tağuta söykənən və arxalanan hər bir kəsə də müşrik deyilir. “Nisa” surəsinin 60-cı ayəsində belə oxuyuruq:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُواْ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ وَيُرِيدُ الشَّيْطَانُ أَن يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا

-Sənə nazil edilənə (Qurana) və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini güman edən kəsləri görmürsənmi? Onlar (mübahisə zamanı) tağutun hüzurunda mühakimə olunmaq istəyirlər. Halbuki onlara

---

[1] 500 dastan,2-ci cild, səh.375.

(tağutlara) inanmamaları əmr olunmuşdur. Şeytan onları uzun-uzadı bir zəlalətlə azdırmaq istəyir.

Ömər ibn Hənzələ deyir: "Günlərin birində İmam Sadiqə(ə) ərz etdim: Ey Allahın höccəti, bəzən bizim miras kimi bəzi məsələlər üstündə mübahisəmiz düşür. Biz bu məsələni həll etmək üçün tağutun (azğın insanların) yanına, yaxud onların məhkəməsinə gedirik. Tutduğumuz bu iş düzgündürmü?"

İmam(ə) buyurdu: "Onlar ədalətli, yaxud ədalətsiz hökm versələr də belə bu işi görmək olmaz. Çünki öz haqqını tağut qazilərin vasitəsilə almış olsan da belə haramdır."

Sonra Həzrət(ə) bu ayəni oxudu: "Onlar (mübahisə zamanı) tağutun hüzurunda mühakimə olunmaq istəyirlər."[1]

Odur ki, insan müşrikin əlamətlərini bilməlidir. Hər çatana müşrik demək olmaz. Müşrikin əlamətlərini Allah və Peyğəmbər(s) bizim üçün bəyan etmişlər. O əlamətlərdən biri də qeyd olunduğu kimi, tağut və zalımlara itaət etməkdir. Belə insanlar barəsində Allahın əzabı çox acınacaqlı olacaqdır.

Hədislərdə belə nəql olunur ki, günlərin birində Həzrət İsa(ə) öz tərəfdarları ilə səyahətə çıxmışdı. Bir kəndin kənarından keçərkən orada dayandılar. Həmin kəndin əhalisi kütləvi şəkildə qırılmışdı. İsa(ə) kəndə baxıb buyurdu: "Bu kəndin əhalisinin kütləvi şəkildə məhv olması onlara əzab nazil olduğundan xəbər verir. Əks təqdirdə əhalini dəfn etmiş olardılar." Həzrətin(ə) tərəfdarları dedilər: "Ey Allahın peyğəmbəri, səndən xahiş

---

[1] 500 dastan,2-ci cild, səh. 376.

edirik ki, onları dirildib nə üçün məhv olunduqlarını soruşasan.” Həzrət İsa(ə) Allahın izni ilə kiçik bir təpənin üstünə çıxıb ölüləri səslədi. Onlardan biri ayağa qalxıb dedi: “Bəli, ey Allahın peyğəmbəri. Həzrət İsa(ə) buyurdu: Sizin nazil olan bu bəladan kütləvi şəkildə qırılmağınızın səbəbi nə idi? Həmin şəxs dedi: Ey Allahın peyğəmbəri, iki əsas səbəbə görə Allah bizi bu əzaba mübtəla etdi. Birincisi, dünyaya çox bağlandığımıza görə. İkincisi, tağutlara pərəstiş etdiyimiz üçün.

Həzrət İsa(ə) soruşdu: Dünyaya əlaqə və məhəbbətiniz nə qədər idi?

Dedi: Uşağın öz anasına olan məhəbbəti qədər. Dünya bizə yaxınlaşdıqca sevinər, əlimizdən bir şey çıxdıqda isə qəmgin olardıq.

Həzrət İsa(ə) soruşdu: Tağuta necə pərəstiş edirdiniz?

Dedi: Onların dedikləri ilə oturub-durar və onlara itaət edərdik.

Həzrət İsa(ə) soruşdu: Mən ölülərin hamısını çağırdım. Amma mənim səsimə təkcə sən cavab verdin. Bunun səbəbi nədir?

Dedi: Çünki onların hamısının ağzına oddan noxta vurublar. Yalnız mənim ağzıma oddan noxta vurmayıblar. Səbəbi isə budur ki, mən də onların arasında idim, amma onlardan deyildim.

Həzrət İsa(ə) üzünü tərəfdarlarına tutub buyurdu: Ey Allahın dostları, dünya və axirətin afiyəti ilə yaşayaraq duz-çörək yemək və zibillikdə yatmaq dinini əldən

verməkdən (bu bəla nazil olan kəslər kimi yaşayıb aqibətlərinin pis olmasından) daha yaxşıdır."[1]

Tağuta söykənmək və onları təsdiqləmək şirkin əlamətləri olduğu kimi, insanın aqibətini də pis vəziyyətə salır. Tağut insanların özləri də öz aqibətlərindən çox peşman olurlar. Lakin onların peşmançılıqlarının heç bir faydası olmamışdır. Tarixə diqqət yetirdikdə görürük ki, tağut, yəni zülmkar insanların bir çoxu öz tutduqları yoldan peşman olduqlarını dilə gətirmiş və bunu açıq şəkildə etiraf etmişlər. Məsələn, tarixdə ən böyük tağut, yaxud zalımlardan biri Müaviyə idi. Müaviyə ömrünün son anlarında ətrafında əyləşənlərə dedi: "Əlimdən tutub məni otuzdurun. Onu yatağında oturtduqdan sonra öz-özünə belə dedi: "Ey Müaviyə, pis günə düşüb son nəfəslərində Allah yadına düşüb? Əgər cavanlığında Allahı yad etsəydin, bu, sənin dərdinə dəyərdi. İndi isə artıq gecdir." Sonra isə üzünü ətrafındakılara tutaraq dedi: "Bilirsinizmi, mən nəyə oxşayıram? Mən elə bir əkin yerlərinə oxşayıram ki, artıq onun biçim vaxtı çatmışdır. (Ömrüm qurtarmış və dünyada etdiyim zülmlərin cəzasını dadmaq vaxtımdır.)" Sonra yenə də öz-özünə dedi: "Kaş mən də Qüreyş tayfasında adi insanlardan biri olaydım və hökumət işlərinə qarışmayaydım. Amma artıq gecdir. Bu peşmançılıq mənə fayda verməyəcək." O, bu sözləri deyib cəhənnəmə vasil oldu.[2]

Əbdülməlik ibn Mərvan Bəni-Üməyyənin beşinci hakimi olmuşdur. O da qəddar, zalım və tağut hakimlərdən biri idi. Ömrünün son anlarında Əbu Hazimin

---

[1] Biharül-ənvar,14-cü cild, səh.322.
[2] 500 dastan,2-ci cild, səh. 378.

adını çəkib dedi: "Kaş mən də Əbu Hazim kimi qapılarda onun-bunun paltarını yuyardım və beş-on dirhəmlə dolanaydım, amma hökumət işləri ilə məşğul olmayaydım."

Əbu Hazim kasıb bir insan idi. Evlərdə camaatın paltarını, xalça-palazını yumaqla özünü və ailəsini dolandırırdı. Əbdülməlikin bu sözləri Əbu Hazimə çatdıqda o, belə dedi: "Şükür olsun Allaha ki, bu tağut və zülmkarları o qədər zəlil və alçaq etdi ki, mənim məqamıma (onun-bunun paltarını yumaqla yaşamağa) həsrət çəkirlər."[1]

### 3. Allahdan başqasını Ondan üstün tutmaq

Şirkin əlamət və nişanələrindən biri də budur ki, insan hər hansı bir şeyi Allahdan önə çəksin və Ondan üstün saysın. Əgər insan hətta müqəddəsliyindən asılı olmayaraq hər hansı bir kəsi və yaxud bir şeyi Allahdan üstün saysa, deməli Allaha şərik qoşmuşdur. Kainatda və yaradılış aləmində hər şeydən üstün və müqəddəs İslam Peyğəmbərinin(s) vücududur. Əgər bir insan hətta Peyğəmbəri(s) Allahdan üstün, yaxud Allahla bərabər tutsa, yaxud onu Allahın qüdrəti qarşısında bir qüdrət hesab etsə belə yenə də həmin şəxs müşrikdir. Həmçinin insan qəlbində hər hansı bir şeyin və yaxud kəsin məhəbbətini Allahın məhəbbətindən üstün bilsə, bu da şirkdir. Hər bir kəsə məlumdur ki, kimliyindən asılı olmayaraq kimisə Allahdan üstün tutmaq, yaxud Allaha bərabər hesab etmək də şirkdir. Heç bir kəs Peyğəmbəri(s) Allahdan üstün tutmur. Çünki biz Peyğəmbəri(s) Allahın

---

[1] 500 dastan,2-ci cild, səh. 378.

elçisi olduğu üçün şərafətli və əzəmətli bilirik. O, Allahın bəndəsi və Rəsuludur. Həmçinin onun məhəbbətini də Allahın məhəbbətindən üstün saymırıq. Deməli, əgər biz Peyğəmbəri(s) seviriksə və ona dərin hörmətimiz varsa, bu sevgi və ehtiram da Allaha görədir.

Günlərin birində Həzrət Peyğəmbər(s) məscidə gedirdi. Yolda yeniyetmə bir oğlan Həzrətə(s) yaxınlaşıb salam verdi. Salamdan sonra dedi: “Ya Rəsulallah, səni çox sevirəm.”

Peyğəmbər(s) onun əqidəsini yoxlamaq üçün soruşdu: “Məni ata-anandan da çox sevirsən?

Dedi: Bəli.

Peyğəmbər(s) soruşdu: Məni canından da çox sevirsən?

Dedi: Bəli.

Peyğəmbər(s) soruşdu: Məni Allahdan da çox sevirsən?”

Oğlan bir qədər fikirləşib üç dəfə Allahın adını çəkdikdən sonra dedi: “Ya Rəsulallah, Allahı səndən çox sevirəm. Səni isə Allaha xatir çox sevirəm.”

Peyğəmbər(s) səhabələrə buyurdu: “Belə bir əqidədə olmağı sizə də tövsiyə edirəm.”

Odur ki, hər bir insan Allahı mütləq hər bir şeydən çox sevməlidir. Ayə və hədislərdə də bu məsələyə çox rast gəlmək mümkündür. “Tövbə” surəsinin 24-cü ayəsində Allah-təala insanları başa salmaq üçün Peyğəmbərə(s) buyurur:

قُلْ إِن كَانَ آبَاؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ
اقْتَرَفْتُمُوهَا وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُم

مِّنَ اللّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

-De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, arvadlarınız, qohumlarınız, topladığınız mallar, kasadlaşmasından qorxduğunuz ticarət və razı olduğunuz yaşayış yerləri sizin üçün Allahdan, Onun Peyğəmbərindən və Onun yolunda cihad etməkdən daha sevimlidirsə, onda Allahın Öz əmrini (sizə əzab etmək əmrini) verməsini gözləyin. Allah itaətsizlərin dəstəsini (fasiqləri) hidayət etməz."

Allah-təala bu ayədə səkkiz şeyi (nüansı) sadalayır. Bu səkkiz nüansın hər biri insana lazımlı və müqəddəsdir. Amma insanın onlara olan məhəbbəti onun Allahın əmrindən çıxmasına səbəb olsa, həmin şəxs Allahın əzabına düçar olacaqdır.

## Valideynin hörmətini saxlamaq və onlara yaxşılıq etmək

Valideynin insan üçün nə qədər mühüm və müqəddəs olması hamıya bəllidir. Quranda Allah-təala beş yerdə insanlara valideynə yaxşılıq və ehtiram göstərməyin vacibliyini təkidlə buyurur. Həmin yerlərdən dördündə Allah-təala valideynin adını  Öz adının yanında çəkir. Məsələn, "Nisa" surəsinin 36-cı ayəsində belə buyurur:

وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

-Allaha ibadət edin, heç bir şeyi Ona şərik qoşmayın və ata-anaya layiqli yaxşılıq edin.

Bu ayədə Allah-təala ilk növbədə insanı Ona ibadət etməyə və şərik qoşmamağa çağırdıqdan sonra valideynə

yaxşılıq etməyi təkidlə buyurur. Çünki insanın vücuda gəlməsi ilk növbədə Allaha bağlıdır. Yəni insanın yaranmasının əsas mənbəyi Allaha qayıdır. İkincisi isə ata və ananın roludur. Buna görə də Allah-təala Quranda Öz adından sonra valideynlərin adını bəyan edir. Quran ayələrinə diqqət yetirdikdə görürük ki, valideynlərin ehtiramı o qədər mühümdür ki, hətta övlad onlara "uf" belə deməməlidir. Allah-təala "İsra" surəsinin 23-cü ayəsində belə buyurur:

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا

-Və Rəbbin Ondan başqasına ibadət etməməyinizi və ata-anaya (öz valideynlərinizə) yaxşılıq etməyinizi qəti hökm etdi. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalıq çağlarına yetişsələr (onların ağır, yaxud sərt davranışları müqabilində narahatlığını büruzə vermə, hətta) onlara "uf" belə demə, üstlərinə qışqırma, kobud söz demə və onlara xoş söz de.

İslam dinində valideynlərə ehtiram göstərmək və onlara yaxşılıq etmək o qədər mühümdür ki, hətta bircə gecə onların qayğısına qalmaq bir il Allah yolunda cihad etməkdən üstün sayılır.

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, ürəyim çox istəyir ki, mən də Allah yolunda cihadda iştirak edim.

Peyğəmbər(s) buyurdu: Çox yaxşı. Əgər sən Allah yolunda cihad edib şəhid olsan, Allah yanında diri olacaq və Onun verdiyi ruzilərdən istifadə edəcəksən. Allah sənə

müqəddəs və şərafətli dərəcələr bəxş edəcək. Amma cihadda iştirak edib şəhid olmasan və sağ-salamat qayıdarsansa, günahların bağışlanar və uşaq anadan pak dünyaya gəldiyi kimi pak olarsan.

Həmin şəxs dedi: Ya Rəsulallah, mənim ürəyim çox istəyir ki, sənin yanında cihadda iştirak edim. Amma qoca valideynlərim var ki, onlar mənimlə ünsiyyətdədirlər. Mən onlara qulluq edirəm və mənim onlardan ayrı düşməyimi heç vaxt istəmirlər. Mən nə edim?

Peyğəmbər(s) buyurdu: And olsun Allaha ki, bircə gecə yanlarında qalıb qulluqlarında dayanmağın və onlarla ünsiyyətdə olmağın bir il Allahın yolunda cihad etməkdən daha şərafətlidir."[1]

Həm ayələrdən, həm də hədislərdən açıq-aydın başa düşülür ki, valideynlərin hörmətini saxlamaq, onlarla yaxşı rəftar etmək və onların qulluğunda dayanmaq hər bir insana vacibdir. Valideyn elə valideyndir, istər kafir olsun, istərsə müsəlman, yaxud istər pis adam olsun, istərsə yaxşı adam. Odur ki, hər bir övlad onlara ehtiram göstərməli və yaxşılıq etməlidir. Hətta onlara "uf" belə deməməlidir. İslamda valideyn-övlad münasibətlərində çoxlu incə məqamlar vardır ki, bütün bunlara diqqət yetirilməlidir. Tarix boyu məsum imamlarımız bu incə məqamları əməli surətdə bizə göstərmiş və başa salmışlar.

Müharibələrin birində müsəlmanların arasında olan bir nəfər düşmən ordusuna qarşı döyüşürdü. Amma onun atası isə elə həmin düşmən qoşununun içindəydi. O da əksinə olaraq Peyğəmbərə(s) qarşı müharibə edirdi. Belə oldu ki, bu döyüşdə ata ilə oğul üz-üzə dayandılar. Həzrət

---

[1] Hilyətül-müttəqin, səh. 164.

Əli(ə) bu hadisəni gördükdə dərhal oğlanı çağırıb buyurdu: "Mən bu kafirlə üz-üzə dayanmışam, sən isə atanla üz-üzə durmusan. Gəl yerimizi dəyişək ki, sən atanla döyüşüb ona qarşı hörmətsizlik etməyəsən və atanın qatili olmayasan."

Hədislərdə belə nəql olunur ki, günlərin birində Həzrət Əlinin(ə) dostlarından biri öz oğlu ilə onun evinə qonaq gəlmişdi. Həzrət Əli(ə) onları çox mehribanlıqla qarşılayıb evə dəvət etdi və yuxarı başda əyləşdirdi. Özü də onlarla əyləşib hal-əhval tutdu. Həzrət(ə) göstəriş verdi ki, süfrə açsınlar. Qənbər süfrə açıb yeməkləri süfrəyə düzdü. Onlar yeməyi yeyib qurtardıqdan sonra Həzrət Əli(ə) Qənbərə ləyən və su gətirməyi tapşırdı. Qənbər gedib ləyən və su gətirdi. Həzrət(ə) suyu Qənbərdən alıb qonağın əllərinə tökmək istədikdə qonaq dedi: "Ya Əmirəlmöminin, mənə xəcalət verirsən. Qiyamət günü mən Allaha nə cavab verərəm? Allahın höccətinə belə bir əziyyət verməyimi özümə bağışlaya bilmərəm. Həzrət(ə) buyurdu: Sən mənim vilayət və məqamımı başa düşdüyün üçün Allah sənə əcr versin. Lakin mən qonağa ehtiram göstərməyi vacib bilirəm. Qoy Allah-təala qonağa ehtiram göstərdiyim üçün mənə savab versin. Sən mömin bir insansan və mənim qonağımsan. Möminlərə ehtiram göstərib qulluq etməyin də savabı var."

Həzrət Əli(ə) qonağa qarşı təvazökarlıq göstərdi və onun əllərinə su tökdü. Qonaq əllərini yuduqdan sonra Həzrət Əli(ə) oğlu Məhəmməd Hənəfiyyəni çağırıb buyurdu: "Bu suyu və ləyəni al, bu kişinin oğlunun əllərinə də sən su tök. Qoy o da əllərini yusun. Allah sevmir ki, ata ilə oğul bir məclisdə əyləşdikdə ikisi də eyni dərəcədə olsun. Allahın bu işdən xoşu gəlmədiyi üçün mən atanın əllərinə su tökdüm, sən də oğlunun əllərinə su

tök. Qoy onların ikisinə də eyni dərəcədə ehtiram göstərilməsin. Atanın məqamı oğuldan üstün olduğu üçün mən su tökdüm, oğulun da əllərinə sən su tök. Ataya ata dərəcəsində, oğula da oğul dərəcəsində ehtiram göstərilməlidir."[1]

Odur ki, valideynlərin insanın həyatında çox mühüm və önəmli yeri vardır. Əgər valideynlər hər hansı bir insandan narazı qalsa, həmin insan heç bir vaxt böyük nailiyyət və müvəffəqiyyət əldə edə bilməyəcək. Valideynləri narazı qalan hər hansı bir insan heç bir vaxt nuraniyyət əldə edə bilməz.

Mərhum Rəcəbəli Xəyyat tanınmış və böyük arif insanlardan biri idi. Onun şagirdlərindən biri deyir: "Mən iyirmi il Rəcəbəlinin şagirdi oldum. O, məni çox çətinliklə şagirdliyə qəbul etmişdi. Hər gün onun dərsində iştirak etmək üçün icazə istəyirdim. Amma o, müxtəlif bəhanələrlə mənə icazə vermirdi. Çox yalvarıb yaxardıqdan sonra mənə buyurdu: "Yaxşı, onda get atandan halallıq al və onu razı sal, sonra baxarıq." Həqiqətən də atam məndən narazı və incik idi. Bir gecə onun yanına gedib əl-ayağına düşdüm. Əllərini öpüb ondan halallıq və razılıq istədim. Ona qarşı etdiyim hörmətsizliyə görə atamdan üzr istədim və həm də istiğfar etdim. Nəhayət, onu razı saldıqdan sonra səhər tezdən sevincək halda Rəcəbəlinin yanına yollandım. O, məni görən kimi yanına çağırdı. Mən onun yanında əyləşdikdən sonra buyurdu: "İndi səninlə söhbət etmək olar." Elə həmin gündən etibarən düz iyirmi il onun dərslərində iştirak etdim."

---

[1] Mizan, 14-cü cild, səh. 6848.

## Allaha itaət valideynə itaətdən üstündür

Beləcə, biz görürük ki, İslam dünyasında valideynlərin hörməti danılmazdır. İnsan valideynlərlə bağlı hətta ən incə məsələlərə belə xüsusi diqqət yetirməlidir. Ona görə də valideynlərə hörmət olunmalı, onların qayğısına qalınmalı, hətta onlara azacıq da olsa belə etiraz edilməməli və narahatlıq yaradılmamalıdır. Bütün bunlara baxmayaraq, həmin məsələdə incə bir məqam və bir şərt də vardır. O şərt isə bundan ibarətdir ki, valideynlərin sözü hər bir insan üçün Allahın sözündən qabağa keçməməlidir. Belə də ola bilməz ki, valideynlər hər hansı bir insanı haram işlərə vadar edəndə övlad da ona itaət etmiş olsun. Əgər Quranın beş ayəsində valideynlərə itaət etmək vacib buyurulursa, iki ayədə də açıq-aydın şəkildə bəzi məqamlarda onlara itaət etməməyi əmr edir. Allah-təala “Ənkəbut” surəsinin 8-ci ayəsində belə buyurur:

وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ حُسْنًا وَإِن جَاهَدَاكَ لِتُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا

-(Biz) insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik və (dedik:) “Əgər (atan, anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağa vadar etsələr, onlara itaət etmə.”

“Loğman” surəsinin 15-ci ayəsində belə buyurulur:

وَإِن جَاهَدَاكَ عَلى أَن تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا

-Əgər onlar (ata-anan) cəhd etsələr ki, haqqında məlumatın olmayan bir şeyi (ilahilikdə, müqəddəslikdə) Mənə şərik qoşasan, əsla onlara itaət etmə.

Əgər valideynlər hər hansı bir insanı haram işlərə dəvət etsələr, onlara itaət etmək olmaz. Həmçinin Allahın vacib buyurduğu işlərdən çəkindirdikdə də onların sözlərinə itaət edilməməlidir. Əlbəttə, ata-ana müqəddəsdir və onların ehtiramı qorunmalıdır. Ata-anaya itaət etmək vacibdir, ancaq bir şərtlə ki, insan Allahın əmrindən çıxmasın. Əgər insan valideynlərin sözlərini Allahın sözündən üstün hesab etsə bu da şirkdir. Eləcə də hər hansı bir şeyin Allahdan üstün tutulması da şirkin əlamətidir.

## Ailə qurmaq mühüm məsələdir

Yuxarıda qeyd etdiyimiz "Tövbə" surəsinin 24-cü ayəsində həmçinin bəyan olunur ki, övlad, qardaş, həyat yoldaşı və başqaları insanı fəsada, Allah yolundan uzaq düşməyə, Onun əmrindən çıxmağa vadar etsələr, o, Allahın qəzəbinə və əzabına düçar olacaqdır.

İslamda ailə qurmağa çox böyük əhəmiyyət verilir. Ailə qurmaq müqəddəs əməllərdən biridir. İslam dini ailə daxilində kişi-qadın münasibətlərində olan incə məqamlara da öz nəzərini bildirmişdir. Ailədə həm kişi, həm də qadın möhtərəmdir. Ailədə həm kişinin, həm də qadının hüquqları vardır. Əlbəttə, bizim mövzumuz ailə məsələləri ilə bağlı olmadığı üçün bu barədə ətraflı söz açmaq istəməzdim. Gələcək bəhslərimizdə Allahınköməkliyi ilə bu haqda müfəssəl şəkildə bəhs edərik. Sadəcə olaraq hazırda bu barədə bir neçə kəlmə söz demək istərdim. Hədis və rəvayətlərdə qeyd olunur ki, Allah-təala ailədə həm kişinin, həm də qadının xidmətlərinə görə böyük savablar inayət edir. Həmin hədislərdən biri belədir.

قَالَ رَسُولُ اللهِ(ص): أَيُّما امرَأَةٍ رَفَعَتْ مِن بَيتِ زَوجِها شيئا مِن مَوضِعٍ إلى مَوضِعٍ تُرِيدُ بِهِ صَلاحا إلاَّ نَظَرَ اللّهُ إلَيها، و مَن نَظَرَ اللّهُ إلَيهِ لَم يُعَذِّبْهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir qadın öz ərinin evini səliqəyə salmaq üçün bir əşyanı götürüb başqa yerə qoyarsa (məsələn, evi süpürmək, qabları yumaq və s. kimi ev işlərini görərsə), Allah-təala həmin qadına lütf nəzəri ilə baxar. Allah hər kəsə lütf nəzəri ilə baxdıqda heç bir vaxt ona əzab verməz."[1]

قَالَ رَسُولُ اللهِ(ص): أَيُّما امرَأَةٍ خَدَمَتْ زَوجَها سَبعَةَ أَيّامٍ، غَلَّقَ اللّهُ عَنها سَبعَةَ أبوابِ النارِ و فَتَحَ لَها ثَمانِيَةَ أبوابِ الجَنَّةِ تَدخُلُ مِن أينَما شاءَتْ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər qadın yeddi gün öz ərinə qulluq etsə, Allah- təala cəhənnəmin yeddi qapısını onun üzünə bağlayar və cənnətin səkkiz qapısını onun üzünə açar. Beləliklə, o qadın hansı qapıdan istəsə içəri daxil ola bilər."[2]

قَالَ رَسُولُ اللهِ(ص): ما مِنِ امرَأَةٍ تَسقِي زَوجَها شَربَةَ ماءٍ إلاّ كانَ خَيرا لَها مِن سَنَةٍ صِيامِ نَهارِها و قِيامِ لَيلِها

-Həzrət Peyğəmbər(s) daha sonra belə buyurdu: "Öz ərinə bir qurtum su içirdən elə bir qadın yoxdur ki, bu

[1] Mizanül-hikmə,5-ci cild, hədis-7877.
[2] Yenə orada, hədis-7879.

əməli ona bir il gündüzləri oruc tutmaq və gecələri ibadətlə keçirməkdən daha yaxşı olmasın.”[1]

Bu hədislərdən açıq-aydın görürük ki, Allah-təala ailədə qadının xidmətinə görə böyük savablar inayət edir. Hətta Həzrət Peyğəmbər(s) buyurmuşdur ki, qadının cihadı evində öz ərinə qulluq etməsidir. Allah-təala evində ərinə yaxşı qulluq edən qadına Onun yolunda cihad edənlərin savabını verir. Əlbəttə, qeyd olunmalıdır ki, ailədə təkcə qadın deyil, kişinin xidmətləri haqda da çox danışmaq və hədislər söyləmək olar. Məsələn,

قَالَ رَسُولُ اللهِ(ص): لا يَخدُمُ العِيالَ إلاّ صِدِّيقٌ أو شَهيدٌ أو رَجُلٌ يُرِيدُ اللّهُ بِهِ خَيرَ الدنيا و الآخِرَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Öz arvadına şəhidlər, siddiqlər (sədaqətli insanlar) və Allah-təalanın dünya və axirət xeyrini bəxş etdiyi kişilər qulluq edərlər. (Yəni hər kəs öz arvadına yardımçı olsa, Allah-təala həmin şəxsə dünya və axirətin xeyrini bəxş edər.)”[2]

قَالَ الصَّادِقُ(ع): مَن حَسُنَ بِرُّهُ بِأهلِهِ زادَ اللّهُ في عُمُرِهِ

-İmam Sadiq(ə) buyurur: “Hər kəs öz ailəsinə yaxşılıq etsə, Allah həmin şəxsin ömrünü uzadar.”[3]

قَالَ رَسُولُ اللهِ(ص): جُلوسُ المرءِ عندَ عِيالِهِ أحَبُّ إلى اللّهِ تعالى مِنِ اعتِكافٍ في مَسجِدِي هذا

---

[1] Yenə orada.
[2] Mizanül-hikmə,5-ci cild, hədis-7881.
[3] Yenə orada, hədis-7883.

-Həzrət Peyğəmbər(s) buyurur: “Kişinin öz arvad-uşağının yanında oturması Allah-təala yanında mənim bu məscidimdə etikaf etməsindən daha sevimlidir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ الرَّجُلَ لَيُؤجَرُ فِي رَفعِ اللُّقمَةِ إلى فِي امرَأتِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Öz arvadının ağzına bir loğma uzadan kişi savab qazanar.”[2]

[1] Yenə orada, hədis-7884.
[2] Yenə orada, hədis-7885.

## Allahın əmri və Ona məhəbbət hər şeydən üstündür

Bu hədislərdən də açıq-aydın görürük ki, İslam dinində ailədaxili əlaqələrə xüsusi münasibət bəslənilir və bu əlaqələr, eləcə də ailədə ərin arvadına və arvadın ərinə göstərdiyi xidmətlər alqışlanır, həmçinin belə münasibətlərdə olan insanlar üçün böyük savablar nəzərə alınır. Valideynə olan itaət və ehtiramın şərti olduğu kimi, ailə məsələlərində olan münasibətlərdə də müəyyən şərtlər vardır ki, ailə üzvləri insanın Allahın əmrindən çıxmasına səbəb olmasın. Yəni bir ailədə göstərilən xidmətin şərafəti, üstünlüyü və savabı o zaman verilər ki, həmin ailə Allahın əmrinin ayaqlar altına atılmasına yol verməsin. Təbbiidir ki, insan ailəsini və övladlarını sevməlidir, amma bu sevgi Allahın məhəbbətindən və əmrindən önə keçməməlidir.

Həmçinin mal-dövlət, ticarət və övlad məhəbbəti də insanı Allah əmrindən saxlamamalıdır. Əks təqdirdə cəmiyyət tamamilə fitnə-fəsada aludə olacaqdır. Əgər bir cəmiyyətdə insanlar hər hansı bir məhəbbəti Allahın məhəbbətindən üstün tutsalar, həmin cəmiyyət pozulub uçuruma yuvarlanacaq. Kərbəla hadisəsinə diqqət yetirdikdə görürük ki, otuz mindən yarım milyonadək insan bu məntəqəyə tökülüşüb İmam Hüseyni(ə) qanına qəltan etdilər. Onlar kafir deyildilər, onlar da müsəlman idilər. Lakin onların mərifətləri və düşüncələri yox idi. Onlar öz balalarını, mal-dövlətlərini, bağlarını Allahın və Peyğəmbərin(s) balası İmam Hüseyndən(ə) çox istəyirdilər.

قَالَ رَسُولُ اللهِ(ص): يَأْتِي عَلَى النَّاسِ زَمانٌ، إِذَا سَمِعتَ بِاسْمِ رَجُلٍ خيرٌ مِن أَنْ تَلْقَاهُ، فَإِذَا لَقَيْتَهُ خَيرٌ مِن أَن تُجَرِّبَهُ، وَلَو جرّبْتَهُ أَظْهَرَ لَكَ أَحْوالاً، دِينُهُم دَرَاهِمُهُم، وَهِمَّتُهُم بُطُونُهُم، وَقِبْلَتُهُم نِساؤُهُم، يَرْكَعُونَ لِلرَّغِيف، وَيَسْجُدونَ لِلدِّرهَم، حَيَارَى سُكَارَى لاَ مُسْلِمِين وَلا نَصَارَى

-Həzrət Peyğəmbər(s) buyurur: “Insanlar üçün elə bir zaman gələr ki, bir insanın adını eşitmək onu görməkdən yaxşı olar. Əgər onu görmüsənsə, görməyin sənin üçün təcrübə etməyindən yaxşı olar. Çünki onu təcrübədən keçirib sınasan, sənin üçün çox qəribə (və narahatedici) hallar yaranar. (Onların bəzisi ilə tanış olduqda görərsən ki,) dinləri dirhəmlər, fikir-zikrləri qarınları, qiblələri qadınlardır. Bir tikə çörək üçün boyun əyərlər (yaltaqlıq edərlər), dirhəmlərə səcdə edərlər. Onlar (haramın nəticəsində) heyrandırlar, məst və sərxoşdurlar. Onlar nə müsəlman kimi müsəlman, nə də nəsrani kimi nəsranidirlər.”[1]

Hadi Abbasi Harun ər-Rəşidin qardaşı idi. Abbasi xəlifələrinin içərisində Hadi Harundan əvvəl xəlifə olmuşdu. Onların çox ibrət götürüləsi tarixləri var. Nümunə üçün onların dövründə baş vermiş əhvalatlardan birini nəzərinizə çatdırıram. Hadi öz zamanında Ğadir adlı gözəl bir qadına vurulmuşdu. Odur ki, həmin qadını qulluqçu adı ilə öz evinə gətizdirmişdi. Qadın onun evinə gəldikdən sonra o, məqsədini açıb  dedi. Qadın da razılıq

[1] Mizanül-hikmə,9-cu cild, hədis-15450.

verdi. Hadi xilafətdə olduğu on dörd ayın bir hissəsini həmin qadınla keçirdi. Gecələrin birində yeyib-içməklə məşğul idilər. Birdən Hadi ona dedi: “Bilmirəm, hansımız tez öləcəyik. Əgər birdən mən səndən tez dünyadan gedəsi olsam, məndən sonra yerimdə əyləşənlə də beləmi olacaqsan? Ğadir dedi: Allah eləməsin, bu nə sözlərdir danışırsan? Sənin ömrün uzun olacaq və heç bir vaxt bir-birimizdən ayrılmayacağıq. Hadi dedi: Sən mənə söz verib and iç ki, mən səndən əvvəl ölsəm, yerimdə əyləşənlə belə bir münasibət qurmayacaqsan. Məndən sonra bu evdən çıxıb gedəcəksən.” Hadi bunu hiss etmişdi. Çox yaxşı bilirdi ki, əgər başına bir iş gəlsə, onun yerində qardaşı Harun əyləşəcək. Ğadir and içib söz verdi ki, ondan sonra yerində əyləşənlə heç bir vaxt ünsiyyət qurmayacaqdır.

Bu söhbətin üstündən bir müddət keçmişdi ki, Hadi dünyasını dəyişdi. Harun ər-Rəşid xilafət kürsüsünə çıxdı. Bir gün Ğadiri çağırıb dedi: “Mənim ürəyim səni istəyir. Çox istərdim ki, mənimlə yaşayasan. Ğadir dedi: Mənim də ürəyimdən bu hisslər keçir. Amma sənin qardaşına söz verib and içmişəm ki, ondan sonra heç bir kəslə münasibət qurmayacağam. Harun dedi: Sən andını sındır və mənimlə yaşa. Mən də andını sındırdığına görə kəffarəni ödəyərəm.”

Beləliklə, onlar razılaşıb birgə yaşamağa başladılar. Qadın Hadi Abbasi ilə yaşadığı günlərini indi də Harunla yaşadı. Gecələrin birində Ğadir hövlnak və narahat halda yuxudan oyandı. Harun nə baş verdiyini soruşduqda Ğadir dedi: “Qardaşını yuxuda gördüm. Gəlib mənim üçün üç misra şeir oxudu. Həmin şerin məzmunu belədir: “Məndən sonra dünyanı sürüb, bağladığın əhd-peymanı pozdun. Səndən gözləmədiyim xəyanətləri mənə qarşı etdin. Amma bil ki, bu səhərə qədər mənə qovuşacaqsan.”

Harun dedi: “Bu, sadəcə olaraq bir yuxudur. Fikir vermə, hər şey yaxşıdır. Ğadir dedi: Yox, burada bir sirr var. Bu səhərə qədər nəsə baş verməlidir. Mən belə başa düşürəm ki, ömrüm qurtarmaq üzrədir.”

Həmin hadisənin üstündən bir neçə saat keçmişdi ki, Ğadir həqiqətən də dünyasını dəyişdi. Yuxuda gördükləri gerçək oldu.

Tarixdə və hazırda müşahidə etdiyimiz bütün pozğunluqlar və fitnə-fəsadlar insanların nələrisə Allahın əmrindən və ya Onun məhəbbətindən üstün tutması üzündən baş verir. Bu kimi hallar insanı yavaş-yavaş şirkə tərəf sürükləyir. Belə olduqda cəmiyyətdə azğınlıq və pozğunluqlar da artır. Belə olduqda cəmiyyətdə insanlar üçün din-imanı qoruyub saxlamaq çox çətinləşir.

قَالَ رَسُولُ اللهِ(ص): يَاتِى عَلَى النَّاسِ زَمَانٌ اَلصَّابِرُ عَلَى دِينِهِ مِثلُ القَابِضِ عَلَى الجَمْرَةِ بِكَفِّهِ.

-Həzrət Peyğəmbər(s) buyurur: “İnsanlar üçün bir zaman gələr ki, dinini saxlamaq üçün səbir edən adam sanki qızmar kömürü ovcunun içində saxlamışdır.”[1]

Ümumiyyətlə, şirkin kök və əsası bu kimi şeylərdədir ki, insan dünyanı, mal-dövləti, övladı və s. kimi şeyləri Allahın əmrindən və məhəbbətindən üstün tutmuş olsun. Əgər hər kəs dünyanın, mal-dövlətin və hər hansı bir şeyin məhəbbətini Allaha olan məhəbbətindən üstün tutsa, deməli o, şirkə tərəf yönəlmişdir.

---

[1] Mizanül-hikmə,9-cu cild, səh.4442.

## Tövhidi başa düşmək üçün şirkdən uzaqlaşmaq lazımdır

Yuxarıda tövhidin məna və əlamətləri haqda bir qədər bəhs etdik. Bu bəhsə həmçinin bir mətləbi də əlavə etmək lazımdır. Həmin mətləb isə elə bir məsələdir ki, Həzrət Peyğəmbər(s) Allahın buyurduqlarına əsasən, həmçinin məsum imamlar və alimlər tövhid və şirk məsələsində olan bu mətləbi insanlara çatdırmağa çalışmışlar. Bu mətləb ondan ibarətdir ki, tövhidi bir əqidə kimi qəbul edib, iman kimi qəlbində saxlamaq istəyən insan onun müqəddiməsinə diqqət yetirməlidir. Yəni tövhidi elə tövhidin özündən başlamaq olmaz. Tövhidə başlamaq üçün insan öncə şirkdən uzaqlaşmalıdır. Məsələn, bir qabın içinə pak və ləziz yeməklər tökmək istəyən kəs ilk növbədə həmin qabı köhnə yeməklərdən, çirk və bulaşıqdan təmizləməlidir. Bundan sonra isə həmin qaba təmiz və pak yeməkləri tökmək olar. Tövhiddə belədir ki, hər kəs Allahın vəhdaniyyətini bir əqidə kimi qəbul etmək istəyirsə, ilk növbədə bütlərə və tağutlara qarşı çıxmalıdır. Yəni bütlərdən və tağutlardan uzaqlaşmadan tövhidə girmək mümkün deyil. İnsan əvvəlcə tağutlara qarşı çıxmalıdır ki, Allaha iman gətirsin. Bunun üçün Peyğəmbərin(s) insanlara ilk olaraq bəyan etdiyi "La ilahə illəllah" kəlməsini demək lazımdır. Yəni bu günədək Allahdan başqa ibadət etdiyiniz bütün hər bir şeyə yox deyin. Eyni zamanda Allahdan savayı başqa heç bir məbudun olmadığını etiraf edin.

"Bəqərə" surəsinin 255-256-cı ayələri həmin "ayət-əl kürsü"dür ki, onun barəsində çox söhbətlər etmək olar. Onun xüsusiyyəti və şərafəti barədə xüsusi hədislər vardır. Həmin ayələrin birində Allah-təala belə buyurur:

فَمَنْ يَكْفُرْ بِالطَّاغُوتِ وَيُؤْمِن بِاللّهِ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَىَ لاَ انفِصَامَ لَهَا

-Buna görə də kim tağuta qarşı çıxıb Allaha iman gətirsə, doğrudan da heç bir vaxt qırılmayan möhkəm bir dəstəkdən yapışmışdır.

Bu ayədən də açıq-aydın şəkildə görürük ki, insan ilk növbədə tağutlara və bütlərə qarşı olmalı, sonra isə Allah-təalaya iman gətirməlidir. Nə qədər ki, insan bütləri, tağutları qəlbindən çıxarmayıb, Allaha da iman gətirə bilməyəcək. Buna görə də Allah-təala digər ayələrdə bütlərin zəif və yararsız olduğunu bəyan edir və insanın Allaha iman gətirməsini təkidlə bildirir. Məsələn, “Ənkəbut” surəsinin 41-ci ayəsində belə oxuyuruq:

مَثَلُ الَّذِينَ اتَّخَذُوا مِن دُونِ اللَّهِ أَوْلِيَاء كَمَثَلِ الْعَنكَبُوتِ اتَّخَذَتْ بَيْتًا وَإِنَّ أَوْهَنَ الْبُيُوتِ لَبَيْتُ الْعَنكَبُوتِ لَوْ كَانُوا يَعْلَمُونَ

-Allahdan başqa (və Onun müqabilində) özlərinə hami və yardımçı qəbul edən kəslər (etimad etdikləri şeyin süstlüyü və mənfəətsizliyi baxımından) özünə yuva qurmuş hörümçəyə bənzəyərlər. Şübhəsiz, evlərin ən zəifi hörümçək yuvasıdır. Kaş biləydilər.

Bu ayədən də açıq-aydın şəkildə görürük ki, Allahdan başqasına söykənən insanlar sanki hörümçək toruna arxalanmışlar. Hörümçək toru ən zəif evdir ki, bu balaca həşərat onu özü üçün toxuyur. Xəfif əsən bir yel və ya kiçik hadisələr zamanı dağılıb aradan gedir. Buna görə də Allah-təala tağutları həmin zəif hörümçək toruna bənzədir. Hər kəs tağutlara arxalansa, kiçik bir hadisə nəticəsində məhv olub aradan gedəcək. Odur ki, ən möhkəm dəstək və dayaq Allahdır və hər kəs iman gətirib

Ondan möhkəm yapışsa, yaxud Ona arxalansa, heç bir vaxt yıxılmayacaqdır.

İslam tarixində belə yazırlar ki, Məkkədə İslam dininin ilk çağlarında Peyğəmbərə(s) iman gətirənlər müşriklərin işgəncələrinə məruz qalırdılar. İş o yerə gəlib çatmışdı ki, müşriklər həm Peyğəmbəri(s), həm də digər müsəlmanları o qədər incitməyə başladılar ki, Məkkədə yaşamaq onlara mümkün olmadı. Bir qrup müsəlman isə Məkkədə yaşamağın qətiyyən mümkün olmadığını görüb oranı tərk etmək qərarına gəldilər. Çox fikirləşdikdən sonra gördülər ki, yaşamaq üçün ən münasib yer uzaq da olsa Həbəşistandır. Beləcə, qərar qəbul edib Məkkəni tərk etdilər və həmin ölkəyə getdilər. Bir zaman Məkkədə vəziyyət yaxşılaşdıqdan sonra yenidən oraya qayıtmaq ümidilə bir müddət Həbəşistanda qaldılar. Onlar ümid edirdilər ki, bir zaman Məkkədəki bütün müşriklər Allaha iman gətirərlər və ora əmin-aman bir yerə çevrilər. Buna görə də həmişə qulaqları səsdə idi və Məkkədəki müşriklərin iman gətirmələri xəbərini səbirsizliklə gözləyirdilər.

Bir müddətdən sonra belə bir şayiə yayıldı ki, Məkkədə vəziyyət tamamilə yaxşılaşıb və müşriklər İslama iman gətiriblər, artıq Məkkədə yaşamaq olar. Onlar hazırlaşıb Həbəşistandan Məkkəyə sarı yollandılar. Osman ibn Məzun[1] da onların arasında idi. Buna baxmayaraq

[1] Osman ibn Məzun Peyğəmbərin(s) möhtərəm səhabəsi və müsəlmanların içərisində sanballı və tanınmış bir insan idi. Peyğəmbər(s) onun xətrini çox istəyirdi. Həzrət Əli(ə) oğlanlarından birinin adını Osman qoymuşdu. Özü də buyurmuşdu ki, mən Osman ibn Məzunu çox istədiyim üçün oğlanlarımdan birinə onun adını qoydum. Hər dəfə onu görəndə Osman ibn Məzun yadıma düşərdi.

onlar elə Məkkənin girəcəyində başa düşdülər ki, eşitdikləri bütün xəbərlər yalan imiş. Məkkədə vəziyyət hələ də ağır olaraq qalırdı və müsəlmanlar hələ də müşriklərin təzyiqi altında yaşayırdılar. Müşriklər harada müsəlman görürdülərsə tutub işgəncə verir, hətta onları öldürürdülər. Onlar bu xəbəri elə bir vaxt eşitdilər ki, artıq gec idi. Nə Məkkəyə girə bilirdilər, nə də geri, Həbəşistana qayıtmağa imkanları var idi. Osman ibn Məzun çox fikirləşib bir qərara gəldi və təkbaşına Məkkəyə daxil oldu.

Ərəblərin içərisində o zamanlar belə bir qayda var idi. Əgər bir ərəb başqa bir ərəbin yanına gedib ondan pənah istəsəydi, həmin ərəb də onu geri qaytarmazdı. Onlar bu işə "cəvar" deyirdilər. "Cəvar" odur ki, bir nəfər digərinə pənah aparır və o da həmin şəxsə yanında sığınacaq verir. Həmçinin ərəblərdə belə bir adət də var idi ki, hətta ən pis düşmən hər hansı bir ərəbin qapısına pənah gətirsəydi, onu geri qaytarmaz və ona sığınacaq verərdilər. Hər kim pənah gətirən şəxsi geri qaytarsaydı, camaat həmin şəxsin üzünə baxmazdı.

Osman ibn Məzun Məkkəyə daxil olduqdan sonra bu fikirlə birbaşa Vəlid ibn Müğeyrənin qapısına gəldi. Fikirləşirdi ki, Vəlid Məkkədə tanınmış bir insan olduğu üçün ona sığınacaq verəcək və o, Məkkədə əmin-amanlıq içərisində yaşayacaq. Beləcə, Osman ibn Məzun Vəlidin evinin qapısını döydü. Vəlid qapını açdıqda Osmanı görüb təəccübləndi. Qapıya gəlməkdə məqsədini soruşduqda Osman dedi: "Səndən cəvar istəməyə gəlmişəm." Vəlid onu qəbul etdikdən sonra dedi: "Bir şərtlə ki, sabah birlikdə Məscidül-hərama gedib bütün müşriklərə elan edim ki, sən bu gündən mənim cəvarımdasan."

Beləliklə razılaşıb səhərisi gün camaatın toplaşdığı vaxt Məscidül-hərama gəldilər. Vəlid ibn Müğeyrə Osmanın əlindən tutub müşriklərə dedi: “Camaat, bu gündən etibarən Osman mənim cəvarımdadır. Ona bir kəlmə artıq-əskik söz deyən elə bil ki, mənə demişdir.”

O gündən sonra Osman rahatlıqla Məkkədə gəzib dolaşırdı. Hətta onların məclislərində və yığıncaqlarında da iştirak edirdi. Bir neçə gün beləcə dolaşdıqdan sonra Osman öz-özünə dedi: “Müşriklər başqa müsəlmanları işgəncələrə məruz qoyduqları bir halda mən Vəlidin pənahında yaşayıram. Belə olmaz. Mən əgər müsəlmanamsa, o zaman Allahın pənahında olmalıyam. Nə üçün müşrik bir insana pənah gətirmişəm?”

O, bu düşüncələrlə Vəlidin yanına gəlib dedi: “Mən artıq sənin cəvarında qalmaq istəmirəm.”

Vəlid dedi: “Məgər mənim sənə qarşı hörmətsizliyim olubmu? Nədənsə narazılığın var?”

Osman dedi: “Səndən razıyam və narazıçılığa da heç bir əsas yoxdur. Məni cəvarına qəbul etdiyin üçün də sənə təşəkkür edirəm. Amma öz istəyimlə sənin cəvarından çıxmaq istəyirəm. Çünki sənin cəvarında olmaq məsələsində səhvə yol vermişəm. Mən Allah-təalanın pənahında qalmağı sənin pənahında qalmaqdan daha üstün bilirəm.”

Vəlid dedi: “Onda sabah yenə də birlikdə Məscidül-hərama gedək və mən elan edim ki, sən artıq mənim cəvarımda deyilsən.”

Səhərisi gün onlar hamının toplaşdığı bir vaxtda Məscidül-hərama gəldilər. Vəlid ayağa qalxıb dedi: “Camaat, bu günə qədər Osman mənim cəvarımda idi. Öz istəyi ilə bu andan etibarən o, mənim cəvarımdan çıxır.” Sonra Osman ayağa qalxıb hamıya öz təşəkkürünü

bildirdikdən sonra dedi: “Mən öz istəyimlə Vəlidin cəvarından çıxdım.”

O, bir neçə gündən sonra eşidir ki, müşriklərin yığıncağı olacaq və həmin məclisdə şairlər və ədəbiyyatçılar bir yerə toplaşıb öz şeirlərini oxuyacaqlar. Osman öz-özünə dedi: “Vəlidin cəvarında olduğum günlər mən də həmin məclislərdə iştirak edərdim. Onun cəvarında olduğuma görə mənə dəyib-dolaşan olmurdu. İndi Vəlidin cəvarından çıxdığım bir zamanda yenə də gedib həmin məclisdə iştirak etmək istəyirəm. Görək nə olur?”

Hamı toplaşdıqdan sonra məclis başladı. Osman da gəlib həmin məclisdə əyləşdi. Ən tanınmış şairlərdən biri olan Lubeyd ibn Rəbiə Məkkəyə qonaq gəldiyi üçün bu məclisi təşkil etmişdilər. Lubeyd ayağa qalxıb yazdığı şeirlərdən oxumağa başladı. Onun oxuduğu ilk misra belə oldu:

أَلا كُلُّ شَيءٍ مَا خَلا اللّهُ بَاطِلُ

-Həqiqətən, Allahdan başqa hər bir şey batildir.

Osman bu sözü eşitdikdə dedi: “Əhsən!”

Lubeyd şerinin ikinci misrasını oxudu:

وَكُلُّ نَعِيمٍ لا مُحَالَةَ زَائِل

-Bütün nemətlərin hamısı zay olub aradan gedəcək.

Osman dedi: “Əlbəttə, dünya nemətləri zay olub aradan gedəcək, amma axirət nemətləri zay olmayacaqdır.”

Lubeyd Osmanın onun sözlərini kəsməsindən hirslənib dedi: “Bu kimdir ki, mənim sözlərimin qarşısında bir söz deyir və məndə səhv axtarır?” Bir nəfər ayağa qalxıb dedi: “Sən şerini oxumağa davam et. Təkcə

bu deyil ki, sənə etiraz edir. Bunlar bir dəstədirlər ki, təzəcə peyda olub hər bir işə etiraz edirlər. Onların rəhbərləri də Məhəmməddir(s).”

Osman da həmin adama yaxşıca cavab qaytardı. O isə gəlib Osmanın üzünə bir yumruq ilişdirdi və Osmanın gözünün altı göyərdi. Sonra dedi: “Sən Vəlid ibn Müğeyrənin cəvarından çıxıb Allahın pənahında yaşamaq istəyirsən? Sən belə böyümüsən ki, Vəlid kimi bir şəxsin cəvarını qəbul etmirsən? Vəlidin cəvarında olsaydın, indi gözünün altı göyərməzdi. Allahın cəvarına keçdiyin üçün yumruq yedin və gözünün altı göyərdi.”

Osman onun cavabında dedi: “Mən Allahın cəvarında oldum və Onun yolunda bir gözümün altı göyərdi. Bu biri gözüm də fəxrlə Allahın yolunda göyərməyə hazırdır. Mən əgər Allahın bəndəsiyəmsə, Onun da cəvarında olmalıyam. Allahdan başqasının pənahında olmağı özümə ar bilirəm. Allahdan başqasına söykənməyi şirk hesab edirəm.”

Beləcə, müsəlmanlar Allaha iman gətirdikləri gündən etibarən şirkdən uzaqlaşıb Allahın vəhdaniyyətini səmimi qəlbdən qəbul etdilər. Bu yolda hər nə qədər əziyyət görmüşdülərsə Allaha tapşırmışdılar. Yəni bu yolda Allaha xatir bütün əzab-əziyyətlərə dözürdülər.

Odur ki, hər bir insan Allahdan başqasına söykənməməlidir. Çünki insan Allahdan başqa hər nəyəsə söykənib ona arxalansa, gec-tez yıxılacaq.

“Rəd” surəsinin 16-cı ayəsində oxuyuruq:

قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ وَالأَرْضِ قُلِ اللّهُ قُلْ أَفَاتَّخَذْتُم مِّن دُونِهِ أَوْلِيَاء لاَ يَمْلِكُونَ لِأَنفُسِهِمْ نَفْعًا وَلاَ ضَرًّا

-(Müşriklərə) de: “Göylərin və yerin Rəbbi kimdir?” (Sonra özün) de: “Allah!” De: “Belə isə hətta özləri üçün (heç) bir xeyir və ziyan qüdrətinə malik olmayanları, Ondan qeyrisini özünüzə yardımçı və başçı götürürsünüzmü?!”

Bütün tarix boyu allahlıq iddiası edən çoxlu şahlar olmuşdur. Ancaq onlar özləri də bilirdilər ki, allahlıq iddiası etmələri puç və batildir.

Firon da allahlıq iddiası edir və camaatı özünə səcdə etməyə vadar edirdi. Halbuki özü də Allah olmadığını heç şübhəsiz və tam dəqiqliklə bilirdi. O, yəqinliklə bilirdi ki, Allah-təala qarşısında allahlıq iddiası edir. Günlərin birində bir qrup adam Fironun yanına gəlib dedilər: “Filan çayın suyu quruyub. Əkinlərimiz və mal-qaramız tələf olmaq üzrədir. Sən bizə Allahlıq edirsən və biz də sənin qarşında səcdə edirik. Səndən xahişimiz budur ki, həmin çaya su gəlməsini əmr edəsən.”

Firon öz-özlüyündə bilirdi ki, onun sözü ilə çaya su gələsi deyil. Odur ki, yanına gələn adamlara dedi: “Siz gedin, mən bu işi görərəm.” Beləcə, o, bir neçə gün camaatın başını qatdı. Elə başa düşürdü ki, onların başını qatmaqla bir daha yanına qayıdan olmayacaq. Lakin şikayətçilərin sayının günü-gündən daha da artdığını görüb təşvişə düşdü. Kitablarda yazırlar ki, Firon camaatı birtəhər yola verib özü xəlvəti bir yerə çəkildi. Üzünü torpağın üstünə qoyub Allahla danışmağa başladı: “İlahi, Sən də bilirsən, mən də bilirəm ki, mən Allah deyiləm. Həqiqətən, yeri-göyü yaradan sənsən. İşlərimin gedişatına, vəzifəmin nüfuzuna görə bu işə əl atıb allahlıq iddiası etmişəm. Səndən xahiş edirəm ki, məni bu camaatın

yanında rüsvay etmə. Sən əmr ver ki, həmin çaya su gəlsin."

"Nisa" surəsinin 193-cü ayəsində belə buyurulur:

الَّذِينَ يَتَّخِذُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَيَبْتَغُونَ عِندَهُمُ الْعِزَّةَ فَإِنَّ العِزَّةَ لِلّهِ جَمِيعًا

-Həmin o kəslər ki, möminlərin yerinə kafirləri özlərinə başçı, köməkçi və dost tuturlar. İzzət və əzəməti onların (kafirlərin) yanında axtarırlar? Belə isə (bilsinlər ki,) həqiqətən, bütün izzətlər Allaha məxsusdur.

Kafir insan heç bir vaxt izzətli ola bilməz və kiməsə izzət verə bilməz. Öz-özünə izzət qazana bilməyən başqasını necə əziz edə bilər? İzzət Allahın yanındadır və kim əziz olmaq istəyirsə, Ona yaxın olmalıdır. İzzəti insana yalnız O, bəxş edə bilər. Tarixdə bir çox insanların şahidi olmuşuq ki, Allahın istəyi ilə izzətli olmuşlar. Dünyanın hamısı toplaşıb onu zəlil etməyə çalışmışlar, amma gücləri çatmamışdır. Çünki o, Allahın iradəsi ilə izzət tapmışdır. Allah izzətə çatdırdığı kəsi isə heç bir kəs zəlil edə bilməz. Allah zəlil etdiyi kəsi isə heç kim izzətə çatdıra bilməz. Ən qədim dövrlərdən danışası olsaq Həzrət İbrahimi(ə) misal çəkmək olar.

Bayram günlərinin birində müşriklərin hamısı çöllərə, biyabanlara dağılışmışdılar. Şəhərdə təkcə Həzrət İbrahim(ə) qalmışdı. Həzrət İbrahim(ə) bütxanaların boş qaldığını gördükdə baltanı götürüb bütxanalara tərəf yollandı və bütlərin hamısını sındırıb dağıtdı. Təkcə böyük bütə əl vurmadı və baltanı onun yanına qoyub getdi. Şəhər camaatı bayramdan qayıtdıqdan sonra gördülər ki, bütlər tamamilə sındırılıb və dağıdılıb. Fəryad çəkib başlarına vurdular və şəhərdə təkcə Həzrət

İbrahim(ə) qaldığı üçün ondan şübhələnməyə başladılar. “Ənbiya” surəsinin 62-68-ci ayələrində oxuyuruq:

قَالُوا أَأَنتَ فَعَلْتَ هَذَا بِآلِهَتِنَا يَا إِبْرَاهِيمُ. قَالَ بَلْ فَعَلَهُ كَبِيرُهُمْ هَذَا فَاسْأَلُوهُمْ إِن كَانُوا يَنطِقُونَ. فَرَجَعُوا إِلَى أَنفُسِهِمْ فَقَالُوا إِنَّكُمْ أَنتُمُ الظَّالِمُونَ. ثُمَّ نُكِسُوا عَلَى رُؤُوسِهِمْ لَقَدْ عَلِمْتَ مَا هَؤُلَاء يَنطِقُونَ. قَالَ أَفَتَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَنفَعُكُمْ شَيْئًا وَلَا يَضُرُّكُمْ. أُفٍّ لَّكُمْ وَلِمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ أَفَلَا تَعْقِلُونَ. قَالُوا حَرِّقُوهُ وَانصُرُوا آلِهَتَكُمْ إِن كُنتُمْ فَاعِلِينَ

-(Onu gətirəndən sonra) dedilər: “Ey İbrahim, bizim tanrılarımız barəsində bunu (bu çirkin və qorxulu işi) sən etmisən?”

Dedi: “Xeyr, əksinə, onu (bu hörmətsizliyi) bu böyükləri edib. Buna görə də əgər danışırlarsa, özlərindən soruşun.”

Belə olan halda onlar (əvvəlcə bir anlıq) özlərinə gəlib ayıldılar və (batində özlərinə və ya bir-birilərinə) dedilər: “Doğrudan da siz özünüz zalımsınız (ki, cansız şeylərə ibadət edirsiniz)!”

Sonra (fikirlərindən) döndülər və öz əvvəlki əqidələrinə qayıdaraq İbrahimə dedilər: “Sən bunların heç vaxt danışmadıqlarını yaxşı bilirsən.”

Dedi: “Belə isə bəs siz Allahın yerinə sizə heç bir xeyir-ziyan yetirməyən  şeylərə ibadət edirsinizmi?! Tfu həm sizə, həm də Allahın yerinə ibadət etdiklərinizə! Heç düşünmürsünüz?!”

Dedilər: “Əgər (doğrudan da) bir iş görəcəksinizsə, onu (İbrahimi) yandırın və tanrılarınıza kömək edin!”

Həzrət İbrahimi(ə) tutub zindana saldılar. Nəmrud əmr verdi ki, camaat bacardığı qədər odun yığıb gətirsin. Bütün şəhər camaatı odun toplamaqla məşğul oldu. Elə böyük bir tonqal qaladılar ki, hətta onun üzərindən bir quş da uça bilmirdi. Sonra İbrahimi(ə) gətirib oda atmaq istədilər. Bunun mümkün olmadığını görüb bir mancanaq da gətirdilər. İbrahimi(ə) həmin mancanağın üstünə qoyub tonqalın içinə atmağa hazırlaşdılar. Elə bu zaman Cəbrayıl(ə) nazil olub ərz etdi: "Ey İbrahim, məndən bir istəyin varmı? İbrahim dedi: Səndən heç bir istəyim yoxdur. Amma aləmlərin Rəbbindən istəyim var. Onun mənim halımdan xəbərdar olması mənə bəs edər."

Bəzi hədislərdə belə nəql olunur ki, Cəbrayıl(ə) gəlməmişdən əvvəl Həzrət İbrahim(ə) mancanağın üstündə Allahla minacat edərək belə dua etdi: "Ya Allah, ya Vahid, ya Əhəd, ya Səməd, ya mən ləm yəlid vələm yuləd, vələm yəkun ləhu kufuvən əhəd. Nəccini minən-nar birəhmətik."

Hamı İbrahimin(ə) aqibətinin nə ilə nəticələnəcəyini gözləyirdi. Bütün şəhər əhalisi bu mənzərəni görmək üçün ora toplaşmışdılar. Nəmrud da öz sarayının eyvanında dayanıb tamaşa edirdi. O, mancanağı işə salmaq əmrini verdi, lakin mancanaq işləmədi. Nə qədər çalışdılarsa, yenə də mancanaq işləmədi. Şeytan bir insan surətində Nəmrudun yanına gəlib dedi: "Bilirsənmi mancanaq niyə işləmir? Nəmrud dedi: Yox. Şeytan dedi: Çünki orada mələklər var. O mələklər getməyincə mancanaq işləməyəcək. Nəmrud dedi: Bəs indi biz nə edək? Şeytan dedi: Bir qadın tapın ki, gəlib mancanağın yanında başından hicabını açsın. Belə olan halda mələklər uçub gedəcək. Çünki hicabsız qadın olan yerdə mələk olmaz. Bu halda mancanaq da işləyəcək." Nəmrud həmin sözləri

eşitdikdə əmr verdi ki, bir qadın tapıb gətirsinlər və o da mancanağın kənarında dayanıb başındakı hicabı çıxarsın. Xidmətçilər bir neçə qadın tapdılar. Amma qadınlar bu işə razı olmadılar. Nəhayət, bir qadını bu işi görməyə razı saldılar. Qadın orada başını açan kimi mancanaq işləməyə başladı. Beləcə, İbrahimi(ə) tonqalın içinə atdılar. O, tonqalın içinə düşən kimi Allah-təala tonqala İbrahimi(ə) sağ-salamat saxlamaq əmrini verdi:

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

-Biz də "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!" – deyə buyurduq.[1]

İmam Sadiq(ə) buyurur ki, əgər Allah-təala oda "soyuq ol" - desəydi, İbrahim(ə) tonqalın içində soyuqdan ölə bilərdi. Buna görə də tonqala soyuq olmaqla yanaşı, İbrahimi(ə) zərərsiz və sağ-salamat saxlamağı əmr etdi.

Beləliklə, tonqalın içərisi İbrahim(ə) üçün yaz havası kimi sərin oldu. Rəvayətdə belə yazılıb ki, hətta İbrahimin(ə) ətrafında gül-çiçəklər də bitmişdi. Bu, uca və əzəmətli olan Allah-təalanın qüdrətidir ki, hər bir şeyə iradə etsə dərhal olar.

Bu əhvalatı danışmaqda məqsədim odur ki, hər bir kəs Həzrət İbrahimin(ə) tonqalın içində yanmasını istəyirdi. Hamı İbrahimin(ə) ölməsini və zəlil olmasını istəyirdi. Amma Allah bunu istəmədiyi üçün Həzrəti İbrahimi(ə) nə odda yandıra bildilər, nə də öldürə bildilər. Odur ki, əgər Allah birinə izzət bəxş etsə, bütün dünya yığışsa da belə həmin şəxsin izzətini sındıra bilməzlər. Yox, əgər Allah birini zəlil vəziyyətə salsa, bütün dünya

[1] Ənbiya surəsi, ayə 69.

yığışsa da onu izzətə çatdıra bilməyəcək. Keçmiş dövrlərdən savayı hazırkı həyatımızda da məgər bu kimi hadisələrin şahidi olmuruqmu? Məgər dünyanın qüdrətli ölkələrinin himayə etdiyi insanların aqibətlərini görmürükmü? Dünyanın bəzi qüdrətli ölkələrinə arxalanmış və əllərindən gələn cinayətləri törədən insanların aqibəti çox acınacaqlı olmuşdur. Bəzən də onlar elə həmin arxalandıqları qüdrətlər tərəfindən istifadə olunduqdan sonra məhv edilib aradan aparılırlar. Dünyanın hamısı əl-ələ verib bir nəfəri izzətə çatdırmaq istəsələr və əgər Allah-təala bunu istəməsə, bu işi heç bir vaxt görə bilməyəcəklər.

Odur ki, hər kim Allahdan başqasına söykənib arxalansa, zəlil və xar olacaqdır. Amma kim yalnız Allaha söykənsə və Allahdan başqa heç bir qüdrət olmadığını başa düşsə, elə bir izzətə çatar ki, heç bir kəs onu zəlil edə bilməz. Beləliklə, şirk insanı zəlil, tövhid isə əziz edər. Çünki izzət bütünlüklə Allah-təala yanındadır.

## Müşriklərdən kömək istəmək olarmı?

Ötən bəhslərimizdə qeyd olundu ki, Allaha iman gətirmək üçün insan ilkin olaraq bütlərə və tağutlara qarşı çıxmalıdır. Yəni tövhidə malik olmaq üçün insan ilk növbədə şirki özündən təmizləməlidir. Allah-təala Quranda bu məsələni təkidlə irəli sürür. Bununla da insanları başa salır ki, insanın qəlbindən büt və tağutların məhəbbəti çıxmasa, Allah-təalanın məhəbbəti də həmin qəlbə daxil olmayacaq. Allah-təala bəri başdan insanları xəbərdar edir ki, insanın söykənib arxalandığı bütlər heç bir vaxt onlara xeyir gətirməyəcək. Odur ki, bunu indidən bilmək və əməl etmək lazımdır. Çünki ömür qurtardıqdan

sonra bu məsələni başa düşüb peşman olmağın da heç bir faydası olmayacaq. Bütlərin zərrə qədər də olsa belə heç bir şeyə sahibliyi yoxdur. “Fatir” surəsinin 13-cü ayəsində buyurulur:

وَالَّذِينَ تَدْعُونَ مِن دُونِهِ مَا يَمْلِكُونَ مِن قِطْمِيرٍ

-Onun yerinə çağırdıqlarınız həqiqətdə xurma çərdəyinin qabığına belə malik deyillər.

Həmçinin bütlər insana nə ruzi verə bilər, nə də insanı hansısa zərərdən qurtara bilərlər. Bütün mülkiyyət Allaha məxsusdur. Aləmdə olan bütün varlıqların hamısı Onundur. Ruzi verən də odur, dirildən də Odur, öldürən də odur. “Ənkəbut” surəsinin 17-ci ayəsində belə buyurulur:

إِنَّ الَّذِينَ تَعْبُدُونَ مِن دُونِ اللَّهِ لَا يَمْلِكُونَ لَكُمْ رِزْقًا فَابْتَغُوا عِندَ اللَّهِ الرِّزْقَ وَاعْبُدُوهُ وَاشْكُرُوا لَهُ إِلَيْهِ تُرْجَعُونَ

-Şübhəsiz, Allahın yerinə ibadət etdikləriniz sizə heç bir ruzi verməyə qadir deyillər. Odur ki, ruzini yalnız Allahdan diləyin və Ona ibadət edin. Ona şükür edin ki, hamınız Ona tərəf (hüzuruna) qaytarılacaqsınız.

Burada qeyd etmək lazımdır ki, bütpərəstlik təkcə xurmadan, taxtadan və daşdan düzəldilmiş bütlərə ibadət etməklə bağlı deyil. Düzdür, bunlar da bütlərin bir qismidir. Amma bir qisim insanlar da bəzi canlıları və insanları özlərinə büt kimi qəbul etmişdilər. Onlar həmin canlı insanların qarşısında baş əyir və onlara arxalanırdılar. Bu adamlar elə başa düşürdülər ki, onlar pis və çətin anlarda onu müdafiə edə biləcəklər. Daha başa düşmürlər ki, həmin bütə çevirdiyi insan da kiçik bir hadisə nəticəsində məhv olub aradan gedəcək. Camaatın içərisində hay-küy salmasına, fironluq etməsinə və

ətrafına yaltaq adamları toplamasına baxmayaraq, onun özü də Allah-təalaya möhtacdır. Ölüm zamanı yetişdikdə isə, kimliyindən asılı olmayaraq bir an da olsun belə ona macal verməyəcəkdir. Belə olduğu halda onları bütə çevirmək və onlara arxalanmaq düzgündürmü? “Fatir” surəsinin 14-cü ayəsində belə buyurulur:

إِن تَدْعُوهُمْ لَا يَسْمَعُوا دُعَاءَكُمْ وَلَوْ سَمِعُوا مَا اسْتَجَابُوا لَكُمْ وَيَوْمَ الْقِيَامَةِ يَكْفُرُونَ بِشِرْكِكُمْ

-Əgər onları çağırsanız, sizin dəvətinizi eşitməzlər və əgər eşitsələr də sizə cavab verməzlər. Qiyamət günü şərikliyinizi inkar edəcəklər və heç bir kəs səni (dünyada və axirətdə onların halından) agah və xəbərdar olan Allah kimi xəbərdar etməz.

Allah-təala bu kimi ayələrdə daşa, taxtaya, həmçinin özü üçün bütə çevirdiyi insanlara pərəstiş edənləri və onlara arxalananları bu işdən çəkindirir və tək olan bir Allaha söykənməyə və yalnız Ona ibadət etməyə çağırır.

Bu bəhsimizdə biz iki mətləbə də diqqət yetirəcəyik. Şirk barəsində olan mətləblərdən biri budur ki, insan müşriklərin özlərindən onların öz əleyhlərinə kömək istəməsi düzgündürmü? Yaxud müsəlman çətin vəziyyətdə müşriklərdən kömək istəyə bilərmi? Həzrət Peyğəmbər(s) bu işi bəyənmir və müsəlmanların müşriklərdən kimin əleyhinə olmasından asılı olmayaraq kömək istəmələrini xoşlamır.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّا لا نَستَعِينُ بِمُشرِكٍ

-Həzrət Peyğəmbər(s) buyurur: “Biz müşriklərdən heç bir kömək istəmirik.”[1]

Həzrət Peyğəmbər(s) müxtəlif hadisələr, müharibələr və bir sıra çıxışları zamanı bu barədə bəhs etmişdir. Nümunə üçün bir neçə rəvayətə diqqət yetirək.

Ühüd müharibəsinə hazırlıq işləri qurtardıqdan sonra müsəlmanlar yola düşdülər. Yolda Rəsüs-səniyyə adlı bir məntəqəyə çatdıqda Həzrət Peyğəmbər(s) gördü ki, arxadan silahlı bir dəstə onlara tərəf gəlir. Həzrət(s) soruşdu: “Bunlar kimdir? Dedilər: Ya Rəsulallah, bunlar İbn Əbi Übeyin tərəfdarları olan yəhudilərdir. Onlar bizə kömək etməyə gəlirlər. Peyğəmbər(s) buyurdu: Biz müşriklərlə mübarizədə digər müşriklərdən kömək istəmirik. (Bir müşriki yıxmaq üçün digər müşrikin köməyinə ehtiyacımız yoxdur.)”[2]

Xubeyb ibn Yisaf çox güclü və qüvvətli bir insan idi. O, İslamı qəbul etməmişdi, amma Peyğəmbərin(s) xətrini çox istəyirdi. Bundan əlavə, o, Peyğəmbərin(s) ana tərəfdən qohumu, həm də qonşusu idi. Həzrət Peyğəmbər(s) Bədr müharibəsinə yollanarkən Xubeyb və Qeys ibn Haris də Həzrətin(s) qoşununun arxasınca gəlirdilər. Peyğəmbər(s) qoşunla birlikdə dincəlmək üçün Ətin vadisində dayandı. Peyğəmbər(s) orada başlarında dəmir papaq və əyinlərində zirehli döyüş paltarı olan iki nəfəri gördü. Həzrət(s) Səd ibn Məazdan soruşdu:

---

[1] Mizanül-hikmə,6-cı cild, hədis-9698.

[2] İbn Əbi Übey özü müsəlman idi. Onun tərəfdarlarından bir dəstəsi isə yəhudi idi. Ərəblər arasında o zaman belə bir adət var idi ki, onlar bir dəstə olaraq yığışıb bir-biriləri ilə əhd-peyman bağlayırdılar ki, istənilən hər bir halda bir-birinə kömək etsinlər.

"Onlardan biri Xubeyb deyilmi? Səd dedi: Bəli, ya Rəsulallah, özüdür ki var."

Xubeyb Peyğəmbərin(s) onu tanıdığını görüb Həzrətə(s) yaxınlaşdı. Peyğəmbər(s) ondan soruşdu: "Sən burada nə edirsən? Xubeyb dedi: Əvvəla, sən mənim qohumumsan. İkincisi isə budur ki, sən bizim qonşumuzsan. Ərəblərin içərisində hamı mənim güclü bir insan olduğumu bilir. Heç bir döyüşdə məğlub olmamışam. Hansı döyüşdə iştirak etmişəmsə, qalib gəldikdən sonra orada ələ düşən qənimətdən mənim də payımı ayırıblar. Peyğəmbər(s) buyurdu: Mən sənə bu döyüşdə iştirak etməyə icazə vermirəm. Əgər müsəlman olsaydın, o zaman heç bir problem olmazdı. Amma müşriki yıxmaq üçün bizə müşrikin köməyi lazım deyil."

Sonra Peyğəmbər(s) qoşunla birgə hərəkət etməyə başladı. Ruha adlı bir yaşayış məntəqəsində Xubeyb Həzrət Peyğəmbərə(s) yaxınlaşıb ərz etdi: "Ya Rəsulallah, mən İslamı qəbul edirəm." Peyğəmbər(s) onun müsəlman olmasına görə şad oldu və buyurdu: "Elə isə yoluna davam edə bilərsən." Amma Qeys ibn Haris İslamı qəbul etmədiyi üçün Həzrət(s) onu Mədinəyə geri qaytardı. Qeys Mədinəyə qayıtdıqdan sonra müsəlman olmadığı üçün çox peşman oldu. Lakin Bədr döyüşündən sonra o da İslam dinini qəbul edərək müsəlman oldu. Ondan sonra isə Ühüd müharibəsində Həzrət Peyğəmbərin(s) hüzurunda şəhid oldu.[1]

Deməli, qeyd olunan sualın cavabında görürük ki, müşrik və şirk əhli ilə mübarizədə digər şirk əhlindən kömək istəmək olmaz. Qeyd edilən rəvayətlərdə də

[1] Mizanül-hikmə,6-cı cild, hədis-9303.

Peyğəmbərin(s) hərəkətlərindən açıq-aydın görürük ki, Həzrət(s) də heç bir zaman müşriklərdən kömək istəməzdi. Həm özü bu işi görməzdi, həm də müsəlmanlara icazə verməzdi ki, müşrikləri yıxmaq üçün digər iman gətirməyənlərdən kömək istəsinlər.

## Doğru hədəfə düz yolla çatmaq olar

Burada bir bəhs də vardır ki, əgər onun ətrafında söhbət edəsi olsaq, bu çox uzun çəkər. Yəni bu özü böyük bir bəhsdir. Amma burada qısaca da olsa həmin mövzu ilə bağlı bir neçə fikrimizi qeyd etməyi zəruri sayırıq. Bir qrup insanın əqidəsi belədir ki, hədəfə çatmaq üçün hər bir vasitədən istifadə etmək mümkündür. Yəni insan hədəfə çatmaq üçün halal, yaxud haram yollardan istifadə edə bilər.

İndi isə bu fikrin doğru olub-olmamasına diqqət yetirək. Məgər Allah-təala və Həzrət Peyğəmbər(s) icazə verirmi ki, insan hansısa hədəfə çatmaq üçün əyri yollardan da istifadə etsin? Bu sualın cavabında qətiyyətlə demək olar ki, xeyr. Peyğəmbər(s) müşriklərdən kömək istəmədiyi kimi, hədəfə çatmaq üçün əyri yollardan istifadə etməyə də icazə vermirdi. Peyğəmbər(s) müşrikləri digər müşriklərin köməyi ilə daha tez məğlub edə bilərdi, amma bu işi görmədi. Çünki bir müşriklə digər müşrikin heç bir fərqi yoxdur. Əgər müşrikləri yıxmaq üçün digər müşriklərdən kömək alınsa, istər-istəməz yenə də onlarla problem yaşanacaqdır. Bundan əlavə pak və doğru hədəfə çatmaq üçün pak və düzgün yollardan istifadə etmək lazımdır. Pak hədəflərə murdar əməllər vasitəsilə çatmaq mümkün deyildir.

Əbu Hüreyrə Müaviyə tərəfindən Məkkəyə hakim təyin olunmuşdu. Günlərin birində Əkkə əyalətindən bir nəfər onun yanına gəlib dedi: “Mən çox çətin vəziyyətə düşmüşəm. Əbu Hüreyrə soruşdu: Nə olub sənə? Həmin şəxs dedi: Mən eşitmişdim ki, Məkkədə soğan yoxdur. Buna görə də ticarət məqsədilə hər nəyim vardısa satıb əvəzində soğan aldım ki, gətirib burada satım. Bura

gəldikdən sonra baxıb gördüm ki, mənə səhv məlumat veriblər. Bütün mallar üstümdə qalıb və indi mən həmin soğanı heç bir kəsə sata bilmirəm. Məni bu ağır vəziyyətdən çıxart. Özün də bilirsən ki, bir insanı çətin vəziyyətdən çıxarmaq müqəddəs əməldir.” Əbu Hüreyrə dedi: “Sən özün haradan gəlmisən? O dedi: Əkkədən. Əbu Hüreyrə dedi: Bir şey fikirləşərəm. O dedi: Nə fikirləşmək istəyirsən? Əbu Hüreyrə dedi: Peyğəmbərin(s) adından bir hədis düzəldib camaata deyərəm. Beləliklə, soğanlarının hamısını satıb qurtararsan.”

Sonra Əbu Hüreyrə camaatı bir yerə toplayıb belə dedi: [1]

اَيُّهَا النَّاس سَمِعتُ مِن حَبِيبِى رَسُولُ اللهِ: مَن اَكَلَ بَصَلَ عَكَّة فِى مَكَّةَ وَجَبَ لَهُ الْجَنَّة

-Camaat, sevimli Rəsulallahdan eşitmişəm ki, belə buyurmuşdur: Hər kim Məkkədə Əkkə soğanı yesə, cənnət ona vacib olar.

Adamlar bu sözü eşidən kimi axışıb həmin əkkəlinin soğanlarını almağa başladılar.[2]

Əbu Hüreyrənin ola bilsin ki, burada hədəfi müqəddəs olmuş olsun. Bir nəfəri çətin vəziyyətdən çıxardı, amma o, bu işi qeyri-düzgün yolla həyata keçirdi. Belə deyə bilərik ki, o, müqəddəs bir hədəfə natəmiz vasitələrlə çatmaq istədi. O, Peyğəmbərin(s) adından yalan danışmaqla bir nəfəri çətin vəziyyətdən çıxartdı. Halbuki

[1] Seyri dər sireyi nəbəvi, səh.130.
[2] Yenə orada.

nə Allah, nə də Həzrət Peyğəmbər(s) belə bir işə razı deyildır.

Həzrət Əlinin(ə) xəlifəliyi dövründə Müğeyrə ibn Şubə adlı o dövrün siyasətçilərindən biri Həzrətin(ə) yanına gəldi. O, Həzrət Əliyə(ə) belə dedi: "Ya Əmirəlmöminin, Müaviyə ilə bağlı sənə bir təklifim var. Həzrət(ə) buyurdu: Təklifini de. O dedi: Ya Əmirəlmöminin, indi sən iqtidara gəlmisən və camaat hamılıqla səni özünə rəhbər bilir. Vəziyyət belədir ki, sən Müaviyə ilə müharibə etsən, bu işdə siyasi baxımdan məqsədə çata bilməyəcəksən. Odur ki, Müaviyəni meydandan uzaqlaşdırmaq üçün ilk növbədə onu bir yerə hakim təyin et. Hamı Müaviyənin sənin tərəfindən vəzifəyə təyin olunduğunu bildikdən sonra, yəni bir-iki ay keçməmiş əmr verib onu işdən kənarlaşdır. Belə olduqda Müaviyənin əl-qolu bağlanar və hamı onun nüfuzdan düşdüyünü görüb ondan uzaqlaşar. Belə olduqda heç bir kəs etiraz etməyəcək. Çünki hamı səni xəlifə bilir və kimsəni işdən kənarlaşdırmağına, yaxud iş başına gətirməyinə heç bir kəs etiraz etməz." Həzrət Əli(ə) buyurdu: "Mən belə (batil, kələk və hiylə) yollarla haqqı irəli aparmaq istəmirəm. Haqq yalnız haqq yollarla irəli aparılmalıdır. Mən Müaviyənin bir ay deyil, bircə an belə camaata hakim olmasının şəriət baxımından məsuliyyətini öz üzərimə götürə bilmərəm. Əgər onu hətta bircə ay olsa da belə bir yerə hakim təyin etsəm, bu o demək olar ki, mən onu saleh və təmiz insan kimi qələmə vermiş oluram. Əgər onu harasa təyin etsəm, bu o deməkdir ki, camaat onun arxasında dayanıb namaz qıla bilər. Amma mən onu cinayətkar, nadürüst və hiyləgər bir adam kimi tanıyıram. Mən heç bir vaxt Müaviyəni camaata hakim təyin edərək batil yollar vasitəsilə haqqı irəli apara bilmərəm. Haqqı irəli aparmaq üçün, pak

məqsədə çatmaq üçün yalnız haqq yollardan, haqq əməllərdən və pak vasitələrdən istifadə olunmalıdır.”[1]

Odur ki, müqəddəs bir hədəfə çatmaq üçün insan eləcə müqəddəs vasitələrdən istifadə etməlidir. Əgər bir insan yalan danışmaqla, Peyğəmbərin(s) adından yalan hədis söyləməklə beş nəfəri günahdan çəkindirirsə, bu vasitə nadürüst vasitədir. Əsl həqiqətdə həmin adam başqalarına nicat verir, amma özünə cəhənnəm qazanır. İslam dinində bu kimi işlər yolverilməzdir. Ona görə ki, yalan danışmaqla və ya nadürüst sasitələrlə xeyirxah məqsədə çatmaq düzgün deyildir. Buna görə də hər bir təmiz hədəfə çatmaqdan ötrü insan pak vasitələrdən istifadə etməlidir.

## İmanla şirkin sərhədi

Bu bəhsimizdə olan ikinci mətləb imanla şirkin sərhədi barədədir. Sual oluna bilər ki, görəsən şirklə imanın sərhədi varmı? Yəni elə bir hədd varmı ki, həmin həddin bir tərəfi iman, digər tərəfi isə şirk olmuş olsun? Cavab belədir ki, bəli, şirklə iman arasında sərhəd vardır. Məsələn, iki ölkə arasında sərhəd qoyulur. Hər kəs də bilir ki, həmin sərhədin bir tərəfi filan ölkə, digər tərəfi isə başqa bir ölkədir. Eləcə də imanla şirk arasında da belədir. Onların arasında olan sərhəd insanın Allaha olan əqidəsi ilə bağlıdır. Sözün qısası budur ki, əgər bir insan Allahı, Onun nazil etdiyi Quranı, göndərdiyi Peyğəmbəri(s) və onun gətirdiklərini qəbul edərsə, o zaman iman tərəfindədir, yox, əgər bunları qəbul etməzsə, o zaman şirk tərəfindədir.

[1] Seyri dər sireyi nəbəvi, səh.131.

قَالَ رَسُولُ اللهِ(ص): أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَشْهَدُوا أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَيُقِيمُوا الصَّلاَةَ، وَيُؤْتُوا الزَّكَاةَ، فَإِذَا فَعَلُوا ذَلِكَ عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إِلاَّ بِحَقِّ الإِسْلامِ، وَحِسَابُهُمْ عَلَى اللهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Mən Allahdan başqa heç bir məbud olmadığına və Məhəmmədin(s) Allahın qulu və Rəsulu olduğuna şəhadət verənə və namazlarını icra edib, zəkatlarını layiqincə verəcəkləri ana qədər insanlarla mübarizə aparmağa əmr olundum. Bunu etdikləri təqdirdə mallarını və canlarını mənə qarşı qorumuş olarlar, bu qədər ki, İslamın bir haqqı vardır. Və onların hesabı Allahın yanındadır.”[1]

Deməli, əgər bir insan Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini etiraf edirsə, o, iman tərəfində qərar tutur. Yox, əgər qəbul və etiraf etmirsə, deməli, o, şirk tərəfindədir.

Döyüşlərin birində Həzrət Peyğəmbər(s) müşriklərə qarşı mübarizə aparırdı. Üsamə ibn Zeyd də müsəlmanlar tərəfindən döyüşürdü. O, müşriklərdən biri ilə üz-üzə gəldi. Qılıncı qaldırıb onu vurmaq istəyəndə həmin müşrik dedi: “La ilahə illəllah.” Ancaq Üsamə həmin müşrikin bu sözünə etina etməyib onu vurub öldürdü.

Bu əhvalatı Peyğəmbərə(s) xəbər verdilər. Peyğəmbər(s) Üsaməni çağırıb soruşdu: “Eşitdiyim xəbər doğrudurmu?”

---

[1] Səhihi-Buxari,1-ci cild, səh.19.

Üsamə dedi: “Bəli, Ya Rəsulallah. Mən qılıncı qaldırıb onu öldürmək istəyəndə o, “La ilahə illəllah” dedi. Mən də onun bu sözünə fikir verməyib vurub öldürdüm.”

Peyğəmbər(s) buyurdu: “Sən onu nə üçün öldürdün?”

Üsamə dedi: “Ya Rəsulallah, o, qılıncın qorxusundan “La ilahə illəllah” kəlməsini dilinə gətirdi.

Peyğəmbər(s) yenə də buyurdu: “Sən də onu öldürdün?!”

Üsamə dedi: “Bəli.”

Peyğəmbər(s) buyurdu: “Qiyamət günü həmin “La ilahə illəllah” (mücəssəm surətdə sənin yanına) gəlsə, ona nə edəcəksən?”

Üsamə dedi: “Ya Rəsulallah, mənim üçün Allahdan bağışlanmağımı dilə.”

Yazırlar ki, həmin andan sonra Peyğəmbər(s) bir neçə dəfə bu sözü təkrar etdi: “Qiyamət günü həmin “La ilahə illəllah” (mücəssəm surətdə sənin yanına) gəlsə, ona nə edəcəksən?” [1]

Bu hədislərdən açıq-aydın görürük ki, imanla şirk arasında sərhəd vardır. Həmin sərhəd budur ki, insan Allaha və Peyğəmbərə(s) iman gətirsin. Əgər bir insan Allaha və Peyğəmbərə(s) iman gətirsə, onu öldürmək və ya onu müşrik adlandırmaq olmaz.

---

[1] Səhihi-Müslim,1-ci cild, hədis-160. Səhihi-Buxari, hədis-4269.

قَالَ رَسُولُ اللهِ(ص): بُنِيَ الإِسْلاَمُ عَلَى خِصَالٍ: شَهَادَةُ أَنْ لاَ إِلهَ إِلاَّ اللهُ وَأَنَّ مُحَمَّداً رَسُولُ اللهِ، وَالإِقرَارُ بِمَا جَاءَ مِن عِندِ اللهِ... فَلا تُكفِرُواهُم بِذَنبٍ وَلا تَشهَدُوا عَلَيهِم بِشِركٍ

-Həzrət Peyğəmbər(s) buyurur: “İslam bir neçə xislət üzərində qurulmuşdur. Allahdan başqa heç bir məbud olmadığına və Məhəmmədin(s) Allahın elçisi olduğuna şəhadət vermək... Şəhadət verən kəsləri hər hansı bir günahına görə kafir və ya müşrik adlandırmayın.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): أَيُّمَا رَجُلٍ مسلم كَفَّر رجُلاً مُسْلِماً فَإِنْ كانَ كافِرا، وَإِلاّ كانَ هُوَ الكافِرُ

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: “Heç bir müsəlmanın digər müsəlmanı küfr etməkdə ittiham etməyə ixtiyarı yoxdur. Əgər ittiham olunan şəxs kafir olsa, bu başqa məsələ. Yox, əgər ittiham olunan şəxs kafir olmasa, ittiham edənin (ona kafir deyənin) özü kafirdir.”[2]

Müharibələrin birində döyüş müsəlmanların qələbəsi ilə başa çatdıqdan sonra Peyğəmbər(s) əldə olunan qənimətləri beytülmal kimi möminlər arasında bölüşdürürdü. Bölüşdürmə zamanı bir nəfər elə zənn etdi ki, Peyğəmbər(s) ona az pay ayırıb. Ona görə də ədəbsizlik edərək Peyğəmbərə(s) dedi: “Ya Rəsulallah, Allahdan qorx.”

---

[1] Kənzül-ümmal,1-ci cild, səh.29.
[2] Sünəni ibn əbi Davud, səh.220.

Peyğəmbər(s) buyurdu: “Yer əhlində məndən daha çox təqvalı olan (Allahdan qorxan) varmı?”

Peyğəmbər(s) ona daha heç bir söz demədi. O da çıxıb getdi. Xalid ibn Vəlid dedi: “Ya Rəsulallah, icazə verirsənmi onu cəzalandırmaq üçün boynunu vurum?”

Peyğəmbər(s) buyurdu: “Xeyr. Bəlkə o, namaz qılan adamdır.”

Xalid dedi: “Bir sıra namaz qılanlar vardır ki, dildə namaz qılmalarına baxmayaraq, qəlbən iman gətirməmişlər.”

Peyğəmbər(s) buyurdu: “Mən camaatın ürəyindən və niyyətindən xəbər vermək üçün məmur olunmamışam. (Mənə icazə verilmir ki, camaatın niyyətindən xəbər verim.)”[1]

Odur ki, əgər hər kim dildə Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini etiraf edirsə, deməli, o, müsəlman sayılır. Ola bilsin ki, birinin günahı çox olmuş olsun, digərinin günahı az olsun. Bu günahlar onun kaifr və ya müşrik olmasına dəlalət etmir. Əgər bir insan Allahı qəbul edirsə, Peyğəmbəri(s) və onun gətirdiklərini qəbul edirsə, heç kimin onu kafir, yaxud müşrik adlandırmağa ixtiyarı yoxdur. Hər kim müsəlmana müşrik desə, həmin şəxsin özü müşrik hesab olunur. Çünki Allahı və Peyğəmbəri(s) qəbul edən insanların hamısı müsəlman ümməti sayılırlar. Kiməsə icazə verilmir ki, hər hansı bir müsəlmanı kafir, yaxud müşrik adlandırsın. Çünki belə olduqda İslam ümməti arasında ixtilaf yaranar və müsəlmanların əzəməti aradan gedər. Bəzən elə insanları görürük ki, müşrik sözü ağzından düşmür və ürəyi istədiyi

[1] Səhihi-Buxari,1-ci cild, səh.905.

adama müşrik deyir. Belə insanların İslamdan anlayışı olmadığı üçün bu sözü dillərinin əzbəri etmiş və istədikləri adamı şirkdə ittiham edirlər. Bir sıra yeniyetmə uşaqlar vardır ki, dindən anlayışları olmadıqlarına görə düşmənlər müsəlmanlar arasında ixtilaf törətmək üçün onlardan istifadə edir və beləcə onları idarə edirlər.

Firqəsindən asılı olmayaraq heç bir müsəlmanın digər müsəlmana müşrik deməyə ixtiyarı yoxdur. Əgər müsəlmanlar arasında hansısa bir ixtilaf varsa, o zaman firqələrin alimləri həmin ixtilafları çözməyə çalışmalıdırlar. Nəyin düz olub- olmadığını təbii olaraq alimlər müzakirə etməlidir. Çox yaxşı olar ki, firqələr arasında olan ixtilaflı məsələləri alimlər televiziya kimi ictimai informasiya vasitələrinin köməyi ilə müzakirə edib həll etsinlər və camaata nəyin düz olub-olmadığını bildirsinlər. Dini məsələləri siyasiləşdirmək düzgün deyildir. Dində olan ixtilaflı məsələlərin həlli siyasi xadimlərin yox, alimlərin üzərinə düşür.

Əgər bir şəxs İmam Hüseyn(ə) üçün ağlamağı bidət hesab edirsə, o zaman bunun səbəbini də açıqlamalıdır. Kimsə iddia edir ki, dində olmayan bir şeyi dinə daxil etmək bidətdir. Əgər belədirsə dində olan şeyi dindən çıxartmaq da bidət sayılır. Peyğəmbər(s) əmisi Həmzənin qəbrini ziyarət etmiş və onun üçün ağlamışdır. Əgər bu iş bidət olsaydı, o zaman nə üçün Peyğəmbər(s) həmin işi görürdü? Əgər iki firqə arasında bidət məsələsində ixtilaf yaranırsa, qoy hər iki tərəfin alimləri nəyin bidət olub-olmadığını müzakirə etsinlər və hərəsi öz dəlil-sübutunu ortaya qoyaraq mövcud ixtilafı aradan qaldırsınlar. Belə də ola bilməz ki, hər bir kəsə müşrik damğası vurub ləkələsinlər. Mömin bir bəndəyə müşrik deyib ona qarşı hörmətsizlik etmək ən böyük günahlardandır. Hətta

möminə kiçik bir hörmətsizlik Kəbə evinə hörmətsizlik kimi qəbul edilir. Hədislərdə belə nəql olunur ki, əgər bir şəxs başqa bir möminin abrını aparsa, həmin şəxsin günahı Kəbə evini murdarlamaqdan daha böyükdür. İnsan bədəninin hər bir üzvünün özünəməxsus hesab-kitabı vardır. Odur ki, kimsə öz niyyətlərini həyata keçirmək üçün istədiyi hər hansı bir vasitəyə əl ata bilməz. Çünki sabah qiyamət günündə etdiyi hər bir əmələ görə cavab verəcəkdir. İnsan dediyi hər bir sözə və etdiyi hər bir əmələ görə məsuliyyət daşıyır.

## İslam dini baxımından şirkin təsir və nəticələri

Ötən bəhslərimizdə şirkin böyük günah olması və onun mənaları barədə söhbət etdik. Həmçinin şirk barədə bir neçə mətləbə də toxunduq. Bu bəhsimizdə isə həmin söhbəti davam etdirərək daha bir mətləbi nəzərinizə çatdırmaq istəyirəm. Həmin mətləb də budur ki, müşrik insanlarla tövhidə iman gətirən insanlar arasında fərdi və ictimai baxımdan çox böyük fərqlər vardır. Yəni Allaha şərik qoşan insan fərdi və ictimai baxımdan mənfi təsirlər altında yaşayır. Şirk elə bir şeydir ki, onun insana vurduğu bir sıra mənfi təsirləri və nəticələri göz önündədir. Odur ki, burada şirkin insana göstərdiyi bəzi təsirlərə diqqət yetirək.

1. Nigarançılıq və narahatçılıq

Şirkin hər şeydən əvvəl insana göstərdiyi təsirlərdən biri budur ki, Allaha şərik qoşan hər bir kəs həmişə nigarançılıq və iztirab içərisində olar. İztirab odur ki, insan özündə arxayınçılıq hiss etmir. Məsələn, bir insan getdiyi

yolun düz olub-olmaması məsələsinə zərrə qədər də olsa şübhə etsə, o, özündə qətiyyən arxayınçılıq hiss etməyəcək və bu məsələdə narahatçılıq keçirəcəkdir. Getdiyi həmin yolu şübhə ilə qət etdiyindən həmişə daxilində bir iztirab olacaqdır. Buna görə də məqsədə çatmayacağından daim qorxur. Amma şirkdə iztirab və nigarançılığın mənası fərqlidir. Müşrik insan Allahdan üz döndərdiyinə görə camaatın razılığını əldə etmək istəyir. Yəni Allaha inanmadığı üçün istəyir ki, camaat ondan razı qalsın. Amma bu heç bir vaxt mümkün olan bir məsələ deyildir. Çünki camaatın hamısını razı salmaq mümkün deyil. Səbəbi də budur ki, əvvəla, insanların sayı çoxdur. İkincisi isə budur ki, hər bir adamın öz niyyəti və istəyi vardır. Onların bütün istəklərini təmin etmək də mümkün deyil. Üçüncüsü isə budur ki, birisinin razılığını qazanmaq digərinin narazılığına səbəb ola bilər. Belə olduqda insanların hamısını razı salmaq qeyri-mümkündür. Amma tək olan Allahın razılığını qazanmaq bütün insanların razılığını əldə etməkdən çox yaxşıdır. Təki sən Allahın razılığını əldə et, kim səndən razı qalır qalsın, qalmırsa da qalmasın. Əsas məsələ Allah-təalanın razılığıdır. "Yusuf" surəsinin 39-cu ayəsində belə buyurulur:

ءَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللّهُ الْوَاحِدُ الْقَهَّارُ

-Çoxlu və pərakəndə ərbab və ağalar yaxşıdır, yoxsa tək və (varlıq aləminə) hakim olan Allah?

"Zumər" surəsinin 29-cu ayəsində isə belə oxuyuruq:

ضَرَبَ اللَّهُ مَثَلًا رَّجُلًا فِيهِ شُرَكَاء مُتَشَاكِسُونَ وَرَجُلًا سَلَمًا لِّرَجُلٍ هَلْ يَسْتَوِيَانِ مَثَلًا

-Allah (müşrik və təkallahlı şəxslər barədə) məsəl çəkmişdir: Bir neçə pis xasiyyətli və müxtəlif istəkli ağanın şərik olduğu bir qul kişi və bir nəfərin qulu olan bir kişi. Heç bu ikisi bərabərdirmi?

Allah-təala bu ayədə misal çəkərək insanları başa salır ki, adamın bir neçə ağası olmaqdansa tək olan bir Allahı özünə ağa bilməsi daha yaxşıdır. Yəni müşrik olan bir şəxs Allah-təaladan üz çevirdiyi üçün kimisə özündən razı salmaq istəyir. Ona görə də insanların razılığını qazanmaqdan ötrü dəridən-qabıqdan çıxır, amma nəticədə heç bir şey alınmır. Çünki həmişə nigarançılıq içində olur. Amma tək olan Allahı qəbul edən şəxs Allah-təalanın razılığını əldə etməyə çalışır. Onun üçün başqalarının razılığı yox, Allahın razılığı daha böyük əhəmiyyət kəsb edir. Belə insanların həyatı da həmişə arxayınçılıq içindədir.

Burada birinci məsələ odur ki, Allah Özü də tez razılaşandır. Onun adlarından biri "Səriür-riza"dır. İnsan yolunu azanda və ya günaha batdıqda etdiyi əməldən peşman olub həqiqi mənada Ondan bağışlanmaq dilədikdə Allah-təala həmin şəxsi bağışlayır. Hədislərdə belə nəql olunur ki, əgər insanın dağlar qədər, çayların qumları qədər, heyvanların bədənlərinin tükü qədər günahı olsa, ancaq bununla belə, Allaha üz tutub səmimi qəlbdən bağışlanmaq diləsə, Allah onu bağışlayar. Yəni insan sözün həqiqi mənasında peşman olub əfv diləsə, Allah həmin bəndəni bağışlayar.

İkinci məsələ budur ki, Allah-təala əvvəldən axıradək insanladır. Yəni insanın nütfəsi bağlandığı gündən ölənə, bərzəxə, qiyamət və cənnətə qədər Allah-təala ona nəzarət və kömək edir. İnsan istənilən hər bir halda olmasına baxmayaraq, Allah-təala ona nəzarət edir. Əgər Allah

həmişə insana nəzarət edirsə, həmişə insanladırsa bu, həqiqətən də ona kifayət edər.

Üçüncü məsələ isə bundan ibarətdir ki, bütün qəlblər Allahın əlindədir. Allah bütün insanların qəlbini bir andaca döndərə bilir. Novruz bayramında il təhvil olan gecə oxuduğumuz dualarda belə deyirik: “Ey qəlbləri və gözləri dolandıran (haldan- hala çevirən) Allah.” Əgər Allah istəsə insana elə bir izzət bəxş edər ki, hamının həmin insandan xoşu gələr. İstəsə insanı elə bir vəziyyətə salar ki, hamının o adamdan acığı gələr. Hər kim Allahla öz arasını düzəldə bilsə, Allah həmin şəxsi hamının yanında əziz edər. Həzrət Əli(ə) belə buyurur:

مَن اَصلَحَ بَينَهُ وَ بَينَ اللهِ اَصلَحَ اللّهُ بَينَهُ وَ بَينَ النّاس

-Kim Allahla öz arasını islah etsə (düzəltsə), Allah da həmin şəxslə camaatın arasını islah (yaxşı) edər.

Deməli, əgər insan Allahı razı sala bilsə, tək olan bir Allaha pərəstiş etsə, o insan rahatlıq və arxayınlıqla həyat sürəcəkdir. Belə olduqda heç bir xəstəlik, ölüm və ya dünya işlərinin alınmaması kimi məsələlər onu qorxutmaz. Çünki bütün bunların hamısı Allahın gözü qarşısındadır. Amma əksinə olduqda, yəni insan Allaha şərik qoşduqda xəstəliklərdən və ölümdən qorxur, işlərinin düz gətirməməsinə görə narahat olur və insanların razılığı onu qane etmir.

2. Şəxsiyyətdə qərarsızlıq və təhlükə

Şirkin təsir və nəticələrindən ikincisi budur ki, müşrik insan heç bir vaxt öz şəxsiyyətini sabit görmür. Yəni müşrik insan öz şəxsiyyətinin müxtəlif təhlükələrə məruz qaldığını hiss edir. “Həcc” surəsinin 31-ci ayəsində belə buyurulur:

وَمَن يُشْرِكْ بِاللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ السَّمَاء فَتَخْطَفُهُ الطَّيْرُ أَوْ تَهْوِي بِهِ الرِّيحُ فِي مَكَانٍ سَحِيقٍ

-Allaha şərik qoşan kəs sanki göydən düşüb və ov quşları onu qapırlar (və özlərinə yem edirlər) və ya (güclü) külək onu uzaq bir yerə atır.

Bu ayədə bəzi incə məqamlar vardır. Ayənin zahiri baxımından görürük ki, Allaha şərik qoşan insan sanki göydən enir və ov quşları göydə onu parçalayır, yaxud külək onu götürüb uzaq yerlərə aparır. Amma bu ayənin dərinliklərinə baş vurduqda hər şeyi açıq-aydın başa düşmək olur. Ayədə işlənmiş göydən enmə, ov quşları və külək kimi ifadələrin hər birinin öz mənası vardır.

İnsan Allaha şərik qoşduqda "göydən düşür" dedikdə, yəni tövhiddən ayrılır kimi başa düşülür. O, tövhiddən ayrıldıqda isə iki böyük düşmən onu gözləyir. Həmin düşmənlərdən biri nəfsani istəklərdir. Yırtıcı quşlar göydə başqa quşları parçaladığı kimi, nəfsani istəklər də insanı məhvə doğru aparır. Yox, əgər insan quşların (nəfsin) əlindən sağ-salamat qurtara bilsə, ikinci düşmən ona macal verməyəcəkdir. İkinci düşmən isə şeytandır. Şeytan da Allaha şərik qoşan insanı həmin külək kimi o tərəfə bu tərəfə çırpıb uzaq bir yerə (cəhənnəmə) atacaq. Deməli, əgər insan tövhiddən ayrılsa, o, şeytanın payına çevriləcək. Çünki şeytan insanları cəhənnəmlik edəcəyini vəd vermişdir. Amma hər kim yalnız tək olan bir Allaha pərəstiş etsə və tamamilə Ona bağlansa, şeytanın həmin adama gücü çatmayacaqdır. Buna görə də hədisi-qüdsidə belə oxuyuruq:

قَالَ اللهُ تَعَالى: كَلِمَةُ لا اِله اِلّا الله حِصنِى فَمَن دَخَلَ حِصنِى اَمِنَ مِن عَذَابِى

-Allah-təala buyurur: “La ilahə illəllah kəlməsi Mənim qalamdır. Hər kəs mənim qalama daxil olsa, əzabımdan amanda qalar.”

Hər kim şirkdən uzaq durub qəlbən Allaha iman gətirsə, Allahın amanında olduğunu hiss edər. O zaman heç bir güc, heç bir qüvvə onu yoldan çıxara bilməyəcəkdir. Allahın amanında olan insana kimsə xətər yetirə bilərmi? Əlbəttə ki, xeyr.

قَالَ الصَّادِقُ(ع): إنّما سُمِّيَ المؤمنُ لأنَّهُ يؤمَنُ مِن عذابِ اللّه تَعَالَى و يؤمنُ علَى اللّهِ يومَ القيامةِ فيُجِيزُ لَه ذلكَ

-İmam Sadiq(ə) buyurur: “Mömin ona görə mömin adlandırılmışdır ki, Allah-təalanın əzabından amandadır. Qiyamət günü Allahdan aman istədikdə Allah da onu Öz amanında saxlayır.”[1]

قَالَ البَاقِرُ(ع): المؤمنُ أصْلَبُ مِن الجَبلِ، الجَبلُ يُسْتَقَلُّ مِنه، و المؤمنُ لا يُسْتَقَلُّ مِن دِينِه شَيءٌ

-İmam Baqir(ə) buyurur: “Mömin dağdan da möhkəmdir. Dağdan bir şey azalar, amma möminin dinindən bir şey azalmaz.”[2]

[1] Mizanül-hikmə,1-ci cild, hədis-1394.
[2] Yenə orada, hədis-1362.

قَالَ الصَّادِقُ(ع): إنّ المؤمنَ أشدُّ مِن زُبَرِ الحديدِ، إنّ زُبرَ الحديدِ إذا دَخلَ النّار تَغيّرَ، و إنّ المؤمنَ لو قُتِلَ ثُمّ نُشِرَ ثُمّ قُتِلَ لم يَتغيّرْ قلبُهُ

-İmam Sadiq(ə) buyurur: "Mömin dəmir parçasından da möhkəmdir. Dəmir parçası oda qoyulanda dəyişir, amma mömin dəfələrlə öldürülsə də qəlbində (imanında) dəyişiklik yaranmır."[1]

Tarixə diqqətlə nəzər yetirdikdə bir çox möminlərin şahidi oluruq ki, bədənlərinin doğranmasına baxmayaraq, onlar imanlarından əl çəkməmişlər. İmam Hüseyn(ə) Kərbəlada səhabələr üçün xütbə oxudu. Xütbə qurtardıqdan sonra  Züheyr ibn Qeyn ayağa qalxıb dedi: "Ey Allahın höccəti, sənin buyurduqlarını eşitdim. Əgər dünya bizə əbədi olaraq qalsaydı və ya biz bu dünyada əbədi yaşamalı olsaydıq, mən yenə də sənin yanında şəhid olmağı hər şeydən üstün bilərdim. Halbuki dünya müvəqqətidir. Mən səni burada qoyub özüm üçün yaşasam, ölüm olsun belə yaşamağa."

Həmçinin İmam Hüseyn(ə) aşura gecəsi səhabələri bir yerə toplayıb xütbə oxudu. Sonra hamıya buyurdu ki, hər kim getmək istəsə, azaddır. Bu yırtıcıların işi mənimlədir. Siz çıxın gedin.

İmam(ə) sözlərini bitirən kimi Züheyr ibn Qeyn yenə də ayağa qalxıb dedi:

---

[1] Yenə orada, hədis-1393.

وَاللهِ لَوَددتُ أَنِّي قَتَلتُ ثُمَّ نُشِرتُ ثُمَّ قُتِلتُ حَتّى أَقتُلَ هَكَذا أَلفَ مَرَّة، وَأَنّ اللهَ تَعَالى يَدفَع بِذَلِكَ القَتلَ عَن نَفسِكَ، وَعَن أَنفُس هَؤُلاءِ الفِتيَان مِن أَهلِ بَيتكَ

-Allaha and olsun, əgər məni öldürüb yenidən diriltsələr və yenidən öldürsələr, həmçinin min dəfə məni öldürüb diriltsələr belə və bunun vasitəsilə Allah səndən ölümü dəf edəcəksə, bu, mənim üçün böyük şərafətdir.

Züheyr İmam Hüseynin(ə) oğlu, qardaşı və ya qohumu deyildi. Züheyr elə bir insan idi ki, özünün şəxsi təhlillərinə əsasən tamamilə başqa bir mövqedə idi. Məkkədən ayrılanda da İmamın(ə) karvanından uzaq gəzirdi ki, Həzrətlə(ə) üz-üzə gəlməsin. İmam Hüseyn(ə) onu çağırıb qulağına bir kəlmə söz dedi. Ancaq heç bir kəs bilmədi ki, İmam(ə) ona nə buyurdu. İmam Hüseynin(ə) nuru ona toxunduğu üçün elə həmin andan Züheyrin taleyi dəyişildi və son nəfəsinə qədər Həzrəti(ə) müdafiə etdi. Züheyr elə bir möminə çevrildi ki, onu yüz dəfə öldürüb-diriltsəydilər də belə zərrə qədər də onun imanında dəyişiklik olmazdı.

Odur ki, Allaha səmimi qəlbdən iman gətirən insan heç bir şeydən qorxmaz və heç bir şeyə görə nigarançılıq çəkməz. Hər hansı bir hadisə baş versə də belə mömin insanda dəyişiklik yaratmaz. Bunun mənası odur ki, dağdan bir şey qopartmaq olar, amma möminin imanından azaltmaq olmaz. Çünki mömin dağdan da ağır, dəmirdən də möhkəm olar. Hər bir kəs bilir ki, aşura günü nə baş vermişdir. Bəni-Üməyyə Kərbəlada əlindən gələn cinayəti törətdi. Hətta altıaylıq körpəni belə qətlə yetirdilər. İnsanların başlarını kəsib nizələrə taxdılar. Xanım

Zeynəb(s.ə) bütün bunları öz gözləri ilə görürdü. İmam Səccad(ə) buyurur: “Bibim Zeynəb(s.ə) hətta həmin gün gecə namazını tərk etmədi.” Xanım Zeynəbin(s.ə) iki oğlu da Kərbəlada şəhid oldu. Onun şəhid verməsi də, minacat etməsi də və gecə namazı qılması da Allah-təalaya görə idi.

Əgər insanın imanı güclü olsa, o zaman heç bir hadisə onu yerindən tərpədə, imanına təsir göstərə bilməz. Həqiqi möminə heç bir kəsin gücü çatmaz. Hətta bütün dünya onun əleyhinə yığışsa, yenə də ona təsir göstərə bilməzlər. İnsan nə qədər ki, Allaha iman gətirməyib, hamının ona gücü yetər. Amma Allaha iman gətirdikdən, özünü Allah-təalaya bağladıqdan və Ona söykəndikdən sonra daha heç bir kəs ona öz gücünü göstərə bilməyəcəkdir. İnsanda olan iman kamilləşdikdən sonra hətta dünyanın böyük qüdrətlərinin belə ona gücü çatmaz. Mömin insanı dəfələrlə öldürüb-diriltsələr də öz imanından əl çəkmədiyini gördükdə düşmənlər onu məhv etmək üçün bütün var-dövlətlərini belə xərcləyərlər.

قَالَ الصَّادِقُ(ع): إنّ المؤمنَ مَن يخافُهُ كلُّ شيءٍ، و ذلكَ أنّهُ عزيزٌ في دِينِ اللّهِ، و لا يَخافُ مِن شيءٍ، و هُو علاَمةُ كلِّ مؤمنٍ

-İmam Sadiq(ə) buyurur: “Mömin o kəsdir ki, hər şey ondan qorxar. Çünki o, Allahın dinində əziz (və güclü) insandır. Heç bir şeydən qorxmur, çünki bu, möminin əlamətidir.”[1]

İranda şah zamanında mərhum İmam Xomeyninin(r) evinə basqın etmişdilər. Onu tutub aparmaq üçün qapısına bir qrup yüksək rütbəli polis və hərbçi gəlmişdi. Onun

---

[1] Mizanül-hikmə,1-ci cild, hədis-1366.

xidmətçisi qapını açıb kimi istədiklərini soruşdu. Onlar dedilər: “Bizə Ruhullah Xomeyni lazımdır.” Xidmətçi onun evdə olduğunu gizlətmək istəyirdi ki, İmam(r) onların səsini eşidib özü qapıya çıxdı və buyurdu: “Ruhullah Xomeyni mənəm. Mənimlə nə işiniz var?” Dedilər: “Səni aparmağa gəlmişik.” İmam(r) sakitcə onlarla maşına minib yola düşdülər. Gecə yarı Qumdan Tehrana doğru hərəkət edirdilər. O vaxtlar yollar çox pis vəziyyətdə olduğu üçün maşını yavaş-yavaş sürürdülər. İmamın(r) yanında əyləşən polislər əllərində silah olmalarına baxmayaraq, qorxudan bədənləri əsirdi. İmam(r) onlara buyurdu: “Nədən qorxursunuz? Əlinizdə silah ola-ola mən sizə nə edəcəyəm? Burada qorxmalı bir şey yoxdur.”

Onlar İmama(r) ürək-dirək verməkdənsə, İmam(r) onlara təsəlli verirdi. Sübh namazına azacıq qalmış İmam(r) onlara buyurdu ki, namaz qılmaq üçün maşını saxlasınlar. Lakin onlar bu işin mümkün olmadığını söylədilər. İmam(r) isə bu işin mümkün olduğunu söylədi. Amma onlar israrla dedilər ki, bu iş baş tutmayacaq. İmam(r) daha onlara bir söz demədi. Azacıq getmişdilər ki, maşın xarab olub dayandı. Hamı düşüb maşını düzəltməklə məşğul oldular. İmam(r) polislərin başçılarına buyurdu: “İndi ki, maşınınız xarab olub, imkan verin namazımı qılım.” Çarəsiz qalan komandir onunla razılaşdı. İmam(r) maşından düşüb sübh namazını qıldı, zikr və dualarını etdikdən sonra maşına əyləşdi. Elə bu əsnada maşın da işə düşdü. İmam(r) üzünü polislərin başçısına tutub buyurdu: “Gördünmü, bu mümkün oldu?”

### 3. Cəmiyyətdə ixtilaf və təfriqə

Şirkin üçüncü təsir və nəticəsi budur ki, cəmiyyətdə ixtilaf və təfriqə yaranmasına səbəb olur. Tək olan Allaha pərəstiş edən, yəni tövhidə istinad edən bir cəmiyyətdə hökm və qanunlar da birdir. Çünki belə bir cəmiyyətdə hamı Allahın qanunları əsasında yaşayır və fəaliyyət göstərir. Həmçinin belə bir cəmiyyətdə yaşayan və fəaliyyət göstərən insanların bircə başçısı, rəhbəri və ağası vardır ki, bu da Allahdır. Amma şirkin mövcud olduğu, yəni müşriklərin yaşadığı cəmiyyətdə insanların müxtəlif rəhbərləri və ağaları vardır. Onların da hər biri öz fikrinə əsasən bir yol tutmuşlar. Belə olduqda həmin cəmiyyətdə ixtilaf, təfriqə və hərc-mərclik baş alıb gedir. “Möminun” surəsinin 91-ci ayəsində belə buyurulur:

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ

-Allah özünə əsla övlad götürməmişdir və Onunla (birgə) əsla digər bir tanrı və məbud olmamışdır. Yoxsa (əgər belə olsaydı) hər bir Tanrı öz yaratdığını aparardı. Və (ziddiyyətli işlərin həyata keçirilməsi istiqamətində) mütləq biri digərinə üstün gəlməyə çalışardı (müstəqil vücud, qüdrət və iradə bunu tələb edir).

## 2. VALİDEYNƏ (ATA-ANAYA) YAXŞILIQ EDİN

Bəhsimizin əvvəlində qeyd etdik ki, İslam Peyğəmbəri(s) müşriklərlə söhbət edərkən və ilahi hökmlər barədə danışarkən onlar Peyğəmbərin(s) sözlərini qəbul etməyib özlərinə məxsus ehkamların mövcud olduğunu söylədilər. Onlar həmçinin dedilər ki, əlimizdə olan hökmlər bizə kifayət edər. Allah-təala “Ənam” surəsinin 151-153-cü ayələrini nazil etməklə onlara başa

salır ki, sizin öz ehkamlarınız sizə nicat verə bilməyəcək. Sonra isə Peyğəmbərə(s) göstəriş verir ki, Allahın nazil etdiyi hökmləri onlara başa salsın. Çünki insanlara nicat verən, maddi və mənəvi kömək edə bilən yeganə ehkam Allah-təalanın göndərdiyi hökmlərdir.

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا...

-De: "Gəlin Rəbbinizin sizə haram etdiyini oxuyum (və o budur ki,) heç bir şeyi Ona şərik qoşmayın, valideynlərə yaxşılıq edin..."

Bu ayələrdə Allah-təala insanı ilk növbədə şirkdən (Allaha şərik qoşmaqdan) çəkindirir. Ötən bəhslərimizdə şirk barəsində lazımi qədər söhbət etdik. Şirk məsələsindən sonra isə önə çəkilmiş ikinci mətləb valideyn məsələsidir. Yəni bəyan olunmuş ayələrdə göstərilmiş on ehkamdan ikincisi valideynlərə yaxşılıq etmək və onlarla gözəl davranma barədədir. Allah-təala valideynlərə yaxşılıq etməyin, onlarla gözəl davranmağın və onlara itaət etməyin insanlara vacib olduğunu buyurmuşdur. Onlara qarşı zərrə qədər də olsa belə itaətsizlik etməyə isə icazə verilmir. Təkcə bu ayədə deyil, Allah-təala Quranda həmin məsələni dəfələrlə önə çəkir və valideynlərə itaət və yaxşılıq etməyin vacibliyini təkidlə irəli sürür. Qurani-Kərimdə "İsra" surəsinin 23-cü ayəsində belə buyurulur:

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا

-Və Rəbbin Ondan başqasına ibadət etməməyinizi və ata-anaya (öz valideynlərinizə) yaxşılıq etməyinizi qəti hökm etdi. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalıq çağlarına yetişsələr (onların zəhmət, yaxud sərt davranışları müqabilində narahatlığını büruzə vermə, hətta) onlara "uf" belə demə, üstlərinə qışqırma, kobud söz demə və onlara xoş sözlər de."

Valideynlərə ehtiram göstərmək, onların qayğısına qalmaq, onlarla xoş rəftar etmək və onlara itaət etmək hər bir insanın borcudur. Əgər biz burada İslamda övlad-valideyn münasibətləri haqda söhbət edəsi olsaq, çox uzun bir söhbət alınacaq və əsas bəhsimizdən uzaqlaşacağıq. Odur ki, burada sadəcə olaraq bir neçə Quran ayəsi və hədislərlə kifayətlənirəm. Ümumiyyətlə, Quran ayələrindən əlavə, Peyğəmbərdən(s) və imamlarımızdan da bu barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Həmin hədislərdən bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): بَينَ الأَنبِيَاءِ وَالبَارّ دَرَجَةٌ وَبَينَ العَاقّ وَالفَراعِنَة دَرَكَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "(Qiyamət günü) peyğəmbərlərlə valideyninə yaxşılıq (xidmət) edən insanların bir dərəcə fərqi olacaq. Valideyninin üzünə ağ olan insanın isə (allahlıq iddiası edən) fironlarla bir dərəkə fərqi olacaq."[1]

Dərəcə dedikdə yüksək məqam nəzərdə tutulur. Dərəkə isə aşağı səviyyəyə deyilir. Cənnət dərəcələrdən, cəhənnəm isə dərəkələrdən ibarətdir.

---

[1] Müstədrəkül-vəsail,15-ci cild, səh.176.

Günlərin birində Həzrət Musa(ə) Allahla minacat edərkən bir nəfərin barəsində belə soruşdu: "İlahi, filan dostum Sənin yolunda şəhid oldu. Bilmək istərdim ki, qiyamət günü onun məqamı və yeri harada olacaq? Allah-təala buyurdu: Cəhənnəmdə. Musa(ə) təəccüb edərək ərz etdi: İlahi, məgər Sən şəhidlərə cənnət vədəsi verməmisənmi? Allah-təala buyurdu: Elədir, amma o, valideyninin üzünə ağ olurdu. Mən valideyninin üzünə ağ olan insanın heç bir əməlini qəbul etmərəm."[1]

Bu hədislərdən görürük ki, valideyninin üzünə ağ olan insanın aqibəti çox acınacaqlı olacaqdır. Allah-təala valideyninə ehtiram etməyən, onları incidən insanın heç bir yaxşı əməlini belə qəbul etmir. Hətta valideynini incidən insan can verərkən belə çətinliklə canını tapşırar və son anlarında dilinə "La ilahə illəllah" kəlməsini gətirə bilməz.

Haris adlı bir nəfər Həzrət Peyğəmbərə(s) iman gətirmişdi. O, həmişə Həzrətin(s) yanında olar, məscidə gedib-gələr və camaat namazlarında iştirak edərdi. Günlərin birində xəstələnib ölüm yatağına düşdü. Peyğəmbər(s) onun halından xəbər tutduqda bir neçə səhabə ilə onu görməyə getdi. Peyğəmbər(s) Harisin üzünə baxanda gördü ki, onun son nəfəsləridir. Ona buyurdu: "La ilahə illəllah" de. Haris nə qədər çalışdısa "La ilahə illəllah" deyə bilmədi. Peyğəmbər(s) onun dilinin tutulduğunu gördükdə məsələnin nə yerdə olduğunu bilib ətrafdakılara buyurdu: "Harisin valideynləri ondan narazı olduqlaru üçün dilinə "La ilahə illəllah" kəlməsini gətirə bilmir. Onun valideynlərindən

---

[1] Yenə orada, səh.193.

hansı sağdır? Dedilər: Anası. Peyğəmbər(s) buyurdu: Onu mənim yanıma çağırın."

Bir nəfər Harisin anasının yanına gedib Peyğəmbərin(s) onu çağırdığını söylədi. Anası məsələnin nə yerdə olduğunu başa düşüb Peyğəmbərin(s) hüzuruna gəldi. Peyğəmbər(s) ona buyurdu: "Görürəm ki, sən oğlundan narazısan. Oğlun hazırda can ayağındadır. Ona halallıq verməsən, vəziyyəti çox pis olacaq. Sən ondan narazı qaldığın üçün dili "La ilahə illəllah" kəlməsini tutmur. Keç oğlunun günahından." Qadın Peyğəmbərə(s) ehtiram əlaməti olaraq oğlunu bağışlayıb halallıq verdi. Sonra Peyğəmbər(s) üzünü Harisə tutaraq buyurdu: "La ilahə illəllah" de. Haris "La ilahə illəllah" deyib dünyasını dəyişdi.[1]

Beləcə, biz görürük ki, ata-ananın hər bir insanın boynunda haqqı çox olduğundan Allah-təala onlarla yaxşı rəftar etməyi, onlara qulluq göstərməyi, əzizləməyi və itaət etməyi insanlara vacib buyurur. Hədislərdə nəql olunur ki, hətta ata-ananın üzünə mehribanlıqla baxmaq belə insan üçün ibadət sayılır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلنَّظَرُ اِلَى الوَالِدَين بِرَأفَةٍ وَ رَحمَةٍ عِبَادَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Valideynin üzünə rəhmət və mehribanlıqla baxmaq ibadətdir."[2]

İbn Abbas deyir: "Peyğəmbər(s) buyurur: Hər kəs valideyninin üzünə mehribanlıqla baxsa, Allah-təala həmin şəxsin hər baxışına qəbul olunmuş həccin savabını inayət edər."

---

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.156.
[2] Əmali Şeyx Tusi, səh.454.

Bir nəfər soruşdu: “Ya Rəsulallah, əgər bir nəfər ata-anasının üzünə bir gündə  yüz dəfə baxsa, Allah həmin şəxsə qəbul olunmuş yüz həccin savabını verəcək?

Peyğəmbər(s) buyurdu: Bəli.”[1]

Bütün bunlar Allahın sonsuz və tükənməz rəhmətidir. Allah-təala müxtəlif hallarda rəhmət qapılarını insanların üzünə açır. İnsanlar da gərək bu fürsətlərdən istifadə edərək dua etsinlər və  Allahın rəhmətinə nail olsunlar. Belə hallarda Allah-təala insanların dualarını qəbul edər.

قَالَ رَسُولُ اللهِ(ص): تُفتَح اَبواب السَّماءِ – بِالرَّحْمَة – فِى أَربَع مَواضِع: ١- عِندَ زوالِ الْمِطر ٢- عِندَ النِّكَاح ٣- عِندَ فتح بَاب الكَعبة  ٤- عِندَ نَظر الوَلد فِى وَ جهِ الوَالدَين

-Həzrət Peyğəmbər(s) buyurur: “Dörd halda göyün rəhmət qapıları açılar: 1. Yağış yağan zaman; 2. Nikah (kəbin bağlanan) zaman; 3.Kəbə evinin qapısı açılan zaman; 4.Övladın valideyninin üzünə mehribanlıqla baxdığı zaman.”[2]

Buna görə də insanlar belə fürsətləri əldən verməməlidirlər. Valideyn sağ ikən insan hər bir halda valideynlərinə qulluq göstərib onların qayğısına qalmaqla Allah-təalanın razılığını cəlb edə bilər. Bundan əlavə, valideynə qulluq etmək, onları sevindirərək ürəklərini şad etmək insanın ömrünü uzadar.

---

[1] Yenə orada, səh.307.

[2] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.113.

قَالَ الصَّادِقُ(ع): اِن اَحبَبتَ اَن يَزِيدَ اللهُ تَعالَى فِي عُمرِك فَسُرّ اَبَوَيكَ

-İmam Sadiq(ə) buyurur: "Allah-təalanın ömrünü uzun etməsini istəyirsənsə, ata-ananı sevindir."[1]

Həzrət Peyğəmbər(s) hicrət edərkən bir kişi Həzrətin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, mən də sənə qoşulub hicrət etmək üçün gəlmişəm. Əhd-peyman bağlamaq istəyirəm ki, mən də səninlə birlikdə olacağam. Amma evdən çıxarkən atam və anam mənim dalımca baxıb ağlamağa başladılar. Onlardan ayrılmağımı istəmirdilər."

قَالَ رَسُولُ اللهِ(ص): اِرجَع اِلَيهِمَا وَ أَضحِكهُمَا كَمَا أَبكَيتَهُما

-Peyğəmbər(s) buyurdu: "Onların yanına qayıt və onları ağlatdığın kimi də güldür."[2]

Valideynə qulluq etmək, onların qayğısına qalmaq, onlara itaət etmək və onların üzünə baxmaq ibadət olduğu kimi, onların əlindən, üzündən öpmək də insan üçün ibadət sayılır.

قَالَ عَلِيٌّ(ع): قُبلَةُ الوَالِدَين عِبَادَةٌ

-Həzrət Əli(ə) buyurur: "Valideyni öpmək ibadətdir."

Hüseyn ibn Həmmad adlı bir şəxs deyir: "İmam Sadiqdən(ə) soruşdum: Ey Allahın höccəti, insan həcc zamanı ehram halında ata-anasını öpə bilərmi? İmam(ə)

---

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.101.
[2] Yenə orada, səh.102.

buyurdu: Bəli, bu öpüş rəhmət və mehribanlıq öpüşüdür.”[1]

İbrahim ibn Şüeyb deyir: “Günlərin birində İmam Sadiqin(ə) hüzuruna gəlib ərz etdim: Ey Allahın höccəti, mənim atam bərk xəstədir. Xəstəliyi elə dərəcədədir ki, özü yerindən qalxıb ayaqyoluna gedə bilmir. Gərək onu bir nəfər qaldırıb aparsın, yaxud altını təmizləsin.

İmam Sadiq(ə) buyurdu: Çalış ona lazım olan hər bir şeyi özün edəsən. Belə savab sənin üçün bir fürsətdir. Heç vaxt belə bir savabı əldə edə bilməzsən. Hətta o, yemək yeyərkən tikələri sən özün onun ağzına qoy.”[2]

Başqa hədislərdə belə nəql olunur ki, əgər insan öz malı ilə valideyninə xidmət etsə, Allah yolunda cihad edən mücahidlərin savabını qazanmış olar.

قَالَ رَسُولُ اللهِ(ص): مَن سَعَى فِي نَفَقَةِ عِيالِهِ وَ وَالِدَيهِ فَهُوَ كَالْمُجَاهِدِ فِي سَبِيلِ الله

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs öz ailəsini və valideynini dolandırmaq (xərclərini ödəmək) üçün çalışsa, Allah yolunda cihad edən şəxs kimidir.”[3]

---

[1] Yenə orada, səh.78.
[2] Yenə orada, səh.70.
[3] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.72.

## Valideynlər dünyasını dəyişdikdən sonra övladın vəzifəsi

Yuxarıda qeyd olundu ki, ata-anaya yaxşılıq etmək, onların qayğısına qalmaq, onlara itaət etmək və əzizləmək hər bir insanın borcudur. Lakin burada bəzi insanları ən çox maraqlandıran məsələlərdən biri odur ki, valideynlər dünyadan getdikdən sonra onlara hansı yaxşılıq və ehsanları etmək olar? Yəni bir nəfər valideynlərinin sağlığında onlara qulluq göstərməyin və itaət etməyin mühüm məsələ olduğunu bilmədiyindən ata-anasını itirdikdən sonra hansı işləri görməklə valideynlərinə qarşı öhdəsinə düşən vəzifələri yerinə yetirə bilər? Bu sualın cavabını çox yaxşı olar ki, bir neçə hədislə cavablandıraq.

İmam Sadiq(ə) buyurur: "Əgər bir insan ata-anasının sağ olduğu vaxtlarda onların üzünə ağ olubsa və onlar dünyadan getdikdən sonra tutduğu işlərə görə həqiqətən peşman olub valideyninin haqqını ödəmək istəsə, bu işləri yerinə yetirməlidir: Oruc tutub onlara bağışlamalı, namaz qılıb onlara hədiyyə etməli, onların adından həccə getməli, sədəqə verməli, yaxşı işlər görməli və onların borclarını ödəməlidir. Beləliklə, Allah-təala həmin şəxsin adını valideynlərinin üzünə ağ olanların siyahısından çıxarıb, valideynlərinə yaxşılıq edənlərin siyahısına salar. Bu məsələnin əksi də belədir."[1] (Yəni valideynləri diri olduğu halda onlara qarşı yaxşı rəftar edən və onların hüquqlarını gözləyən insan valideynləri dünyadan getdikdən sonra onları unutsa, Allah-təala həmin şəxsin adını valideyninə yaxşılıq edənlərin siyahısından çıxarar və valideynlərinin üzünə ağ olanların siyahısına daxil edər.)

---

[1] Yenə orada, səh.199.

Müaviyə ibn Əmmar deyir: “İmam Sadiqdən(ə) soruşdum: İnsan dünyasını dəyişdikdən sonra hansı xeyir əməllər ona yetişər? İmam(ə) buyurdu: Övladının xeyir duası, həcci, sədəqəsi, orucu, qul alıb azad etməsi, namaz qılması (və bu kimi xeyir və yaxşı əməllər.)”[1]

قَالَ الصَّادِقُ(ع): اِنَّ الصَّلاةَ والصَّوْمَ والصَّدَقَةَ والحَجَّ والْعُمْرَةَ وَ كلَّ عَملٍ صالحٍ يَنْفَعُ الميّتَ حتّى أنَّ الميِّتَ لَيَكوُنَ في ضَيقٍ فيُوسَّعُ عَلَيه، فيقال: اِنَّ هذا بِعَمَلِ اِبْنِكَ فُلانٍ و بِعَمَلِ اَخيكَ فُلانٍ (اَخوكَ فِى الدِّين).

-İmam Sadiq(ə) buyurur: “Həqiqətən namaz, oruc, sədəqə, həcc və ümrə, hər bir yaxşı əməlin vəfat edən insana xeyri vardır. Əgər onun vəziyyəti orada (günahlarına görə) çətin olsa, bu əməllərə görə həmin çətinliklər aradan qalxar və rahatlaşar. Ona deyərlər: Bu rahatlıq sənin filan övladının, yaxud filan (dini) qardaşının göndərdiyi yaxşı və savab əməllərinin nəticəsidir.”[2]

İmam Museyi Kazim(ə) buyurur: “Hətta ata-ana başqa məzhəblərdə olsalar da belə dünyalarını dəyişdikdən sonra övladlarının yaxşı əməlləri onların əzabını yüngülləşdirər.”[3]

---

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.195.
[2] Yenə orada, səh.197.
[3] Yenə orada, səh.198.

قَالَ الصَّادِقُ(ع): إِنّ مِن حَق الوَالِدَينِ عَلَى وَلَدِهِمَا أَن يَقضِي دِيُونَهُمَا وَيوفِي نُذُورِهِما... فَإِذَا فَعَل ذَلِكَ كَانَ بَارًّا وَإِن كَانَ عَاقًّا لَهُمَا فِي حَياتِهِما

-İmam Sadiq(ə) buyurur: "Valideynin övladın boynunda olan haqlarından biri budur ki, (öldükdən sonra) onların borclarını versin, nəzirlərini yerinə yetirsin. Əgər belə etmiş olsa, valideyninə yaxşılıq etmişdir. Hərçənd onlar sağ ikən valideynlərinin üzünə ağ olmuş olsa da belə..."[1]

قَالَ الصَّادِقُ(ع): قِرَائَةُ القُرآن – فِي الْمُصحَفِ – تُخَفِّفُ العَذاب عَنِ الوَالِدَينِ وَ لَو كَانَا كَافِرَين

-İmam Sadiq(ə) buyurur: "(Övladın) Quranı üzündən oxuması valideynlərin (kafir olmuş olsalar da belə) əzablarını yüngülləşdirər."[2]

## Valideynlərin qəbrini ziyarət etmək

Bir çox hədis və rəvayətlərdə belə nəql olunur ki, övlad valideynlərinin qəbrini ziyarət edib orada dualar etsə və Quran oxusa, Allah-təala həmin şəxsin valideynlərini bağışlayar.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ زَارَ قَبْرَ أَبَوَيْهِ أَوْ أَحَدِهِمَا فِي كُلِّ جُمُعَةٍ فَقَرَء عِندَهُمَا يَاسِين غُفِرَ لَهُ بِعَدَدِ كُلّ حَرفٍ مِنهَا

---

[1] Yenə orada, səh.183.
[2] Yenə orada, səh.181.

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim valideynlərinin, yaxud onlardan birinin qəbrini hər cümə (sübh çağı) ziyarət etsə və “Yasin” surəsini oxusa, Allah-təala bu surədə olan hərflərin sayı qədər (o valideynlərin) günahını bağışlayar.”[1]

قَالَ عَلِيٌّ(ع): زُورُو مَوتَاكُم فَإِنَّهُم يَفرَحُونَ بِزِيَارَتِكُم وَ لِيَطلِب اَحَدُكُم حَاجَتَهُ عِندَ قَبرِ اَبِيهِ وَ عِندَ قَبرِ اُمِّهِ

-Həzrət Əli(ə) buyurur: “Ölənlərinizin qəbrini ziyarət edin. Çünki onlar sizin bu ziyarətinizdən sevinirlər. Ata və ananızın qəbri üstündə Allahdan öz hacət və istəklərinizi diləyin.”[2]

Görürük ki, valideynlərə hətta onlar dünyasını dəyişdikdən sonra belə hörmət bəslənilməsi və onların qəbirlərini ziyarət etmək təkidlə irəli sürülmüşdür. Ata və ana sağ ikən onların üzünə mehribanlıqla baxılmasının ibadət sayıldığı kimi, onların qəbirlərini ziyarət etmək də ibadət sayılır. Onların qəbri üzərində dayanıb dua etdikdə Allah-təala valideynlərə ehtiram əlaməti olaraq həmin övladın dualarını tez qəbul edər. Bəziləri bu kimi məsələlərə irad tutaraq deyirlər ki, qəbri ziyarət etmək olmaz. Əvvəla, bunu demək lazımdır ki, mömin insan dünyasını dəyişdikdə onun cənazəsinə və qəbrinə hörmətsizlik etmək haramdır. İkincisi isə budur ki, qəbri ziyarət edən insan həmin işi Allaha xatir görür. Qəbir ziyarətini şirk qəbul edənlər özləri də bilirlər ki, bu iş şirk deyil. Sadəcə olaraq özlərini bilməməzliyə vurur və

---

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.164.
[2] Yenə orada, səh.165.

insanların avamlığından istifadə edərək bu kimi məsələləri camaata təlqin edirlər. Onlar çox yaxşı bilirlər ki, hər hansı bir imamın qəbrinin üstünün düzəldilməsində istifadə olunan qızılı öpən hər hansı bir insan gedib qızıl dükanlarındakı qızılları da öpmür.

Əgər bir insan məsum imamların qəbrinin üstünün götürülməsində istifadə olunan qızılı öpürsə bunu təbiidir ki, həmin imamın şərafətinə və hörmətinə xatir edir. Əgər bir insan məsumların hərəminin qapısını öpürsə, bunu da həmin məsuma ehtiram əlaməti olaraq və onun şərafətinə görə edir. Bəziləri irad tuturlar ki, hərəmin qızılını və yaxud taxta qapısını öpmək şirk əlamətidir. Hansı ağıllı bir insan zərgərin qızıllarını, yaxud küçədəki bir taxta parçasını öpər? Hansı ağıllı bir insan öz evində yoldaşına deyər ki, qızıllarını gətir, onları bir az öpüm? Əgər biz Peyğəmbərin(s), yaxud məsum imamların hərəmindəki qəbri və yaxud hərəmin qapısını öpürüksə, bunu onlara ehtiram əlaməti olaraq edirik. Kəbə evi dağların daşlarından tikilmiş bir evdir. Onun daşları da göydən gəlməyib. Siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəs o evi ziyarət edərkən divarlardakı daşları öpür. İşdi birdən zəlzələ nəticəsində Kəbə evi uçulub dağılsa, onu yenidən tikmək üçün yenə də həmin dağlardan daş gətirib tikəcəklər. Kəbə evi yenidən hazır olduqdan sonra yenə də hamı həmin daşları öpəcək. Bir zaman dağlardakı adi daş olduğu üçün öpülməyən bu daşlar Kəbənin divarı olduqdan sonra öpüləcək. İnsanlar əslində həmin daşları öpmürlər, Kəbəyə ehtiram əlaməti olaraq və onun şərafətinə bu işi görürlər. Belə olduqda nə üçün insanlar Həzrət Peyğəmbərin(s) və məsum imamların qəbirlərini öpməsinlər, orada dua edib Allahdan öz istəklərini diləməsinlər? Eləcə də insanlar nə üçün valideynlərinin

qəbirlərini ziyarət etməməlidirlər? Halbuki Allah-təala ata-anasının qəbri üstə dua edən övladın duasını tez qəbul edir. Övlad öz valideyninin qəbrini ziyarət edərkən onlar bundan xəbərdar olur və xoşhal olurlar. Xüsusilə valideynlərin qəbri üzərində dayanıb Quran ayələrini oxumaq onların fərəhinə səbəb olur və günahları bağışlanır.

Günlərin birində Həzrət İsa(ə) bir qəbiristanlığın kənarından keçirdi. Qəbirlərdən birinin sahibinin əzab içində olduğunu görür və yoluna davam edir. Bir ildən sonra yenə də yolu həmin qəbiristanlığa düşür və həmin qəbrin kənarından keçir. Görür ki, bir il bundan öncə əzaba düçar olmuş həmin qəbir yiyəsi indi fərəh və şadlıq içindədir. Allahdan soruşur: "İlahi, bu bir il bundan öncə gördüyüm həmin qəbirdir ki, orada yatana əzab verirdilər. Amma bu gün onun əzabdan azad olduğunu görürəm. Nida gəlir ki, ey İsa(ə), onun yaxşı bir oğlu var idi. Həmin oğlan camaata xidmət edər, yol çəkər və yetimlərə baş çəkərdi. Onun ehtiramına xatir atasını bağışladım."[1]

Digər bir rəvayətdə belə nəql olunur ki, günlərin birində Həzrət İsa(ə) bir qəbrin kənarından keçərkən orada dəfn olunmuş insanın əzab içində olduğunu görür. Bu hadisənin üçtündən bir müddət keçdikdən sonra Həzrət İsanın(ə) yolu yenə də həmin yerə düşür. Görür ki, o qəbirdə əllərində nur tutmuş mələklər həmin dəfn olunan insanın başı üzərində dayanıblar. Bu işə çox təəccüb edir və Allahdan bunun sirrini soruşur: "Allah-təala ona nida edərək buyurur: Ey İsa, Mənim bu bəndəm günahkar bir insan idi. O, dünyasını dəyişərkən həyat yoldaşı hamilə

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.179.

idi. Uşaq dünyaya gəldikdən sonra anası ona gözəl tərbiyə verdi. Məktəb vaxtı yetişdi. Anası onu aparıb müəllim yanına qoydu. Müəllim ilk növbədə ona "Bismillahir-Rəhmanir-Rəhim" kəlməsini öyrətdi. Uşaq da dilinə bu kəlməni gətirdi. Bir uşaq yer üzərində Mənim adımı çəkdi, onun atasına yerin altında əzab verməkdən xəcalət çəkdim. Buna görə də onu bağışladım."[1]

Hədis və rəvayətlərdən bəlli olur ki, insanın dünyada etdiyi yaxşı əməllər valideyninin ruhuna öz təsirini göstərir. Bunun əksi də belədir ki, əgər övlad pis işlərlə məşğul olarsa, valideyninin ruhuna da pis təsir göstərəcək. Ümumiyyətlə, valideyn istər sağ olsun, istərsə də dünyadan getmiş olsun, onlara qarşı yönəlmiş hər bir hərəkət övlada öz təsirini göstərəcəkdir. Odur ki, yaxşı rəftarın yaxşı, pis rəftarın da pis təsiri vardır.

Burada Həzrət Yusif Peyğəmbərin(ə) əhvalatını danışmaq olar ki, hamı az-çox bunu bilir. Həzrət Yəqub(ə) Yusifin ayrılığına görə gözlərinin nurunu itirmişdi. Uzun illərdən sonra Həzrət Yəqub(ə) Yusifin(ə) görüşünə gedir. Həzrət Yəqub(ə) Yusifi görən kimi özünü atın üstündən yerə atır və oğluna tərəf qaçmağa başlayır. Hərdən yerə yıxılıb sürünür, sonra ayağa qalxıb qaçmağa davam edir. Oğluna yaxınlaşana qədər Yusif atdan yerə düşmür. Çünki Misirdə adət belə idi ki, şahlar atdan yerə düşməzdilər. Ata və oğul görüşdükdən sonra cənab Cəbrayıl(ə) nazil olub dedi: "Ey Yusif, sənin bu hərəkətin bəyənilmədi. Nə üçün atdan yerə düşmədin? Şahların adətini atanla görüşməkdən üstün tutdun. Buna görə də bu əməlinin sənə iki mənfi təsiri olacaq. Birincisi budur ki, bütün

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.64.

peyğəmbərlərin öldükdən sonra cəsədi qiyamət gününə qədər çürüməyəcək. Amma sənin cəsədin çürüyəcək. İkincisi isə Allah-təala sənin nəslindən yetmiş peyğəmbərin dünyaya gələcəyini də nəzərə almışdı. Amma bu hərəkətinə görə Allah-təala həmin nailiyyəti də səndən geri aldı."

Həzrət Yusif(ə) Allahın peyğəmbəridir. Allah-təala onun adını Quranda zikr etmişdir. Allah-təala onun təqvası ilə fəxr edərək onu bütün aləmə tanıtdırdı. Amma bircə bu əməlinə görə bəzi nailiyyətləri ondan geri götürdü.

### 3. ÖVLADLARINIZI ACLIQ VƏ YOXSULLUQDAN ÖLDÜRMƏYİN

Qeyd olundu ki, İslam Peyğəmbəri(s) müşriklərlə söhbət edərkən və ilahi hökmlər barədə danışarkən onlar Peyğəmbərin(s) sözlərini qəbul etməyib özlərinə məxsus ehkamların mövcud olduğunu söylədilər. Həmçinin onlar dedilər ki, əlimizdə olan hökmlər bizə kifayət edər. Allah-təala "Ənam" surəsinin 151-153-cü ayələrini nazil etməklə onlara başa salır ki, sizin öz ehkamlarınız sizə nicat verə bilməyəcək. Odur ki, Peyğəmbərə(s) göstəriş verir ki, vəhy etdiyi hökmləri onlara başa salsın. Çünki insana nicat verən, onlara maddi və mənəvi baxımdan kömək edə bilən yeganə ehkam Allah-təalanın göndərdiyi hökmlərdir.

Həmin ayələrdə bəyan olunmuş ehkamların ikisi barədə yetərincə söhbət etdik. Üçüncü məsələyə gəldikdə isə Allah-təala belə buyurur:

وَلاَ تَقْتُلُواْ أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ...

-Övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Sizə və onlara ruzini Biz veririk.

İslamdan əvvəlki cahillik dövründə bir qrup insanlar öz övladlarını, xüsusilə qız uşaqlarını diri-diri torpağa basdırırdılar. Bu mənfur əməl yavaş-yavaş digər qəbilə və məntəqələrə də yayılmağa başlamışdı. Hər kəsin qız övladı dünyaya gəlsəydi, özünü başqalarının yanında başıaşağı, üzüqara və hörmətdən düşmüş bir adam hesab edirdi. Buna görə də həmin qız uşağını götürüb çöllərə tərəf aparır və yeri qazıb onu diri-diri torpağa basdırırdılar. İslam dini zühur etdikdən sonra onların bu mənfur əməlini qətiyyətli şəkildə pislədi və həmin işi görənləri ittiham etdi. Qurani-Kərimin müxtəlif ayələrində bu məsələyə işarə edilir və həmin işin çox pis və yaramaz bir əməl olduğu bəyan edilir. “Təkvir” surəsinin 8-9-cu ayələrində oxuyuruq:

وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ. بِأَيِّ ذَنبٍ قُتِلَتْ

-Diri ikən torpağa gömülmüş hər bir adam (cahillik dövründə diri-diri basdırılmış qızlar) barəsində soruşulacağı zaman. “Hansı günaha görə öldürüldülər?” (Onların qatillərindən: “Bunlar hansı günaha görə öldürüldülər?”- deyə soruşular.)

İslamdan əvvəlki dövrdə cəmiyyət belə bir xəstəliyə düçar olmuşdu. Ancaq ərəblərin içərisində belə bir adət var idi ki, bəzən oğlan övladlarını, əksər hallarda isə qız övladlarını diri-diri basdırırdılar. Bu mənfur əməlin səbəblərindən biri o idi ki, cahillik dövründə insanlar arasında qadınların heç bir hüququ və qiyməti yox idi. Qadınlardan qul kimi istifadə edirdilər. İkinci səbəbi bu idi ki, qızlar müharibələrdə qətl və qarətlərdə iştirak etmədiklərindən onların qədir-qiyməti də yox idi. Üçüncü səbəbi o idi ki, qəbilələr bir-biri ilə müharibə etdikdə qalib tərəf məğlub olan tərəfi talan edib onların bütün mallarını

və qadınlarını əsir götürürdülər. Belə hallarda bir qəbilənin namusunun digər qəbilə tərəfindən ayaqlar altına salınmaması üçün qız övladlarının dünyaya gəlməsini istəmirdilər. Övladların diri ikən basdırılmasının səbəblərdən biri də aclıq və kasıbçılıq idi.

Tarixdə belə bir mənfur adət-ənənənin meydana gəlməsi və camaat arasında yayılması barədə belə yazırlar: İki qəbilə arasında ağır bir müharibə başladı. Bu müharibədə qəbilələrdən biri qələbə çalıb məğlub olan qəbilənin qız-qadınlarını əsir tutub apardı. Sonradan həmin iki qəbilənin başçıları öz aralarında müzakirələr apararaq barışmaq qərarına gəldilər. Belə olduqda əsir tutduqları qadınları və qızları geri qaytarmaq fikri də irəli sürüldü. Lakin əsir düşmüş qızların bəzisi artıq digər qəbilədə evlənmiş və hətta övladları da olmuşdu. Buna görə də həmin qızlar öz qəbilələrinə qayıtmaqdan imtina etdilər. Bu hadisə məğlub olan qəbilənin adamlarına çox pis təsir etdi. Namus təəssübkeşliyi onların içini yandırırdı. Məsələnin belə olduğunu görən qəbilə adamları qərara gəldilər ki, qızların düşmənlərin əlinə əsir düşməsindənsə onların gözümüzün qarşısında diri-diri torpağa basdırılıb öldürülmələri daha yaxşıdır. Elə həmin gündən bu prinsipə əməl edərək ailədə qız övladı dünyaya gələn kimi onu aparıb diri-diri torpağa basdırmağa başladılar. Belə bir pis və mənfur adət yarandıqdan sonra yavaş-yavaş digər qəbilələrə də yayılmağa başladı.

Tarixin səhifələrini vərəqlədikdə nə qədər insanın öz övladını diri-diri torpağa basdırdığının və öldürdüyünün şahidi oluruq. Əgər bu hadisəyə dair nümunələrdən danışası olsaq, o zaman tamamilə yeni bir kitabı araya-ərsəyə gətirmək mümkündür. Hər bir halda nümunə olaraq iki hadisəni diqqətinizə çatdırmaq istəyirəm.

İslam dini zühur etdikdən sonra bir nəfər ərəb Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: “Ey Allahın Peyğəmbəri, mən sənə iman gətirmək istəyirəm.” Peyğəmbər(s) ona İslam qaydalarından danışdıqdan sonra həmin şəxs həqiqi möminlərdən birinə çevrildi. Günlərin birində həmin ərəb möminlərlə birgə Həzrət Peyğəmbərin(s) hüzurunda əyləşmişdi. Peyğəmbər(s) onlara günahın ağırlığından və qiyamət günü günahkarın cəzasından söhbət edirdi. Həmin ərəb ərz etdi: “Ya Rəsulallah, mən cahillik dövründə çox böyük günahlara düçar olmuşam. Etdiyim günahlardan biri də öz qızımı diri-diri torpağa basdırmağım idi. Günlərin birində səfərə çıxmışdım. Uzun bir müddətdən sonra səfərdən qayıtdım. Evə daxil olduqda balaca bir qız uşağı gördüm. Həyat yoldaşımdan onun kim olduğunu soruşduqda o, məsələni məndən gizlədərək dedi: Qonşunun uşağıdır, hələlik baxmaq üçün mənim yanıma qoyub. Bir neçə müddətdən sonra həyat yoldaşım həqiqəti mənə söylədi. Dedi ki, sən səfərə çıxanda mən hamilə idim. Bu uşaq dünyaya gəldikdə qız olduğunu görüb heç bir kəsə bildirmədim. Onu özüm böyüdüb bu yaşa çatdırmışam. Görürsənmi necə şirin uşaqdır?

Mən həyat yoldaşımın sözlərinə qulaq asıb bir söz demədim. Üstündən bir neçə gün keçmişdi ki, uşağın anasına dedim: Məni filan yerə qonaq çağırıblar. Uşağı da geyindir özümlə aparım. Anası uşağa yaxşı paltarlar geyindirib bizi yola saldı. Mən uşağın əlindən tutub çölə apardım. Yeri qazmağa başladım. Yeri qazdıqca tərləyir və üz-gözüm toz-torpağa bulaşırdı. Qız da gəlib mənim üzümün tərini və tozunu silirdi. Yer hazır olduqdan sonra qızı götürüb ora atdım və üstünü də torpaqla doldurdum. Mən torpağı qızımın üstünə tökdükcə o da qışqırıb ağlayır

və məni çağırırdı. Mən isə onun göz yaşlarına və ağlamağına baxmayaraq işimə davam edirdim. Onu tamamilə basdırıb öldürdükdən sonra evə qayıtdım.”

Həzrət Peyğəmbər(s) onun sözlərini dinlədikdən sonra buyurdu: “Qızını basdırdığın yer yadında qalıbmı?”

Dedi: “Bəli.”

Həmin ərəb Peyğəmbərlə(s) birlikdə qızını basdırdığı yerə gəldilər. Peyğəmbər(s) başını göyə qaldırıb Allahla bir minacat etdikdən sonra üzünü qızın basdırıldığı yerə tutub buyurdu: “Allahın izni ilə qalx.” Elə bu an yer ayrıldı və qız torpağın altından ayağa qalxdı. Peyğəmbər(s) ona buyurdu: “Ata-anan artıq müsəlman olublar. Vəziyyət əvvəlki kimi deyil. İndi onlar sənə qarşı mehriban olacaqlar. Onların yanında olmağını istərdinmi?” Qız dedi: “Ya Rəsulallah, xeyr. Çünki Allahım mənə atamdan da, anamdan da mehribandır.” Peyğəmbər(s) ona öz yerinə qayıtmağı əmr verdi. Qız yenidən həmn qəbrə qayıtdı.

Digər bir əhvalatda isə yazırlar ki, Qeys ibn Asim Bəni-Təmim qəbiləsinin rəhbərlərindən və tanınmış insanlardan biri idi. O, Peyğəmbərə(s) iman gətirmişdi. Günlərin birində Peyğəmbərlə(s) söhbət edərkən belə ərz etdi: “Ya Rəsulallah, sən gəlib bizə nicat verdin. Səndən öncə ata-babalarımız bizi çox pis tərbiyə etmişdilər. Biz öz balalarımızı diri-diri torpağa basdırırdıq. Ya Rəsulallah, Allah-təala mənə on iki qız nəsib etmişdi. Mən onların hamısını aparıb öldürdüm. Allah on üçüncü qız övladını da mənə bəxş etdi. Amma mənim ürəyim rəhmə gəlmədi. Onu da aparıb öldürdüm.”

Peyğəmbər(s) bu sözləri eşitdikdə gözləri yaşla doldu. Ağlaya-ağlaya buyurdu: “Kim rəhm etməsə, ona da rəhm olunmayacaq.”

Qeys ibn Asim dedi: “Ya Rəsulallah, mən bu işi cahillik dövründə etmişəm. O zamanlar İslam dini hələ gəlməmişdi. Biz pis adət-ənənələrin qurbanı olmuşuq. İndi mən başa düşürəm ki, tutduğum iş çox pis və böyük günahlardandır. İslamı qəbul etdikdən sonra tövbə etmişəm. Allah da məni bağışlayıb. Etdiyim xəta və günahlardan tam rahat olmaq üçün nə etsəm yaxşı olar?”

Peyğəmbər(s) buyurdu: “Öldürdüyün hər bir qızın adına heç olmasa bir qul alıb azad et.”

Qeys ibn Asim Peyğəmbərin(s) buyurduğu kimi (cahil vaxtlarında) öldürdüyü hər bir qızına görə bir qul alıb azad etdi. Buna baxmayaraq onun ömrü çox qısa oldu. Tövbəsinin qəbul olunmasına və Allahın onu bağışlamasına baxmayaraq, etdiyi həmin əməllərin dünyəvi təsiri mütləq özünü göstərməli idi. Çünki adam öldürməyin, xüsusilə qız uşaqlarını diri-diri basdırmağın xüsusiyyət və təsiri belədir ki, insanın ömrünün qısalmasına səbəb olar.

Görürük ki, tarixin elə səhifələri vardır ki, bir zamanlar bəzi insanlar öz övladlarını diri ikən basdırardılar. İslamdan öncə ərəblərin içərisində vəziyyət bu cür acınacaqlı bir həddə gəlib çatmışdı. Bütün tarixi mənbələrdə qeyd olunmuşdur ki, ərəblərin içərisində cahillik bax belə bir həddə gəlib çatmışdı və onlar hətta öz doğma övladlarını, xüsusilə qızlarını diri-diri torpağa basdırırdılar. Həmçinin belə bir çirkin və mənfur əməli özləri üçün mədəniyyət hesab edirdilər. Çünki onlar qadınlara heç bir qiymət və dəyər vermirdilər.

Belə bir vəziyyətdə və zamanda İslam dini zühur etdi və Allah-təala Həzrət Məhəmmədi(s) peyğəmbərliyə təyin etdi. Peyğəmbər(s) Allah tərəfindən təyin olunduqdan sonra bütün bəşəriyyətə başa saldı ki, istər qız olsun,

istərsə də oğlan övlad müqəddəsdir. Allah-təala Peyğəmbərin(s) oğlan övladlarını aldı və ona bir qız övladı bəxş etdi. Allah-təala xanım Fatimeyi Zəhranı(s.ə) Peyğəmbərə(s) əta etdi. Peyğəmbərə(s) xəbər gətirdilər ki, həyat yoldaşın uşaqdan azad oldu. Lakin sənin bu övladın qızdır. İllər boyu mənfur bir əməli özlərinə mədəniyyət hesab etmiş bir cəmiyyətdə insanlar bu tezliyində dəyişə bilmədikləri üçün hətta bəzi səhabə və möminlər belə üz-gözlərini turşutmağa başladılar. Çünki ərəblərin pis və mənfur adət-ənənəsinin təsiri hələ də insanların beyinlərində dolaşırdı. Həzrət Peyğəmbər(s) bu xəbərdən sonra bəzilərinin üz-gözlərini turşutduğunu görüb buyurdu:

مَالَكُم؟ رَيحَانَةٌ أَشَمُّهَا وَ رِزقُهَا عَلَى اللهِ عَزَّ وَجَلَّ

-Sizə nə olub belə? Bu, Allahın mənə bəxş etdiyi bir güldür. Mən onun ətri ilə yaşayacağam. Onun ruzisini də izzət və cəlal sahibi olan Allah Özü verəcək.”

Allah-təala xanım Zəhranı(s.ə) Həzrət Peyğəmbərə(s) inayət etdikdə Həzrət(s) bütün aləmə öz hərəkəti ilə başa saldı ki, qız övladı Allahın mərhəməti və lütfüdür. Peyğəmbər(s) qızının əlindən və üzündən öpər, o, içəri daxil olduqda onun ayağına qalxar və onu öz yerində əyləşdirər, özü isə onun kənarında əyləşərdi. Peyğəmbərin(s) xanım Zəhraya(s.ə) belə gözəl münasibət bəsləməsi elə bir zamana təsadüf edirdi ki, camaat qız övladını hələ də özlərinə ləkə və ayıb bilirdilər. Belə bir cəmiyyətdə xanım Zəhra(s.ə) Peyğəmbərin(s) otağına daxil olarkən Həzrət(s) onun hörmətinə ayağa qalxır, onun əllərindən, üzündən öpür və öz yerində əyləşdirirdi. Peyğəmbər(s) bu hərəkətləri ilə hamıya başa salırdı ki, qız övladının böyük qiymət və şərafəti vardır. Həzrət(s) səfərə

gedərkən sağollaşdığı sonuncu və səfərdən qayıdarkən görüşdüyü ilk insan xanım Fatimə(s.ə) idi. Hətta qızını ərə verdikdən sonra belə onunla görüşər, onun əllərindən və üzündən öpərdi.

Ayişə deyir: "Bir gün Peyğəmbərdən(s) soruşdum: Ya Rəsulallah, sən hələ də Fatimənin(s.ə) əllərindən və üzündən öpürsən. Halbuki o, ailə qurub." Peyğəmbər(s) buyurdu: "Fatimə Allahın mənə bəxş etdiyi cənnətin bir dəstə gülüdür."

Belə bir cəmiyyətdə Həzrət Peyğəmbər(s) həm əməlləri, həm də kəlamları ilə insanları başa salırdı ki, qız övladı Allahın insana lütfü və mərhəmətidir. Həzrət(s) həmin cəmiyyətin meydana gətirdiyi pis və mənfur adət-ənənənin əksinə danışaraq həmişə buyurardı ki, ən yaxşı və ən şərafətli övlad qız övladıdır. Həzrət(s) həmçinin insanların öz övladlarının qayğısına qalması və onları əzizləməsi barədə çoxlu kəlamlar da buyurmuşdur.

مَن دَخَلَ السُّوقَ فاشتَرى تُحْفةً فَحَمَلَها إلى عِيالِهِ كانَ كَحامِلِ صَدَقَةٍ إلى قَومٍ مَحاوِيجَ، ولْيَبدَأْ بِالْإناثِ قَبلَ الذُّكُورِ فإنَّه مِنْ فَرَّح ابْنَتَه فَكَأَنَّما اَعْتَقَ رَقَبةً مِنْ وُلْدِ إسْماعِيل

Həzrət Peyğəmbər(s) buyurur: "Kim bazara daxil olanda bir hədiyyə alıb onu öz ailəsinə aparsa, bir qrup möhtac insana sədəqə vermiş şəxs kimidir. Hədiyyəni verəndə birinci qızlardan başlayın, sonra oğlanlara verin. Hər kəs öz qızını sevindirsə, elə bil ki, İsmayıl Peyğəmbərin(ə) qul düşmüş övladlarından bir qul alıb azad etmişdir.[1]

---

[1] Təfsiri-nümunə,11-ci cild, səh.276.

## Xanım Zəhranın(s.ə) şərafəti

Allah-təala xanım Zəhranı(s.ə) Həzrət Peyğəmbərə(s) bəxş etməklə qadın cəmiyyətinə izzət və şərafət bəxş etdi. Bütün aləmə elan olundu ki, qadının böyük qədir-qiyməti, üstünlüyü və şərafəti vardır. Hədislərdə belə nəql olunur ki, bir gün Peyğəmbərdən(s) soruşdular: "Ya Rəsulallah, həmişə səhərə yaxın Zəhranın(s.ə) evindən göyə nur qalxdığını görürük. Bunun səbəbi nədir?" Peyğəmbər(s) buyurdu:

مَتَى قَامَتْ فِي مِحْرَابِهَا بَينَ يَدَى رَبِّهَا زَهَرَنُورُها لِمَلاَ ئِكَةِالسَّمَاء كَمَا يَزهَرُ نُورُالكَوَاكِب لِأَهلِ الأَرضِ

-Zəhra mehrabda dayanıb ibadət edən zaman onun mehrabından göylərə nur ucalır. Göyün ulduzları yerə nur ələdiyi kimi, onun da nuru göyləri işıqlandırır.

O zaman Allah mələklərinə xitab edərək belə buyurar:

يَا مَلاَ ئِكَتِي أُنظُرُوا الَى اَمَتِى قَائِمة بَيْنَ يَدَىَّ تَرتَعِدُ فَرَاءِضُهَا مِن جِيفَتِى قَد اَقبَلَت بِقَلبِهَا عَلَى عِبَادَتِى أُشهِدُكُم اَنِّ قَد آمَنتُ شِيعَتُهَا مِنَ النَّار...

-Ey mənim mələklərim! Baxın mənim bəndəmə! Görün Mənim hüzurumda dayanıb necə ibadət edir? Görürsünüzmü onun bədən üzvləri Mənim qorxumdan necə titrəyir? Görün Mənə necə ürəklə ibadət edir? Mənim mələklərim şahid olun ki, Mən onun şiələrini cəhənnəm odundan amanda saxlayacağam.

İslamdan əvvəlki dövrdə qadınların vəziyyətinə nəzər yetirdikdə görürük ki, qız övladları torpağın altında diri-diri can verirdilər. İslam isə qadınlara elə bir şərafət bəxş etdi ki, bütün xilqət onunla əlaqəli oldu. Peyğəmbər(s) qız övladlarını elə bir məqama çatdırdı ki, heç bir kəsdə belə bir məqam ola bilməz. Allah-təala Peyğəmbərə(s) buyurdu: "Ey Mənim Peyğəmbərim, əgər Fatimə(s.ə) olmasaydı Əlini(ə), əgər Əli(ə) olmasaydı səni, əgər sən olmasaydın fələkləri və insanları yaratmazdım."

Diqqətlə fikirləşdikdə görürük ki, Fatimə(s.ə) bütün xilqətin səbəbkarıdır. Əgər Fatimə(s.ə) olmasaydı, Allah heç bir şeyi yaratmayacaqdı.

Odur ki, Allah-təala müşrikləri və onların simasında bütün insanları başa salır ki, övladı heç bir vəchlə öldürmək olmaz. İstər aclıq, istərsə də çətinlik olmuş olsa da belə övladları öldürmək yolverilməzdir. Onları yaradan Allahdır və Özü də onların ruzisini inayət edəcək. Həzrət Peyğəmbər(s) həm hərəkətləri, həm də gözəl kəlamları ilə insanları başa salırdı ki, övlad insan üçün müqəddəsdir, istər qız olsun, istərsə də oğlan. Hər ikisi Allahın insanlara bəxş etdiyi nemət və mərhəmətdir.

Beləcə, Həzrət Peyğəmbər(s) insanları cahillikdən və nadanlıqdan uzaqlaşdırdı. Hər kim Həzrət Peyğəmbərin(s) sözlərinə qulaq asıb onlara əməl etsə, hər iki dünyanın xoşbəxtliyinə nail olacaq. Hazırkı dövrümüzə diqqət yetirdikdə təəssüflər olsun ki, biz yenə də bəzi yerlərdə həmin cahilliyin və nadanlığın nişanələrinə rast gəlirik. Bir zaman insanlar cahillik üzündən öz doğma qız övladlarını diri-diri torpağa basdırırdılarsa, hazırkı dövrdə yeni texnologiyaların vasitəsilə qız övladlarını abort etdirərək onları tələf edirlər. Müasir dövrdür deyib bu cür işlər görmək cahil ərəblərin gördükləri həmin işlərdən heç

nə ilə fərqlənmir. Statistik məlumatları oxuduqda görürük ki, bütün dünyada belə bir cinayət növü artıq geniş yayılmışdır və dünya ölkələrini bürüməkdədir. Uşaqlarını zibilliyə atanların, yaxud onları abort etdirənlərin sayı artıq kütləvi hal almaqdadır. Bütün insanlar başa düşməlidirlər ki, belə bir cahilliyə son qoymağın vaxtı artıq çoxdan gəlmişdir. Yenə də həmin cahilliyin nəticəsidir ki, bəzi evlərdə qız övladına yüngül münasibət bəslənilir və onu oğlan övladlarını istədikləri kimi istəmirlər. Bəzi ailələrdə isə oğlan uşağı dünyaya gəldikdə hamı sevinir və onlarla əlaqədar olaraq müxtəlif tədbirlər keçirilir, həmçinin müvafiq təbriklər belə söylənilir. Lakin qız övladı dünyaya gəldikdə bu məsələyə soyuq yanaşılaraq deyirlər: "Neyləyək? Allah saxlasın."

Əgər cəmiyyətdə insanlar özlərini bu və bu kimi vəziyyətlərdən bir kənara çıxara bilməsələr, həmin cəmiyyətin vəziyyəti daha da ağırlaşacaqdır. Allaha iman gətirmək təkcə dildə deyil, əməldə və ürəkdə də olmalıdır. Əgər insanlar Allahın göndərdiyi ehkamları ürəkdən qəbul etməsələr və ona ürəkdən əməl etməsələr, o zaman iman da onların ürəklərinə daxil olmayacaq. Zahirdə və dildə Allaha iman gətirmək isə insanlara nicat verməyəcəkdir. İman odur ki, insan dildə Allahı qəbul etdiyi kimi, bunu ürəkdən də qəbul etsin və əməlində də Allahın hökmlərinə riayət etmiş olsun. İnsanların nicat və xoşbəxtliyinin yolu yalnız Allahın göndərdiyi hökmlərə riayət etməsindədir.

## 4. AŞKARDA VƏ XƏLVƏTDƏ PİS İŞLƏRƏ YAXINLAŞMAYIN

Əziz İslam Peyğəmbəri(s) müşriklərlə söhbət edərkən onlar Həzrətin(s) sözlərini qəbul etməyib dedilər ki, bizim sənin gətirdiyin ehkamlara ehtiyacımız yoxdur.

Bizim öz ehkamlarımız özümüzə bəs edər. Allah-təala Peyğəmbərin(s) vasitəsilə onları başa salır ki, sizin öz ehkamlarınız sizi məqsədə və xoşbəxtliyə çatdırmayacaq. Gəlin sizi dünya və axirətin xoşbəxtliyinə çatdıran ehkamları sizə öyrədim. Əlbəttə, ötən bəhslərimizdə bu barədə lazımi qədər bəhs etmişik. "Ənam" surəsinin 151-153-cü ayələrində Allah-təala on ehkamdan söz açır. Onların üçü barədə yetərincə danışmışıq. Ayədə sadalanan hökmlərdən dördüncüsü belədir:

وَلاَ تَقْرَبُواْ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ

-Və pis işlərə - istər aşkar olsun, istərsə də gizlin - yaxınlaşmayın.

Ayənin bu hissəsində işlənmiş "fəvahiş" kəlməsi "fəhşa" sözündən götürülmüşdür. Mənasına gəldikdə isə hər hansı bir işin orta həddən çıxması deməkdir. Yəni orta həddən sağa və yaxud sola keçməyə "fəhşa" deyilir. Bu kəlmə ümumi mənaya malik olub bütün fasid, azğın, pozğun, çirkin əməllər, pis və haram işləri əhatə edir. Yəni "fəhşa" kəlməsində o qədər tutum var ki, bütün haramlar, pis işlər, fasid, azğın, pozğun əməllərin hamısını bu sözlə ifadə etmək olar. Buna görə də Allah-təala buyurur ki, aşkar və ya gizlində fəhşalara yaxınlaşmayın. Həmçinin bu ayədə incə bir məqam da vardır. Həmin incə məqam isə budur ki, biri var insana pis işləri görməmək əmr olunsun, biri də var ki, pis işlərə qətiyyən yaxınlaşmamaq göstərişi verilsin. Pis işlərə yaxınlaşmayın dedikdə onun içində etməmək də vardır. Yəni nəinki pis işləri etməyin, hətta o işlərə yaxın belə durmayın. Bu kimi ifadələrə Quranda çox yerdə rast gəlmək olur. Qurani-Kərimin digər ayələrində belə ifadəyə bənzər bir ifadə də vardır ki, o da "xütuvat" kəlməsidir. "Xütuvat" sözü Quranda bir

neçə ayədə bəyan olunmuşdur. “Xütuvat” sözü “xütvə”nin cəm forması olub “addım” mənasını ifadə edir. Məsələn, “Bəqərə” surəsinin 168-169-cu ayələrində buyurulur:

يَا أَيُّهَا النَّاسُ كُلُواْ مِمَّا فِي الأَرْضِ حَلاَلاً طَيِّباً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ. إِنَّمَا يَأْمُرُكُمْ بِالسُّوءِ وَالْفَحْشَاء وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ

-Ey insanlar, yer üzündə olan şeylərin (müxtəlif yeməklər və digər varlıqların) halal və paklarından yeyin, faydalanın və şeytanın addımlarına tabe olmayın ki, o, sizin aşkar düşməninizdir. O, sizə yalnız pislik və çirkinlikləri, həmçinin bilmədiyiniz şeyləri Allaha nisbət verməyi əmr edir.

Bu ayədə işlənmiş “xütuvat” sözü onu başa salır ki, şeytan insanı birdən-birə yoldan çıxarıb fasiqləşdirmir. Əvvəlcə insanı hansısa bir günah etməyə şirnikləşdirir, sonra addım-addım həmin işi görməyə sövq edir. Məsələn, qumarbaz birdən-birə qumarbaz olmur. Əvvəlcə qumar oynayanlara baxır, sonra zarafatyana qumar alətlərini əlinə götürüb baxır. Sonra elə belə oynayır. Yavaş-yavaş məsələ ciddiləşir və oturub əməlli-başlı qumar oynayır. Sonra iş o yerə gəlib çatır ki, hər bir şeyini uduzub özünü bədbəxt edir. Həm varını itirir, həm də mənəviyyatını əldən verir.

Odur ki, ayədə işlənmiş “xütuvat” sözü “addımlar” mənasını ifadə edir ki, Allah- təala insana şeytanın addımlarına tabe olmamağı əmr edir. Çünki şeytan insanı birdən-birə yox, addım-addım yoldan çıxarır. Quranda bu kəlmənin başqa bir forması da vardır ki, o da “şeytanın əmr etməsi”dir və “Bəqərə” surəsinin 169-cu ayəsində belə oxuyuruq:

إِنَّمَا يَأْمُرُكُمْ بِالسُّوءِ وَالْفَحْشَاء وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ

-O, sizə yalnız pislik və çirkinlikləri, həmçinin bilmədiyiniz şeyləri Allaha nisbət verməyi əmr edir.

"Ənam" surəsinin 121-ci ayəsində oxuyuruq:

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ

-Həqiqətən, şeytanlar öz köməkçi və dostlarına gizlincə vəhy (təlqin) edirlər.

Ayələrdə işlənmiş "pis işlərə yaxınlaşmaq", "Şeytanın addımları" və "Şeytanın əmr etməsi" kəlmələri barəsində alimlər kifayət qədər müzakirələr aparmışlar. Son nəticə isə budur ki, hər üç kəlmə vəsvəsə mənasındadır. Yəni həm pisliklərə yaxınlaşmaq, həm şeytanın addımları, həm də şeytanın əmri vəsvəsə mənasını ifadə edir. Buna görə də Allah-təala əmr edir ki, pis işlərə yaxınlaşmayın. Çünki pis işlərə yaxınlaşmaq şeytanın vəsvəsəsidir. Ona görə də əgər insan şeytanın vəsvəsəsinə aldansa, mütləq məğlub olacaq. Şeytan hər kəsin yaxasına əl atsa, həmin şəxsi yıxacaqdır. Şeytan həmişə insanın ətrafında dolaşır və fürsətdən istifadə edən kimi vəsvəsə edib onu yoldan çıxarır. Hətta elə incə məsələlər vardır ki, azacıq diqqətsizlik etdikdə şeytan üçün fürsət yaranır. Hədislərdə belə nəql olunur ki, hər kim namazın əvvəl vaxtına riayət edib bütün namazlarını vaxtlı-vaxtında qılsa, şeytan cürət edib həmin şəxsə yaxınlaşa bilməz. Amma şeytan bir insanın namazın əsl vaxtına etinasız olduğunu gördükdə deyir: "Bu insana yaxınlaşmaq və onu yoldan çıxarmaq olar."

## Şeytanın vəsvəsəsi

Qurana diqqət yetirdikdə bir çox ayələrdə şeytanın insanı necə vəsvəsə etdiyinin şahidi ola bilirik. Çox yaxşı olar ki, nümunə üçün bu barədə olan bir neçə ayəni diqqətinizə çatdırım. Allah-təala Adəmi yaratdıqdan sonra onu və zövcəsini cənnətdə məskunlaşdırdı. "Əraf" surəsinin 19-21-ci ayələrində oxuyuruq:

وَيَا آدَمُ اسْكُنْ أَنتَ وَزَوْجُكَ الْجَنَّةَ فَكُلاَ مِنْ حَيْثُ شِئْتُمَا وَلاَ تَقْرَبَا هَذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الظَّالِمِينَ. فَوَسْوَسَ لَهُمَا الشَّيْطَانُ لِيُبْدِيَ لَهُمَا مَا وُورِيَ عَنْهُمَا مِن سَوْءَاتِهِمَا وَقَالَ مَا نَهَاكُمَا رَبُّكُمَا عَنْ هَذِهِ الشَّجَرَةِ إِلاَّ أَن تَكُونَا مَلَكَيْنِ أَوْ تَكُونَا مِنَ الْخَالِدِينَ. وَقَاسَمَهُمَا إِنِّي لَكُمَا لَمِنَ النَّاصِحِينَ

-Ey Adəm, sən və zövcən bu cənnətdə məskunlaşın, istədiyiniz yerdən yeyin (bəhrələnin) və bu ağaca yaxınlaşmayın ki, zalımlardan olarsınız. Beləliklə, şeytan bədənlərinin ayıb yerlərinin onlar üçün gizli olanını onlara aşkar etmək üçün hər ikisini vəsvəsə etdi və dedi: "Rəbbiniz bu ağacı sizə yalnız iki mələk olmamağınız, ya (burada) əbədi qalanların zümrəsində olmamağınız üçün qadağan etmişdir." Və hər ikisinə təkidlə and içdi ki, "həqiqətən, mən sizin xeyrinizi istəyənlərdənəm."

İmam Sadiq(ə) bu ayənin təfsirində belə buyurur: "Şeytan Adəmə dedi: Əgər siz həmin ağacdan yesəniz, hər ikiniz mələyə dönəcək və əbədi olaraq cənnətdə qalacaqsınız."[1]

[1] Təfsiri-nümunə,6-cı cild, səh.116.

Bundan əlavə, Adəm ilk yaradılmış insan olduğu üçün və heç bir təcrübəsi olmadığından şeytanın andına və sözlərinə inandı. Həmin ağacdan yedikdən sonra Allah-təala ona və zövcəsinə belə buyurdu:

وَنَادَاهُمَا رَبُّهُمَا أَلَمْ أَنْهَكُمَا عَن تِلْكُمَا الشَّجَرَةِ وَأَقُل لَّكُمَا إِنَّ الشَّيْطَآنَ لَكُمَا عَدُوٌّ مُّبِينٌ

-Rəbbləri onlara (belə) nida etdi: "Məgər Mən sizə bu ağacı qadağan etməmişdim və sizə deməmişdimmi ki, həqiqətən, şeytan sizin açıq-aşkar düşməninizdir!"[1]

Allah-təala onlara bir daha xəbərdarlıq etdikdən sonra onlar öz xətalarını başa düşdülər. "Əraf" surəsinin 23-cü ayəsində oxuyuruq:

قَالاَ رَبَّنَا ظَلَمْنَا أَنفُسَنَا وَإِن لَّمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

-Dedilər: "Ey Rəbbimiz, biz özümüzə zülm etdik, əgər bizi bağışlamasan və bizə rəhm etməsən, mütləq ziyana uğrayanlardan olacağıq."

Quranda bu hadisəni bəyan etdikdən sonra Allah-təala kimliyindən asılı olmayaraq bütün insanlara xitab edərək belə buyurur:

يَا بَنِي آدَمَ قَدْ أَنزَلْنَا عَلَيْكُمْ لِبَاسًا يُوَارِي سَوْءَاتِكُمْ وَرِيشًا وَلِبَاسُ التَّقْوَىَ ذَلِكَ خَيْرٌ ذَلِكَ مِنْ آيَاتِ اللّهِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ

-Ey Adəm övladları, şübhəsiz, sizə ayıb yerlərinizi örtəcək və sizin üçün zinət olacaq bir libas (geyim) nazil etdik. Əlbəttə, təqva libası daha yaxşıdır. Bunlar Allahın

[1] Əraf surəsi, ayə 22.

(insanlar üçün olan) ayə və nişanələrindəndir, bəlkə öyüd-nəsihət aldılar.[1]

Allah-təala bu ayədə bütün Adəm övladına xitab edərək insan üçün iki növ paltar göndərdiyini bildirir. Həmin paltarlardan biri insanın bədənini örtən, digəri isə təqva paltarıdır. Sonra bu iki libasın hansının insan üçün daha xeyirli olduğunu bəyan edir. Təqva libası bütün libasların hamısından daha şərafətli və xeyirlidir. İnsanın cisminin paltarı olduğu kimi, ruhunun da paltarı vardır. Əgər insan təqvalı olsa, deməli, bu təqva onun ruhunun paltarıdır. Hər bir kəs insanın bədəninə geyindiyi paltarın xeyrinin nə olduğunu yaxşı bilir. İnsan bədəninə lazım olan və yetərincə qədər paltar geyinmək kifayət edər. Gərək insan ömrü boyu bədəninin paltarı barədə düşünməsin. Hər gün rəngarəng paltarlar geyinmək və müxtəlif kostyumlar almaqla başını dünya işlərinə qarışdırmasın. İnsan lazımi qədər paltarla orta səviyyəyə nail olaraq arxayın yaşaya bilər. Həmçinin hər bir insan bilməlidir ki, onun ruhuna da geyim lazımdır. Çünki hər bir halda insanı səadətə çatdıran paltar ruhunun paltarıdır və bu da qeyd olunduğu kimi təqvadır.

Hədislərdə belə nəql olunur ki, Nəcran xristianlarından bir qrupu İslam Peyğəmbərinin(s) yanına gələrək onunla söhbət etmək istəyirdilər. Onlar içəri daxil olduqda Həzrət Peyğəmbərə(s) salam verdilər. Onların əynində bahalı, zərli-zibalı paltarlar və barmaqlarında da qiymətli üzüklər var idi. Peyğəmbər(s) onları görən kimi üzünü bir kənara çevirdi və onlarla söhbət etmək istəmədi. Onlar Peyğəmbərin(s) bu hərəkətinin mənasının səbəbini

[1] Əraf surəsi, ayə 26.

Həzrət Əlidən(ə) soruşdular. Həzrət Əli(ə) buyurdu: "Mənə elə gəlir ki, onların paltarları çox zərli-zibalı olduğu üçün Peyğəmbər(s) onlarla danışmadı. Əgər onların paltarları qaydasında və adi olsaydı, o zaman Peyğəmbər(s) onlarla belə rəftar etməzdi."

Beləcə, həmin xristianlara vəziyyətin nə yerdə olduğunu xəbər verdilər. Onlar da paltarlarını dəyişib adi paltarlar geyindikdən sonra Həzrət Peyğəmbərin(s) hüzuruna gəldilər. Peyğəmbər(s) Nəcran xristianları ilə salamlaşıb onlara böyük ehtiram göstərdi. Əyləşib söhbət etdikdən sonra Həzrət(s) səhabələrə buyurdu:

وَالَّذِي بَعَثَنِي بِالْحَقّ، لَقَد أَتَونِي الْمَرَّةَ الأُولَى وَ إِنَّ إِبلِيسَ لَمَعَهُم

-And olsun məni peyğəmbərliyə məbus edənə ki, onlar birinci dəfə mənim yanıma gəldikdə iblis də onlarla birlikdə gəlmişdi (ona görə də üzümü kənara çevirdim).

Sonrakı ayədə Allah-təala bir daha Adəm övladına xitab edərək belə buyurur:

يَا بَنِي آدَمَ لاَ يَفْتِنَنَّكُمُ الشَّيْطَانُ كَمَا أَخْرَجَ أَبَوَيْكُم مِّنَ الْجَنَّةِ يَنزِعُ عَنْهُمَا لِبَاسَهُمَا لِيُرِيَهُمَا سَوْءَاتِهِمَا إِنَّهُ يَرَاكُمْ هُوَ وَقَبِيلُهُ مِنْ حَيْثُ لاَ تَرَوْنَهُمْ إِنَّا جَعَلْنَا الشَّيَاطِينَ أَوْلِيَاء لِلَّذِينَ لاَ يُؤْمِنُونَ

-Ey Adəm övladları, məbada şeytan ata və ananızı cənnətdən çıxartdığı - ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını əyinlərindən çıxartdığı - kimi sizi (də) aldatsın və azdırsın! Şübhəsiz, o və onun qəbiləsi sizi sizin onları görə bilmədiyiniz yerdən görürlər. Əlbəttə, Biz şeytanları imanı olmayan kəslərin başçıları etmişik.[1]

---

[1] Əraf surəsi, ayə 27.

Bu ayələrdən bizə aydın olur ki, şeytan Adəmi yavaş-yavaş vəsvəsə etdi və qadağan olunmuş ağaca sarı çəkdi. O, Adəmi elə vəsvəsə edib yoldan çıxartdı ki, nəticədə Adəmi cənnətdən çıxartdılar. Allah-təala Quranda bunu bütün insanlara başa salır ki, şeytanın hər cür vəsvəsəsindən uzaq olun.

Digər bir əhvalat Həzrət İbrahimin(ə) hadisəsidir ki, şeytan onu da vəsvəsə etmək istədi. Həzrət İbrahimin(ə) övladı yox idi. Allah-təala ona qoca vaxtlarında bir övlad bəxş etdi. “Saffat” surəsinin 100-106-cı ayələrində oxuyuruq:

رَبِّ هَبْ لِي مِنَ الصَّالِحِينَ. فَبَشَّرْنَاهُ بِغُلَامٍ حَلِيمٍ. فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانظُرْ مَاذَا تَرَى قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ سَتَجِدُنِي إِن شَاءَ اللَّهُ مِنَ الصَّابِرِينَ. فَلَمَّا أَسْلَمَا وَتَلَّهُ لِلْجَبِينِ. وَنَادَيْنَاهُ أَنْ يَا إِبْرَاهِيمُ. قَدْ صَدَّقْتَ الرُّؤْيَا إِنَّا كَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ. إِنَّ هَذَا لَهُوَ الْبَلَاءُ الْمُبِينُ

-Ey Rəbbim! Mənə salehlərdən (bir övlad) bəxş et! Beləliklə, Biz onu həlim bir oğlan uşağı (İsmayıl) ilə müjdələdik. Oğlu onunla birlikdə işləmək və çalışmaq həddinə çatanda (İbrahim) dedi: “Oğlum! Mən yuxuda hey görürəm ki, sənin başını kəsirəm (boğazına bıçaq çəkirəm). Bəs bax gör nəzərin nədir?” (İsmayıl) dedi: “Ey ata! Sənə əmr ediləni yerinə yetir. Allahın istəyi ilə məni səbirlilərdən görəcəksən!” Beləliklə, elə ki onların hər ikisi (Allahın əmrinə) təslim oldular və o, oğlunu üzü üstə yerə yıxdı (imtahandan başıuca çıxdı). Biz ona xitab etdik ki: “Ey İbrahim! Həqiqətən, sən yuxunu həyata keçirdin.

Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Şübhəsiz, bu (hadisə) həmin aşkar imtahandır.”

Həzrət İbrahim(ə) üç gün ardıcıl olaraq yuxuda İsmayılı Allah yolunda qurban kəsdiyini gördü. Bu, zil-hiccə ayının 8,9 və 10-cu gecələri idi. Nəhayət, onuncu gün oğlunu məsələdən xəbərdar etdi. Ayədə buyurulduğu kimi, Həzrət İsmayıl(ə) atası ilə razılaşdı və atasına əmr olunmuş əməli yerinə yetirməsini ərz etdi. Hədislərdə belə nəql olunur ki, İsmayıl(ə) atasından bir neçə xahiş də etdi. Dedi: “Ata, iplə mənim əl-ayağımı möhkəm bağla ki, mən əl-ayaq atdıqda sən narahat olmayasan. Həm də mənim əcr-savabım azalmasın. İkinci xahişim budur ki, bıçağı yaxşı itilə ki, qoy bu iş tez bir surətdə baş versin. Həm sən inciməyəsən, həm də mən inciməyim. Üçüncü xahişim budur ki, köynəyimi əynimdən çıxar və sonra başımı kəs. Qoy anam köynəyimin qanlı olduğunu görməsin. Həmçinin köynəyimi anama verdikdə məndən ona salam deyərsən.”

Bu sözlərdən sonra onlar yola düzəldilər. O yerə yetişdilər ki, hazırda Həcc ziyarətinə gedənlər üç yerdə şeytanı daşlayırlar. Bu həmin böyük, orta və kiçik şeytanın dayandığı və İbrahimi vəsvəsə etdiyi yerlərdir. Hər üç yerdə şeytan İbrahimi vəsvəsə edərək İlahi əmrin icrasının qarşısını almaq istədikdə İbrahim(ə) hər dəfə şeytana yeddi daş ataraq onu uzaqlaşdırdı. Şeytan İbrahimin(ə) qulağına pıçıldayırdı: “Bu, nə işdir belə?” Həzrət İbrahim(ə) buyurdu: “Bu, Allahın əmridir ki, mütləq icra olunmalıdır.” Şeytan nə qədər çalışdısa, İbrahimi yoldan çıxara bilmədiyini görüb uzaqlaşdı. Sonra İsmayılın(ə) yanına gəlib qulağına pıçıldamağa başladı. İsmayıl(ə) dedi: “Əgəl bu iş Allahın əmridirsə, mən Onun əmrinə tabeyəm.” Şeytan İsmayılı(ə) da vəsvəsə edə bilmədiyini

görüb onun anasının yanına gəldi və onu vəsvəsə etməyə başladı. Dedi: “İbrahim İsmayılın başını kəsmək istəyir.” Hacər xanım dedi: “Bu ola bilməz. İbrahım öz oğlunu çox sevir.” Şeytan dedi: “İbrahim deyir ki, bu iş Allahımın əmridir.” Hacər xanım dedi: “Əgər Allahın əmridirsə, uşağın başını nə üçün kəsməsin?”

Onların hər biri şeytanı özündən uzaqlaşdırdı və onun vəsvəsələrinə aldanmadı. Həzrət İbrahim(ə) İsmayılı(ə) qurbangaha aparıb yerə yıxdı və bıçağı onun boğazına çəkdi. Amma bıçaq uşağın boğazını kəsmədi. Bir neçə dəfə bu iş təkrar olundu, amma bıçaq onun başını kəsmədi ki, kəsmədi. Elə bu zaman Allahdan belə bir nida gəldi: “Ey İbrahim! Həqiqətən, sən yuxunu həyata keçirdin. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Şübhəsiz, bu (hadisə) həmin aşkar imtahandır.”

İbrahim(ə) uşağın əlindən tutub ayağa qaldırdı. Elə bu zaman cənab Cəbrayıl(ə) təəccübündən səsləndi: “Allahu Əkbər! Allahu Əkbər!” İsmayıl(ə) da onun səsinə səs verib dilləndi: “La ilahə illəllah, vallahu Əkbər!” Həzrət İbrahim(ə) də onlara qoşulub belə dedi: “Allahu Əkbər vəlillahil-həmd!”

Qurandan bu iki nümunə barədə danışmaqda məqsədim odur ki, Allah-təala həmin ayələrdə şeytanın insanı necə vəsvəsə etdiyindən bizi xəbərdar edir. Şeytan müxtəlif yollarla insanın qəlbinə girib onu vəsvəsə edir. Bəzən insanın qəlbinə daxil olaraq onun beynində əqidə məsələləri ilə bağlı suallar doğuraraq onu şübhəyə salır. Beləcə, insanın əqidəsini məhv etdikdən sonra onu tamamilə yoldan çıxarır. Peyğəmbərin(s) zamanında bir çox möminlər öz fikir və düşüncələrini Həzrətə(s)

söyləyər, səhvləri olduqda isə Peyğəmbər(s) onları düzəldərdi.

قَالَ الصَّادِقُ(ع): إِنَّ رَجُلًا أَتَى رَسُولَ اللَّهِ ص فَقَالَ يَا رَسُولَ اللَّهِ إِنِّي نَافَقْتُ فَقَالَ وَ اللَّهِ مَا نَافَقْتَ وَ لَوْ نَافَقْتَ مَا أَتَيْتَنِي تُعْلِمُنِي مَا الَّذِي رَابَكَ أَظُنُّ الْعَدُوَّ الْحَاضِرَ أَتَاكَ فَقَالَ لَكَ مَنْ خَلَقَكَ فَقُلْتَ اللَّهُ خَلَقَنِي فَقَالَ لَكَ مَنْ خَلَقَ اللَّهَ قَالَ إِي وَ الَّذِي بَعَثَكَ بِالْحَقِّ لَكَانَ كَذَا فَقَالَ إِنَّ الشَّيْطَانَ أَتَاكُمْ مِنْ قِبَلِ الْأَعْمَالِ فَلَمْ يَقْوَ عَلَيْكُمْ فَأَتَاكُمْ مِنْ هَذَا الْوَجْهِ لِكَيْ يَسْتَزِلَّكُمْ فَإِذَا كَانَ كَذَلِكَ فَلْيَذْكُرْ أَحَدُكُمُ اللَّهَ وَحْدَهُ

-İmam Sadiq(ə) buyurur: “Bir kişi Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: Ya Rəsulallah, mən münafiq olmuşam. Peyğəmbər(s) buyurdu: And olsun Allaha ki, münafiq olmamısan. Əgər münafiq olsaydın, mənim yanıma gəlməz və daxilindəki məsələni mənə danışmazdın. (Yəni münafiq insan heç bir vaxt öz münafiqliyini aşkara çıxarmaz). Səni şübhəyə salən nədir? Mənə elə gəlir ki, hazır olan düşmən (şeytan) sənin fikirlərini qarışdırır və səni şübhəyə salır. Sənə belə deyir: Səni yaradan kimdir? Sən də deyirsən: Məni yaradan Allahdır. O deyir: Bəs Allahı kim yaradıb? (Bu kimi vəsvəsələrlə sənin əqidəni xarab etmək istəyir.)

Həmin şəxs dedi: Bəli, elədir. Səni Peyğəmbər(s) göndərən Allaha and olsun ki, düz buyurursunuz.

Peyğəmbər(s) buyurdu: Həqiqətən, şeytan sizin əməlləriniz vasitəsilə sizə yaxınlaşır və sizi yaxşı əməllərdən uzaqlaşdırmağa çalışır. Əgər siz möhkəm olub

onu özünüzdən uzaqlaşdırsanız, digər bir hiyləyə əl ataraq sizi əqidə məsələləri vasitəsilə vəsvəsə etməyə başlayır. Sizlərdən hansı birinizdə belə hal yarandıqda tək olan Allahı yad etməklə onu (şeytanın vəsvəsələrini) özünüzdən uzaqlaşdırın."[1]

Kitablardan birində belə yazıblar ki, Nəcəf şəhərində bir qrup mömin əyləşib söhbət edirdi. Bir nəfər gəlib onlarla salamlaşır və filan möminin dünyasını dəyişməsi xəbərini onlara verir. Dünyasını dəyişən həmin mömin şəxs tacir idi. Möminlər bu xəbəri eşitdikdə dedilər: "Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq."

Bir nəfər ayağa qalxıb dedi: "Ey möminlər, bilin və agah olun. Mənim həmin tacirə filan məbləğdə borcum var.

Ona dedilər: Heç bu söhbətin yeridirmi? Səndən soruşan kimdir ki, ona borcun var, ya yox?

Dedi: Düzdür, heç bir kəs məndən bunu soruşmadı. Amma onun ölüm xəbərini eşitdikdə qorxdum ki, şeytan bir məsələdə məni vəsvəsə etsin. Mən ondan borc alarkən bunu heç bir yerdə qeyd etməmişdik. Onun mənə verdiyi borcu nə o, bir yerə yazıb, nə də mən yazmışam. Buna görə də sizin hamınızı şahid tuturam ki, mənim ona filan məbləğdə borcum var. Bunu sizə ona görə deyirəm ki, həmin məsələdən heç bir kəsin xəbəri olmadığından şeytan onun ölüm xəbərindən istifadə edərək borcu ödəməməkdə məni vəsvəsə etməsin."

Odur ki, insan həmişə diqqətli olmalı və şeytanın vəsvəsə etməsi üçün şərait yaratmamalıdır. Çünki şeytan vəsvəsə etmək üçün şərait olduğunu görən kimi işə

---

[1] Üsuli-Kafi,4-cü cild, səh.157.

başlayır. Özünə yer etdikdən sonra onu oradan çıxartmaq çox çətin məsələdir. Şeytan həmişə insanı pis işlər görməyə vadar edir. Ona görə də Allah-təala buyurur ki, şeytanın addımlarına tabe olmayın və pis işlərə yaxınlaşmayın.

## 5. NAHAQ YERƏ ADAM ÖLDÜRMƏYİN

"Ənam" surəsinin 151-153-cü ayələrində Allah-təala bir sıra ehkamlardan söhbət açır. Müşriklərin İslam Peyğəmbəri(s) ilə söhbətində və onların cavablarında bəyan edir ki, sizin ehkamlarınız sizə nicat verməyəcək. Gəlin, Allahın nazil etdiyi və sizi xoşbəxtliyə aparıb çıxaran ehkamları sizə söyləyim. Ötən bəhslərdə həmin ehkamlardan dördünü oxuduq. Onlardan beşincisi budur ki, Allah-təala buyurur:

وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ

-Həmçinin Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla öldürməyin.

Adam öldürmək Allah yanında ən böyük və demək olar ki, bağışlanılmaz günahlardan biridir. Adam öldürmək elə bir günahdır ki, Allah-təala bu işi görən insana əbədi cəhənnəm vədi vermişdir. Quranda hansı günahın barəsində Allah-təalanın insana cəhənnəm vədi verməsi həmin günahın çox böyük günah olmasına işarədir. Yəni böyük günahların cəzası əbədi cəhənnəmdir. Adam öldürmək də həmin günahlardandır. Əlbəttə, qeyd olunmalıdır ki, burada Allah yanında hörməti olmayan insanlar nəzərdə tutulmur. Məsələn, kafirlər bir müsəlman ölkəsinə hücum etdikdə öz dinini, Quranını, namus və

vətənini müdafiə etmək naminə onlarla döyüşüb onları öldürmək isə tamamilə başqa bir məsələdir. Çünki onların Allah-təala yanında ehtiram və qiymətləri yoxdur. Amma Allah-təala yanında hörməti olan və öldürülməsi haram sayılan hər hansı bir kəsi, hətta ana bətnində olan uşağı öldürmək belə böyük günahdır. Belə bir işi görən hər bir insan əbədi cəhənnəmdə olacaqdır. “Nisa” surəsinin 93-cü ayəsində buyurulur:

وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

-Kim bir mömini qəsdən öldürsə (və bu əməli halal hesab etsə), onun cəzası cəhənnəmdir ki, orada əbədi qalacaqdır. Həmçinin Allah ona qəzəblənər, onu Öz rəhmətindən uzaqlaşdırar və onun üçün böyük bir əzab hazırlayar.

Bir nəfəri öldürməyin günahı o qədər böyükdür ki, sanki bütün insanları öldürmüş kimidir. “Maidə” surəsinin 32-ci ayəsində buyurulur:

مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا

-Kim can qisası (haqqına malik) olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə, sanki bütün insanları öldürmüşdür.

قَالَ الصَّادِقُ(ع): فِي رَجُلٍ قَتَلَ رَجُلاً مُؤمِنًا يُقَالَ لَهُ مِت أَيِّ مَيِّتَةٍ شِئتَ إِن شِئتَ يَهُودِيًّا وَ إِن شِئتَ نَصرَانِيًّا وَ إِن شِئتَ مَجُوسِيًا

-İmam Sadiq(ə) buyurur: “Hər kim mömin bir insanı öldürsə, (həmin qatil) ölən zaman ona deyilər: Necə ölmək

istəyirsən? Yəhudi, xristian və yaxud atəşpərəstlərdən hansını seçirsən?”[1]

Deməli, bir insanı öldürən şəxsin özü vəfat edərkən dünyadan qeyri-müsəlman kimi gedəcək. Fərqi yoxdur ki, bir nəfəri, iki nəfəri, yaxud yüz və ya daha çox adamı öldürmüş olsun, cəzası elə həmin cəzadır. Yəni qatillərin hamısı eyni dərəcədədir və qatil hesab olunurlar.

İmam Sadiq(ə) buyurur: “Günlərin birində Həzrət Peyğəmbərə(s) xəbər verdilər ki, bir nəfəri öldürüb cəsədini də küçəyə atıblar. Peyğəmbər(s) həmin cəsədin yerini soruşdu və bir neçə nəfərlə birgə həmin yerə getdi. Üzünü oraya toplaşanlara tutub buyurdu: Bunun qatili kimdir? Dedilər: Bilmirik. Peyğəmbər(s) çox təəccüblə buyurdu: Necə ola bilər ki, müsəlmanların içərisində bir nəfər müsəlmanın cəsədi tapılsın, amma heç bir kəs onun qatilinin kim olduğunu bilməsin? Allaha and olsun ki, yer və göyün əhlinin hamısı əgər bir müsəlmanın qətlində iştirak etsə və yaxud onun ölümünə razı olsalar, Allah onların hamısını cəhənnəmə atacaq.”[2]

Adam öldürmək və günahsız insanları qətlə yetirmək asan bir iş deyil. Qatil bu əməlinə görə asanlıqla canını qurtara bilməyəcək. Günahsız insanları qətlə yetirmək və yaxud evdə əyləşib onların qətlinə razı olmaq asan məsələ deyil. Qətlə razı olmaq həmin qətl hadisəsində iştirak etmək kimidir.

---

[1] Böyük günahlar,1-ci cild, səh.110.
[2] Yenə orada.

قَالَ الرِّضَا(ع): وَلَو أَنَّ رَجُلاً قُتِلَ بِالْمَشرِق فَرَضِيَ بِقَتلِهِ رَجُلٌ بالْمَغرِبِ لَكَانَ الرَّاضِي عِندَ الله شَرِيكَ القَاتِل

-İmam Rza(ə) buyurur: “Əgər məşriqdə bir insanı öldürsələr və məğribdə olan bir insan onun bu ölümünə razı olsa, Allah yanında həmin qatilin şəriki hesab olunur.”[1]

Hicrətin səkkizinci ilində Həzrət Peyğəmbər(s) Əbu Qütadə Ənsarinin başçılığı ilə səkkiz yüz nəfəri müharibəyə yolladı. Məqsədə çatan vaxt Amir ibn Əzbət adlı bir şəxs müsəlmanlara yaxınlaşaraq onlara salam verdi. Amir ibn Əzbət keçmişdə müşriklərdən biri idi. Müsəlmanların gəldiyini gördükdə onlara yaxınlaşıb salam verməklə müsəlmançılığını izhar etdi. Yəni hər kəs salam versəydi, bu, onun zahirən də olsa müsəlmançılığını bildirirdi. Ona görə də müsəlmanlar ona toxunmadılar. Müsəlmanların içərisində Məhləm ibn Cüsamə adlı bir şəxs var idi və o, Amiri tanıyırdı. Cahillik dövründə onunla ədavəti və düşmənçiliyi olduğuna görə bu fürsətdən istifadə etdi və Amirin qorxudan salam verdiyini bəhanə gətirərək onu öldürüb dəvəsini də götürdü. Cənab Cəbrayıl(ə) nazil olub Peyğəmbərə(s) “Nisa” surəsinin 94-cü ayəsini gətirdi.

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا

-Sizə salam verən və zahirdə İslama münasibət bildirən şəxsə “sən mömin deyilsən” - deməyin.

Sonra baş vermiş həmin hadisəni Peyğəmbərə(s) çatdırdılar. Peyğəmbər(s) bu hadisədən çox narahat idi.

---

[1] Böyük günahlar,1-ci cild, səh.110.

Məhləm Həzrətin(s) hüzuruna gəlib onun bağışlanması üçün Allaha dua etməsini xahiş etdi. Peyğəmbər(s) buyurdu: “Allah səni bağışlamasın.”

Məhləm ağlaya-ağlaya evinə getdi və yeddi gündən sonra dünyasını dəyişdi.[1]

Beləcə, görürük ki, nahaq yerə insan öldürmək elə də asan məsələ deyildir. İslam dininin gözəlliklərindən biri budur ki, hər bir kəs zahirdə olmuş olsa da belə salam verən və İslamı qəbul edən insanları öldürməyi böyük günah bilir. Məhləm həmin hərəkəti ilə İslamın adına ləkə gətirmiş və insanların hidayət olunmasının qarşısını almışdır. Bu kimi hərəkətlər aydın yolları insanların üzünə bağlamaq deməkdir. Buna görə də Peyğəmbər(s) ona buyurdu ki, Allah səni bağışlamasın.

Hamı Peyğəmbərin(s) nə qədər ədəbli və əxlaqlı bir insan olduğunu çox yaxşı bilir. Küçədə onu daşladıqda, yolunun üstünə tikan atdıqda və başına zibil tökdükdə heç bir vaxt narahatlığını bildirməz və onların hidayət olunmaları üçün Allaha dua edərdi. Həzrətin(s) əxlaqı, ədəbi, çıxışları, danışıqları, bir sözlə desək, hər bir hərəkəti o qədər təsirli idi ki, hamıya nuraniyyət və hidayət yollarını göstərirdi. Hətta günlərlə damın üstünə çıxıb Peyğəmbərin(s) başına zibil tökən insana etdiyi alicənablıq həmin şəxsin də hidayət olunmasına səbəb olmuşdu. Peyğəmbər(s) insanların hidayət yoluna qədəm qoymaları üçün Allah yolunda əlindən gələnləri əsirgəmirdi. Hər kim insanların nuraniyyətə və hidayətə gedən yollarını bağlamaq istəsəydi, yaxud buna səbəb olacaq bir iş görsəydi, Peyğəmbər(s) həmin şəxsi tənqid

[1] Yenə orada, səh.111.

edirdi. Əgər bir insan salam verməklə özünü Allahın dininə yaxınlaşdırmaq istəyirsə, heç kəsin onu öldürməyə və yaxud onunla başqa cür rəftar etməyə ixtiyarı yoxdur. Təkcə Peyğəmbər(s) deyil, onun Əhli-beyti(ə) də Həzrətin(s) davamçıları olmuşlar. Onlar da insanların hidayət olunmaları üçün əllərindən gələni etmişlər. Hətta bircə nəfərin öldürülməməsi üçün döyüşü belə təxirə salmağı qərara almışlar. Tarixi mənbələrdən bu haqda olan nümunələrdən birinə diqqət yetirək.

Siffeyn müharibəsi İslam tarixində ən çətin və ağır müharibələrdən biri olmuşdur. Müaviyə işi o yerə çatdırdı ki, Həzrət Əli(ə) üçün döyüşdən başqa bir çarə qalmadı. Müaviyə heç bir şeylə razılaşmır, insanları hidayət yolundan azdırmaqda davam edir və müsəlmanlara meydan oxuyurdu. Həzrət Əli(ə) öz qoşunu ilə Şam şəhərinə yollandı. Müaviyə suyu müsəlmanların üzünə bağlamışdı və İmam Əlinin(ə) qoşununa su içməyə imkan vermirdi. Ancaq sonra belə oldu ki, İmamın(ə) qoşunu suyu onların əlindən aldı. Amma Həzrət Əli(ə) Müaviyənin etdiyi kimi deyil, əksinə düşmənin həmin sudan istifadə etməsinə icazə vermişdi. Həzrət Əli(ə) döyüşü də bir neçə gün təxirə saldı. Yavaş-yavaş müsəlmanlar arasında söz-söhbət yayılmağa başladı. Bir nəfər Həzrət Əliyə(ə) yaxınlaşıb dedi: “Ya Əli, bizi ona görə Şama gətirmisən ki, buranı özümüzə vətən edək? Müharibəni tez başlayın ki, gözü yolda qalanımız var. Qayıdıb öz vətənimizə gedək. Camaat sənin barəndə bəzi sözlər danışmağa başlayıb.”

Həzrət Əli(ə) soruşdu: “Camaat mənim barəmdə nə danışır?”

Bir nəfər dedi: “Camaat iki cür fikir söyləyir. Bir hissəsi deyir ki, Əli bu müharibədən qorxduğu üçün

döyüşə başlamır. İkincisi isə deyir ki, Əli Müaviyə ilə döyüşməkdə şəkkə düşüb.”

Həzrət Əli(ə) buyurdu: “Əgər Əli müharibədən və ölümdən qorxsaydı, cavanlığında qorxardı. Mən cavanlığımda ölümdən qorxmamışam, deyirsiniz ömrümün bu axırlarında qorxacağam? O ki, qaldı Müaviyə ilə döyüşməkdə tərəddüd etməyimə, onunla müharibə etməyim qətidir. Mən heç bir şəkk-şübhə etmirəm. Əgər şübhə edəsi olsaydım, Bəsrədə Cəməl döyüşündə şəkk edərdim. Müaviyənin əleyhinə müharibə aparmağın heç bir şübhəsi yoxdur. And olsun Allaha, döyüşü təxirə salmaqda məqsədim budur ki, bəlkə düşmənlərin içərisindən bir neçə nəfər fürsətdən istifadə edərək haqq yoluna qayıtsın. Ona görə döyüşü təxirə salmışam ki, heç olmasa bir neçə nəfər haqqa qayıtsın və öldürülməsinlər. Döyüşü ona görə təxirə salıb, suyu hamının ixtiyarında qoyuram ki, bəlkə bir neçə nəfər fikirləşib haqqa qoşulsun və insan ölümünə səbəb olmasınlar. Peyğəmbərdən(s) eşitmişəm ki, mənə belə buyurdu: Ey Əli, sənin əlinlə bir nəfər insanın hidayət olunması, günəşin yer kürəsinə işıq saçdığı bütün yerlərdən şərafətlidir.”

Qeyd olunan ayələrdən, hədis və rəvayətlərdən görürük ki, insan öldürmək çox ağır bir məsələdir. Xüsusilə Allah yanında ehtiramı vacib sayılan bir nəfəri öldürmək, bütün insanları öldürmək deməkdir. Bu əməl o qədər böyük günahdır ki, Allah-təala insan öldürənə cəhənnəm vədi vermişdir.

## İntihar etmək haramdır

Qeyd olundu ki, İslam dinində Allah yanında hörməti olan bir adamı öldürmək haram və böyük günahlardandır. Həmçinin insanın öz-özünə qəsd edib özünü öldürməsi də haram və böyük günahlardan sayılır. Hamının maliki olan Allah-təala insana icazə vermir ki, öz-özünü öldürsün. “Nisa” surəsinin 29-30-cu ayələrində belə buyurulur:

وَلاَ تَقْتُلُواْ أَنفُسَكُمْ إِنَّ اللّهَ كَانَ بِكُمْ رَحِيمًا. وَمَن يَفْعَلْ ذَلِكَ عُدْوَانًا وَظُلْمًا فَسَوْفَ نُصْلِيهِ نَارًا وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيرًا

-İntihar etməyin, bir-birinizi öldürməyin və özünüzü günah təhlükəsinə atmayın. Həqiqətən, Allah sizə qarşı həmişə mehribandır.

Onu (başqasının malını yeməyi və birini öldürməyi Allahın hökmünün) hədd(lərin)i aşmaq və (özünə və ya başqalarına) zülm edən kəsi tezliklə (yandırıcı) oda salacaq və odun istiliyini ona daddıracağıq. Bu, Allaha asandır.

## 6. YETİM MALINA YAXINLAŞMAYIN

Allah-təalanın “Ənam” surəsinin 151-153-cü ayələrində bəyan etdiyi ehkamdan altıncısı yetimlər barəsindədir. Allah həmin ayələrdə belə buyurur:

وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ

-Və yetimin malına o, (cismani və ruhi baxımdan) həddi-büluğa çatana kimi, gözəl bir tərz istisna olunmaqla, yaxınlaşmayın.

Yetimlərin həm özləri və həm də onların malları əmanətdir. Heç bir vəchlə onların özlərinə və mallarına xəyanət etmək olmaz. Hər bir cəmiyyətdə yetimin hörməti pozulub aradan getsə və onların mallarına təcavüz olsa,

həmin cəmiyyət tənəzzülə uğrayacaq. Çünki həm yetimin özü, həm də malı insanların əlində əmanətdir. Quran ayələrinə nəzər yetirdikdə müxtəlif ayələrdə bu məsələ barədə söz açıldığının şahidi oluruq. Allah-təala "Nisa" surəsinin 10-cu ayəsində buyurur:

إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْمًا إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَارًا وَسَيَصْلَوْنَ سَعِيرًا

-Həqiqətən, yetimlərin mallarını zülm ilə yeyənlər əslində qarınlarına od daxil edirlər (yetimin malına toxunmağın axirətdəki gerçək təzahürü od yemək olacaqdır). Və onlar tezliklə yanar oda daxil olar və onun hərarətini dadarlar.

قَالَ رَسُولُ اللهِ(ص): لَمَّا أسري بِي إِلَى السَّمَاءِ- رَأَيتُ قَومًا تُقذَفُ فِي أَجوَافِهِم النَّار وَ تُخرج مِن أَدبَارِهِم- فَقُلتُ مَن هَؤُلاءِ يَا جبرئيل- فَقَالَ هَؤُلاءِ اَلَّذِينَ يَأْكُلُونَ أَمْوالَ اَلْيَتامى ظُلْماً

-Həzrət Peyğəmbər(s) buyurur: "Merac gecəsi bir dəstə insanı gördüm ki, onların qarınlarına od doldururdular. Həmin od onların arxalarından çıxır. Soruşdum: Ey Cəbrayıl, bunlar kimlərdir belə? Dedi: Bunlar yetimlərin mallarını zülm ilə yeyənlərdir."[1]

Yetim malını yeməyin və onlara zülm etməyin təkcə axirət cəzası deyil, bu dünyada da insana böyük təsiri vardır. "Nisa" surəsinin 9-cu ayəsində buyurulur:

---

[1] Mizanül-hikmə,14-cü cild, hədis 22890.

وَلْيَخْشَ الَّذِينَ لَوْ تَرَكُواْ مِنْ خَلْفِهِمْ ذُرِّيَّةً ضِعَافًا خَافُواْ عَلَيْهِمْ فَلْيَتَّقُوا اللّهَ وَلْيَقُولُواْ قَوْلاً سَدِيدًا

-Özlərindən sonra (yaş və ya ruhi cəhətdən) zəif övladlar qoyacaqları təqdirdə onların (gələcəyi) barəsində qorxan şəxslər gərək (başqalarının yetimlərinə zülm etməkdən və vəsiyyətlərində öz övladlarının haqqını zay etməkdən də) qorxsunlar. Buna görə də Allahdan qorxsunlar və (başqalarının yetimləri ilə) doğru-düzgün söz danışsınlar (və malların sərf olunması və vəsiyyət edilməsində ədalətə riayət etsinlər).

Ümumiyyətlə, insanın əməlinin mükafatı bu dünyada da qarşısına çıxır. Əgər insan yaxşı və ya pis bir iş görübsə, onun öz nəsli və övladlarının qarşısına çıxacaqdır. Nə üçün belə olacaqdır? Cavabı budur ki, onlar özlərindən elə bir sünnə qoyurlar ki, həmin sünnə o biri nəsillərə keçir. Beləliklə, gələcək nəsillərə sirayət edərək yavaş-yavaş bir ənənəyə çevrilir. Ona görə də özləri qoyduqları zülm təməlinin nəticəsi olaraq balaları bu zülmə məruz qalacaqlar.

İmam Sadiq(ə) buyurur: “Allah-təala yetimin malını yeyənlərə iki cəza vədi vermişdir. Onlardan biri dünyəvi, o biri isə axirət cəzasıdır. Bu əməlin axirətdəki cəzası od, bu dünyadakı cəzası isə həmin ayədir ki, Allah-təala buyurur: “Özlərindən sonra zəif övladlar qoyacaqları təqdirdə onların (gələcəyi) barəsində qorxan şəxslər gərək (başqalarının yetimlərinə zülm etməkdən) qorxsunlar.”[1]

Odur ki, əgər bir adam kiməsə, xüsusilə yetimlərə zülm etsə, həmin zülm heç bir vaxt yerdə qalmayacaqdır.

[1] Böyük günahlar,1-ci cild, səh.161.

Ən azından bu dünyada həmin zülmün cavabı o zülmkara qayıdacaq.

## Rüstəm Zal və İsfəndiyarın əhvalatı

Tarixi mənbələrdə yazılıb ki, Rüstəm ibn Zal Rüstəm Zal kimi tanınmış bir pəhləvan idi. Zal onun atası idi. Zəmanəsinə görə o da məşhur bir pəhləvan və döyüşçü olmuşdu. Rüstəm Zal elə bir pəhləvan idi ki, heç bir kəs onun qarşısında tab gətirə bilmirdi. O dövrün pəhləvanlarından biri də İsfəndiyar idi. Rüstəm Zal onunla döyüşmüşdü, amma bir neçə dəfə İsfəndiyara məğlub olmuşdu. Nə qədər çalışmışdısa, İsfəndiyara bata bilməmişdi.

Günlərin birində İsfəndiyarı necə məğlub etmək barədə atasından məsləhət aldı. Onun atası, qeyd olunduğu kimi, təcrübəli bir döyüşçü idi. Atası dedi: "Gəl, sənə bir yol öyrədim. Həmin üslubdan istifadə etsən, İsfəndiyara qalib gələcəksən. Elə bir ox düzəlt ki, hər tərəfi iti olsun. Sonra onu kamana qoyub İsfəndiyarın gözünə tuşla." Rüstəm atasının dediyi kimi etdi. Yaxşı bir ağac tapıb onun münasib budaqlarından birini qopartdı. Sonra onun hər iki tərəfini yonub möhkəm bir ox düzəltdi. Nəhayət, İsfəndiyarla döyüş yerini də təyin etdilər. Döyüş əsnasında həmin oxu kamana qoyub ona sarı atdı. Ox İsfəndiyarın gözünə sancılıb onu kor etdi. Beləcə, Rüstəm İsfəndiyara qalib gəldi.

Tarixi mənbələrdə həmin bu əhvalatı qeyd etdikdən sonra altında belə yazmışlar: "İsfəndiyar cavan vaxtlarında həmyaşıdlarına meydan oxuyurdu. Demək olar ki, hamıdan güclü idi. Günlərin birində bir ağacın budağı ilə yetim bir uşağın üzünə vurdu. Həmin yetimin gözləri kor

oldu. Sonra həmin budağı kənara atdı. Yoldan ötən bir nəfər həmin budağı götürüb əkdi. O budaq böyüyüb böyük bir ağac oldu. İsfəndiyarın gözlərini kor edən ox həmin ağacın budağı idi.”[1]

Qeyd etdiyimiz bu əhvalat bir hadisədir ki, tarixi mənbələrdə vurğulanmış və şeirlərdə nəzmə çəkilmişdir. Amma insanın görən gözü olsa, gündə yüz dəfə Rüstəm Zalla və İsfəndiyar arasında baş verən hadisələrə bənzər canlı hadisələrin şahidi ola bilər.

## Yetimə nəvaziş göstərmək lazımdır

Odur ki, hər kəs yetimə zülm etsə, dünyada həmin zülmün qarşılığını mütləq görəcəkdir. Yetimlər insanların yanında Allah-təalanın əmanətləridir. Onlarla gözəl davranmaq və onların qayğılarına qalmaq lazımdır. Hamı bilsin ki, yetimə nəvaziş göstərmək çox böyük savaba və Allahın razılığına səbəb olur. Yetimlərin qayğısına qalmaq, onların nazını çəkmək və onlara xidmət etməyin həm bu dünyada, həm də axirətdə böyük mükafatı vardır. Həmçinin yetimə nəvaziş göstərmək insanın qəlbini yumşaldır.

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib qəlbinin çirklənməsindən və bərkliyindən şikayətləndi. Həzrət Peyğəmbər(s) buyurdu:

أَتُحِبُّ أنْ يَلِينَ قَلْبُكَ، وتُدْرِكَ حاجَتَكَ؟ اِرْحَمِ اليَتِيمَ، وامْسَحْ رَأسَهُ، وأطْعِمْهُ مِنْ طَعامِكَ

---

[1]500 dastan,1-ci cild, səh.568.

-Əgər qəlbinin yumşalmasını və istəklərinin yerinə yetirilməsini istəyirsənsə, yetimlərə qarşı mərhəmətli ol. Onların başına sığal çək və öz yeməyindən onlara da ver.[1]

Həzrət Peyğəmbərin(s) yetim barəsində buyurduğu kəlamlar Həzrətin(s) hərəkətlərində də müşahidə olunurdu. Məsələn, hicrətin 8-ci ilində Mutə müharibəsi baş verdi. Cəfər Təyyar həmin müharibədə şəhid oldu. Abdullah ibn Cəfər onun oğlu idi. Abdullah deyir: "Atam müharibədə şəhid olduqdan sonra Peyğəmbər(s) bizim evimizə gəldi. Mən o zamanlar kiçik bir uşaq idim. Bizi ətrafına toplayıb atamın şəhid olduğunu söylədi. Peyğəmbər(s) mənimlə qardaşımın başına sığal çəkə-çəkə elə ağlayırdı ki, göz yaşları saqqalından süzülüb yerə tökülürdü. Sonra məni götürüb özü ilə apardı. Çox vaxt mənim əlimdən tutub gəzdirər və məscidə aparardı. Bəzən məni öz evinə aparar, mənim üçün xüsusi yeməklər hazırlatdırardı. Bəzən də Həzrət(s) minbərdə çıxış edərkən mən də minbərin birinci pilləkənində oturardım. Heç kim mənə bir söz deməzdi. Hətta Peyğəmbər(s) də mənim xətrimə dəymirdi. Atam şəhid olduqdan sonra Peyğəmbər(s) üç gün məni özü ilə aparmışdı. Üç gündən sonra mən anamın yanına qayıtdım. Təkcə mənimlə deyil, Həzrət(s) başqa yetimlərlə də belə rəftar edirdi."[2]

Peyğəmbər(s) yetimlərə qarşı həm özü belə idi, həm də bütün müsəlmanlara yetimlərlə mehriban davranmağı tapşırırdı. Həmçinin yetimin qayğısına qalan insanın hansı məqamlara yüksələcəyini də bəyan edirdi.

---

[1] Mizanül-hikmə,14-cü cild, hədis 22886.
[2] 500 dastan,1-ci cild, səh. 870.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ فِي الْجَنَّةِ دَارًا يُقَالُ لَهَا دَارُ الْفَرَحِ، لا يَدْخُلُهَا إِلا مَنْ فَرَّحَ يَتَامَى الْمُؤْمِنِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Cənnətdə bir ev vardır ki, onun adına fərəh və şadlıq evi deyərlər. Ora yalnız möminlərin yetimlərini sevindirən insanlar daxil olacaqlar."[1]

Həzrət Əli(ə) ramazan ayının 21-ci gecəsi ömrünün son anlarında vəsiyyət etdi. Həmin vəsiyyətin bir hissəsi də yetimlər barədədir. Həzrət(ə) belə buyurur:

الله الله فِي الْأَيْتام, فَلا تُغِبُّوا أَفْواهَهُمْ وَلا يَضِيعُوا بِحَضْرَتِكُمْ فَقَد سَمِعتُ رَسُول اللهِ صَلَّى اللهُ عَلَيهِ وَآلِه يَقُول: " مَن عَالَ يَتيمًا حَتّى يَستَغنىَ عَنهُ أَوجَبَ اللّه عَزَّوَجَلَّ لَهُ بِذلِكَ الجَنَّةَ كَما أَوجَبَ اللّهُ لِآكِلِ مالِ اليَتيمِ النّارَ."

-Sizi and verirəm Allaha, yetimləri qoruyun. Elə etməyin ki, onlar bəzən ac, bəzən də tox qalsınlar. Elə etməyin ki, onlar sizin biganəliyiniz üzündən qarşınızda məhv olub puça çıxsınlar. Allahın rəsulundan eşitmişəm ki, belə buyurmuşdur: "Hər kəs bir yetimi saxlayıb (qayğısına qalıb onu boya-başa çatdıraraq ehtiyaclarını aradan qaldırsa) Allah cəhənnəmi yetim malını yeyən insana vacib etdiyi kimi, cənnəti də həmin şəxsə vacib edər."[2]

---

[1] Miзanül-hikmə,14-cü cild, hədis 22883.

[2]Miзanül-hikmə,14-cü cild, hədis 22877.

## 7. ÖLÇÜ VƏ ÇƏKİDƏ ƏDALƏTLİ OLUN

Allah-təala “Ənam” surəsinin 151-153-cü ayələrində bir sıra hökmləri bəyan edir. Bu hökmlər həm də müşriklərin Peyğəmbərə(s) söylədikləri sözlər müqabilində nazil olmuşdur ki, həmin hökmlərin insanı səadətə və hədəfə çatdıran yeganə yolu göstərdiyi bildirilir. Əlbəttə, bəhsimizin əvvəlində bu barədə lazımi qədər söhbət etmişik. Həmin hökmlərdən yeddincisi ölçü və çəkidə ədalətli olmaqdır. Allah-təala belə buyurur:

وَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ

-Ölçü və çəkini ədalətlə tam şəkildə verin.

İnsanların həyatında və cəmiyyətdə mühüm rol oynayan hökmlərdən biri də elə bu məsələdir ki, insan gərək həmin məsələdə çox diqqətli olsun. Alver edərkən çəki və ölçü məsələsi elə bir şeydir ki, bu, sadəcə olaraq insanların haqqıdır. Haqqa riayət etməmək isə insanı mənəviyyat aləmində yüksəlməyə qoymaz. Odur ki, insan yaşadığı cəmiyyətdə bu məsələdə çox diqqətli olmalı, alqı-satqıda ədalətə riayət etməlidir. Quran ayələrini oxuduqda ölçü və çəkidə aldadanların sərt tənqid olunduqlarını görürük. “Mutəffifin” surəsinin 1-4-cü ayələrində belə buyurulur:

وَيْلٌ لِّلْمُطَفِّفِينَ. الَّذِينَ إِذَا اكْتَالُواْ عَلَى النَّاسِ يَسْتَوْفُونَ. وَإِذَا كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ. أَلَا يَظُنُّ أُولَئِكَ أَنَّهُم مَّبْعُوثُونَ

-Vay halına əskik satanların! O kəslər ki, özləri insanlardan ölçü ilə bir şey aldıqda, onu tam ölçüb alarlar. Onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu əskildərlər. Məgər onlar güman etmirlərmi ki, (haqq-hesab üçün) dirildiləcəklər?

İbn Abbas deyir: "Peyğəmbər(s) Mədinəyə hicrət edən zaman oranın əhalisi belə bir əmələ aludə olmuşdu. Alverçilər özləri üçün bir şey alanda çox dəqiq ölçüb-çəkər və yalnız bundan sonra alardılar. Amma başqalarına bir şey satanda ölçü və çəkini azaldıb satardılar. Allah-təala həmin (yuxarıda qeyd olunan) ayələri nazil etdi.[1] Sonra Həzrət Peyğəmbər(s) buyurdu:

ما نَقضَ قَوْمٌ الْعَهْدَ إِلاّ سَلَّطَ اللّهُ عَلَيْهِمْ عَدُوَّهُمْ! وَ ما حَكَمُوا بِغَيْرِ ما أَنْزَلَ اللّهُ إِلاّ فَشا فِيْهِمُ الْفَقْرُ. وَ ما ظَهَرَتْ فِيْهِمُ الْفاحِشَةُ إِلاّ فَشا فِيْهِمُ الْمَوْتُ وَ لا طَفَّفُوا الْكَيْلَ إِلاّ مُنِعُوا النَّباتَ وَ أُخِذُوا بِالسِّنِيْنَ وَ لا مَنَعُوا الزَّكاتَ إِلاّ حُبِسَ عَنْهُمُ الْمَطَرُ.

-Elə bir qövm yoxdur ki, əhd-peymanlarını sındırdıqlarına görə Allah-təala düşmənlərini onlara qarşı göndərməsin. Elə bir cəmiyyət yoxdur ki, Allahın hökmlərindən savayı başqa hökmləri icra etdiklərinə görə onların arasında yoxsulluq və kasıbçılıq artmasın. Heç bir millət yoxdur ki, onların arasında pozğunluq çox olsun, amma itkiləri və ölümləri az olsun. Elə bir yer yoxdur ki, orada çəkidə və ölçüdə insanları aldatsınlar, amma əkin-biçinləri aradan getməsin və qəhətlik yaranmasın. Heç bir tayfa yoxdur ki, zəkat verməkdən boyun qaçırsın, amma orada quraqlıq olmasın.[2] (Yəni Allah əhd-peymanı sındıran qövmə qarşı düşmənlərini göndərər. Allahın hökmlərini yox, başqa hökmləri icra edən cəmiyyət

---

[1] Təfsiri-nümunə,26-cı cild, səh.243.
[2] Təfsiri-Fəxri Razi,31-ci cild, səh.88.

yoxsulluq və kasıbçılıqla üzləşər. Pozğunluq olan bir cəmiyyətdə ölüm-itim də çoxalar. Çəkidə aldadan cəmiyyətin əkin-biçinləri quruyar. Zəkat verməyən tayfa isə quraqlığa məhkum olar.)

Əsbəğ ibn Nəbatə deyir: “İmam Əli(ə) bazara gedib tacirlərlə söhbət edər və onlara belə buyurardı:

يَا مَعشَرَ التُّجَّار اَلفِقه ثُمَّ الْمَتجَر. اَلفِقه ثُمَّ الْمَتجَر. اَلفِقه ثُمَّ الْمَتجَر.

-Ey tacirlər, ticarətin hökmlərini öyrənin və sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin, sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin, sonra ticarət edin!”

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, təkcə ticarət deyil, hər bir peşədə insan İlahi hökmlərə riayət etməlidir. Müəllim, mühəndis, idarə müdirləri, fəhlələr və işçilər də bu kimi məsələlərdə çox dəqiq olmalıdırlar. Məsələn, əgər bir nəfər bir idarədə işləyirsə, onun üçün təyin olunan vaxta riayət etməlidir. Çünki o, müəyyən məbləğin müqabilində öz vaxtının bir hissəsini satmışdır. Belə olmamalıdır ki, adını hansısa bir idarədə yazdırsın, işə getməsin və aylıq maaş alsın. Bu insan işləməyə-işləməyə aldığı həmin pulu necə yeyə bilər? Yaxud bir işdə səhlənkarlıq edərək iş vaxtına riayət etmədən aldığı aylıq maaşa haram qatmış olur. Məsələn, bir nəfər bir idarədə işləməyə başlayır. O, müdiriyyətlə belə bir razılığa gəlir ki, səhər saat 9-dan axşam saat 18-dək işləyəcək və əvəzində hər ay müəyyən məbləğdə pul alacaq. Əgər həmin işçi icazəsiz işə bir neçə saat gec getsə, yaxud bir neçə saat tez işdən çıxsa, bir sözlə desək, qərarlaşdırılmış vaxtdan kəsərsə, tərəzidə az çəkmiş ticarətçi kimidir. Çünki bu da bir növ ticarətdir ki, həmin şəxs öz vaxtını müəyyən məbləğin müqabilində başqasına satmışdır. Əgər

satdığı vaxtdan kəsərsə, o zaman haram iş görmüş sayılır və o, ölçüdə, tərəzidə çəkini azaldan alverçilərlə eynidir.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, iş görmək iki cürdür. Onlardan biri budur ki, insan hər hansı bir işi müəyyən bir məbləğin müqabilində görür. Məsələn, evini təmir etdirmək istəyən bir şəxs usta çağırır. Usta ona deyir ki, mən filan məbləğin müqabilində sənin evini təmir edərəm. Evi neçə günə təmir edəcəyim isə məndən asılıdır. Mən evini təmir edib sənə təhvil verəcəyəm. Beləcə, razılaşıb işə başlayırlar. Usta burada öz vaxtını satmır. Sadəcə olaraq işi boynuna götürür və nə vaxt hazır oldu, o zaman da evi təhvil verəcəkdir. Usta istəsə həmin işi on günə, istəsə on beş günə başa çatdıra bilər. Çünki burada vaxt məsələsində heç bir şərt kəsilməyib.

İş görməyin ikinci növü isə belədir ki, insan öz vaxtını kiməsə satmış olsun. Məsələn, bir nəfər idarədə işləyir və idarədəki qaydalara uyğun hərəkət etməli, müəyyən olunmuş vaxtda isə orada olmalıdır. Həmin işçi idarədə olduğu müddətdə vaxtının bircə dəqiqəsini belə başqa işlərə sərf edə bilməz. Yalnız gündəlik vacib namazların vaxtından başqa. Çünki həddi-büluğa çatandan ömrünün axırına qədər vacib namazların vaxtını Allaha satmışdır. İdarədə işləyən işçi namaz vaxtı istisna olmaqla idarə işlərindən başqa heç bir işlə məşğul ola bilməz. Həmçinin idarənin qayda-qanunlarına əsasən, məsələn, nahara yarım saat vaxt ayrılıbsa, gərək naharını həmin yarım saatın ərzində yesin və yenidən öz işlərinə davam etsin.

Qum şəhərində olduğum müddətdə belə bir hadisə baş vermişdi. Bir ailədə kişi ilə arvad arasında söz-söhbət yaranmışdı. Onların iki qız uşağı var idi. Kişi arvadına təlaq verib boşamışdı. Mən onları tanıdığım üçün

istəyirdim ki, onların arasında mehribançılıq yaradım və öz həyatlarını birgə sürməyə davam etsinlər. Onlardan xahiş etdim ki, bir gün bir yerdə əyləşib söhbət edək. Onlar mənimlə razılaşdılar. Bir neçə gün onlarla söhbət etdikdən sonra hər ikisini razı sala bildim. Allaha şükürlər olsun ki, onlar barışdılar və yenidən bir ailə olmağa razılaşdılar. Amma kişi arvada təlaq verdiyi üçün yenidən kəbin kəsmək lazım gəldi. Onların əqdini oxumaq üçün qonşuluğumuzdakı dəftərxanaya müraciət etdik. Bura bir müctəhidin dəftərxanası idi və alimlərdən biri orada işləyirdi. Həmin alim həm də mənim ustadım idi. Dəftərxanaya gedib ona dedim ki, beş-on dəqiqə vaxt ayırıb bizə gəlsin və onların kəbinini kəssin. O, diqqətlə məni dinlədikdən sonra bir az fikirləşib dedi: “Məni üzürlü hesab edin. Heç bircə dəqiqə də buradan çıxa bilmərəm. Çünki mən burada işləyirəm və hər gün iki saatımı dəftərxananın işlərinə həsr etməliyəm. Bunun əvəzində isə mən pul alıram. Əgər mən bu iki saatda başqa bir işlə məşğul olsam, o zaman haram iş görmüş olaram. Əgər bu dəftərxananın sahibindən icazə alsanız, o zaman çıxa bilərəm. Yaxud işdən sonra gələrəm və məsələni həll edərik.”

Dəftərxananın sahibi (həmin müctəhid) orada olmadığı üçün mən ondan xahiş etdim ki, gedib kəbini kəsək, sonra gəlib mən ondan icazə alaram. Ustad mənim sözümü yerə salmayıb razılaşdı və kəbin kəsmək üçün həmin kişi ilə arvadın yanına getdik. Əqdi oxuduqdan sonra onlara bir neçə kəlmə dua edib işə qayıtdı. Sonra mən münasib bir vaxtda onun müdiri olan həmin müctəhiddən icazəsini aldım və bu məsələni ona danışdım. O da razılıq verdi.

Odur ki, insan mütləq hər bir işində ölçü və çəkiyə, hətta işinin vaxtına dəqiq riayət etməlidir. Həzrət Əli(ə) xüsusən bazarda tacirlərə moizə və nəsihət edər, onları düzgünlüyə səsləyərdi.

قَدِّمُوا الِاسْتِخَارَةَ وَ تَبَرَّكُوا بِالسُّهُولَةِ وَ اقْتَرِبُوا مِنَ الْمُبْتَاعِينَ وَ تَزَيَّنُوا بِالْحِلْمِ وَ تَنَاهَوْا عَنِ الْيَمِينِ وَ جَانِبُوا الْكَذِبَ وَ تَجَافَوْا عَنِ الظُّلْمِ وَ أَنْصِفُوا الْمَظْلُومِينَ وَ لَا تَقْرَبُوا الرِّبَا وَ أَوْفُوا الْكَيْلَ وَ الْمِيزَانَ

-Ey tacirlər! Qazanc və işə başlamamışdan Allahdan xeyir diləyin, alverdə sadə olmaqla Allahdan bərəkət axtarın, alıcılara yaxınlaşın, həlimlik zinəti ilə bəzənin, and içməkdən çəkinin, yalan deməkdən uzaqlaşın, zülm etmək və haqsızlıqdan qorxun, məzlumlarla insaf və ədalətli davranın, sələmin ətrafına fırlanmayın "və ölçü və çəkini kamil edin, camaatın haqqından bir şey kəsməyin və yer üzündə fəsad törədən olaraq dolaşmayın."[1]

[1] Təfsiri-nümunə,26-cı cild, səh.251.

## 8. SÖZ DANIŞARKƏN ƏDALƏTƏ RİAYƏT EDİN

"Ənam" surəsinin 151-153-cü ayələrində Allahın bəyan etdiyi ehkamlardan səkkizincisi belədir.

وَإِذَا قُلْتُمْ فَاعْدِلُواْ وَلَوْ كَانَ ذَا قُرْبَى

-Danışanda ədalətli olun. Hətta qohum(larınız barəsində) olsa da belə.

Allah-təala bu ayədə dil və danışıq barəsində söz açır. Bu ayədə danışıq və dilin barəsində iki mətləbi bəyan edir. Onlardan biri budur ki, danışarkən mütləq şəkildə ədalətli olmağı tapşırır. Yəni diliniz və danışığınız sizi ədalətdən çıxarmasın. Ümumiyyətlə, dil insanın bədənində ən mühüm üzvlərdən biridir. Dil insanın təqvalı olmasında da böyük rola malikdir. Dil elə bir şeydir ki, həm insanı təqvadan çıxara bilər, həm də təqvalı edə bilər.

قَالَ عَلِيٌّ(ع): مَا الْإِنْسانُ لَوْلَا اللِّسانُ إِلَّا صُورَةٌ مُمَثَّلَةٌ أَوْ بَهِيمَةٌ مُهْمَلَةٌ

-Həzrət Əli(ə) buyurur: "İnsanda dil olmasaydı, müəyyən bir şəkli olan varlıqdan (heykəldən), yaxud özbaşına buraxılmış bir heyvandan başqa nə ola bilərdi ki?"[1]

Dil və danışıq elə bir şeydir ki, onun insanın insanlığında çox böyük təsiri vardır. Dil insanı tanıtdıran amillərdən biridir. Nə qədər ki, insan danışmayıb, onun kimliyi, nə cür insan olduğu da bilinməyəcək.

قَالَ عَلِيٌّ(ع): تَكَلَّمُوا تُعْرَفُوا فَإِنَّ الْمَرْءَ مَخْبُوءٌ تَحْتَ لِسَانِهِ

---

[1] Mizanül-hikmə,11-ci cild, hədis 18143.

-Həzrət Əli(ə) buyurur: “Danışın ki, tanınasınız. Çünki insan dilinin altında gizlənmişdir.”[1]

قَالَ البَاقِرُ(ع): اِنَّ هذَا اللِّسانَ مِفْتاحُ كُلِّ خَيْرٍ وَ شَرٍّ، فَيَنْبَغى لِلْمُؤمِنِ اَنْ يَخْتِمَ عَلى لِسانِهِ كَما يَخْتِمُ عَلى ذَهَبِهِ وَ فِضَّتِهِ

-İmam Baqir(ə) buyurur: “Doğrudan da bu dil hər yaxşılıq və pisliyin açarıdır. Buna görə də möminin öz qızıl-gümüşünün (kisəsinin) ağzını bağladığı kimi, dilinə də möhür vurması daha layiqlidir.” [2]

قَالَ رَسُولُ اللهِ(ص): يعذّبُ اللهُ اللّسانَ بعذابٍ لا يعذّبُ بِهِ شيئاً من الجوارحِ، فيقولُ: أَيْ رَبِّ عذّبْتَنِي بعذابٍ لَمْ تُعَذِّبْ بِهِ شيئاً؟! فيُقَالُ لهُ: خَرَجَتْ مِنْكَ كَلِمَة فَبَلَغَتْ مَشارِقَ الأرضِ وَمَغارِبَها، فَسُفِكَ بها الدَّمُ الحرامُ، وانْتُهِبَ بِها المالُ الحرامَ، وانْتُهِكَ بِها الفَرْجُ الحَرامُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala (qiyamət günü) dilə verdiyi əzabı bədənin heç bir üzvünə verməyəcək. Dil deyəcək: Ey mənim Rəbbim, məni elə əzaba düçar etmisən ki, heç bir şeyə belə əzab verməmisən. Ona deyilər: Səndən çıxan söz yer kürəsinin məşriq və məğriblərinə çatmış, həmin sözün vasitəsilə

[1] Miзanül-hikmə,11-ci cild, hədis 18149.
[2] Yenə orada, hədis 18168.

nahaq qanlar axıdılmış, mallar qarət olunmuş və namuslar təcavüzə məruz qalmışdır.”[1]

Hədislərdə belə nəql olunur ki, günlərin birində ənsarlarından bir nəfər bir məclisə daxil olur. Görür ki, orada əyləşənlər nalayiq və boş-boş sözlər danışırlar. Üzünü onlara tutub deyir: “Qalxın ayağa, gedin dəstəmaz alın. Çünki siz elə sözlər danışırsınız ki, o sözlər dəstəmazı batil edən işlərin hamısından pisdir.”[2]

Fiqh məsələlərində dəstəmazı bir neçə əməl pozub batil edir. Amma bəzən insan elə sözlər danışır ki, fiqh baxımından dəstəmaz batil olmur. Amma əxlaqi nöqteyi-nəzərdən dəstəmazlı insan elə sözlər danışdıqda (şəri nöqteyi-nəzərdən batil olmamasına baxmayaraq) həmin dəstəmazla necə namaz qıla bilər? Bu, bir növ məsələnin mühüm olduğuna təkiddir.

Mərhum Rəcəbəli Xəyyat deyir: “Mən həmişə belə bir sözü deməyə adət etmişdim: “Qurban olum o kəsə ki, danışığı ilə qəlbi bərabərdir.” Gecələrin birində yuxuda Səlman Farsini mənə göstərib dedilər: Səni buna qurban etməyə gəlmişik. Çünki Səlmanın dili əməli ilə bərabər idi. Onlara dedim: Mən Səlmanı çox sevirəm. Amma mən Peyğəmbərə(s) və yaxud onun Əhli-beytinə(ə) qurban olmaq istəyirəm.”

Yuxudan ayılanda başa düşdüm ki, dediyim sözlər düzgün deyildir. Əgər sözü ilə əməli düzgün olan adama qurban olum deyirəmsə, Səlmanı mənə göstərdilər. Onda gərək ona qurban olaydım. Sonra sözümü dəyişib belə

---

[1] Yenə orada, hədis 18226.

[2] Min bir əxlari hekayətlər, səh. 48.

dedim: “Sevirəm o adamı ki, sözü ilə əməli uyğun olsun.”[1]

Odur ki, dil, söz və danışıq insan üçün çox mühümdür. İnsan danışarkən sözlərinə diqqət yetirməli, düzgün və ədalətli danışmalıdır.

Günlərin birində Əhnəf ibn Qeys Müaviyənin təşkil etdiyi bir məclisdə əyləşmişdi. Orada iştirak edənlərin hər biri Həzrət Əlinin(ə) barəsində nalayiq sözlər danışırdı. Əhnəf isə sükuta qərq olub bir söz demədi. Müaviyə soruşdu: “Ey Əhnəf, bəs sən nə üçün bir söz danışmırsan? Əhnəf dedi: Əlinin barəsində Allahdan qorxduğum üçün pis söz danışmıram. Əlinin barəsində tərifli sözlər danışsam, səndən qorxuram. Buna görə də susmağı qərara aldım.”[2]

Deməli, ayədə buyurulduğu və hədislərdə göstəriliyi kimi, insan danışarkən dilinə sahib çıxmalı, söyüş, böhtan, qeybət və s. kimi dil günahlarından uzaq olmalıdır. Ayədəki ikinci mətləb isə budur ki, insan danışarkən haqqı deməlidir. Yəni insan bir şeyin və bir kəsin barəsində şahidlik edirsə, güzgün şəhadət verməlidir. Hər bir cəmiyyətdə hakimlik və şahidlik düzgün olmasa, həmin cəmiyyət od tutub yanacaq. Haqq ayaq altına düşəcək və həmin cəmiyyətdə mənəviyyatdan əsər-əlamət belə qalmayacaq. Buna görə də həm hakimlər, həm də şahidlər olan şeyi olduğu kimi söyləməli, heç bir şeyi gizlətməməlidirlər. “Bəqərə” surəsinin 282-ci ayəsində oxuyuruq:

---

[1] Min bir əxlari hekayətlər, səh. 52.
[2] Yenə orada, səh. 333.

وَلاَ يَأْبَ الشُّهَدَاء إِذَا مَا دُعُواْ

-Şahidlər (şahid durmaq və ya şəhadət vermək üçün) dəvət olunduqda boyun qaçırmamalıdırlar.

"Bəqərə" surəsinin 140-cı ayəsində buyurulur:

وَمَنْ أَظْلَمُ مِمَّن كَتَمَ شَهَادَةً عِندَهُ مِنَ اللّهِ

-Allah tərəfindən yanında olan (hər hansı) bir şəhadəti gizlədəndən daha zalım kim ola bilər?!

"Bəqərə" surəsinin 283-cü ayəsində buyurulur:

وَلاَ تَكْتُمُواْ الشَّهَادَةَ وَمَن يَكْتُمْهَا فَإِنَّهُ آثِمٌ قَلْبُهُ

-Lazım olan zaman şəhadəti gizlətməyin. Kim onu gizlətsə, onun qəlbi günahkardır.

Əgər bir insanın qəlbi günahkar olsa, bədəninin bütün üzvləri də günahkar olacaq. Çünki mərkəz insanın qəlbidir. "Nisa" surəsinin 135-ci ayəsində buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ إِن يَكُنْ غَنِيًّا أَوْ فَقَيرًا فَاللّهُ أَوْلَى بِهِمَا

-Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa da belə həmişə və tam şəkildə ədalətə əsaslananlardan və Allaha görə şahidlik edənlərdən olun. Əgər (dava edən tərəflərdən biri) imkanlı, yaxud yoxsul olsa, (siz onların vəziyyətlərini nəzərə alaraq haqqa zidd şahidlik etməyin, çünki) Allah onlara (onların halını nəzərə almağa) daha layiqlidir.

Bu ayədə açıq-aydın görürük ki, hətta insanın ən yaxın adamı olsa və doğru şahidlik etmək onların ziyanına olsa da belə insan haqqı gizlətməməlidir. Bundan əlavə, hətta insan öz düşməni barədə də nahaq söz

söyləməməlidir. “Maidə” surəsinin 8-ci ayəsində buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ لِلّهِ شُهَدَاء بِالْقِسْطِ وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلاَّ تَعْدِلُواْ اعْدِلُواْ هُوَ أَقْرَبُ لِلتَّقْوَى

-Ey iman gətirənlər, (bütün fərdi və ictimai işlərdə) həmişə Allaha görə möhkəm və mətin dayanan və ədalətə şəhadət verənlərdən olun! Hər hansı bir dəstə ilə düşmənçilik sizi ədalətsizliyə vadar etməsin. Ədalətli olun ki, o, təqvaya daha yaxındır.

## Yalandan şahidlik etmək böyük günahdır

Həm Quran ayələrinə, həm də hədislərə əsasən yalan şahidlik etmək və yaxud şahid durarkən haqsız söz söyləmək haram əməl və böyük günahlardan hasab olunur. Allah-təala insanları bu kimi çirkin əməllərdən çəkindirərək “Həcc” surəsinin 30-cu ayəsində belə buyurur:

فَاجْتَنِبُوا الرِّجْسَ مِنَ الْأَوْثَانِ وَاجْتَنِبُوا قَوْلَ الزُّورِ

-Murdar bütlərdən çəkinin və yalandan şahidlik və s. kimi əyri söz(lər)dən uzaq olun.

قَالَ رَسُولُ اللهِ(ص): عَدَلَتْ شَهَادَةُ الزُّور الشِراك بالله ثُمّ قَرَءَ هَذهِ الآيَة: فَاجْتَنِبُوا الرِّجْسَ مِنَ الْأَوْثَانِ وَاجْتَنِبُوا قَوْلَ الزُّورِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Yalandan şahidlik etmək Allaha şərik qoşmaqla bərabərdir.” Sonra bu ayəni

oxudu: “Murdar bütlərdən çəkinin və yalandan şahidlik və s. kimi əyri söz(lər)dən uzaq olun.”[1]

Görürük ki, həm ayədə, həm də hədisdə yalan şahidliklə Allaha şərik qoşmağın eyni günah olduğu bəyan edilir. Yəni yalançı şahid bütpərəst insana bərabərdir. Həmçinin yalan şahidliyin aqibəti çox acınacaqlı və qiyamət günü yeri cəhənnəm olacaq. Hər kəs yalandan şahidlik edərsə, cəhənnəmdə öz yerini hazırlamış olar.

قَالَ رَسُولُ اللهِ(ص): لَا يَنْقَضِي كَلَامُ شَاهِدِ الزُّورِ مِنْ بَيْنِ يَدَيِ الْحَاكِمِ حَتَّى يَتَبَوَّأَ مَقْعَدَهُ مِنَ النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hakimin hüzurunda yalandan şahidlik edənin sözü tamamlanmadan yeri cəhənnəmdə hazırlanar.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): مَن شَهِدَ شَهَادَة زُور عَلى اَحَدٍ مِنَ النَّاس عَلَّقَ بِلِسَانِهِ مَعَ الْمُنَافِقِينَ فِي الدَركِ الأَسفَلِ مِن النّار

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs bir insana qarşı yalan şahidlik (ifadə) edərsə, (qiyamət günü həmin şəxs) münafiqlərlə birgə dilindən asılacaq və cəhənnəmin dərinliklərinə vasil olacaqdır.”[3]

Əlbəttə, hakimlik və şahidlik barədə həm Quran ayələrində, həm də bir çox hədislərdə kifayət qədər bəhs olunmuşdur. Mövzumuza uyğun olaraq bu bir neçə ayə və hədislə də kifayətlənmək olar. Lakin burada qaranlıq

---

[1] Böyük günahlar, 1-ci cild, səh. 312.
[2] Yenə orada, səh. 313.
[3] Yenə orada, səh. 314.

məsələ qalmasın deyə şahidlik barədə iki mətləbi də diqqətinizə çatdırmaq istərdim. Onlardan biri budur ki, şahidlik edən insan barəsində şahid dayandığı məsələ onun üçün gün kimi aydın olmalıdır. Nə qədər ki, məsələ o insana aydın olmayıb, şahidlik etməməlidir.

قَالَ الصَّادِقُ(ص): لا تَشهَدُ بِشَهَادَةٍ حَتّى تَعرِفُهَا كَمَا تَعرِفُهَا كَفَّكَ

-İmam Sadiq(ə) buyurur: “Bir məsələ əlinin içi kimi sənə aydın olmayınca, şahid dayanma.”[1]

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib şahid dayanmaq barəsində soruşdu. Peyğəmbər(s) buyurdu: “Günəşi görürsənmi? Ərz etdi: Bəli. Peyğəmbər(s) buyurdu: Hər bir şey sənin üçün gün kimi açıq-aydın olsa, şahidlik edə bilərsən. Əgər elə aydın olmasa, şahid dayanma.”[2]

Bu hədislərdən də açıq-aydın görürük ki, hər hansı bir məsələ insana gün kimi aydın olmasa, onun barəsində şahidlik edə bilməz.

Şahidlik barədə ikinci mətləb isə belədir ki, əgər bir insan şahidlik etmədiyi halda başqa bir müsəlmanın malına zərər dəyəcəyini görsə, gərək şahidlik etsin. Yaxud şahidlik etməklə bir müsəlmandan zərər uzaqlaşacaqsa, onda da şahidlik etməlidir. Yəni əgər bir müsəlmanın zərər və ziyanı insanın danışıb-danışmamasına bağlı olduqda, bu zaman həmin şəxsə şahidlik etmək vacibdir. Əgər bir nəfərə məsələ gün kimi aydın olsa və şahid dayanmadıqda başqa bir müsəlmanın malına və canına ziyan dəyəcəyini bilsə, gedib şahid durması vacibdir.

---

[1] Böyük günahlar,1-ci cild, səh. 315.
[2] Yenə orada.

Amma əgər bir müsəlmana ziyan dəyməyəcəyi və heç bir təhlükənin olmadığı təqdirdə insanı şahid durmağa çağırmasalar, yaxud dindirməsələr, ona şahid dayanması vacib olmaz.

## 9. İLAHİ (ALLAHLA BAĞLADIĞINIZ) ƏHDƏ VƏFA EDİN

"Ənam" surəsinin 151-153-cü ayələrində bəyan olunmuş ehkamlardan doqquzuncusu insanın Allahla bağladığı əhd-peymana riayət etmək məsələsidir. Allah-təala buyurur:

وَبِعَهْدِ اللّهِ أَوْفُواْ

-Allahın əhd-peymanına kamil surətdə vəfa edin.

Əlbəttə, keçmiş bəhslərimizdə bu barədə geniş söhbətlər etdiyimiz üçün burada bu barədə qısaca danışmağımız kifayət edər. Ümumiyyətlə, insana vacibdir ki, bağladığı hər əhd-peymana vəfalı olsun. İstər Allahla bağladığı təkvini, istər təşrii, istər dini təkliflər baxımından, istərsə də nəzir və and kimi vədlərə xilaf çıxmaq olmaz.

## 10. ALLAHIN YOLUNA TABE OLUN VƏ BAŞQA YOLLARA TABE OLMAYIN

Qeyd olunan ehkamlardan onuncusu isə Allahın yoluna tabe olmaq və başqa yollarla getməməkdir.

وَأَنَّ هَـذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ

-Və (tövsiyə etdi ki,) bu (əmrlər) Mənim doğru yolumdur. Buna görə də ona tabe olun və başqa yollara

tabe olmayın ki, sizi Onun yolundan (sapdıraraq) pərakəndə edər.

Əgər bir insan Allahın yolunu axtarmasa və yaxud axtarıb tapdıqdan sonra mal-sərvət, tamah, şəhvət və s. şeylərin vasitəsilə o yoldan çıxsa, zillət və azğınlığa düşəcək.

Qeyd olundu ki, "Ənam" surəsinin 151-153-cü ayələrində Allah-təala on ehkamdan söz açır və insanları bu hökmlərə riayət etməyə dəvət edir. Hər üç ayənin axırında belə buyurulur:

ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

-Bəlkə düşünəsiniz deyə, Allahın sizə tapşırdıqları bunlardır.

ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

-Bəlkə öyüd götürəsiniz deyə, Allahın sizə tapşırdıqları bunlardır.

ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ

-Bəlkə təqvalı olasınız deyə, Allahın sizə tövsiyə etdiyi bunlardır.

Deməli, Allahın nazil etdiyi hökmlər insanın təqvasını çoxaldıb gücləndirər. Əgər insan Allahın nazil etdiyi hökmlərdən uzaqlaşıb başqa hökmləri öz qarşısına məqsəd qoysa, belə insanda təqvanın əmələ gəlməsi mümkün deyil. Çünki təqva insanda o zaman hasil olar ki, Allahın nazil etdiyi ehkamı həm tanısın, həm də onlara dəqiqliklə əməl etsin.

# TƏQVANI GÜCLƏNDİRƏN AMİLLƏR

## QURAN

Ötən bəhslərimizdə təqvanı gücləndirən amillərdən biri haqda söhbət etdik. Sözümüzün məğzi budur ki, təqvalı olmaq istəyən hər bir insan ilk növbədə günahlardan çəkinməli və Allahın nazil etdiyi hökmlərə dəqiqliklə riayət etməlidir. Həmçinin qeyd olundu ki, təqva insanıın dünya və axirəti üçün çox zəruri olan bir amildir.

Quran ayələrinə istinadən insanda təqvanı gücləndirən amillərdən ikincisi Qurani-Kərimin özüdür. Əgər insan Quranla ünsiyyət yarada bilsə, onu oxuyub başa düşə bilsə və öz həyatını Quran ayələrinin əsasında qura bilsə, təqvanı əldə etmiş olacaq. Əgər insan təqvalı olsa, qiyamət günü qələbə çalaraq Allahın rəhmətinə qovuşa bilər. “Zumər” surəsinin 27-28-ci ayələrində buyurulur:

وَلَقَدْ ضَرَبْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ لَّعَلَّهُمْ يَتَذَكَّرُونَ. قُرآنًا عَرَبِيًّا غَيْرَ ذِي عِوَجٍ لَّعَلَّهُمْ يَتَّقُونَ

-Doğrudan da Biz bu Quranda insanlar üçün bəlkə ibrət götürdülər deyə hər cür məsəl çəkdik. Biz (onlara) nöqsansız-qüsursuz (heç bir əyri-üyrülüyü, dolaşıqlığı olmayan) ərəbcə bir Quran nazil etdik ki, təqvalı olalar (Allahdan qorxub pis əməllərdən çəkinsinlər).

Bu ayədən açıq-aydın başa düşürük ki, Quran insanı təqvalı edən amillərdən biridir. Quran elə bir kitabdır ki, dünya durduqca duracaq və qiyamət gününə qədər yaşayacaq. Həmçinin qiyamət gününə qədər onda heç bir dəyişiklik və təhrif olunmayacaq. Allah-təala “Ənam”

surəsinin 19-cu ayəsində Peyğəmbərin(s) dili ilə belə buyurur:

وَأُوحِيَ إِلَيَّ هَذَا الْقُرْآنُ لأُنذِرَكُم بِهِ وَمَن بَلَغَ

-Və bu Quran mənə vəhy olunub ki, onun vasitəsilə (həm) sizi və (həm də bəşər nəslinin kökü kəsilənədək) onun çatdığı hər bir kəsi qorxudam.

Bundan əlavə, Quran elə bir kitabdır ki, diri insanlar üçün zikrdir. Bu kitab vəfat etmiş insanlar üçün nazil olunmayıb. Bir zamanlar Qurani-Kərimi cəmiyyətdə insanların əlindən alıb hüzr məclislərinə və qəbiristanlıqlara tərəf çəkib aparmışlar. Hələ də bəzi insanlar elə düşünürlər ki, Quranı yalnız qəbir üstündə ölülər üçün oxumaq olar. Düzdür, onun hər bir ayəsini oxumağın böyük savabı vardır. Quranı oxuyub onun savabını hansı ölüyə və yaxud diriyə hədiyyə etməyin də savabı çoxdur. Amma əsas məsələ budur ki, Quran əsasən diri insanlar üçün zikrdir. Quran böyük elm mənbəyidir, insanları qəflət yuxusundan oyadan, təhlükələrdən nicat və qurtuluş verən bir kitabdır. "Yasin" surəsinin 69-70-ci ayələrində oxuyuruq:

وَمَا عَلَّمْنَاهُ الشِّعْرَ وَمَا يَنبَغِي لَهُ إِنْ هُوَ إِلَّا ذِكْرٌ وَقُرْآنٌ مُّبِينٌ. لِيُنذِرَ مَن كَانَ حَيًّا وَيَحِقَّ الْقَوْلُ عَلَى الْكَافِرِينَ

-Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu ona heç yaraşmaz da. Onun oxuduğu yalnız bir öyüd-nəsihət, aşkar və aydınlıq gətirən Qurandır.

-Qəlbləri diri (və vicdanları haqqı qəbul etməyə hazır) olan kəsləri qorxutsun və (Allahın) söz(ü və cəhənnəm vədi) kafirlərin barəsində gerçək olsun.

Allah rəhmət eləsin Molla Məhəmməd Füzuliyə. O, bu məsələni nəzmə çəkərək belə yazmışdır:

*Ol düri dürci ənə əfsəh ki hikmət dayəsi,*
*Şeri şəhdilə ləbi canpərvərin tər qılmamış.*
*Şeir bir zirvədür, əmma biz kimi naqislərə,*
*Ol ki, kamildir, onu möhtaci zivər qılmamış.*

Odur ki, həm Quran ayələri, həm də hədislərdə insana bacardığı qədər çox Quran oxumaq tövsiyə olunmuşdur. “Muzzəmmil” surəsinin 20-ci ayəsində buyurulur:

فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ

-Qurandan müyəssər olanı (bacardığınız qədər) oxuyun.

Quran elə bir müqəddəs kitabdır ki, onu oxumağın həm savabı var, həm də insanın günahları təmizlənər. Həzrət Peyğəmbər(s) Həzrət Əlinin(ə) simasında bütün insanlara Quran barədə belə buyurur:

عَلَيكَ بِقِرَاءَةِ القُران فَإِنَ قِرَائَتَهُ كَفَّارَةٌ لِلذُّنُوب وَ سَترٌ فِي النَّار وَ أَمَانٌ مِنَ العَذَاب

-Sənə Quran oxumağı tapşırıram. Çünki Quran oxumaq günahların kəffarəsi, cəhənnəm oduna sipər və ilahi əzabdan amanda qalmaqdır. [1]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ هَذِهِ الْقُلُوبُ تَصْدَأُ كَمِا يَصْدَءُ الْحَدِيْدُ إِذَا أَصَابَهُ الْمَاءُ قِيْلَ: وَمَا جَلاؤُهَا؟ قَالَ(ص): تَلاوَةُ الْقُرْآنِ

[1] Mizanül-hikmə,10-cu cild, hədis 16501.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Həqiqətən, bu qəlblər dəmirə su dəydikdə paslandığı kimi paslanar. Dedilər: Ya Rəsulallah, onun cəzası nədir? Həzrət(s) buyurdu: Ölümü çox xatırlamaq və Quran oxumaq.” [1]

Bütün bunlar onun üçündür ki, insan Quranı oxumaqla yanaşı, həm onun ayələrini başa düşsün, həm də başa düşdükdən sonra onlara əməl etsin. Belə olduqda Quranın ayələri insanda təqva yaradacaq. “Bəqərə” surəsinin 63-cü ayəsində belə buyurulur:

خُذُواْ مَا آتَيْنَاكُم بِقُوَّةٍ وَاذْكُرُواْ مَا فِيهِ لَعَلَّكُمْ تَتَّقُونَ

-Sizə verdiklərimizi əzmlə, möhkəm iradə ilə qəbul edin və orada olanları (əməl etmək üçün) xatırlayın, bəlkə təqvalı olasınız.

Belə olduqda, yəni əgər insan Quranı oxuyub, onun ayələrinə əməl etsə və bu yolda möhkəm dayansa, o zaman Quran belə insanları hidayət edib cənnətə aparacaq. “Nəml” surəsinin 1-2-ci ayələrində oxuyuruq:

تِلْكَ آيَاتُ الْقُرْآنِ وَكِتَابٍ مُّبِينٍ. هُدًى وَبُشْرَى لِلْمُؤْمِنِينَ

-Bu, Quranın və açıq-aydın bir Kitabın ayələridir! Möminlərə yol göstərən və müjdə verəndir.

Bu ayədən də açıq-aydın görürük ki, Quran yalnız ona iman gətirənlərə yol göstərir və onları cənnətlə müjdələyir. “Bəqərə” surəsinin 2-ci ayəsində belə buyurulur:

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

-Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı Kitab təqvalılar üçün hidayət mənbəyidir.

---

[1] Mizanül-hikmə,10-cu cild, hədis 16498.

Deməli, hər kəs Qurana iman gətirsə, onun ayələrini oxuyub düşünsə və əməl etsə, Quran həmin şəxsi hidayət edər və birbaşa cənnətə aparar. Yox, əgər hər kəs Qurana əhəmiyyət verməsə, onun ayələrinə əməl etməsə, ziyandan başqa bir şey görməyəcək. "İsra" surəsinin 82-ci ayəsində belə buyurulur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ وَلاَ يَزِيدُ الظَّالِمِينَ إَلاَّ خَسَارًا

-Biz Qurandan möminlər üçün şəfa və rəhmət olan şeyi nazil edirik və o, zalımlara ziyandan başqa bir şey artırmır.

Əhməd ibn Tulun keçmiş zamanlarda Misirin hökmdarlarından biri olub. O, dünyasını dəyişəndən və dəfn olunduqdan sonra bir Quran oxuyana pul verirlər ki, bir neçə gün onun qəbrinin üstündə Quran oxusun. Bir neçə gündən sonra görürlər ki, Quran oxuyan daha onun qəbrinin üstünə gəlmir. Onu axtarıb tapdıqdan sonra soruşurlar: "Bəs nə üçün Quranı yarımçıq qoyub getmisən? Həmin şəxs deyir: Xahiş edirəm, mənimlə işiniz olmasın. Mən bundan sonra İbn Tulunun qəbrinin üstündə Quran oxumayacağam. Gedin, başqa Quran oxuyan tapın. Ona dedilər ki, bunun səbəbini bizə deməsən, əlimizdən rahatlıqla canını qurtara bilməyəcəksən. O dedi: Gecə yuxuda İbn Tulunu gördüm. Mənə dedi ki, xahiş edirəm, daha mənim üçün Quran oxuma. Çünki hər ayəni oxuduqda burada məni vurub soruşurlar ki, bu ayəyə nə üçün əməl etmirdin? Oxuduğun

hər bir ayə barədə məndən sorğu-sual edirlər və əzabım artır”.[1]

Allahın kitabı insanlar üçün bir nur və hidayət mənbəyidir. Elə bir kitabdır ki, insanın həm bu dünyasına, həm də axirət dünyasına fayda verir. Ona görə də insan ona qarşı hörmətsizlik etməməli, ayələrini oxuyub əməl etməli və onun həqiqətini gizlətməməlidir. Quranın insanın həyat və taleyində çox böyük təsiri vardır. Quran insanın insaniyyət proqramıdır ki, Allah-təala onu Öz bəndələrinə mərhəmət etmişdir. Düşmənlər çox yaxşı bilirlər ki, əgər müsəlmanlar Quranı oxuyub əməl etsələr, inkişaf edəcəklər. Belə olduqda onlar (düşmənlər) zillətə düşəcək. Buna görə də hər hansı bir yolla olursa-olsun müsəlmanları Qurandan ayırmağa çalışmışlar. Məsələn, öpüb taxçalara qoymaq, “müqəddəs kitabdır, əl vurmaq olmaz” və s. kimi fikirləri müsəlmanlar arasında yayaraq, onları getdikcə Qurandan uzaqlaşdırmaq istəmişlər.

Fərid Vəcdi müəllifi olduğu ensiklopediyanın III cildinin əvvəllərində yazır: “İngiltərədə Viktoryanın dövründə Qladiston adlı bir şəxs parlamentdə ayağının altına bir stul qoyub üstünə çıxdı. Cibindən kiçik bir Quran kitabı çıxarıb parlament üzvlərinə göstərərək geniş bir çıxış etdi. Onun çıxışındakı əsas məsələ bundan ibarət idi: Nə qədər ki, Quran müsəlmanların arasında oxunur, nə qədər ki, Peyğəmbərin adı onların minarələrində səslənir və nə qədər ki, Kəbə evi ziyarət olunur, xristianlar böyük təhlükə və zillət içərisində olacaqlar. Çünki nə qədər Quranı oxuyub ona əməl etsələr, bir o qədər də inkişaf edəcəklər. İldə bir dəfə dünyanın hər yerindən Kəbə evinə

[1]500 dastan,1-ci cild, səh.421.

gedib hamısı bir nəfər kimi ziyarət etsələr, vəhdətləri artacaq, inkişaf edəcəklər və biz geridə qalacağıq. Məscidlərin minarələrində Peyğəmbərin adını eşitdikdə salavat göndərib ora yığışacaq və inkişaf edəcəklər. Belə olduqda bütün xristianlıq təhlükə altında olacaqdır. Buna görə də başımıza çarə qılmalıyıq. Nə iş görək ki, müsəlmanlar inkişaf və tərəqqi edə bilməsinlər?

Parlamentdə hərə bir söz dedi. Lakin sözləri tutarlı olmadı. Bir nəfər ayağa qalxıb dedi: Gəlin Quranı müsəlmanların əlindən alaq. Qladiston dedi: Müsəlmanlardan Quranı almaq olmaz. Çünki qan tökülər. Müsəlmanlar Quranı heç kəsə verməzlər. Amma mən deyərdim ki, Quran onların əllərində qalsın. İstədikləri kimi çap edib bəzək-düzək versinlər. Quranın özü ilə işimiz yoxdur. Quranın ruhunu, əməlini onların əlindən almaq lazımdır. Qoyun onlar Quranı öpüb gözlərinin üstünə qoysunlar. Lakin onlara Quranın içərisindən xəbərdar olmağa imkan verməməliyik. Buna görə də onların arasında müxtəlif günah əməlləri geniş yaymaq lazımdır. Hara baxsalar və nə etsələr, yenə də günahla rastlaşsınlar. Beşcə dəqiqə Quran oxuduqdan sonra günahlardan təmizlənəcəklər. Lakin onların arasında günahları o qədər geniş yaymaq lazımdır ki, hər bir hərəkətdə, hər bir baxışda günahla rastlaşsınlar. Hətta onların evlərini televizor, radio, jurnal və qəzetlər vasitəsilə müxtəlif günahlarla doldurmaq lazımdır ki, Quranı açıb oxumağa həvəsləri qalmasın. Belə olduqda həmin günahlar onlara imkan verməyəcək ki, Quranı açıb oxusunlar, yaxud ona əməl etsinlər. Yalnız bu yolla müsəlmanları Qurandan ayırmaq olar."

Məgər biz hazırkı dövrümüzdə bunun şahidi deyilikmi? Məgər İslam dininin düşmənlərinin öz

istəklərini asanlıqla həyata keçirdiklərini görmürükmü? Müsəlmanların Quran ayələrini yaxşı bəhər vermək üçün ağacların budaqlarına, çox süd vermək üçün heyvanların buynuzuna bağladıqlarını müşahidə etmirikmi? İndi onlar Quranı yalnız öpüb taxçalara qoymaqla kifayətlənirlər. Gəlini evdən yola salarkən bu müqəddəs kitabı onun başının üzərində tuturlar. İnsanların yarıçılpaq vəziyyətdə olduğu bir yerdə, məhrəmin naməhrəmə, halalın harama qarışdığı bir məclisdə bu kimi məsələlərin tez-tez təkrarlandığını görürük. Baxın görün ki, müsəlmanlar içərisində vəziyyəti hansı yerə gətirib çıxarıblar. Bütün bunlar planlaşdırılmış şəkildə həyata keçirilən məsələlərdir və bilərəkdən müsəlmanlar arasında yayılmışdır. Onlar bunu ona görə etmişlər ki, müsəlmanlar qeyd etdiyimiz kimi, Qurandan ayrı düşsünlər. Dildə müsəlmanam deməklə kifayətlənsinlər və əməllərində isə Qurani-Kərimin heç bir ayəsinə riayət etməsinlər.

Əsəd Əfəndi Məliki Amerika ruhanilərindən biridir. O, tarixi əsərlərinin birində belə yazır: “Murtinbuk adasında güclü təbii fəlakət baş vermişdi. Bu fəlakət zamanı 20 min nəfər həlak oldu. Həmin adada müxtəlif qəbilələr yaşayırdı. Sağ qalan insanlar oradan çıxıb başqa yerlərə getdilər və elə getdikləri yerdə də məskunlaşdılar. Həmin qəbilələrdən birinin adı “Şeytanpərəstlər” qəbiləsi idi. Onlardan da sağ qalanlar Nyu-Yorka köçdülər. Günlərin birində onların görüşünə getdim. Bilmək istəyirdim ki, görüm onların ayinləri nədən ibarətdir. Onlar məni hörmətlə qarşılayıb başçılarının yanına apardılar. Onun adı Mitran idi. Yenicə söhbətə başlamışdıq ki, bir qadının şeytanpərəst olmaq üçün bura gəldiyini xəbər verdilər. Mən ürəyimdə bunun lap yerinə düşdüyünü fikirləşdim. Beləcə, baxıb görərəm ki, onlar bu

ayini necə həyata keçirirlər. Mən orada qonaq olduğum üçün Mitran dedi: “Ona deyin ki, sonra gəlsin.” Mən dedim: “Yox, sonraya saxlama. Qoy gəlsin və mən də bu ayinə tamaşa edəcəyəm.”

Nəhayət, həmin qadın içəri daxil oldu. Onu şeytanın heykəlinin qarşısına gətirib səcdə etdirdilər və öz ayinlərinə uyğun bəzi sözlər oxutdurdular. Bu ayinləri yerinə yetirdikdən sonra həmin qadın şeytanpərəst oldu. Çıxıb getmək istəyəndə mən ondan soruşdum: “Siz şeytanpərəst olmamışdan öncə hansı dinə qulluq edirdiniz? Qadın dedi: Mən müsəlman idim. Dedim: Bəs nə oldu ki, öz dinindən imtina edib şeytanpərəstliyi qəbul etdiniz? Dedi: Bunun səbəbləri çox aydındır. Mən müsəlman olduğum vaxtlar görürdüm ki, İslam şərab içməyi, zina etməyi və s. kimi bütün ləzzətli əməlləri haram, bütün çətin əməlləri (oruc, namaz və s. kimi) də vacib edib. Axırda da insan öləcək və onu kəfənə büküb torpağa basdıracaqlar. Qəbirdə isə sorğu-sual, qiyamətin çətin səhnələri, sonra cənnət, yaxud cəhənnəm. Amma şeytanın dinində bütün ləzzətli əməllərin hamısı halal, çətin əməllərin isə heç biri vacib deyildir. Burada insanın sonu barədə də heç bir söz deyilmir. Ona görə də mən bu dini seçdim.”

Belə bir əhvalatı danışmaqda məqsədim budur ki, həmin qadın gedib rəsmi şəkildə şeytanpərəst oldu. Bəs o, bu dini qəbul etdikdən sonra hansı işləri görür? Zina edir, içki içir, qumar oynayır, hansı haram işləri görmək istəyirsə, onları da edir və namaz qılmır, oruc tutmur, heç bir vacibə riayət etmir. Amma bir müsəlman isə rəsmən şeytanpərəst olmasa da və o da həmin qadının gördüyü işləri görürsə, o zaman onun həmin qadınla nə fərqi var? Axı, əməldə hər ikisi bərabərdir.

Odur ki, düşmənlər çox yaxşı bilirlər ki, əgər müsəlmanlar öz kitablarına dəqiqliklə riayət etsələr, bütün xristian aləmi zəlil olacaq. Buna görə də işə başlayıb əllərindən gələni etdilər ki, müsəlmanlar Qurana əməl etməsinlər.

Müsəlmanlar da gərək çox diqqətli olsunlar ki, Allahın nazil etdiyi kitabdan ayrı düşməsinlər. Həm onu oxusunlar, həm ayələri barədə düşünsünlər, həm də ona əməl etsinlər. Belə olduqda Allah-təala müsəlmanları daha da gücləndirər və böyük mükafat müjdəsini verər. "İsra" surəsinin 9-cu ayəsində oxuyuruq:

إِنَّ هَذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ وَيُبَشِّرُ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْرًا كَبِيرًا

-Həqiqətən, bu Quran (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir və həmişə yaxşı işlər görən möminlərə, onlar üçün (dünyada və axirətdə) böyük bir mükafat olması müjdəsini verir.

Əgər bir insan Quran kitabını oxusa, onun ayələrinə əməl etsə və öz həyatını onun əsasında qura bilsə, o, həqiqətən də təqvalı ola bilər. Bu təqva isə insanı aparıb cənnətə çıxarar və xoşbəxtlərin cərgəsinə qoşar.

## GÜZƏŞTƏ GETMƏK VƏ BAĞIŞLAMAQ

Təqvanı gücləndirən və artıran amillərdən üçüncüsü güzəştə getmək və bağışlamaqdan ibarətdir. Güzəştə getmək və bağışlamaq elə bir əxlaqi əməldir ki, insan həmin əməlin vasitəsilə təqvaya yaxınlaşa bilir. “Bəqərə” surəsinin 237-ci ayəsində oxuyuruq:

وَإِن طَلَّقْتُمُوهُنَّ مِن قَبْلِ أَن تَمَسُّوهُنَّ وَقَدْ فَرَضْتُمْ لَهُنَّ فَرِيضَةً فَنِصْفُ
مَا فَرَضْتُمْ إَلاَّ أَن يَعْفُونَ أَوْ يَعْفُوَ الَّذِي بِيَدِهِ عُقْدَةُ النِّكَاحِ وَأَن تَعْفُواْ
أَقْرَبُ لِلتَّقْوَى وَلاَ تَنسَوُاْ الْفَضْلَ بَيْنَكُمْ إِنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

-Əgər qadınları mehriyyə təyin etmiş olduğunuz halda onlarla yaxınlıq etmədən boşasanız, (qadınların) özləri və ya nikahlama (ixtiyarı) əlində olan kəs (onun böyüyü və ya mütləq vəkili) güzəşt etməsə, onda təyin etdiyinizin yarısı (sizin öhdənizdədir). Sizin güzəşt etməyiniz (yəni mehriyyənin hamısını verməyiniz) təqvaya daha yaxındır. Öz aranızda ehsan və bəxşiş etməyi unutmayın ki, həqiqətən, Allah etdiklərinizi görəndir.

Bu ayə əsasən təlaq barəsindədir. Məsələn, bir oğlan bir qızla evlənmək qərarına gəldikdə şəriət hökmlərinə əsasən mehriyyə təyin olunur və onların kəbinləri kəsilir. Belə də olur ki, onların bu niyyəti baş tutmur və iş təlaq, yaxud boşanma ilə nəticələnir. Belə olduqda əgər onların arasında yaxınlıq olubsa, boşandıqda oğlan təyin olunmuş mehriyyənin hamısını verməlidir. Qadın (özü və onun böyüyü) öz mehriyyəsini oğlana bağışlaya da bilər. Yox, əgər onların arasında əlaqə və yaxınlıq olmayıbsa, bu zaman

mehriyyənin yarısını vermək oğlana vacibdir. Amma əgər oğlan mehriyyənin hamısını qıza versə və ya bağışlasa, bu əməl təqvaya daha yaxındır. Ayənin sonunda buyurulur ki, öz aranızda ehsan və bəxşiş etməyi unutmayın ki, həqiqətən, Allah etdiklərinizi görəndir.

Bu ayənin sonunda Allah-təala insanlara bir qanun olaraq bəyan edir ki, əgər bağışlayan olsanız, bu əməl təqvaya yaxındır. Beləliklə, görürük ki, əfv etmək, güzəştə getmək və bağışlamaq insanı təqvaya yaxınlaşdıran əməllərdən biridir. Digər ayələrə də diqqət yetirdikdə görürük ki, insanların bir-birini əfv etməsi və güzəştə getməsi təkid olunmuşdur. Məsələn, "Nur" surəsinin 22-ci ayəsində buyurulur:

وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

-Gərək əfv etsinlər və (təqsirlərindən) keçsinlər. Məgər Allahın sizi bağışlamasını istəmirsiniz? Allah çox bağışlayan və mehribandır.

Odur ki, güzəştə getmək, bağışlamaq insanın gözəl xüsusiyyətlərindən biridir. Hər kəs Allahın onu bağışlamasını istəyirsə, gərək həmin şəxsin özü də bağışlamağı bacarsın. Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) həyatını oxuduqda görürük ki, onlar bu əməlin mahir ustaları olmuşlar. Hədislərdə belə nəql olunur ki, İmam Səccad(ə) heç bir vaxt kəniz və nökərlərini vurmazdı. Onlardan nalayiq bir hərəkət və xatalı bir iş gördükdə yazıb qeydə alardı. Mübarək ramazan ayının axırıncı gecəsi onların hamısını toplayıb buyurardı: "Filankəs yadındadırmı, sən filan gün filan xatanı etmisən? Amma mən səni cəzalandırmadım. Həmin

nökər deyərdi: Bəli, mənim ağam, yadımdadır. Sonra digərinin səhvini deyərdi. Beləcə, axırıncı nökər və kənizi  də dindirdikdən sonra buyurardı: Mən sizin hamınızı bağışladım. İndi isə dua edərək belə deyin:

يَا عَلِيّ بنَ الحُسَين إنَّ رَبَّكَ قَد أَحصَى عَليكَ كُلَّ مَا أَحصَيتَ عَلَينَا وَلَدَيهِ كِتَابٌ يَنطِقُ عَلَيكَ بِالحَقّ لا يُغَادِر صَغيرَةً وَلا كَبِيرَةً مِمَّا اَتَيتَ وَ عَمِلتَ. اَللَّهُمَّ اعفُ عَن عَلِيِّ بنِ الحُسَين كَمَا عَفَا عَنَّا فَاعتِقهُ مِنَ النَّار كَمَا اَعتَقَ رِقَابَنَا مِنَ الرِّق

-Ey Hüseynin oğlu Əli, bizim bütün səhvlərimizi yazıb qeydə aldığın kimi, Allah da sənin kiçikli-böyüklü bütün əməllərini yazmışdır. Bizim əməllərimiz sənə açıq-aydın olduğu kimi, sənin də əməllərin Allaha açıq-aydındır. İlahi, Hüseynin oğlu Əlini əfv et, necə ki, o, bizi əfv edib bağışladı. Onu cəhənnəm atəşindən azad et, necə ki, o, bizi qul və kənizlikdən azad etdi.

İmam Səccad(ə) onların dualarına “amin” dedikdən sonra onlara bayramlıq hədiyyəsi verib azad edərdi.”[1]

Həzrət Peyğəmbər(s) və Əhli-beyti(ə) öz əməlləri ilə bizə öyrətmişlər ki, insan yaşadığı cəmiyyətdə başqaları ilə xoş rəftar etsə və bağışlayan olsa, Allah da həmin şəxsi bağışlayar.

İmam Sadiq(ə) ona qarşı pis rəftar edən insan üçün namaz qılıb Allahdan onun bağışlanmasını diləyirdi. Həmmad adlı bir nəfər deyir: “Günlərin birində İmam Sadiqin(ə) qohumlarından biri Həzrətin(ə) arxasınca

[1] Min bir əxlaqi hekayətlər, səh. 221.

nalayiq söz demişdi. İmam(ə) bundan xəbər tutduqda ayağa qalxıb dəstəmaz aldı və namaz qıldı. Namazı qılıb qurtardıqdan sonra belə dua etdi: "İlahi, mən öz haqqımı ona bağışladım. Sən məndən də bağışlayansan. Sən də onu bağışla."

Həmmad deyir: "Mən İmamın(ə) bu xəbəri eşitcək ona qarğış edəcəyini fikirləşirdim. Amma İmam(ə) tamamilə mənim fikirləşdiyimin əksini etdi və namazı qılıb qurtardıqdan sonra Allahdan onun üçün məğfirət və bağışlanma dilədi."[1]

İnsanlar yaşadıqları cəmiyyətdə bu məsələyə çox diqqət yetirməlidirlər. Əgər hər hansı bir cəmiyyətdə insanlar güzəştə getmək, bağışlamaq kimi gözəl xüsusiyyətlərə malik olmasalar, həmin cəmiyyətdə aləm bir-birinə qarışar. Kiçik məsələlərin üstündə aləmi bir-birinə qatan insanlar heç bir vaxt izzətli ola bilməzlər. Böyük insanlar bu kimi gözəl xüsusiyyətləri ilə Allahın kəramınə yaxınlaşmışlar. Allah-təala "Ali-İmran" surəsinin 134-cü ayəsində təqvalı insanların bir sıra əlamətlərindən söz açaraq belə buyurur:

الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

-(Təqvalılar) həmin o kəslər(dirlər) ki, mallarını rifah və şadlıqda, yoxsulluqda xərcləyirlər, qəzəblərini udan və camaat(ın xataların)dan keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir.

İmam Səccadın(ə) kənizlərindən biri Həzrətin(ə) əlinə su tökürdü. Fikri yayındığı üçün kuzə əlindən yerə

[1] Yenə orada, səh.85.

düşdü və parçalandı. Kuzənin içindəki su isə İmamın(ə) paltarlarına sıçradı. Kuzənin bir parçası da Həzrətin(ə) əlini zədələdi. İmam(ə) hirslə onun üzünə baxdıqda kəniz tez həmin ayənin bu hissəsini oxudu: "Təqvalılar o kəslərdir ki, qəzəblərini udarlar." İmam(ə) buyurdu: "Qəzəbimi uddum." Kəniz dedi: "Təqvalılar camaat(ın xataların)dan keçənlərdir." İmam(ə) buyurdu: "Sənin günahını (etdiyin xatanı) bağışladım." Kəniz ayənin axırını oxudu: "Allah yaxşılıq edənləri sevir." İmam(ə) buyurdu: "Səni Allah yolunda azad etdim."[1]

Bağışlamaq, əfv etmək və güzəştə getmək kimi gözəl xüsusiyyətlər dini rəhbərlərin (Peyğəmbər(s) və imamlarımızın) hərəkətlərində nümunə olaraq zikr edilmişdir ki, bütün insanlar bu kimi gözəl xüsusiyyətləri öyrənib onları əməli surətdə həyata keçirsinlər. Əgər insanlar belə gözəl əxlaqi xüsusiyyətləri öyrənib riayət etsələr, dünya insanlar üçün bir gülüstana və cənnətə çevrilər. Allah-təala Həzrət Peyğəmbərə(s) əfv etməyi və güzəştə getməyi tövsiyə etmişdir. "Əraf" surəsinin 199-cu ayəsində belə buyurulur:

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

-Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər.

İmam Sadiq(ə) buyurur: "Bu ayə Quranda əxlaq elmi barəsində nazil olmuş ən mükəmməl ayədir."[2]

---

[1] Təfsiri-nümunə,3-cü cild,səh. 98.(Hədisi əhli-sünnə və şiə alimləri kitablarında qeyd etmişlər.)

[2] Yenə orada,7-ci cild, səh. 64.

Həmin ayədə Allah-təala üç mühüm məsələni, yəni güzəşt yolunu tutmağı, "əmr be məruf"u və nadanlardan üz döndərməyi Peyğəmbərə(s) təkid edir. Bunların hər birinin mənasına gəldikdə isə, camaatla güzəştli rəftar etmək odur ki, onlar bir xataya yol verdikdə üzrlərini qəbul etsin. "Əmr be məruf" camaatı yaxşı işlərə dəvət etməkdir. Üçüncüsü isə nadan və cahil insanların cahilliklərinin, təhqirlərinin və s. qarşısında səbir etmək və onlara çox da baş qoşmamaqdır.

Bu ayə nazil olduqda Həzrət Peyğəmbər(s) cənab Cəbrayıldan(ə) soruşdu: "Camaatla güzəşt yolunu necə tutum?

Cəbrayıl(ə) ərz etdi: Bilmirəm. Bunu gərək biləndən (Allahdan) soruşaq. O, bu sualın cavabını Allahdan soruşduqdan sonra nazil olub ərz etdi:

يا مُحَمَّد إِنّ اللهَ يَأْمُرُكَ أَنْ تَعفُوَ عَمَّنْ ظَلَمَكَ وَتُعطِي مَنْ حَرَمَكَ وَتَصِلَ مَنْ قَطَعَكَ

-Ey Məhəmməd(s), Allah sənə əmr verir ki, sənə zülm, əziyyət verəni bağışlamayasan. Səni məhrum edəni məhrum etməyəsən. (Yəni səni məhrum edən qapına bir şey üçün gəldikdə onu boş qaytarmayasan. Həmçinin səninlə əlaqəni kəsənə qarşı səmimiyyət göstərəsən."[1]

## Qüdrətli olan halda güzəştə getmək ən yaxşı bəxşişdir

Ümumiyyətlə, camaatın xatasından keçmək, bağışlayıb əfv yolunu tutmaq hər bir halda gözəldir.

[1] Təfsiri-nümunə,7-ci cild, səh.65.

Amma bağışlamaq üçün ən üstün və daha şərafətli məqam insanın qüdrətli olduğu halda bağışlamasıdır.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ عَفاَ عِنْدَ القُدْرَةِ عَفاَ اللهُ عَنْهُ يَوْمَ العُسْرَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kimsə qüdrətli olarkən güzəşt etsə (ona pislik edəni bağışlasa), Allah çətin günündə ona güzəşt edər." [1]

قَالَ عَلِيٌّ(ع): إِذَا قَدَرْتَ عَلَى عَدُوِّكَ فَاجْعَلِ الْعَفْوَ عَنْهُ شُكْراً لِلْقُدْرَةِ عَلَيْهِ

-İmam Əli(ə) buyurur: "Hər gah düşmənindən qüdrətli olsan, ona güzəştini ondan qüdrətli olmağının şükrünə çevir." [2]

قَالَ عَلِيٌّ(ع): اَلعَفْوُ زَكاةُ القُدْرَةِ

-Həzrət Əli(ə) buyurur: "Güzəşt edib bağışlamaq qüdrətin zəkatıdır."

اَلعَفْوُ زَيْنُ القُدْرَةِ.

-Güzəşt edib bağışlamaq qüdrətin zinətidir.

اَلعَفْوُ مَعَ القُدْرَةِ جُنَّةٌ مِنْ عَذابِ اللهِ سُبْحانَهُ.

-Qüdrətli olan halda güzəştə gedib bağışlamaq sübhan olan Allahın əzabının qarşısında sipərdir.

اَلعَفْوُ زَكاةُ الظَّفَرِ

[1] Mizanül-hikmə,8-ci cild, səh.3836.
[2] Yenə orada, səh. 3838.

-Güzəşt edib bağışlamaq zəfər və qələbənin zəkatıdır.[1]

İslam Peyğəmbəri(s) həmişə qələbə çaldıqda intiqam hissi ilə yox, əfv və bağışlamaq prinsipi ilə hərəkət edirdi. Həzrət Peyğəmbərin(s) əlinə fürsət düşdükdə və qüdrətə çatdıqda Allahın əmri ilə düşməni bağışlayırdı. Peyğəmbər(s) Məkkədən hicrət etmişdi. Həzrət(s) Məkkəni çox sevirdi. Məkkə onun doğulduğu yer idi. Lakin müşriklər vəziyyəti o yerə gətirib çıxartdılar ki, Peyğəmbər(s) öz doğma yurdundan hicrət etdi. Məkkədə müsəlmanlara həddindən artıq ağır işgəncələr verirdilər. Məkkəni müsəlmanlara çox darısqal etmişdilər. İllər ötdükdən sonra müsəlmanlar Məkkəni fəth etdi və düşmənlər üzərində zəfər çaldılar. Qələbədən sonra Peyğəmbər(s) ümumi şəkildə əfv fərmanı verdi.

Ühüd müharibəsindən sonra Peyğəmbər(s) Mədinəyə qayıtdı. Ühüd döyüşü İslam tarixində ən ağır müharibələrdən biri idi. Bir qrup müsəlman həmin döyüşdə tab gətirə bilməyib qaçmışdı. Müharibə sona çatdıqdan sonra həmin qaçan insanlar günahlarını başa düşüb peşman oldular. Peyğəmbərin(s) hüzuruna gəlib yalvararaq üzrxahlıq istədilər. Allah-təala Peyğəmbərə(s) "Ali-İmran" surəsinin 159-cu ayəsini nazil etdi:

فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ

-Beləcə, Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından

[1] Mizanül-hikmə,8-ci cild, səh. 3838.

dağılışardılar. Belə isə onları əfv et, onlar üçün bağışlanmaq dilə.

Bu ayənin axırında Allah-təala Peyğəmbərə(s) göstəriş verir ki, sən özün onları bağışla və Məndən də onlar üçün bağışlanmaq dilə. Yəni Allah sənin yanında onlara şəfaət edir, sən də Allahın yanında onlar üçün şəfaətçi ol.[1]

Həm İslam Peyğəmbəri(s), həm də onun pak Əhli-beyti(ə) bu prinsipi əməli surətdə bizə göstərmişlər. Onlar kərəm və əfv əhli olmuşlar. Əgər insanlar onlardan örnək götürüb öz həyatlarını belə gözəl xüsusiyyətlər üzərində qurarlarsa, cəmiyyətdə heç bir problemlə üzləşməzlər.

Şeyx Nəsrullah əhli-sünnənin böyük alimlərindən biri idi. O deyir: "Gecələrin birində Həzrət Əlini(ə) yuxuda gördüm. Onun hüzuruna gedib ərz etdim: Siz Məkkəni fəth etdikdən sonra Peyğəmbər(s) bütün müsəlmanlara göstəriş verdi ki, Əbu Süfyanın evinə pənah aparan və evində gizlənənlərlə heç bir işiniz olmasın. Siz müşriklərə qarşı belə kəramətli rəftar göstərdiniz. Amma Kərbəla səhrasında Əbu Süfyanın nəsli sənin oğlun Hüseynin(ə) körpə balalarına belə rəhm etmədilər. Hətta suyu da onların üzünə bağladılar.

Həzrət Əli(ə) mənə buyurdu: Sən İbn Seyfinin şeirlərini oxumusanmı?

Dedim: Xeyr, amma onu tanıyıram.

Həzrət(ə) buyurdu: Get, həmin şeirləri ondan al oxu."

---

[1] Təfsiri-nümunə, 3-cü cild, səh.141.

Yuxudan oyanıb öz-özümə təəccübləndim. Səhər açıldıqdan sonra İbn Seyfinin qapısını döydüm. O, qapını açıb salamlaşdıqdan sonra məni evə dəvət etdi. Əyləşdikdən sonra yuxunu onun üçün danışdım. Danışıb qurtaran kimi o, hönkürtü ilə ağlamağa başladı. Ondan nə üçün ağladığını soruşduqda belə dedi: “And olsun Allaha ki, mən Həzrət Əlinin(ə) barəsində olan o şeri bu gecə yazıb qurtarmışam. Onun bircə kəlməsini belə heç kimə oxumamışam.

Həmin şerin bir hissəsi belədir:

ملكنَا فكان العفوُ منَّا سجيَّة

فلمّا ملكتُمْ سالَ بالدَّمِ أبطحُ

وحَلَّلْتُمُ قتلَ الأسارَى وطالَما

غَدوْنا عن الأسْرى نَعفُّ ونصفَحُ

فحسْبُكُمُ هذا التَّفاوتُ بيْنَنا

وكلُّ إناءٍ بالذي فيهِ يَنْضَحُ

-Biz hakimiyyətdə olanda adətimiz güzəşt etmək və bağışlamaq idi, ancaq siz hakimiyyətdə olanda qan axıdılırdı. Siz əsirləri öldürməyi rəva görür, biz isə əsirlərə qarşı xoş davranıb güzəştə gedirdik. Bizim aramızdakı bu fərq kifayət edər. Hər bir qab öz içərisindəki ilə ölçülər.”[1]

---

[1] Min bir əxlaqi hekayətlər, səh. 215.

Peyğəmbər(s) və Əhli-beytin(ə) xüsusiyyəti belə idi ki, əllərinə qüdrət keçdiyi zaman intiqam almazdılar. Düşmənləri bağışlayıb əfv edərdilər. Onlar bağışlamaqda xüsusi bir ləzzət görürdülər. Hədislərdə belə nəql olunur ki, Həzrət Əli(ə) buyurardı: “Mən bağışlayıb güzəştə getdikdə ləzzət alıram. Amma intiqam alanda bundan ləzzət görmürəm.”

## Hansı hallarda güzəştə getmək olmaz?

Bura qədər bizə aydın oldu ki, bağışlamaq, əfv etmək və güzəştə getmək insanın yüksək keyfiyyət və əxlaqi məsələlərindən biridir. İnsan hər nə qədər bağışlayan və güzəştə gedən olsa, bir o qədər yaxşıdır. Amma burada qarşıya belə bir sual çıxır. Əfv etmək zalım insanların güclənməsinə və müsəlmanlara qarşı daha da cəsarətlənməsinə səbəb olmazmı? Cavab olaraq demək olar ki, Quran ayələrində təkcə əfv edib bağışlamaq əmr olunmamışdır. Digər ayələr də vardır ki, orada nə zülm etməyi, nə də zülmə məruz qalmağı göstəriş verir. "Bəqərə" surəsinin 279-cu ayəsində oxuyuruq:

لاَ تَظْلِمُونَ وَلاَ تُظْلَمُونَ

-Nə zülm edərsiniz, nə də zülmə məruz qalarsınız.

قَالَ عَلِيٌّ(ع): كُونَا لِلظَّالِمِ خَصْماً، وَلِلْمَظْلُومِ عَوْناً

-Həzrət Əli(ə) buyurur: "Zalımlara qarşı sərt, məzlumlara qarşı isə mülayim olun."[1]

Yenə də sual oluna bilər ki, Quranın bir ayəsində bağışlamağı, digər ayəsində isə bağışlamamağı əmr edir. Belə bir hal ziddiyyət yaratmırmı? Bunun da cavabı aydındır. Dində heç bir ziddiyyətli məsələ yoxdur. Hər bir ayənin öz mənası vardır. Əvvəla, şəxsi məsələ ictimai məsələdən fərqlidir. Məsələn, bir nəfər digərinə pislik edir. Onun özünə, yaxud uşağına qarşı zülmə yol verir. Həmin zülm olunan kəs ondan intiqam da ala bilər, onu bağışlaya da bilər. Bu, həmin şəxsin öz ixtiyarındadır. Bu

[1] Nəhcül-bəlağə (Həzrət Əlinin(ə) vəsiyyəti) 48.

kimi yerlərdə insan nə qədər çox bağışlayan və güzəştə gedən olsa, bir o qədər təqdirəlayiqdir. Həmçinin insan qüdrət əldə etdikdən və zalım zəiflədikdən sonra tərbiyəvi nöqteyi-nəzərdən ona güzəştə gedib bağışlamaq daha yaxşıdır. Amma iki halda güzəştə getməyə icazə verilmir. Həmin hallardan biri budur ki, əgər bir zalımı və ya təcavüzkarı əfv etmək İslama, Qurana və müsəlmanlara qarşı təhqir kimi qəbul olunacaqsa, bu yerdə güzəştə getmək olmaz. Yəni əgər bir insan şəxsən sənin özünə zülm etmiş olsa, onu bağışlamaq yaxşıdır. Çünki bu məsələ şəxsən sənə aid olan bir məsələdir. Amma əgər bir təcavüzkar və zalım insanı bağışlayıb əfv etməklə İslamın və Quranın haqqı pozulacaqsa, bu halda onu bağışlamaq olmaz. Əgər eyni vaxtda dinə, Qurana və Peyğəmbərə(s) qarşı cəsarət və həqarət olarsa, o zaman heç bir kəsin onu bağışlamağa ixtiyarı yoxdur.

قَالَ عَلِيٌّ(ع): جازِ بِالحَسَنَةِ وتَجاوَزْ عَنِ السَّيِّئَةِ ما لَمْ يَكُن ثَلماً في الدِّينِ أو وَهناً في سُلطانِ الإسلامِ

-Həzrət Əli(ə) buyurur: “Yaxşıya mükafat ver və pisdən keç. Bu şərtlə ki, dinə ziyan vurmasın və ya İslamın qüdrətinə zəiflik gətirməsin.”[1]

İkinci hal budur ki, tutumu olmayan bir insana güzəşt etdikdə onun zülm və həqarət etməsi daha da artacaqsa, həmin şəxsə güzəşt edilməməlidir. Çünki belə bir şəxsi bağışlamaqla onun yoldan daha da çıxmasına, öz işlərində cəsarətlənməsinə və cəhənnəmə getməsinə imkan yaradılır.

---

[1] Mizanül-hikmə,8-ci cild, hədis 13224.

قَالَ عَلِیٌّ(ع): اَلعَفوُ یُفسِدُ مِنَ اللَّئِیم بِقَدرِ اِصلاحِه مِنَ الکَرِیم

-Həzrət Əli(ə) buyurur: "Güzəşt alicənab insanı islah etdiyi kimi, alçaq insanı da bir o qədər korlayır."[1]

Şairlərdən biri bu barədə belə yazmışdır:

ترحّم بر پلنگ تیز دندان     خیانت می شود برگوسفندان

-İti dişli pələngə rəhm etmək, qoyunlara zülm etməkdir.

الإمامُ عليٌّ عَلَيهِ الّسَلامُ في وَصِيَّتِهِ لاِبنِهِ الحَسَنِ عَلَيهِ الّسَلامُ: إذا استَحَقَّ أحَدٌ مِنهُم ذَنباً فأحسِنِ العَذلَ؛ فإنَّ العَذلَ مَعَ العَفوِ أشَدُّ مِنَ الضَّربِ لِمَن كانَ لَهُ عَقلٌ.

-İmam Əli(ə) İmam Həsənə(ə) tövsiyələrinin birində belə buyurur: "Hərgah onlardan (işçi, nökər və qulluqçulardan) kimsə günahlarına görə cəzalanmaya layiq olsa, onu yaxşıca məzəmmət et. Çünki güzəştlə birgə məzəmmət etmə ağlı və dərrakəsi olan üçün döyməkdən daha ağırdır."[2]

Bu hədisdən başa düşülür ki, ağıllı insan səhv və xataya yol verdikdə həmin şəxsə güzəşt etməklə yanaşı, şirin dillə məzəmmət olunması onun üçün cəza və kötəkdən daha yaxşıdır. Çünki bu işin nəticəsində həmin adam etdiyi xatalara görə xəcalət çəkəcək. Amma ağılsız və nadan insanın bağışlanması onun cəsarətinin daha da artmasına səbəb olacaqsa, belə bir şəxsə qarşı güzəştə getmək olmaz.

---

[1] Yenə orada, hədis 13223.

[2] Yenə orada, hədis 13221.

Odur ki, qeyd olunan iki haldan başqa insan nə qədər çox güzəştə gedən, bağışlayan olsa, bir o qədər təqvaya yaxınlaşar. Çünki bu, çox gözəl və Allah bəyənən xüsusiyyətlərdəndir.

## MOİZƏ VƏ ÖYÜD-NƏSİHƏT EŞİTMƏK

Ötən bəhslərdə qeyd olundu ki, bəzi amillər insanın təqvaya yaxınlaşmasına səbəb olur. Təqva axtaran hər bir insan həmin amilləri özündə yaratmaqla təqvaya yaxınlaşa bilər. Təqva elə bir qüvvədir ki, insana dünyanın zillətindən və pis hallarından nicat verir. Təqva insanı şeytanın vəsvəsə və hiylələrindən qoruyur. Təqva insanı izzət və xoşbəxtliyə doğru yönəldir. Təqva insanda nuraniyyət yaradır və insanı Allahın rəhmətinə, mərhəmət və cənnətinə doğru aparır.

Yuxarıda təqvanı artıran və gücləndirən amillərdən bir neçəsi haqda yetərincə söhbət etmişik. Həmin amillərdən biri moizəyə qulaq asmaq və öyüd-nəsihət götürməkdir. Təqvaya çatmaq istəyən hər bir kəs özünü moizə eşitmək üçün hazırlamalıdır. Əgər insan qulağını və qəlbini moizə eşitmək üçün açıq saxlasa, təqvaya yaxınlaşmış olar. "Əraf" surəsinin 164-cü ayəsində oxuyuruq:

وَإِذَ قَالَتْ أُمَّةٌ مِّنْهُمْ لِمَ تَعِظُونَ قَوْمًا اللّهُ مُهْلِكُهُمْ أَوْ مُعَذِّبُهُمْ عَذَابًا شَدِيدًا قَالُواْ مَعْذِرَةً إِلَى رَبِّكُمْ وَلَعَلَّهُمْ يَتَّقُونَ

-Və o zaman ki, onlardan bir dəstə (digərlərini çəkindirən dəstəyə) dedi: "Nə üçün Allahın mütləq həlak edəcəyi və ya şiddətli əzab verəcəyi bir qövmə öyüd-nəsihət verirsiniz?" Dedilər: "Rəbbinizin dərgahında üzrümüzün olması üçün və bəlkə onlar təqvalı olalar!"

Bu ayə Bəni-İsrail barəsində nazil olmuşdur. Onlar qırmızı dənizin kənarında yaşayırdılar. Onlar dənizdən balıq tutub alver edər və özlərini dolandırardılar. Allah-təala hər bir ümməti imtahana çəkdiyi kimi, onları da imtahan etmək üçün şənbə günləri balıq tutmağı onlara

haram buyurdu. Şənbə günləri balıqlar suyun üzünə qalxırdı. Onlar şənbə günü balığın çox olduğunu görüb tamaha düşürdülər. Əlbəttə, Quranın bir neçə ayəsində onlar barəsində söz açılmışdır ki, bu barədə ətraflı söz açmaq olar. Lakin bəhsimizə uyğun olaraq qeyd edilən ayənin izahı ilə kifayətlənirəm.

Allah-təala Musanın(ə) qövmünə şənbə günləri balıq tutmağı qadağan etdikdə camaat üç hissəyə bölündü. Günahkarlar, onları çəkindirənlər və sükut edənlər. Yəni onların əksəriyyəti Allahın bu hökmünə riayət etməyib şənbə günləri balıq tutmaqda davam etdilər. İkinci dəstə Allahın bu əmrinə tabe olub şənbə günləri balıq tutmağa getmədi. Bununla yanaşı, Allahın hökmünə riayət etməyənlərə moizə edir və nəsihət verirdilər. Onlara deyirdilər ki, Allahın hökmünə riayət edin və tutduğunuz günah əməldən əl çəkin. Bir sözlə desək, o qövmün itaətkarları günahkarları əmr be məruf və nəhy əz münkər edirdilər. Üçüncü dəstəyə gəldikdə isə, onlar Allahın bu hökmünə əməl edirdilər, amma başqaları ilə də heç bir işləri yox idi. Yəni günahkarlara, Allahın hökmünə riayət etməyənlərə qarşı bir söz demirdilər.

Yuxarıda qeyd etdiyimiz ayə də həmin üç dəstənin söhbətlərini bəyan edir. Üçüncü dəstə (sakit qalanlar) ikinci dəstəyə (günahkarlara etiraz edənlərə) belə deyirdilər: “Onsuz da Allah həmin günahkarlara şiddətli əzab verəcək və onları həlak edəcək. Sizə nə düşüb ki, onlara nəsihət edir, tutduqları işlərdən çəkindirirsiniz? Amma ikinci dəstə onların cavabında iki söz dedi: Əvvəla, biz boynumuza düşən vəzifəni yerinə yetirir və onları bu işdən çəkindiririk ki, Allah yanında üzrümüz olmasın. İkincisi, bəlkə onlar bizim nəsihətimizi eşidib bu günahdan əl götürərək təqvalı olalar.”

Deməli, bu ayə bizə öyrədir ki, hər bir insan moizəyə qulaq assa və öyüd-nəsihəti qəbul etsə, təqvalı olmaq şansını əldə edə bilər. Təqva axtaran hər bir kəs qulaqlarını və qəlbini moizə eşitmək üçün açıq saxlamalıdır.

“Ənam” surəsinin 69-cu ayəsində hər iki mətləbə işarə edilərək belə buyurulur:

وَمَا عَلَى الَّذِينَ يَتَّقُونَ مِنْ حِسَابِهِم مِّن شَيْءٍ وَلَكِن ذِكْرَى لَعَلَّهُمْ يَتَّقُونَ

-Onların (əməl və cəza) hesabından təqvalıların öhdəsinə bir şey düşmür, lakin (bunları deməkdə məqsəd) yada salmaq və nəsihətdir (ki), bəlkə təqvalı olalar.

Yəni təqvalı olmaq istəyənlər həm moizə etməli, həm də moizə dinləməyi bacarmalıdırlar. Buna görə də insanlar bir-birinə moizə etməli, bir-birinin nəsihətini qəbul etməlidirlər. Heç bir kəs deməsin ki, mənim nəyimə gərəkdir, kim nə istəyir özü bilər. Həmçinin heç bir kəs deməsin ki, mən özüm bilərəm və mənə nəsihət lazım deyil. Əgər bir cəmiyyətdə insanlar bir-birini nəsihət etməsələr və nəsihət qəbul edən olmasalar, təqvaya çatmaları mümkün olmayacaq. Qeyd olunan ayədən əvvəlki ayədə belə buyurulur:

وَإِذَا رَأَيْتَ الَّذِينَ يَخُوضُونَ فِي آيَاتِنَا فَأَعْرِضْ عَنْهُمْ

-Bizim ayə və nişanələrimiz barədə boşboğazlıq edənləri görən zaman onlardan üz döndər ki, başqa söhbətə başlasınlar.

Ümumiyyətlə, bütün peyğəmbərlər Allahla minacat etmiş, Allah-təala da onlara moizə və nəsihət etmişdir. Hədislərdə nəql olunan həmin minacatlardan biri belədir:

قَالَ الصَّادِق(ع): أَوحَى اللهُ اِلى عِيسى بن مريَم: يَا عِيسَى هَبْ لِي مِن عِيْنِكِ الدُّمُوعِ وَ مِن قَلبِكَ الْخُشُوعِ... إِذَا ضَحِكَ البَطَّالُون وَ قُمْ عَلَى قُبُورِ الأَموَات فَنَادِهُم بِالصَّوتِ الرَّفِيع لَعَلَّكَ تَأخُذُ مَوعِظَتَكِ مِنهُم

-İmam Sadiq(ə) buyurur: "Allah-təala Məryəm oğlu İsaya belə vəhy etdi: Ey İsa, Mənə gözlərində yaş və qəlbində təvazökarlıq təqdim et. Batil insanlar deyib güldükləri zaman sən onlarla birgə oturma. Get qəbiristanlığa və ölüləri uca səslə çağır. Bəlkə onlardan bir moizə və nəsihət alasan."

Odur ki, öncə oxuduğumuz ayədə Allah-təala Peyğəmbərə(s) nəsihət edərək buyurur: "Bizim ayə və nişanələrimiz barəsində boşboğazlıq edənləri görən zaman onlardan üz döndər ki, başqa söhbətə başlasınlar."

Bu ayədə açıq-aydın bəyan olunur ki, insan günahkarlarla, Allaha qarşı üsyan edənlərlə oturub-durmamalıdır. Amma bir məsələni də istisna edir. Həmin məsələ ondan ibarətdir ki, günahkarlara moizə, öyüd-nəsihət etmək olar, eyni zamanda günahlardan çəkindirmək məqsədilə onlarla söhbət etmək olar. Amma bir şərtlə ki, həmin şəxs təqvalı olmuş olsun. Həmin şəxslərlə söhbət edərkən və günahlardan çəkindirərkən onların təsiri altına düşmək də lazım deyil. Ona görə də əgər bir insan təqvalı olsa və kimlərisə günahdan çəkindirmək və onlara nəsihət etmək məqsədilə onlarla oturub-dursa, bu zaman ona heç bir günah yazılmaz.

Odur ki, insanlar bir-birinə moizə etməli, eyni halda moizə eşitməyi də bacarmalıdırlar. Allahın nazil etdiyi bütün kitablar insanlar üçün moizə və öyüd nəsihətdir.

Çox təəssüflər olsun ki, Tövrat, İncil kimi səmavi kitablar insanlar tərəfindən dəyişdirilib təhrif olunmuşdur. Quran isə yeganə kitabdır ki, nazil olduğu kimi qalmış və qiyamət gününə qədər də onda heç bir dəyişiklik olmayacaqdır. Həm Quran, həm də digər əsl səmavi kitablar insanlar üçün ən böyük moizə və nəsihətdir. Məsələn, "Maidə" surəsinin 46-cı ayəsində belə oxuyuruq:

وَآتَيْنَاهُ الإِنجِيلَ فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ وَهُدًى وَمَوْعِظَةً لِّلْمُتَّقِينَ

-Onların (qabaqkı peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı göndərdik ki, o, özündən əvvəlki Tövratı təsdiqləyirdi. Və ona içində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən və təqvalılar üçün hidayət və nəsihət olan İncil verdik.

Həmçinin Quranın özü barədə "Taha" surəsinin 113-cü ayəsində belə oxuyuruq:

وَكَذَلِكَ أَنزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا وَصَرَّفْنَا فِيهِ مِنَ الْوَعِيدِ لَعَلَّهُمْ يَتَّقُونَ أَوْ يُحْدِثُ لَهُمْ ذِكْرًا

-Beləcə (gördüyün kimi) Biz bunu (bu kitabı) ərəbcə bir Quran olaraq nazil etdik və onda hər cür xəbərdarlıq və təhdid gətirdik ki, bəlkə (düşmənçilik və inadkarlıqdan) çəkinsinlər, yaxud (bu Quran) onlar üçün yeni bir ibrət gətirsin.

"Yunis" surəsinin 57-ci ayəsində Quranın başdan-başa moizə olduğu barədə belə oxuyuruq:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Ey (bütün) insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), ürəklərdə olan üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.

Peyğəmbərlərin və böyük insanların həyatına nəzər saldıqda onların da insanları gözəl şəkildə söz və əməldə moizə etdiklərinin şahidi oluruq. Burada çox yaxşı olar ki, həmin moizələrdən bir neçə nümunəyə diqqət yetirək.

Günlərin birində İslam Peyğəmbəri(s) Salman və Abuzərə bir dirhəm pul verdi. Səhərisi gün Peyğəmbər(s) onların hər ikisini yanına çağırdı. Bir neçə səhabəyə göstəriş verdi ki, od qalasınlar. Od qalandıqdan sonra onun üstünə böyük bir daş qoydular. Tonqal yavaş-yavaş daşı qızdırmağa başladı. Peyğəmbər(s) Salman və Abuzərə buyurdu: "Bu daşın üstünə çıxın və dünən sizə verdiyim bir dirhəmi hara xərclədiyinizi danışın. Salman daşın üstünə çıxıb isti ayağına keçənə qədər dedi: Allah yolunda sədəqə verdim. Sonra dərhal yerə endi. Abuzər həmin pulu öz ailəsi üçün xərcləmişdi. Həmin pul Peyğəmbərin(s) hədiyyəsi idi. Abuzər onu düzgün xərcləmişdi. Lakin daşın üstünə çıxıb bazara getdiyini, nə aldığını söyləyincə ayaqları yana bilərdi. Elə başa düşdü ki, o pulu xərcləməkdə xataya yol verib. Lakin Peyğəmbər(s) onu daşın üzərinə çıxmağa qoymadı və buyurdu: Mən bilirəm ki, sən o pulu hara xərcləmisən. Bunu səhabələrə göstərməkdə məqsədim odur ki, qoy hamı bilsin, qiyamətin hesab-kitabı bundan daha çətin olacaq. Çalışın özünüzü qiyamət gününə hazırlayasınız. Ora gedincə hesab-kitabınızı təmizləyin."[1]

---

[1] Min bir əxlaqi hekayətlər, səh.609.

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, təkcə Peyğəmbər(s) və imamlar deyil, onların səhabələri də moizə edirdilər. Məsələn, Bəhlul hərdən Harunun yanına gedib onu tutarlı sözlərlə moizə edirdi. Günlərin birində Harunun yanına gəlib dedi: “Bir gün Bəhlul Danəndə xəlifə Harun Ər-Rəşidə bir sual verir. Deyir: Təsəvvür et ki, səhradasan və 50-60 dərəcə istilik var. Yolunu azmısan, içməyə də su tapa bilmirsən. Artıq ölüm təhlükəsi ilə üzbəüzsən. Belə bir vəziyyətdə bir nəfər tapılır və sənə istədiyin qədər su təklif edir. Amma bunun müqabilində xilafətinin yarısını istəyir. Verərsənmi? Xəlifə cavab verir: Bəli, verərəm. Bəhlul soruşur: Bir içim su üçün xilafətin yarısını verərsən? Xəlifə deyir: Bəli, ölməkdənsə hakimiyyətin yarısını vermək daha yaxşıdır. Bəhlul sözünə davam edir: Təsəvvür et ki, suyu içdin və bir neçə saatdan sonra ayaqyoluna getməlisən. Amma hər hansı səbəbdən bu işi görə bilmirsən. Bədənində elə bir xəstəlik yaranır ki, içdiyin suyu bayıra gedə bilmirsən. Bu zaman bir həkim yaxınlaşır və deyir: Mən səni müalicə edərəm. Bir şərtlə ki, hakimiyyətinin qalan yarısını da mənə verəsən. Verərsənmi? Xəlifə fikirləşib cavab verir: Əgər başqa əlacım olmasa, verərəm. Bəhlul yenə təəccüblə soruşur: Bir dəfə ayaqyoluna getmək üçün xilafətin yarısını? Xəlifə cavab verir ki, ölməkdən bu yaxşıdır. Bəhlul fürsətdən istifadə edib ona dəyərli bir nəsihət verir. Deyir: Harun, hakimiyyətin yarısını bir içim suya, yarısını isə bir dəfə ayaqyoluna getmək üçün verməyə hazırsan. Adam da heç bu qədər ucuz hakimiyyətə xatir Musa ibn Cəfər kimi imamı öldürərmi?”

Təqvalı insanlar təkcə moizə etməklə kifayətlənməzlər. Onlar özləri də moizə ardınca düşmüşlər. Tarixdə belə insanların çox şahidi ola bilirik.

Onlar Peyğəmbər(s) və imamların hüzuruna gəlib onları moizə etmələrini xahiş etmişlər.

Günlərin birində bədəvi bir ərəb Mədinəyə gəlir. O, öz qəbiləsində tanınmış bir şəxs idi. Demək olar ki, həmin qəbilənin böyüklərindən idi. Mədinədə Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, mənə elə bir nəsihət et ki, bütün moizələri özündə əhatə etmiş olsun. Həzrət Peyğəmbər(s) ona bir kəlmə ilə nəsihət edərək buyurdu: Qəzəblənmə."

Həmin kişi təşəkkür edib Peyğəmbərin(s) hüzurundan çıxdı. Mədinədə işlərini görüb qurtardıqdan sonra öz qəbiləsinə qayıtdı. Gördü ki, onun adamlarından cavan bir oğlan digər qəbilənin bir adamını vurub öldürüb. Həmin qəbilə də onun qəbiləsi ilə müharibəyə hazırlaşır. O da qəzəblənib qılınca əl atmaq istədikdə Peyğəmbərin(s) sözünü yadına salıb özünü sakitləşdirdi. Sakitləşdikdən sonra yadına bəzi sözlər düşdü. Sonra gəlib müharibəyə hazırlaşan iki qəbilənin arasında dayanıb dedi: "Bizim qəbilənin adamlarından biri nadanlıq üzündən sizin birinizi öldürüb. Onun qanbahasını mən ödəyərəm. Onların arasında bir səhv və anlaşılmazlıq olub, biri digərini öldürmüşdür. Buna görə də iki tayfa bir-birini qırıb, uşaqlarını yetim qoymalıdırmı? Bir-birimizin günahından keçməyimiz yaxşı olar, yoxsa müharibə edərək qadınları dul, uşaqları yetim qoymağımız? Bu işi qandan başqa yollarla da həll etmək olar. Həmin adamın qan bahasını neçə qat istəsəniz mən ödəyərəm. Heyif deyilmi ki, sizin kimi insanların qanı nahaq yerə tökülsün? Gəlin bu işi müharibə yolu ilə yox, başqa yolla həll edək."

Həmin qəbilənin böyüyü bu ağıllı məsləhətlərə qulaq asdıqdan sonra dedi: “Siz bu işə razı olmadığınız kimi, biz də kiminsə qanının tökülməsinə razı olmarıq. İndi ki, belə oldu, sizin bu xoş niyyətinizə və xeyirxah sözlərinizə görə sizdən heç qanbahası da istəmirik.”[1]

Həmçinin camaat bəzən səhabələrdən xahiş edirdilər ki, onları bir neçə kəlmə ilə moizə etsinlər. Məsələn, Abuzər sürgündə olarkən bir nəfər ona məktub yazmışdı. Həmin məktubda ona nəsihət etməsini xahiş etmişdi. Abuzər məktubu oxuduqdan sonra ona belə cavab yazdı: “Sənə hamıdan əziz olana zülm etmə.”

Həmin şəxs məktubu oxuduqdan sonra bu sözlərdən bir şey anlamadı. Amma çox yaxşı bilirdi ki, Abuzər kimi bir səhabə mənasız söz danışmaz. Buna görə də qələm götürüb Abuzərə yenidən məktub yazaraq o sözlərin açıqlamasını xahiş etdi. Abuzər ona yazdığı sözləri açıqlayaraq yazdı: “Sənin üçün hamıdan əziz, möhtərəm və sevimli sən özünsən. Heç bir vaxt özünə zülm etmə. (Hər etdiyin günah özünə qarşı etdiyin zülmdür.)”[2]

Beləliklə, insan moizə etmək üçün özündə hazırlıq və cəsarət yaratmalı, həm də moizəni qəbul etmək üçün özünü hazır etməlidir. Moizələri qəbul etməyin ən şərafətlisi isə budur ki, insan başqasına verilən öyüd-nəsihətdən pay götürsün.

قَالَ الصَّادِقُ(ع): السَّعيدُ يَتَّعِظُ بمَوعِظَةِ التَّقوى وإن كانَ يُرادُ بالموعِظَةِ غَيرُهُ

[1] Min bir əxlaqi hekayətlər, səh.608.
[2] Gəncineyi-məarif,2-ci cild, səh.103.

-İmam Sadiq(ə) buyurur: “Xoşbəxt insan təqva barəsindəki öyüdü qulağının sırğası edər, hətta əgər həmin öyüd başqasına xitab olsa belə.” [1]

İnsan başqalarına moizə edənlərdən moizə payını götürə bilsə, xoşbəxt adamdır. Yəni bir nəfər digərinə nəsihət etdikdə insan həmin nəsihətdən öz payını götürə bilsə, bu, həmin şəxs üçün böyük xoşbəxtlikdir. Belə bir xoşbəxtliyin önündə yenə də Həzrət Əlini(ə) görmək olur. Həzrət Əli(ə) ömrünün axırına qədər buğda yemədi. Özü buyurmuşdu ki, Allah-təala Adəmə(ə) buğda yeməyi qadağan etdi. Mən də həmin nəsihəti qulağımda sırğa edib ömrümün sonuna qədər buğda yemədim. Halbuki buğda yemək mənə qadağan edilməmişdi. (Yəni Allahın Adəmə(ə) verdiyi öyüd-nəsihətdən öz payımı götürdüm.)

[1] Gəncineyi-məarif,2-ci cild, səh.102.

## QİYAMƏTİ XATIRLAMAQ

İnsanda təqvanı gücləndirən amillərdən biri də qiyaməti xatırlamaqdan ibarətdir. İnsan bunu bilməlidir ki, qiyamət insanın daxil olacağı bir həqiqət aləmidir. "Ənam" surəsinin 51-ci ayəsində belə oxuyuruq:

وَأَنذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَن يُحْشَرُواْ إِلَى رَبِّهِمْ لَيْسَ لَهُم مِّن دُونِهِ وَلِيٌّ وَلاَ شَفِيعٌ لَّعَلَّهُمْ يَتَّقُونَ

-Bununla (bu Quran vasitəsilə) özlərinin Rəbbinə tərəf toplanacaqlarından (qiyamət günündən) qorxan kəsləri qorxut – (çün)ki, (həmin gün) onların Allahdan başqa heç bir başçı, yardımçı və şəfaətçiləri[1] olmayacaqdır. Bəlkə bununla təqvalı olalar.

Deməli, qiyamətə imanı olan və həmişə onu xatırlayan insanlar təqvaya yaxınlaşmışlar. Amma əgər bir kəs ölümü, qiyaməti, qiyamət gününün məhkəməsini yaddan çıxarıb öz bildiyini etsə, həmin şəxsdə təqva ola bilməz. Təqva o insanlardadır ki, heç bir vaxt qiyaməti unutmurlar. Buna görə də qiyaməti xatırlamaq insanı təqvaya tərəf yönəldib yaxınlaşdırır. Allah-təala "Taha" surəsinin 113-cü ayəsində belə buyurur:

وَكَذَلِكَ أَنزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا وَصَرَّفْنَا فِيهِ مِنَ الْوَعِيدِ لَعَلَّهُمْ يَتَّقُونَ أَوْ يُحْدِثُ لَهُمْ ذِكْرًا

-Beləcə (gördüyün kimi) Biz bunu (bu kitabı) ərəbcə bir Quran olaraq nazil etdik və onda hər cür xəbərdarlıq və

---

[1] Qiyamət günü Peyğəmbər(s) Əhli-beyt, alimlər, şəhidlər və digər şəfaət edənlər Allahın izni ilə şəfaət edəcəklər. Qiyamət günü Allahın izni olmadan heç kəs şəfaət edə bilməz.

təhdid gətirdik ki, bəlkə təqvalı olsunlar, yaxud (bu Quran) onlar üçün yeni bir ibrət gətirsin. (Qiyaməti yada salsın.)

Qeyd olunan iki ayənin izahında bir mətləbi qeyd etmək olar ki, insanlar altı mərhələdən ibarət aləmi görürlər. Bu aləmlərin hər biri barədə geniş danışmaq olar. Qısa surətdə onların haqqında məlumat verək. Həmin aləmlərdən biri zərr aləmidir ki, insan yaranmamışdan öncə orada olmuşdur. İkinci aləm atanın sülbüdür ki, insan nütfə halında orada məskunlaşmışdır. Üçüncü aləm ananın bətnidir ki, insan bir müddət orada yaşayır. İnsanın yaşadığı aləmlərdən dördüncüsü bu dünyadır ki, ana bətnindən çıxıb burada yaşayır. Beşinci aləm bərzəx aləmidir ki, insan bu dünyadan köçdükdən sonra qiyamətə qədər orada məskunlaşır. İnsanın keçdiyi aləmlərdən altıncısı isə qiyamətdir ki, kimin cənnətə, kimin cəhənnəmə gedəcəyi orada müəyyənləşəcək.

İnsanın yaşadığı ilk üç aləmdə ondan təqva və yaxud digər aləmi xatırlamaq tələb olunmur. Yəni atanın sülbündə insana deyilmir ki, gələcək aləmi (ana bətnini) yada sal. Yaxud ana bətnində də insana dünyanı xatırlamaq əmr olunmur. Amma insan bu dünyaya gəldikdən sonra faili-muxtar olduğuna görə ona qiyaməti yada salmaq tapşırılır.

İnsan atanın sülbündə və yaxud ana bətnində olduğu zaman ixtiyar öz əlində deyil. Heç bir vaxt ola bilməz ki, insan atanın sülbündən, yaxud ananın bətnindən çıxmaqdan imtina etsin. Bu aləmlərdə insana ixtiyar verilməyib. Amma dünyaya gəldikdən sonra Allah-təala insana ixtiyar verir. Dünyada bu ixtiyar yalnız insana verilir. Digər canlıların heç birinə bu ixtiyar verilməyib. Məsələn, Allah-təala arını yaratdığı gündən qiyamətə

qədər onda dəyişiklik yoxdur. Özünə pətək qurması, bal istehsal etməsi yarandığı gündən dünyanın sonuna qədər də elə olacaq. Yeganə canlı insandır ki, Allah onu faili-muxtar yaratmış və iki yolun ortasında qərar vermişdir. Bu yolların seçimini də insanın ixtiyarında qoymuşdur. Peyğəmbərlərin vasitəsilə hər iki yolun sonunu da insanlara göstərmişdir. Bu yolların birinin sonu cənnət, digərinin sonu isə cəhənnəmdir.

Beləliklə, bu dünyada insana başa salırlar ki, düzgün yolu seçmək üçün, təqvalı olmaq üçün, şeytanın insanı cəhənnəmə aparmaması üçün bu dünyadan sonrakı aləmi yada salıb xatırlamalıdır. Bütün bunlar bu dünyada insana başa salınır.

## ÖLÜM İNSAN ÜÇÜN BU DÜNYANIN SONU, AXİRƏTİN BAŞLANĞICIDIR

Burada sual edə bilərlər ki, bu dünyada insana bərzəxi, qiyaməti, cənnət və cəhənnəmi xatırlamaq göstəriş verilirsə, bəs o dünyanın əvvəli haradan başlanır? Bu sualın cavabında demək olar ki, o biri dünyanın əvvəli ölümlə başlanır. Ölüm insan üçün bu dünyanın sonu, axirət dünyasının başlanğıcıdır.

قَالَ عَلِيٌّ(ع): بالموتِ تُختَمُ الدُّنيا

-İmam Əli(ə) buyurur: “Ölümlə (insanın) dünya başa çatır.”[1]

İnsan öldükdən sonra onun ruhu bərzəxdə, cismi isə bir əşya kimi bu dünyada qalır. Ruh bədəndən ayrıldıqdan sonra ən yaxşısı budur ki, onun bədəni torpağa tapşırılsın.

---

[1] Mizanül-hikmə,12-ci cild, səh.5658.

Bəzi yerlərdə insan öldükdən sonra onun bədənini yandırır, bəziləri mumyalayırlar. İslam dininin göstərişlərinə əsasən həmin (müsəlman) bədəni yumaq, qüsl vermək, kəfənə bukub dəfn etmək lazımdır. Çünki ruh bu bədəndə neçə il yaşadığı üçün onun hörmətini də saxlamaq lazımdır. Yəni bədən ruhu özündə gəzdirdiyi üçün ona qarşı hörmətsizlik də etmək olmaz. İnsanın bədəni onun ruhunun miniyidir. Böyük şəxsiyyətin miniyinə (at və dəvəsinə) hörmət olunduğu kimi, ruhun miniyinə də hörmət olunmalıdır. Buna görə də onu ehtiramla aparıb torpağa tapşırmaq lazımdır. Qiyamət günü Allah-təala ruhu yenidən həmin bədənə qaytarıb dirildəcək və məhşərə gətirəcək.

قَالَ رَسُولُ اللهِ(ص): المسلمُ إذا حَضَرَتهُ الوَفاةُ سَلَّمَتِ الأعضاءُ بَعضُها على بَعضٍ، تقولُ: علَيكَ السَّلامُ تُفارِقُني و اُفارِقُكَ إلى يَومِ القِيامَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Müsəlman vəfat etdikdə onun bədən üzvləri bir-biri ilə vidalaşır. Onlar bir-birinə belə deyirlər: Salam olsun sənə! Qiyamət gününə qədər sən məndən və mən də səndən ayrılıram."[1]

İnsan öldükdən sonra onun bədənini torpağa tapşırırlar. Bədən orada çürüməyə başlayır və bədən üzvləri bir-birindən ayrılır. İnsan bədəninin ən tez tökülən üzvü gözlərdir. Sonra digər üzvlər çürüməkdə davam edir.

Burada insan üçün iki mətləb çox mühümdür. Onlardan biri budur ki, insan ölümün qəti olduğuna inanmalıdır. İnsan inansa da, inanmasa da ölümü

[1] Mizanül-hikmə,12-ci cild, səh.5660.

dadacaqdır. Lakin buna inanmaq insan üçün çox mühüm məsələdir. Çünki insan ölməklə yox olub aradan getmir. O, qarşıda onu gözləyən aləmlərə qədəm qoymuş olur. Buna görə də insan ölümlə yanaşı, o biri aləmlərə də mütləq inanmalıdır. "Ali-İmran" surəsinin 185-ci ayəsində belə buyurulur:

كُلُّ نَفْسٍ ذَآئِقَةُ الْمَوْتِ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ الْقِيَامَةِ فَمَن زُحْزِحَ عَنِ النَّارِ وَأُدْخِلَ الْجَنَّةَ فَقَدْ فَازَ وَما الْحَيَاةُ الدُّنْيَا إِلاَّ مَتَاعُ الْغُرُورِ

-Hər bir canlı (mütləq) ölümü dadacaqdır. Qiyamət günü sizin mükafatlarınız tam şəkildə veriləcəkdir. Odur ki, oddan uzaqlaşdırılan və cənnətə daxil edilən kəs doğrudan da kama çatmışdır. Bu dünya həyatı aldadıcı maldan başqa bir şey deyildir.

الإمامُ عليٌّ عليه السلام . مِن وَصاياهُ لابنِهِ الحسنِ عليه السلام:

اعلَمْ يا بُنَيَّ أنَّكَ إنّما خُلِقتَ للآخِرَةِ لا للدُّنيا و للفَناءِ لا للبَقاءِ، و للمَوتِ لا للحَياةِ، و أنَّكَ في قُلعَةٍ و دارِ بُلغَةٍ و طَريقٍ إلَى الآخِرَةِ، و أنّكَ طَريدُ الموتِ الّذي لا يَنجو مِنهُ هارِبُهُ، و لا يَفوتُهُ طالِبُهُ، و لا بُدَّ أنّهُ مُدرِكُهُ، فكُن مِنهُ على حَذَرٍ أن يُدرِكَكَ و أنتَ على حالٍ سَيِّئةٍ، قد كنتَ تُحَدِّثُ نفسَكَ مِنها بالتَّوبَةِ فيَحولُ بينَكَ و بينَ ذلكَ، فإذا أنتَ قد أهلَكتَ نفسَكَ

-Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərək belə buyurdu: "Ey oğlum! Bil ki, sən əslində dünya üçün deyil, axirət üçün yaradılmısan. Qalmaq üçün deyil, getmək üçün və yaşamaq üçün deyil, ölmək üçün xəlq olunmusan. Sən köçüləsi bir mənzildə, davamsız,

müvəqqəti verilən bir sarayda axirət yolunun üstündəsən. Sən ölümdən (təqib etdiyi) fərarisən. Ölüm elədir ki, nə qaçan onun çəngindən xilas olar, nə də axtardığı əlindən çıxar, əksinə, məcburən ona çatar. Ona görə qorx ki, ölüm onlara görə tövbə edəcəyin, vəd verdiyin günahların başında səni haqlasın və səni tövbə etməyə qoymasın. Bu vaxt özünü məhv etmiş olarsan.”[1]

Odur ki, bütün canlılar ölümü dadacaq və heç bir kəs ondan qaça bilməyib, bilməyəcək də. Yaşından asılı olmayaraq ölüm hər bir kəsi haqlayacaq. Mərhum Şəhriyar belə demişdir:

*Dünya bu şahdır, bu gəda qanmayıb,*
*İndiyədək bir kəsə aldanmayıb,*
*Heç bir çıraq sübhə qədər yanmayıb,*
*Baş altımız gah alçaqdır, gah uca,*
*Ölüm baxmayır, cavandı bu, ya qoca.*

Bəzən bir nəfər xəstələnib ölüm ayağına düşdükdə ətrafında olanlar onun canını tapşırmasını gözləyirlər. Əgər ağıllı bir insan gözlərini azacıq açıb baxsa görər ki, həmin xəstə ölənə qədər yüzlərlə gənc insan dünyasını dəyişib. Odur ki, ölüm qəti və qaçılmaz olduğu üçün insan hara qaçsa, ölüm onu haqlayacaq. “Nisa” surəsinin 78-ci ayəsində oxuyuruq:

أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ

-Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içində olsanız belə, ölüm sizi haqlayacaqdır.

[1] Nəhcül-bəlağə, 31-ci məktub.

Həzrət Süleyman(ə) həm Allahın peyğəmbəri idi, həm də ona şahlıq verilmişdi. O, Allahdan bu məqamı özü istəmişdi. “Sad” surəsinin 35-ci ayəsində oxuyuruq:

قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكًا لَّا يَنبَغِي لِأَحَدٍ مِّنْ بَعْدِي

-Dedi: “Ey Rəbbim! Məni bağışla və mənə məndən sonra heç bir kəsə nəsib olmayan bir hökmranlıq əta et.”

Allah-təala onun duasını qəbul edib ona səltənət və hökmranlıq inayət etdi. Bütün heyvanlar, külək və s.-in ixtiyarını ona verdi. Günlərin birində göstəriş verdi ki, bütün qoşunlar gəlib onun qarşısından keçsinlər. Bütün insanlar, heyvanlar, cinlər və s. onun əmrilə gəlib sarayın qarşısından keçdilər. Süleyman sarayda öz çəliyinə söykənib onlara tamaşa edirdi. Cənab Əzrayıl(ə) Allahın əmri ilə elə həmin halda onun canını aldı. Bu hadisənin üstündən on saat keçdi. Camaat gördü ki, Süleyman elə olduğu kimi, yəni əsaya söykənmiş halda dayanıb. Beləcə, şayiələr başlandı. Bəziləri Süleymanın Allah, bəziləri onun cadugər olduğunu iddia etdilər. İnsan bu qədər eyni bir vəziyyətdə dayana bilməz və s. kimi cürbəcür fikirlər eşidilməyə başlandı. Bəzi mömin insanlar dedilər ki, belə sözlər danışmağa və ya şayiələr düzəltməyə ehtiyac yoxdur. Azacıq səbir edin, bir azdan hər şey aydınlaşar. Süleyman on saat həmin halda qaldıqdan sonra Allah-təala bir qarışqanı göndərdi ki, gedib Süleymanın əsasının altını oysun. Qarışqa gəlib əsanın altını o qədər oydu ki, Həzrət Süleymanın(ə) cəsədi yerə sərildi.

Allah-təala Süleymana(ə) elə bir mülk vermişdi ki, nə özündən əvvəlkilərə, nə də sonrakılara elə bir səltənət verməmişdi. Allah-təala onu hamının gözü qarşısında elə yıxdı ki, qoy hamıya ibrət dərsi olsun. Qoy bütün insanlar

bilsinlər ki, kimliyindən asılı olmayaraq ölüm hamını haqlayacaq. Heç bir kəs bu dünyanı tutub qalmayacaq.

قَالَ عَلِي(ع): لو أنّ أحَدا يَجِدُ إلَى البَقاءِ سُلَّما أو لِدَفعِ الموتِ سَبيلاً لَكانَ ذلكَ سُلَيمانَ بنَ داودَ عَلَيهِ السَّلام

-Həzrət Əli(ə) buyurmuşdur: "Əbədiyyətə yüksəlmək (dünyada əbədi qalmaq) üçün bir nərdivan, ölümü özündən uzaqlaşdırmaq üçün bir yol tapılması mümkün olsaydı, şübhəsiz ki, bunu Süleyman ibn Davud edərdi."[1]

Allah-təala "Cümə" surəsinin 8-ci ayəsində buyurur:

قُلْ إِنَّ الْمَوْتَ الَّذِي تَفِرُّونَ مِنْهُ فَإِنَّهُ مُلَاقِيكُمْ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ

-Şübhəsiz, qaçdığınız o ölüm mütləq sizə yetişəcək, sonra isə gizlini və aşkarı bilənə tərəfə qaytarılacaqsınız. O da (dünyadakı) əməllərinizi sizə xəbər verəcəkdir.

"Əraf" surəsinin 34-cü ayəsində belə buyurulur:

وَلِكُلِّ أُمَّةٍ أَجَلٌ فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ

-Hər bir millət və dəstə üçün (dünya həyatından müəyyən) bir müddət vardır. Beləliklə, müddətləri başa çatdıqda ondan nə bir an gecikər və nə də qabağa keçərlər.

Amma bunu da qeyd etmək lazımdır ki, tarixdə bəzi insanlara istisna hallarda möhlət də verilmişdir. Həmin insanlardan biri Mərhum Ayətullah Şeyx Əbdülkərim Hairi idi. O, dövrünün görkəmli təqvalı alimlərindən biri idi. Mərhum İmam Xomeyni, Ayətullah Qolpayeqani kimi şəxsiyyətlərin ustadı olmuşdur. Ayətullah Şeyx

---

[1] Mizanül-hikmə,12-ci cild, səh.5666.

Əbdülkərim Hairi Qum elmi hövzəsinin təməlini qoyan bir şəxs idi. O özü belə deyirdi: "Kərbəlada olduğum vaxtlar gecələrin birində yuxuda bir nəfər gəlib mənə dedi ki, üç gündən sonra öləcəksən. Yuxudan ayılıb öz-özümə dedim: İnşallah, xeyir olar. Sonra yuxu yadımdan çıxdı. Üç gündən sonra halım pisləşdi. Get-gedə əhvalım daha da pisləşirdi. Elə o halda gördüyüm yuxunu xatırladım və başa düşdüm ki, öləcəyəm. Sonra sağ və sol tərəfimdə iki nəfərin əyləşdiyini gördüm. Onların biri digərinə dedi: Bunun əcəli yetişdi. İşə başlamaq lazımdır. Elə bu halda yerimdəcə çapalayıb İmam Hüseynə(ə) təvəssül edərək ağlaya-ağlaya dedim: Ya Əba Əbdillahil-Hüseyn(ə), səni and verirəm anan Zəhraya(s.ə). Allahdan mənim üçün möhlət al. Çünki mənim ölümə hazırlığım, axirət azuqəm yoxdur. İmam Hüseynə(ə) təvəssül etdikdən sonra bir nəfər gəlib yanımda əyləşən o iki nəfərə dedi: Bu insan bizə təvəssül etdi və biz də onun üçün Allahdan möhlət aldıq. Allah da bizim şəfaətimizi onun barəsində qəbul etdi. Elə bu halda özümə qayıtdım. Gözlərimi açmaq istədikdə gördüm ki, parça ilə bağlayıblar. Əl-ayağımı tərpətmək istədikdə gördüm ki, onları da bağlayıblar. Evdə qohum-əqrəbanın ağlaşma səsini eşidirdim. Özümü azacıq tərpətdikdən sonra üstümə salınan parçanı götürdülər. Əl-ayağımı və gözlərimi açdılar. Beləcə, Allah-təala məni ikinci dəfə həyata qaytardı. Həmin gündən sonra on beş gün mən bədənimdə zəiflik hiss etdim. Sonra yavaş-yavaş əhvalım əvvəlki vəziyyətə qayıtdı."

Bundan sonra Ayətullah Hairi uzun müddət ömür sürdü. Qum şəhərinə gəlib dini elmi hövzəni yaratdı. Sonra neçə illər dərs deməklə məşğul oldu. Tələbələri deyirlər ki, o, dərsə başlamamışdan öncə beş dəqiqə İmam

Hüseynə(ə) rövzə deyib ağlayardı. Sonra deyərdi ki, bu bərəkət İmam Hüseynin(ə) mənə etdiyi bir lütfdür. Bütün bu nailiyyətlərim Həzrətin(ə) bərəkətindəndir.

İranda müharibə zamanı bir şəhidin dəfnində iştirak edirdim. Həmin şəhidin adı Zöhrab idi. Hələ onun cənazəsini maşından düşürməmişdilər. Mən camaatı bir yerə toplayıb orada Allahın kəlamlarından söhbət edirdim. Elə bu zaman gördüm ki, iki qadın ağlaya-ağlaya camaata tərəf gəlir. Məhrəm adamlardan birinə dedim ki, get onları sakitləşdir və bu tərəfə gəlməyə qoyma. Çünki onlar bura gəlib çatsalar, aləm bir-birinə dəyəcək. Həmin adam gedib geri qayıtdı və mənə bir söz demək istədiyini bildirdi. Mən söhbəti yarımçıq saxlamamaq üçün Peyğəmbərin(s) adını çəkdim ki, camaat salavat deyənə qədər o, sözünü mənə desin. O dedi: "Gələn qadınlardan biri şəhidin anasıdır. O deyir ki, üç gün bundan öncə Əzrayıl(ə) məni aparmağa gəlmişdi. Mən Allahdan möhlət aldım ki, Zöhrab gəlsin, mən onu ziyarət edim, sonra mənim canımı alsın. Hazırda Əzrayıl(ə) yanımda dayanıb. Oğlumu ziyarət etmək istəyirəm. Onu ziyarət edən kimi mən də öləcəyəm."

Mən öz-özümə dedim: Ana ürəyidir. Ola bilsin ki, bu sözləri ürək yanğısından və oğluna olan məhəbbətindən deyir. Buna görə də göstəriş verdim ki, qapını açın, qoy şəhidin anası maşına minsin. Maşın təxminən əlli metr məndən aralıda idi. Söhbətimi davam etdirdim. Danışa-danışa gözüm maşında idi. Həmin iki qadını maşına mindirib qapısını da örtdülər. Bir neçə dəqiqədən sonra göndərdiyim adam gəlib mənə xəbər verdi ki, şəhidin anası da dünyasını dəyişdi. Oğlunun tabutunu necə qucaqlamışdısa, elə o halda da Allahın rəhmətinə qovuşdu. Sonra Astaradan azacıq aralıda yerləşən bir

İmamzadənin həyətində ana-balanı yan-yana dəfn etdik. O şəhidin həyat yoldaşı deyir ki, hərbi hissədən bizə xəbər verdilər ki, onun şəklini göndərin. Mən onun şəhid olduğundan xəbər tutdum. Amma anasına bildirmədim. Zöhrabın şəklini divardan asmışdıq. Əgər onu oradan açsaydım, anası şübhələnəcək və oğlunun şəhid olduğunu bildikdə isə halı pisləşəcəkdi. Buna görə də evi yığışdırmaq, silib təmizləmək bəhanəsi ilə şəkli divardan açdım. Onun anası mənə dedi: "Zöhrabın şəklini açıb hara göndərirsən? Elə bilirsən xəbərim yoxdur? Mən artıq hər şeyi bilirəm. Mən Allahdan onu ziyarət etmək üçün möhlət almışam. Zöhrabın cənazəsinin yolunu gözləyirəm."

Zöhrab cəbhəyə yola düşərkən gəlib anası ilə vidalaşdı. Anası ona dedi: "Sən gedirsən, birdən şəhid olsan, bu uşaqları kimə tapşıracaqsan? Zöhrab dedi: Allaha. Anası dedi: Bəs sənsiz mənim halım necə olacaq? Zöhrab dedi: Mən şəhid olduqdan sonra gəlib sənin əlindən tutub cənnətə aparacağam. İkimiz də birlikdə cənnətə gedəcəyik. Sonra zarafatyana dedi: Sən orada çay dəmləyərsən, mən də içərəm."

Tarixdə belə istisna hallara rast gəlmək olur. Amma bu o demək deyil ki, hər kəs Allahdan möhlət istəsə, mütləq ona möhlət veriləcək. İnsanın əcəli çatdıqda Allah harada məsləhət bilirsə, orada da insana möhlət verir. Bəzi peyğəmbərlər də az bir müddət Allahdan möhlət almış və Allah da onlara möhlət vermişdir. Amma Allahın ümumi qanunu budur ki, hər bir kəsin əcəli çatdıqda mütləq getməlidir. Ölümün qarşısını heç kəs ala bilməyəcək.

Həzrət Məryəm(s.ə) Həzrət İsa Peyğəmbərin(ə) anası idi. Quranda bu əzəmətli xanımın adı iyirmi beş dəfə zikr olunmuşdur. Onun adına "Məryəm" surəsi də nazil

olmuşdur. Amma əcəli çatarkən Allah-təala ona möhlət vermədi. Günlərin birində ana-bala oruc tutmuşdular. Dağın hündür bir yerində olduqları üçün Həzrət İsa(ə) anasına dedi: “Mən gedim iftar üçün azuqə axtarım. Anası onunla razılaşdı. İsa(ə) getdikdən sonra cənab Əzrayıl(ə) nazil oldu. Həzrət Məryəm(s.ə) soruşdu: Ey Əzrayıl, ziyarətə gəlmisənmi? Əzrayıl(ə) dedi: Xeyr, səni aparmaq üçün gəlmişəm. Məryəm(s.ə) dedi: Möhlət ver oğlum gəlsin, sonra canımı al. Əzrayıl(ə) dedi: İcazəm yoxdur.”

Elə o haldaca Əzrayıl(ə) Həzrət Məryəmin(s.ə) canını aldı. İsa(ə) iftar açmaq üçün ərzaq gətirdi. Gördü ki, anası yatıb. Onu oyatmadı ki, qoy dincəlsin. İftar vaxtı çatdıqda onu yuxudan oyatmaq istədikdə gördü ki, anası dünyasını dəyişib. Çox narahat oldu və ağladı. Anasını dəfn etdikdən sonra onun qəbri kənarında kədərli halda yuxuya getdi. Yuxuda anasını gördü. Həzrət Məryəm(s.ə) ona dedi: “Oğlum, nə üçün narahatsan? Həzrət İsa(ə) dedi: Ona görə ki, sənə möhkəm bağlanmışdım. Bu ayrılıq məni çox narahat edir. İndi isə özümü qərib hiss edirəm. Həzrət Məryəm(s.ə) dedi: Oğlum, sən Allaha bağlan və Onunla ünsiyyətdə ol. İsa(ə) dedi: Anacan, sənin iftar açmadan ac getdiyinə görə də narahatam. Həzrət Məryəm(s.ə) dedi: Oğlum, mənə burada dünyadakı ruzilərdən daha yaxşısını verdilər. İsa(ə) dedi: Anacan, indi orada nə arzulayırsan? Həzrət Məryəm(s.ə) dedi: Arzu edirəm ki, Allah məni bircə günlük dünyaya qaytarsın. Həmin günün gündüzünü oruc tutum, gecəsini də səhərə qədər namaz qılım, ondan sonra yenə də məni Öz dərgahına aparsın.”

Beləcə görürük ki, insanın əcəli çatdıqda mütləq getməlidir. İnsan öldükdə onun kitabı bağlanır. Dünyanın hamısını versələr də, onu geri qaytarmaq mümkün deyil. İnsan dünyasını dəyişdikdən sonra geri qayıdıb bircə

sübhanallah kəlməsini deməyə belə icazəsi yoxdur. Buna görə də nə qədər insanın nəfəsi gedib-gəlirsə, bunu özünə qənimət bilməli, axirət dünyasında dərdinə dəyən işləri görməlidir.

## Ölüm insanın çətin anlarından biridir

Yuxarıda qeyd olunan ayələrdə ölüm barədə iki mühüm mətləbdən söz açdıq. Onlardan biri ölümün qəti olmasıdır ki, bütün canlılar onu dadacaqdır. Bu barədə lazımi qədər söhbət etdik. İkinci mühüm məsələ isə ölümün çətinliyidir. Ölüm Adəm övladının elə bir anıdır ki, hətta peyğəmbərlər üçün də bu an çətin haldır.

قَالَ الإمامُ زينُ العابدينَ(ع): أشَدُّ ساعاتِ ابنِ آدمَ ثلاثُ ساعاتٍ: السّاعَةُ التي يُعايِنُ فيها ملَكَ الموتِ، و السّاعَةُ الّتي يَقومُ فيها مِن قَبرِهِ، و السّاعَةُ التي يَقِفُ فيها بينَ يَدَيِ اللّهِ تبارَكَ و تعالى، فإمّا إلَى الجَنّةِ، و إمّا إلَى النّارِ

-İmam Səccad(ə) buyurur: "Adəm övladının ən çətin anları üç andır: 1. Ölüm mələyini gördüyü an; 2. Qəbirdən (qiyamət günü) qalxdığı an; 3. Uca və əzəmətli Allahın dərgahında dayandığı an. Sonra ya cənnətə gedəcək, ya da cəhənnəmə."[1]

## Ölümün bihuşluğu

[1] Mizanül-hikmə,12-ci cild, səh.5660.

İnsan ölüm ayağında Əzrayılı gördükdə ona bihuşluq gəlir. Yəni ölümün də özünəməxsus bihuşluğu vardır. Necə ki, “Qaf” surəsinin 19-cu ayəsində belə oxuyuruq:

وَجَاءتْ سَكْرَةُ الْمَوْتِ بِالْحَقِّ ذَلِكَ مَا كُنتَ مِنْهُ تَحِيدُ

-Ölüm bihuşluğu həqiqətən gələr (Və ona deyilər: Ey insan,) Bu, sənin qaçdığın (dandığın) həmin şeydir.

Ölümün bihuşluğu elə bir haldır ki, onu yalnız can verən insan başa düşə bilir. O zaman başa düşür ki, bu dünya ilə vidalaşır. Belə bir halda insan həyəcanlanır. O qədər həyəcanlanır ki, halı pisləşir və ağlı başından çıxır.

Hədislərdə belə rəvayət olunur ki, Həzrət Peyğəmbər(s) ömrünün son anlarında canını tapşırarkən həyəcanlandı. Sonra göstəriş verdi ki, bir qabın içinə sərin su töküb onun üçün gətirsinlər. Suyu gətirdikdən sonra Peyğəmbər(s) əlini qabın içinə salıb üzünə çəkə-çəkə belə zikr edirdi:

لا اِله اِلّا الله اِنّ لِلمَوتِ سَكَرَات

-Allahdan başqa heç bir məbud yoxdur. Həqiqətən, ölümün bihuşluğu vardır.[1]

Bu ayədə bir mətləbi də möminlərin diqqətinə çatdırmaq istərdim. Həmin mətləb budur ki, peyğəmbərlər, övliyalar və mömin insanlar vəfat etdikdən sonra Allahın nemətinə və mərhəmətinə qovuşurlar. Həmçinin heç bir insan istəmir ki, pis yerdən yaxşı yerə getməsin. Onlar bu dünyanın nə olduğunu və cənnətin necə bir yer olduğunu yaxşı bilirlər. Amma insan bir şeyi yadında saxlamalıdır ki, ruh bədənlə neçə il ünsiyyət bağlayıb. Əcəl yetişdikdə ruh bədəndən ayrılır. Bu

[1] Təfsiri-nümunə,22-ci cild, səh.254.

ayrılığın özü çətin bir haldır. Bəzi alimlər təfsir kitablarında belə bir məsəl çəkmişlər: Məsələn, bir insanın dişi xarab olub yararsız vəziyyətə düşür və hər gün şiddətli ağrı verir. Həkim həmin dişi müayinə etdikdən sonra deyir ki, bu diş yararsız vəziyyətə düşüb. Onun yeganə çarəsi çəkib atmaqdır. Həmin xəstə bilir ki, bu dişi çıxardıb atdıqdan sonra rahatlaşacaq. Amma bunu da bilir ki, diş çıxarılarkən çətinlik və ağrı çəkməlidir.

Deməli, ölüm də yaxşı insanlar üçün bu məsələ bənzəyir ki, can verən halda çətinlik çəkir, amma sonradan rahatlaşır. Ruhun insandan ayırılması asan iş deyil. Məsələn, yetmiş il bədənlə ünsiyyət bağlayan ruhun ondan çıxması çox çətin olur. Ölümün ikinci çətinliyi də budur ki, insan ünsiyyət bağladığı adamlardan da ayrılır. Ailəsinə, qohumlarına, dostlarına öyrəşmiş bir insanın onlardan ayrılması da onun üçün çətin məsələlərdən biridir. Amma ruhun bədəndən çıxmasının çətinliyi hər bir şeydən çoxdur.

Günlərin birində cənab Cəbrayıl(ə) Həzrət Musanın(ə) yanına gəlir. Musa(ə) onun bu gəlişinin məqsədini soruşur. Cənab Əzrayıl(ə) belə ərz edir: “Səni aparmağa gəlmişəm. Həzrət Musa(ə) deyir: Elə isə mənə bir az möhlət ver. Əzrayıl(ə) ərz edir: Mənim buna icazəm yoxdur. Amma sən Allahın peyğəmbəri olduğun üçün bunu birbaşa Onun özündən istəyə bilərsən. Həzrət Musa(ə) səcdə edib Allahdan möhlət istəyir. Allah-təala onun istəyini yerinə yetirib Əzrayıla(ə) geri qayıtmağı əmr edir. Musa(ə) öz ailəsinin yanına gedib vidalaşmağa başlayır. Əvvəlcə anası ilə vidalaşır. Anası məsələdən hali olub ağlayır. Sonra həyat yoldaşı ilə vidalaşır. O da ağlamağa başlayır. Evdə azyaşlı uşağı ilə vidalaşanda ona ürəyi yanır və o da ağlayır. Allah- təala ona belə vəhy etdi:

“Ey Musa, sən Bizə tərəf gəlirsən. Bu ağlaşmanın mənası nədir?” Musa(ə) evdən çıxır. Allah-təala Əzrayıla əmr verir ki, gedib Musanın canını alsın. Cənab Əzrayıl(ə) onun canını almaq üçün nazil oldu. Musa(ə) ondan soruşdu: İndi ki, mənim canımı alırsan, sənə bir sual verirəm. De görüm mənim canımı bədənimin hansı hissəsindən almağa başlayacaqsan? Əzrayıl(ə) ərz etdi: Ağzından. Musa(ə) dedi: Birbaşa Allahla söhbət etdiyim ağzımdanmı? Əzrayıl(ə) ərz etdi: Elə isə əllərindən başlayaram. Musa(ə) dedi: Lövhələri arada vasitə olmadan Allahdan aldığım əllərimdənmi? Əzrayıl(ə) ərz etdi: Onda ayaqlarından başlayaram. Musa(ə) dedi: O ayaqlardan ki, mən onlarla Turi Sinaya gedib ibadət edirdim?

Əzrayıl(ə) gördü ki, hər nə desə, Musa(ə) bir söz deyəcək. Buna görə də ona bir narıngi (portağal) verib dedi: Bunu iylə. Həzrət Musa(ə) narıngini ondan alıb iylədi və elə bununla da ruhu bədənindən çıxdı.

Musanın(ə) ruhu bədənindən ayrıldıqdan sonra mələklər ondan soruşdu: Ey peyğəmbərlərin içərisində asan ölən peyğəmbər, ölümü necə gördün? Musa(ə) dedi: Elə bil ki, qoyunun diri-diri dərisini soyurlar.”[1]

Odur ki, hər bir kəs can verərkən belə çətinliyi hiss edəcək. Amma mömin insanları bu çətinlikdən sonra rahatlıq və cənnət gözləyir. Can ağızdan çıxana qədər insan üçün ən çətin və ağır hal olacaq. Hədislərdə bəzi əməllər nəql olunmuşdur ki, insan o əməllərin vasitəsilə özünü həmin günə hazırlaya bilər.

Həzrət İsa(ə) Həzrət Yəhya(ə) ilə dost idi. Onların hər ikisi Allahın peyğəmbəri idi. Həzrət Yəhyanı(ə) cavan

---

[1] Bərzəx aləmi, səh.18.

vaxtında başını kəsib öldürdülər. Həzrət İsa(ə) onun üçün darıxırdı. Bir gün onun qəbrinin üstünə gəlib dedi: "Allahın izni ilə qəbirdən qalx. Yəhya(ə) qəbirdən qalxıb ərz etdi: Ey İsa(ə), məni nə üçün diriltdin? İsa(ə) buyurdu: Sənin üçün çox darıxıram. İstəyirəm dünyaya qayıdıb mənim yanımda olasan. Yəhya(ə) dedi: Əgər səninlə gəlsəm və dünyada yaşasam, yenə də öləcəyəm, yoxsa bircə dəfə ölməyim mənə bəs edəcək? Həzrət İsa(ə) buyurdu: Əgər dünyaya gəlsən və yaşasan, yenə də həmin ölümü dadacaqsan. Yəhya(ə) dedi: Elə isə mən gələ bilmərəm. Çünki ölüm halının çətinliyini bir daha görmək istəmirəm."[1]

Yəhya Peyğəmbərin(ə) adını Allah Özü qoymuşdu. Onun şərafət və məqamlarından biri bu idi ki, Allah yolunda başını kəsib şəhid etmişdilər. Onun belə yüksək məqamları olmasına baxmayaraq, ölümün və can vermənin çətin halını yaşadığı üçün, bir daha dünyaya qayıdaraq yenidən ölməyi istəmirdi.

Canvermə ayağında olmaq insan üçün çətin hallardan biridir. Bütün insanlar bu halı görəcəklər. Nə qədər ki, insan sağdır və nəfəsi gedib-gəlirsə, özünü həmin gün üçün hazırlaya bilər. Əgər biz özümüzü həmin an üçün hazırlaya bilsək, həmin halda xeyrini görəcəyik. Yox, əgər özümüzü hazırlaya bilməsək, peyğəmbərlər üçün ölüm halı belə çətin olubsa, o zaman gör bizim halımız necə olacaq? Allah-təala həmin anlarda hamımızın dadına çatsın.

## Ölümün vəsfi

[1] Bərzəx aləmi, səh.21.

Yuxarıda qeyd olundu ki, insanda ölüm halı yarandığı zaman ona ölüm bihuşluğu gəlir. “Qaf” surəsinin 19-cu ayəsində oxuyuruq:

وَجَاءتْ سَكْرَةُ الْمَوْتِ بِالْحَقِّ ذَلِكَ مَا كُنتَ مِنْهُ تَحِيدُ

-Ölüm bihuşluğu həqiqətən gələr və həqiqəti çıxarar. (Və ona deyilər:) Bu sənin qaçdığın (dandığın) həmin şeydir.

Həzrət Əli(ə) insanın ölüm halını və ölümün məstliyini şərh edərək belə buyurur:

اجْتَمَعَتْ عَلَيْهِمْ سَكْرَةُ الْمَوْتِ وَحَسْرَةُ الْفَوْتِ، فَفَتَرَتْ لَهَا أَطْرَافُهُمْ، وَتَغَيَّرَتْ لَهَا أَلْوَانُهُمْ. ثُمَّ ازْدَادَ الْمَوْتُ فِيهِمْ وُلُوجاً، فَحِيلَ بَيْنَ أَحَدِهِمْ وَبَيْنَ مَنْطِقِهِ، وَإِنَّهُ لَبَيْنَ أَهْلِهِ يَنْظُرُ بِبَصَرِهِ، وَيَسْمَعُ بِأُذُنِهِ، عَلَى صِحَّةٍ مِنْ عَقْلِهِ، وَبَقَاءٍ مِنْ لُبِّهِ، يُفَكِّرُ كَيفَ أَفْنَى عُمْرَهُ، وَفِيمَ أَذْهَبَ دَهْرَهُ؟ وَيَتَذَكَّرُ أَمْوَالاً جَمَعَهَا، أَغْمَضَ فِي مَطَالِبِهَا، وَأَخَذَهَا مِنْ مُصَرَّحَاتِهَا وَمُشْتَبِهَاتِهَا، قَدْ لَزِمَتْهُ تَبِعَاتُ جَمْعِهَا، وَأَشْرَفَ عَلَى فِرَاقِهَا، تَبْقَى لِمَنْ وَرَاءَهُ يَنْعَمُونَ فِيهَا، وَيَتَمَتَّعُونَ بِهَا، فَيَكُونُ الْمَهْنَأُ لِغَيْرِهِ، وَالْعِبءُ عَلَى ظَهْرِهِ. وَالْمَرْءُ قَدْ غَلِقَتْ رُهُونُهُ بِهَا، فَهُوَ يَعَضُّ يَدَهُ نَدَامَةً عَلَى مَا أَصْحَرَ لَهُ عِنْدَ الْمَوْتِ مِنْ أَمْرِهِ، وَيَزْهَدُ فِيمَا كَانَ يَرْغَبُ فِيهِ أَيَّامَ عُمُرِهِ، وَيَتَمَنَّى أَنَّ الَّذِي كَانَ يَغْبِطُهُ بِهَا وَيَحْسُدُهُ عَلَيْهَا قَدْ حَازَهَا دُونَهُ! فَلَمْ يَزَلِ الْمَوْتُ يُبَالِغُ فِي جَسَدِهِ حَتَّى خَالَطَ لِسَانُهُ سَمْعَهُ، فَصَارَ بَيْنَ أَهْلِهِ لاَ يَنْطِقُ بِلِسَانِهِ، وَلاَ يَسْمَعُ بِسَمْعِهِ: يُرَدِّدُ

طَرْفَهُ بِالنَّظَرِ فِي وجُوهِهِمْ، يَرَى حَرَكَاتِ أَلْسِنَتِهِمْ، وَلاَ يَسْمَعُ رَجْعَ كَلاَمِهِمْ. ثُمَّ ازْدَادَ الْمَوْتُ الْتِيَاطاً بِهِ، فَقُبِضَ بَصَرُهُ كَمَا قُبِضَ سَمْعُهُ، وَخَرَجَتِ الرُّوحُ مِنْ جَسَدِهِ، فَصَارَ جِيفَةً بَيْنَ أَهْلِهِ، قَدْ أَوْحَشُوا مِنْ جَانِبِهِ، وَتَبَاعَدُوا مِنْ قُرْبِهِ. لاَ يُسْعِدُ بَاكِياً، وَلاَ يُجِيبُ دَاعِياً. ثُمَّ حَمَلُوهُ إِلَى مَخَطٍّ فِي الْأَرْضِ، فَأَسْلَمُوهُ فِيهِ إِلَى عَمَلِهِ، وَانْقَطَعُوا عَنْ زَوْرَتِهِ

-Can verməyin çətinliyi, əldən gedən (tikdiyi evlər, mal-dövlət, ailə və s.) görə kədər və bihuşluğu onları bürüyür, əl-ayaqlarını süstləşdirir və rənglərini dəyişir. Ondan sonra onlarda ölümün təsiri artır, hər birinin özü ilə sözü arasına maneə düşür. *(Söz danışa bilmir)*. Öz əhli-əyalı arasında gözü ilə *(onların iztirab və narahatlıqlarını)* görür, qulağı ilə *(onların ah-naləsini)* eşidir, ağlı yerində, fəhmi bərqərardır. Ömrünü necə başa vurduğunu, ruzigarını necə keçirdiyini fikirləşir. Topladığı malları, onları qazanmaq üçün *(halala və harama)* göz yumduğunu, onları *(halallığı və haramlığı)* aşkar və şübhəli yerlərdən əldə etdiyini yada salır. Doğrudan da, o, mal-dövlət toplamağın ziyanlarına *(ona görə olan cəzalara)* düçar olub və onlardan ayrıldığında *(bundan)* agah olub. Bu mal-dövlət ondan sonra həmin naz-nemətdən istifadə edib xoş günlər keçirən sağ insanlara qalacaq. Deməli, o mal-dövlətin rahatlığı *(onun xoş güzəranı)* ondan qeyrisi üçündür və o yükün dəyəri *(məsuliyyəti)* isə onun kürəyindədir. Həmin kişi də o mal-dövlətin girovundadır. *(O mal-dövlətin hesab-kitabından qurtulmayıb və qaçmağa yolu yoxdur.)* Ölüm vaxtı ona aşkar olanların *(çətinliklərin)* təsirindən peşman olaraq əlini dişləriylə gəmirər, həyatı boyunca meyl etdiklərinə

meylsiz olar. Arzu edər ki, ey kaş o malları özü yox, məqam və rütbəsini arzuladığı, malına həsəd apardığı başqa bir şəxs yığaydı. Ölüm *(izləri)* onun qulaqları da dili kimi işdən düşənə *(heç bir söz eşitməyənə)* qədər ardı-arası kəsilmədən onun bədənində görünər. Öz əhli-əyalı arasında elə hala düşər ki, nə dinib-danışar, nə qulağı eşidər, öz gözlərini onların üzlərinə baxmaq üçün açar onların dillərinin hərəkətini görüb sözlərini eşitməz. Sonra ölüm *(izləri)* daha da artıb ondan yapışacaq, qulaqlarını bürüdüyü *(heç nə eşitmədiyi)* kimi gözlərini də bürüyəcək *(artıq heç nə görməyəcək)* və canı bədənindən çıxacaq. Beləliklə, öz əhli-əyalı arasında murdar bir ət olar ki, ondan qorxaraq uzaq durarlar. Nə ağlayana yoldaşlıq edər, nə də çağırana cavab verər.

Bundan sonra onu götürüb yerdəki *(son)* mənzilinə *(qəbrə)* gətirəcək və onu orada *(tənha qoyub)* əməlinə tapşıracaq, onu görməkdən əl çəkəcəklər."[1]

Xütbənin bu hissəsində Həzrət Əli(ə) sanki məsələyə nöqtə vuraraq insanın öz əməllərindən asılı olduğunu bəyan edir. Bu həmin ayədir ki, "Muddəssir" surəsinin 38-ci ayəsində oxuyuruq:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ

-Hər kəs öz əməlinin girovundadır.

İnsanın xoşbəxt və yaxud bədbəxt olduğunu onun əməlləri təyin edəcək. Əməlin başlanğıcı insanın əqidəsindəndir. Yəni insanın əqidəsindən soruşulduqdan sonra əməllərin hesab-kitabı başlanır. Əməllərin də sorğu-sualı namazdan başlanır. Hər bir kəsdən həddi-büluğa

---

[1] Nəhcül-bəlağə 108-ci xütbə

çatdıqdan ömrünün sonuna qədər gündə on yeddi rükət namazın hesabını alacaqlar. Həmçinin insan namazdan sonra bütün əməllərin hesab-kitabını verməli olacaq.

قَالَ رَسُولُ اللهِ(ص): اَلأَمرَاضُ وَ الأَوجَاعُ كُلُّهَا بريد الْمَوت، وَ رُسُلُ الْمَوت، فَإِذَا حَانَ الأَجَل أَتَى مَلَكُ الْمَوت بِنَفسِهِ فَقَالَ: يَا أَيُّهَا العَبد! كَم خَبَرٍ بَعدَ خَبَر، وَ كَم رَسُولٍ بَعدَ رَسُولٍ؟ وَ كم بريد بعد بريد؟ اَنَا الْخَبَرُ الَّذِي لَيسَ بَعدِي خَبَرٌ وَ أَنَا الرّسول أجب ربك طائعا أو مكرها فَإِذَا قبض روحه وتصارخوا عليه قَالَ عَلَى مَن تَصرَخُون وَ عَلَى مَن تَبكُون فَوَاللهِ مَا ظلمت له أجلا ولا أكلت له رزقا بل دعاه ربه فَلَيَبكِ البَاكِي عَلَى نَفسِه فَإِنَّ لِي فِيكُم عَودَاتٌ عَودَاتٌ حَتَّى لا أَبقِي فِيكُم أَحدًا

-Həzrət Peyğəmbər(s) buyurur: “Bütün xəstəliklər və ağrıların hamısı ölümün qasidləri və xəbərdarlıqlarıdır. İnsanın əcəl vaxtı çatdıqda ölüm mələyi hazır olar. (İnsan onun xəbərdarlıqsız gəldiyini görüb təəccübləndikdə) Ölüm mələyi deyər: Ey Allah bəndəsi, sənə xəbər xəbər ardınca göndərilmədimi? Sənə qasid qasidin ardınca gəlmədimi? Amma mən axırıncı xəbərəm. Məndən sonra daha bir xəbərdarlıq olmayacaq. Artıq əcəlin yetişib.) İstəsən də, istəməsən də haqq olan Pərvərdigarın dəvətinə ləbbeyk de.

Sonra Əzrayıl(ə) onun canını alır. Belə olan halda onun qohumları və ətrafında olanların ağlamaq səsi və nalələri göyə ucalır. Əzrayıl(ə) onları səsləyərək deyir: “Nə üçün qışqırırsınız? Kimin üçün ağlayırsınız? And olsun Allaha ki,

mən ona zülm etmədim. Onun əcəli çatıb və onun üçün təyin olunan ruzini yeyib qurtarmışdır. Allah-təala onu dəvət edib, o da Allahın dəvətini qəbul etdi. Əgər ağlamaq istəyirsinizsə, özünüz üçün ağlayın. Mən təkrar olaraq yenə də sizin yanınıza gələcəyəm. Sizlərdən bir nəfəri də (bu dünyada sağ) qoymayacağam."[1]

قَالَ رَسُولُ اللهِ(ص): إنّ أهوَنَ الموتِ بِمَنزلَةِ حَسَكَةٍ كانَت في صُوفٍ، فهَل تَخرُجُ الحَسَكَةُ مِن الصُّوفِ إلاّ و مَعَها صُوفٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən asan ölüm ona bənzəyir ki, sanki yun paltara batmış tikanları çıxarırsan. Hər tikanı o paltardan çıxartdıqda onlarla birgə bir miqdar yun da qopur."[2]

قَالَ رَسُولُ اللهِ(ص): لو أنّ البَهائمَ يَعلَمْنَ مِن الموتِ ما تَعلَمونَ أنتُم، ما أكَلتُم مِنها سَمينا

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər heyvanlar sizin ölüm haqda bildiklərinizi bilsəydilər, heç vaxt kök heyvan yeməzdiniz."[3]

Ruh illər boyu bədənlə ünsiyyət bağladığı üçün onun ayrılması da çətin olur. Sanki ruhu bədəndən çəkib qoparırlar. Buna görə də ölüm insan üçün çətindir. Hədislərdə belə nəql olunur ki, can verən insanın başı üzərində dayanıb ona təlqin demək, cənnətlə müjdələmək

---

[1] Təfsiri-nümunə,22-ci cild, səh.254.
[2] Mizanül-hikmə,12-ci cild, səh.5696.
[3] Yenə orada.

müstəhəb əməllərdəndir. Bu işləri görmək can verən insanın rahatlığına səbəb olur.

قَالَ رَسُولُ اللهِ(ص): اِحضَروا مَوتاكُم و لَقِّنوهُم «لا إلهَ إلاَّ اللّه» و بَشِّروهُم بالجَنَّةِ، فإنّ الحَليمَ مِن الرِّجالِ و النِّساءِ يَتَحَيَّرُ عندَ ذلكَ المِصرَعِ، و إنّ الشَّيطانَ أقرَبُ ما يكونُ مِن ابنِ آدمَ عندَ ذلكَ المِصرَعِ. و الّذي نَفسي بيَدِهِ! لَمُعايَنةُ مَلَكِ الموتِ أشَدُّ مِن ألفِ ضَربَةٍ بالسَّيفِ. وَ الَّذِي نَفسِي بيَدِهِ! لا تَخرُجُ نَفسُ عَبدٍ مِن الدّنيا حتّى يَتَأَلَّمَ كُلُّ عِرقٍ مِنهُ على حِيالِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ölüm ayağında olanlarınızın başının üstünə gəlin və onlara “La ilahə illəllah”ı təlqin edin və cənnətlə müjdə verin. Çünki hətta səbirli kişi və qadınlar da belə hallarda çox narahat və məyus olurlar. Şeytan bütün başqa vaxtlardakından daha çox ölüm ayağında insana yaxınlaşır. And olsun canım onun əlində olana ki, ölüm mələyini (Əzrayılı) görmək min qılınc zərbəsindən daha ağırdır. And olsun canım onun əlində olana ki, heç bir bəndənin canı, hər bir damarı ağrı çəkməmiş dünyadan getməz.”[1]

Canını tapşırmaq ərəfəsində olan insana təlqin demək öz yerində, bunu da bilməliyik ki, insan yaşadığı kimi də ölür. Yəni necə yaşayırsa, eləcə də ölür. Çünki insanın ölüm halı əməllərin kəsildiyi və nəticə verdiyi bir haldır. Yaxşı ölmək, pis ölmək, qəbirdə başına gələcək və sonrakı

---

[1] Yenə orada.

halların hamısı insanın dünyada etdiyi əməllərindən asılıdır.

قَالَ رَسُولُ اللّهِ(ص): مَن ماتَ على شيءٍ بَعثَهُ اللّهُ علَيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs necə yaşayıbsa, (hansı əməllər və xüsusiyyətlərlə yaşayıbsa), Allah-təala (qiyamət günü) həmin şəxsi o əməl və xüsusiyyətlərlə qəbirdən qaldıracaq."[1]

Yəni əməl elə bir şeydir ki, həm insan ölərkən, həm qəbirdə, həm də qiyamət günü özünü izhar edib göstərəcək.

Alimlərdən biri deyir: "Cavan bir oğlan ölüm yatağına düşmüşdü. Biz onun başı üzərində dayanıb təlqin deməyə başladıq. Ona deyirdi ki, "La ilahə illəllah" - de. O, üzünü yana çevirib belə deyirdi: "Sındırma, demərəm." Bir neçə dəfə ona təlqin etdik, amma o, həmin sözü təkrar edirdi. Hamı onun bu halına təəccüblənmişdi. Üstündən bir neçə gün keçdikdən sonra xəbər tutduq ki, həmin oğlanın halı yaxşılaşıb. Yenə də onun yanına getdik. Gördük ki, artıq halı özünə gəlib və yaxşılaşıb. Ondan soruşdum: Biz elə bildik ki, sən ölürsən. Buna görə də sənə "La ilahə illəllah" kəlməsini təlqin etməyə başladıq. Amma sən üzünü yana çevirib deyirdin: "Sındırma, demərəm." Bu nə məsələdir belə? Oğlan dedi: Mənim saatımı gətirin. Onun gözəl bir saatı var idi. Saatı ona verdikdə götürüb daşla sındırdı. Sonra dedi: Mənim bu saatdan çox xoşum gəlirdi. Siz mənə təlqin edərkən şeytan da o tərəfdə dayanıb əlində bu saatı tutmuşdu. O da mənə deyirdi ki, əgər "La ilahə illəllah" - desən, bu saatı

---

[1] Mizanül-hikmə,12-ci cild, səh.5660.

sındıracağam. Buna görə də mən ona deyirdim: “Sındırma, deməram.” Allah mənə nəsib etdi ki, sağ qaldım. Öz əlimlə bu saatı da sındırıram ki, qoy şeytan mənə onun vasitəsilə təzyiq göstərməsin.”[1]

Belə hadisələr min ildə bir dəfə istisna hal kimi görünə bilər. Çox az adam tapılar ki, ölümü gözü ilə görüb qayıtsın. Ölüb dünyanı dəyişənlərə artıq icazə verilmir ki, qayıdıb gördüklərini bizə desinlər. Ölümün, qəbrin, qiyamətin hallarını bizə Quran və Peyğəmbər(s) xəbər verir. Peyğəmbər(s) meraca getmiş və orada gördüklərini səhabələrə danışmışdı. Həzrətin(s) meracda gördüyü hallardan biri belədir.

Həzrət Peyğəmbər(s) buyurur: “Merac gecəsi cənab Əzrayılla(ə) söhbət etdim. Ondan soruşdum: Bütün ölənlərin canını sənmi alırsan? Dedi: Bəli, Allah mənə icazə verib ki, hamının başı üzərinə gəlim. Hər gün beş namaz vaxtı bütün evlərə baş çəkirəm.”

Sonra Peyğəmbər(s) buyurdu: “Namazlarını vaxtlı-vaxtında qılan insan ölən zaman Əzrayıl(ə) onun yanına gəlib salamlaşır, “La ilahə illəllah” kəlməsini özü ona təlqin edir və şeytanı ondan uzaqlaşdırır.”[2]

Odur ki, hər bir əməlin özünəməxsus təsir və nəticələri vardır. Gündəlik vacib namazları vaxtlı-vaxtında qılmağın da ölən zaman insana verdiyi nəticəsi budur ki, cənab Əzrayıl(ə) gəlib həmin şəxslə görüşər (salamlaşar), ona “La ilahə illəllah” kəlməsini təlqin edər və şeytanı ondan uzaqlaşdırar. Deməli, hər bir insan öz əməlinin girovundadır.

---

[1] Bərzəx aləmi, səh.28.
[2] Bərzəx aləmi, səh.38.

## Can alanlar kimdir?

Qeyd olundu ki, insanın ölüm anı onun ən çətin və ağır anlarından biridir. Həmçinin qeyd edildi ki, hər bir insan canını tapşırarkən ona ölüm məstliyi gəlir. Sual oluna bilər ki, insanın canını kim alır? Bu sualın cavabında ən aydın olanı budur ki, insanın canını cənab Əzrayıl(ə) alır. Amma Quran ayələrinə diqqət yetirdikdə görürük ki, insanın canını alanlar üç qismə bölünür. Yəni bəzi ayələrdə insanın canının alınması Allaha, bəzi ayələrdə Əzrayıla(ə), bəzi ayələrdə isə mələklərə aid olunmuşdur. Həmin ayələrdən bir neçəsinə diqqət yetirək:

1. İnsanın canını Allah alır

Bəzi ayələri oxuduqda görürük ki, insan ölərkən onun canını Allah alır. Məsələn, "Zumər" surəsinin 42-ci ayəsində belə buyurulur:

اللَّهُ يَتَوَفَّى الْأَنفُسَ حِينَ مَوْتِهَا

-(Əcəli çatan kimsələr) öldüyü zaman onların canlarını (ruhlarını) Allah alar.

"Yunis" surəsinin 104-cü ayəsində oxuyuruq:

قُلْ يَا أَيُّهَا النَّاسُ إِن كُنتُمْ فِي شَكٍّ مِّن دِينِي فَلاَ أَعْبُدُ الَّذِينَ تَعْبُدُونَ مِن دُونِ اللّهِ وَلَكِنْ أَعْبُدُ اللّهَ الَّذِي يَتَوَفَّاكُمْ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ الْمُؤْمِنِينَ

-De: "Ey insanlar, əgər mənim dinim(in düz və ya səhv olması) barəsində şəkk-şübhədəsinizsə, onda (bilin ki,) mən sizin Allahın yerinə ibadət etdiklərinizə (bütlərə) ibadət etmirəm; və lakin sizin hamınızın canını alan

Allaha ibadət edirəm və mənə möminlərdn olmaq əmr edilmişdir.”

2. İnsanın canını ölüm mələyi (cənab Əzrayıl) alır

Bəzi ayələrdə oxuyuruq ki, insan ölərkən onun canını cənab Əzrayıl(ə) alır. Məsələn, “Səcdə” surəsinin 11-ci ayəsində belə buyurulur:

قُلْ يَتَوَفَّاكُم مَّلَكُ الْمَوْتِ الَّذِي وُكِّلَ بِكُمْ ثُمَّ إِلَى رَبِّكُمْ تُرْجَعُونَ

-(Ya Peyğəmbər!) de: “Sizə müvəkkil olan ölüm mələyi sizi(n ruhunuzu) kamil surətdə (bədəninizdən) alar (ayırar), (ruh qalar və bədən isə torpağa çevrilər), sonra (qiyamətdə həmin bədənin qəlibində) öz Rəbbinizin hüzuruna qaytarılacaqsınız!”

3. İnsanın canını mələklər alır

Digər ayələrdə isə oxuyuruq ki, insanın canını mələklər alır. Məsələn, “Nəhl” surəsinin 28-ci ayəsində kafir və zalımlar barədə oxuyuruq:

الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنفُسِهِمْ فَأَلْقَوُاْ السَّلَمَ مَا كُنَّا نَعْمَلُ مِن سُوءٍ بَلَى إِنَّ اللّهَ عَلِيمٌ بِمَا كُنتُمْ تَعْمَلُونَ

-Mələklər özlərinə zülm etmiş kəslərin canlarını alan zaman onlar təslim və itaətkar olar (və) “biz heç bir pis iş görmürdük” (deyərlər). “Xeyr (pis iş görürdünüz)! (Çünki) şübhəsiz, Allah etdiklərinizi biləndir.”

“Nəhl” surəsinin 32-ci ayəsində təqvalı və mömin insanlar barəsində belə buyurulur:

الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلامٌ عَلَيْكُمُ ادْخُلُواْ الْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ

-O kəslər ki, mələklər canlarını onlar  pak olan halda alarkən (onlara) “salam olsun sizə, etdiklərinizin mükafatı olaraq cənnətə (hələlik bərzəx aləmindəki cənnətə, qiyamətdən sonra isə əbədi cənnətə) daxil olun” - deyərlər.

Qeyd olunan ayələrdən görürük ki, bəzən insanın canını alan Allah, bəzən Əzrayıl və bəzən də digər mələklərdir. Sual oluna bilər ki, bu ayələr bir-biri ilə ziddiyyət təşkil etmirmi? Cavab olaraq deyə bilərik ki, Allahın kitabında ziddiyyətli heç bir məsələ yoxdur. Sadəcə bu ayələrin açıqlama və təfsirinə ehtiyac vardır ki, Peyğəmbər(s) və Əhli-beytin(ə) hədisləri də məhz həmin ayələri bizim üçün şərh etmişlər.

Zindiqi iddia edirdi ki, bu ayələr ziddiyyət təşkil edir. Çünki bəzi ayələrdə insanın canını almaq Allaha, bəzi ayələrdə Əzrayıla(ə), bəzi ayələrdə isə mələklərə aid olunurdu. Həzrət Əli(ə) onun cavabında belə buyurur:

هُو تبارَكَ و تعالى أجَلُّ و أعظَمُ مِن أن يَتولّى ذلكَ بنفسِهِ، و فِعلُ رُسُلِهِ و ملائكتِهِ فِعلُهُ، لأنّهُم بأمرِهِ يَعمَلونَ ...

فمَن كانَ مِن أهلِ الطّاعَةِ تَوَلَّت قَبضَ رُوحِهِ ملائكةُ الرّحمَةِ، و مَن كانَ مِن أهلِ المعصيَةِ تولّى قَبضَ رُوحِهِ ملائكةُ النِّقمَةِ. و لِمَلَكِ الموتِ أعوانٌ مِن ملائكةِ الرَّحمَةِ و النِّقمَةِ يَصدُرونَ عَن أمرِهِ، و فِعلُهُم فِعلُهُ، و كلُّ ما يَأتُونَهُ مَنسوبٌ إلَيهِ، و إذا كانَ فِعلُهُم فِعلَ ملَكِ الموتِ، و فِعلُ ملَكِ الموتِ فِعلَ اللّهِ ، لأنّهُ يَتوفَّى الأنفُسَ على يَدِ مَن يَشاءُ.

-Allah-təalanın şən və cəlalı bu işi öhdəsinə götürməkdən (canları almaqdan) daha üstündür. Elçi və mələklərin işləri elə Allahın işləridir. Çünki onlar Allahın əmrini yerinə yetirirlər...

Hər kəs itaət əhli olsa onun canını rəhmət mələkləri alar. Hər kəs günah əhli olsa onun canını əzab mələkləri alar. Ölüm mələyinin (Əzrayılın) rəhmət və əzam mələklərindən ibarət yardımçıları vardır ki, onun əmrini yerinə yetirirlər. Həmin mələklərin gördüyü işlər həqiqətdə Əzrayıla aid edilir. Buna görə də onların işi Əzrayılın, Əzrayılın işi isə Allahın işidir. Allah canları istədiyi kəslərin əli ilə alır.[1]

الإمامُ الصّادقُ عَلَيهِ السَّلام: (-في بيانِ الآياتِ-) إنَّ اللّهَ تَبارَكَ و تَعَالى جَعلَ لِملَكِ الموتِ أَعواناً مِن الملائكةِ يَقبِضونَ الأرواحَ، بمَنزِلَةِ صاحِبِ الشّرطَةِ لَهُ أعوانٌ مِن الإنسِ يَبعَثُهُم في حَوائجِهِ فتَتَوَفّاهُمُ الملائكةُ، و يَتَوَفّاهُم مَلَكُ الموتِ مِن الملائكةِ مَع ما يَقبِضُ هُو، و يَتَوَفّاها اللّهُ عَزَّ و جلَّ مِن ملَكِ الموتِ

-İmam Sadiq(ə) bu ayələrin bəyanında belə buyurur: “Allah-təala ölüm mələyi (Əzrayıl) üçün (canları almaqda) mələklərdən olan köməkçilər qərar vermişdir. Necə ki, vəzifəli şəxsin (polis rəisinin) insanlardan olan köməkçiləri onun (rəisin) işlərini yerinə yetirmək üçün göstəriş verirlər. Eləcə də mələklər insanın canını alıb Əzrayıla təhvil verirlər.

[1] Mizanül-hikmə,12-ci cild, səh.5678.

Əzrayıl da həmin canları alıb özünün aldığı canlara qoşur. Allah da həmin canları Əzrayıldan alır."[1]

قَالَ الصَّادِقُ(ع): قيلَ لِمَلَكِ المَوتِ عليه السلام: كيفَ تَقبِضُ الأرواحَ و بَعضُها في المَغرِبِ و بَعضُها في المَشرِقِ في ساعَةٍ واحِدَةٍ؟ فَقَالَ: أدعُوها فتُجيبُني. قَالَ: وَ قَالَ مَلَكُ المَوتِ عليه السلام: إنّ الدُّنيا بينَ يَدَيَّ كالقَصعَةِ بين يَدَي أحَدِكُم، يَتَناوَلُ مِنها ما يَشاءُ، و الدُّنيا عِندي كالدِّرهَمِ في كَفِّ أحَدِكُم يُقلِّبُهُ كيفَ شاءَ

-İmam Sadiq(ə) buyurur: "Əzrayıldan soruşdular: Sən canları eyni zamanda necə ala bilirsən, axı onların bəzisi məşriqdə, bəzisi isə məğribdədir?"

Cənab Əzrayıl(ə) dedi: "Mən onları çağırıram, onlar da mənim çağırışımı qəbul edirlər. Sonra dedi: Dünya mənim qarşımda bir kasaya bənzəyir. Necə ki, siz qarşınızda olan kasadan nə qədər istəsəniz götürə bilirsiniz, mən də eləcə canları götürürəm. Həmçinin dünya mənim əlimdə sizin ovcunuzun içərisində saxlayıb istədiyiniz tərəfə çevirdiyiniz dirhəm kimidir."[2]

Beləcə, görürük ki, Quranın bu ayələrində heç bir ziddiyyət yoxdur. Mələklər insanın canını alaraq Əzrayıla(ə) təhvil verirlər. Allah da Əzrayıldan(ə) bütün canları təhvil alır. Deməli, can alan bütün mələklər Əzrayılın(ə) məmurları, Əzrayıl(ə) da Allahın əmrinə tabedir.

---

[1] Mizanül-hikmə,12-ci cild, səh.5678.

[2] Yenə orada.

Burada sual oluna bilər ki, cənab Əzrayıl(ə) insanların canlarını bir-bir alır, yoxsa bir neçə nəfərin canını eyni zamanda alır? Hədis və rəvayətlərə əsasən demək olar ki, əgər insanlar kütləvi şəkildə ölsələr belə, Əcrayıl(ə) onların canlarını tək-tək alır.

Hənnan ibn Sədir deyir: "Bir gün İmam Sadiqdən(ə) soruşdum: Ey Peyğəmbər(s) övladı, Həzrət Yaqub Peyğəmbər(ə) öz oğlanlarına dedi ki, gedin Yusifi(ə) axtarın. Məgər iyirmi illik ayrılıqdan sonra Yaqub(ə) Yusifin(ə) sağ olduğunu bilirdimi?

İmam(ə) buyurdu: Bəli, bilirdi.

Hənnan soruşdu: Haradan bilirdi?

İmam(ə) buyurdu: Günlərin birində səhər çağı (sübh namazından əvvəl) Həzrət Yaqub(ə) dua edərək Allahdan Əzrayılı(ə) nazil etməsini istədi. Əzrayıl(ə) Allahın əmri ilə nazil olub Həzrət Yaqubun(ə) ondan nə istədiyini soruşdu. Yaqub Peyğəmbər(ə) dedi: Sən canları tək-tək alırsan, yoxsa hamısını birdən?

Əzrayıl(ə) dedi: Mən canları tək-tək alıram.

Yaqub(ə) soruşdu: Aldığın ruhların arasında Yusifin(ə) ruhuna rast gəlmisənmi?

Əzrayıl(ə) dedi: Xeyr.

İmam Sadiq(ə) buyurdu: Həzrət Yaqub(ə) bundan bildi ki, Yusif(ə) sağ- salamatdır."[1]

Deməli, cənab Əzrayıl(ə) Allah-təalanın əmri ilə hər bir insanın ruhunu ayrı-ayrılıqda alır. Bəzi hədislərdə belə nəql olunur ki, Əzrayıl(ə) kimin canını alacağını qabaqcadan bilmir. Hətta qabaqcadan canını alacağı insanın adını da bilmir. Çünki əcəli çatmış kimsənin

[1] Ruhun qəbzi, səh.134.

canını almağı Allah ona əmr verir. Bir nəfər bunu İmam Sadiqdən(ə) soruşdu: "Ey Peyğəmbər(s) övladı, ölüm mələyi kimin canını alacağını əvvəlcədən bilirmi? İmam(ə) buyurdu: Xeyr. Çünki Allahın əmri (filankəsin canını al) gəlməyincə, Əzrayıl(ə) kimin canını nə vaxt alacağını bilmir." [1]

Odur ki, Allahın əmri gəlməyincə cənab Əzrayıl(ə) canını alacağı insanın adını, ölümünün vaxtını və onun nə qədər yaşayacağını bilmir. Çünki ona bəlli deyil ki, hansı insanın ömrü nə qədərdir. Amma hədislərdə deyilir ki, Əzrayıl(ə) bəzən insanları səsləyər və ölüm haqqında onları xəbərdar edər. Hədislərdə belə nəql olunur ki, ölüm mələyi (Əzrayıl) hər gün camaata nəzər yetirir. Kimi günah halında, çalıb- oynayarkən, deyib-gülərkən və yaxud eyş-işrət zamanı görsə belə deyər: "Ey fağır, səni qəflətə salan nədir? Nə bilirsən elə! Sən ölən zaman boynunun damarını qoparacağam!"[2]

Bəzən də cənab Əzrayıl(ə) ölüləri səsləyər və onlarla söhbət edər. Həzrət Peyğəmbər(s) buyurur: "Əzrayıl hər gecə ölənləri səsləyərək belə deyər: Ey qəbir əhli, sizə burada kömək edə biləcək hansı insana qibtə edirsiniz?

Qəbir əhli deyər: Bizim namaz qıla bilmədiyimiz məscidlərdə namaz qılan möminlərə. Bizim zəkat verə bilmədiyimiz zəkat verən möminlərə. Bizim ramazan ayında tuta bilmədiyimiz orucu tutanlara. Öz ailəsinin

---

[1] Yenə orada, səh.137.
[2] Üzürlü məmur, səh.35.

xərcini ödəyən və malının (qazancının) artığından sədəqə verənlərə."[1]

## İnsanın ölüm ayağında gördükləri

Bəhsimizə əlavə olaraq bir neçə mətləbi də əziz möminlərin nəzərinə çatdırmaq istərdim. Həmin mətləblərdən biri belədir ki, insan ölüm ayağına çatdıqda gözünə kimlər və nələr görünür? Ayə və hədislərə əsasən insan son anlarında, yəni ehtizar (ölüm) halında beş mənzərəni görür. O, ölüm ayağında həmin beş şeyin hər birini gördükdə dili bağlanır. Yəni ona gördüklərini danışmağa icazə verilmir. İnsanın ölüm ayağında nələr gördüyünü isə Həzrət Peyğəmbər(s) və Əhli-beyt(ə) bizə xəbər verir. Bəzən də Quran ayələrindən bəlli etmək olur ki, insan ölüm ayağına çatdıqda hansı mənzərələri görür.

[1] Yenə orada, səh.30.

**1. Möhtəzirin Əzrayılı(ə) görməsi**

Hədislərə əsasən ehtizar halında olan, yəni canını tapşıran insan ilk növbədə cənab Əzrayılı(ə) görür. O zaman can verən insanın dili tutulur və heç bir söz danışa bilmir. Bu zaman o, artıq başa düşür ki, ölüm onu haqlamışdır. Əlbəttə, bunu da bilmək lazımdır ki, Əzrayıl(ə) can almağa gəldikdə hamının gözünə eyni surətdə görünmür. Yəni mömin və kafirin canını alarkən fərqli surətlərdə gəlir. Hədislərdə belə nəql olunur ki, Əzrayıl(ə) mömin insanın canını alarkən zəlil qul kimi gəlib onun qarşısında dayanır və çox mehribanlıqla həmin möminin canını alır.

Həzrət İbrahim(ə) Allahın peyğəmbəri olduğu üçün mələklər onun yanına get-gəl edərdilər. Belə rəvayət olunur ki, günlərin birində bir mələk Həzrət İbrahimin(ə) yanına gəldi.

Həzrət İbrahim(ə) ondan soruşdu: Sən hansı mələksən?

O dedi: Əzrayıl.

İbrahim(ə) dedi: İstərdim ki, səni möminlərin canını aldığın simada görüm.

Əzrayıl(ə) dedi: Üzünü yana çevir. İbrahim(ə) üzünü yana çevirdi.

Əzrayıl(ə) dedi: İndi isə mənə bax.

Həzrət İbrahim(ə) ona baxdıqda gördü ki, qarşısında çox gözəl simalı cavan bir oğlan dayanıb. Onun gözəlliyinə baxıb dedi: Əgər mömin insana belə gözəl çöhrəni görməkdən savayı başqa bir əcr verməsələr də bu, həmin mömin üçün kifayət edər.

Sonra Həzrət İbrahim(ə) dedi: İndi isə kafir və facir insanların canını aldığın simanı mənə göstər.

Əzrayıl(ə) dedi: Üzünü yana çevir, sonra mənə bax.

Həzrət İbrahim(ə) üzünü yana çevridi. Sonra dönüb baxdıqda qarşısında qara üzlü, bədənindən pis qoxu gələn və alov saçan bir bədheybətn dayandığını görüb özündən getdi. Özünə gəldikdən sonra dedi: Əgər kafir və fasiq insana bundan savayı başqa bir əzab verməsələr belə səni bu halda görmək ona kifayət edər.”[1]

Deməli, cənab Əzrayıl(ə) insanların canını alarkən müxtəlif qiyafələrdə onların yanına gəlməsi ilə yanaşı, canını aldığı insanlarla rəftarı da fərqlidir. O, kafir və fasiqlərlə bir cür, möminlərlə isə başqa cür rəftar edir.

## Kafirin ölüm halı
## Ölüm mələyinin kafir və zalımlarla rəftarı

Əzrayılın(ə) kafir və zalımların canını alarkən onlarla rəftarı barədə “Ənam” surəsinin 93-cü ayəsində oxuyuruq:

وَلَوْ تَرَى إِذِ الظَّالِمُونَ فِي غَمَرَاتِ الْمَوْتِ وَالْمَلآئِكَةُ بَاسِطُواْ أَيْدِيهِمْ أَخْرِجُواْ أَنفُسَكُمُ الْيَوْمَ تُجْزَوْنَ عَذَابَ الْهُونِ بِمَا كُنتُمْ تَقُولُونَ عَلَى اللّهِ غَيْرَ الْحَقِّ وَكُنتُمْ عَنْ آيَاتِهِ تَسْتَكْبِرُونَ

-Kaş zalımları ölüm burulğanında olduqları zaman görəydin ki, mələklər də əllərini (onlara tərəf) açıblar (və onların üstünə qışqırırlar) ki, canlarınızı bədəndən özünüz çıxarın (ölün!), (yaxud) canlarınızı bizim çəngimizdən qurtarın! Bu gün Allah barəsində haqsız dediklərinizin və Onun ayə və nişanələrinə (onları qəbul etmək və təslim olmaq müqabilində) təkəbbür göstərməyinizin cəzası olaraq alçaldıcı bir əzabla cəzalandırılacaqsınız.

---

[1] Ruhun qəbzi, səh.136.

Bəzi təfsirçilər deyirlər ki, bu ayə Müseyləmə barəsində nazil olmuşdur. Müseyləmə elə bir insan idi ki, peyğəmbərlik iddiasına düşərək İslam Peyğəmbərinə(s) qarşı mübarizə aparırdı. Bəziləri isə deyirlər ki, həmin ayə Abdullah ibn Səd barəsində nazil olub. O, Peyğəmbərin(s) yanında İlahi vəhyləri yazanlardan və səhabələrdən biri idi. Sonralar o, xəyanət etdiyinə görə Həzrət Peyğəmbər(s) onu öz yanlndan uzaqlaşdırdı. Abdullah Həzrət Peyğəmbərdən(s) ayrıldıqdan sonra belə bir iddiaya düşdü: "Mən də Quran ayələri kimi ayələr yazıb düzəldə bilərəm." Allah-təala onun bu sözünün cavabında həmin ayəni nazil etdi.

"Ənfal" surəsinin 50-51-ci ayəsində belə buyurulur:

وَلَوْ تَرَى إِذْ يَتَوَفَّى الَّذِينَ كَفَرُواْ الْمَلآئِكَةُ يَضْرِبُونَ وُجُوهَهُمْ وَأَدْبَارَهُمْ وَذُوقُواْ عَذَابَ الْحَرِيقِ. ذَلِكَ بِمَا قَدَّمَتْ أَيْدِيكُمْ وَأَنَّ اللّهَ لَيْسَ بِظَلاَّمٍ لِّلْعَبِيدِ

-Əgər mələklərin kafirlərin canlarını aldıqları zamanı görsən (belə bir səhnənin şahidi olarsan ki, alovlu qamçı ilə) onların üzlərinə və arxalarına vururlar və "dadın yandırıcı əzabı!" (deyirlər). Bu (əzablar) özünüzün qabaqcadan göndərdiyiniz şeylərin cəzasıdır, yoxsa Allah bəndələrə əsla zülm edən deyildir.

Allah-təala "Muhəmməd" surəsinin 27- 28-ci ayələrində belə buyurur:

فَكَيْفَ إِذَا تَوَفَّتْهُمُ الْمَلَائِكَةُ يَضْرِبُونَ وُجُوهَهُمْ وَأَدْبَارَهُمْ. ذَلِكَ بِأَنَّهُمُ اتَّبَعُوا مَا أَسْخَطَ اللَّهَ وَكَرِهُوا رِضْوَانَهُ فَأَحْبَطَ أَعْمَالَهُمْ

-Belə isə mələklər onların üzlərinə və arxalarına (qamçı) vura-vura canlarını alan zaman (onların halı) necə

olacaq? O (əzab) onların Allahı qəzəbləndirən şeyə tabe olmalarına və Onun razılığını xoşlamadıqlarına görədir. Buna görə də (Allah) onların (xeyir) əməllərini puç və batil etdi.

Hədislərdə bu ayənin şərhində belə qeyd olunmuşdur: Onların üzlərinə ona görə vururlar ki, onlar Allahdan üz çevirib və Allahın düşmənlərinə sarı üz tutdular. Arxalarına ona görə vururlar ki, onlar Allahın ayələrinə arxa çevirmişlər.

قَالَ رَسُولُ اللّهِ(ص): إِن كَانَ لِأَولِيائِنَا مُعادِيا، وَ لِأَعدَائِنَا مُوالِيا، وَ لأضدادِنا بألقابِنا مُلَقّبا، فإذا جاءهُ ملَكُ الموتِ لِنَزعِ رُوحِه مَثّلَ اللّهُ عَزّوجلَّ لذلكَ الفاجِرِ سادَتَهُ الّذينَ اتَّخَذَهُم أربابا مِن دونِ اللّهِ، علَيهِم مِن أنواعِ العَذابِ ما يَكادُ نَظَرُهُ إلَيهِم يُهلِكُهُ، و لا يَزالُ يَصِلُ إلَيهِ مِن حَرِّ عَذابِهِم ما لا طاقَةَ لَهُ بهِ. فيقولُ لَهُ ملَكُ الموتِ: يا أيُّها الفاجِرُ الكافِرُ، تَرَكتَ أولياءَ اللّهِ إلى أعدائهِ؟! فاليَومَ لا يُغْنُونَ عنكَ شيئا، و لا تَجِدُ إلى مَناصٍ سَبيلاً، فيَرِدُ علَيهِ مِن العَذابِ ما لَو قُسِّمَ أدناهُ على أهلِ الدُّنيا لأهلَكَهُم

-Həzrət Peyğəmbər(s) buyurur: “Bizim dostlarımızla düşmən olan, düşmənlərimizlə dostluq edən və bizə qarşı müxalif olanların ləqəblərini özlərinə götürən kəs ölən zaman Əzrayıl onların canını almaq üçün gələr. (O halda) Dünyada Allahdan başqalarını (Allahın düşmənləri) özünə ağa və böyük saydığı, müxtəlif əzablara düçar olunmuş insanları Allah-təala ona göstərər. Onların əzablarının istiliyi ona (həmin can verən kafir və fasiqə) dəydikdə o,

əzaba dözə bilməyəcək. Bu əzab ardıcıl olaraq ona yetişər. Sonra ölüm mələyi ona deyər: Ey fasiq! Allahın dostlarını tərk edib düşmənlərə qoşuldun? Bu gün onların heç biri sənə kömək etmək qüdrətində deyil. Onlar səndən hansı əzabın qarşısını ala bilərlər? İndi sənin heç bir çıxış və canını qurtaracaq yolun yoxdur.

Sonra o halda həmin şəxsə elə bir əzab yetişəcək ki, əgər o əzabın azacıq bir qismini dünyanın bütün sakinləri arasında bölsələr, hamını həlak edər."[1]

Dünyada Allahın dininə və bəndələrinə qarşı bacardıqları pisliyi edən fasiqlərin ölümü belə olacaqdır. Dünyada bu gün görürük ki, həmin fasiq insanlar Allah-təala ilə düşmənçilik məqsədi ilə əllərindən gələni edirlər. Belə ki, hər nə bacarırlarsa, onu da edirlər. Onların hay-küylərinə baxmaq lazım deyil. Sadəcə olaraq onların hay-küyləri vardır. Əgər bir iş görmürlərsə, deməli, əllərindən gəlmir. Əgər dinin əleyhinə bundan artıq əllərindən bir iş gəlsəydi, onu da edərdilər. Yəni onlar fisq, fücur, azğınlıq və pozğunluğu son həddə kimi gətirib çıxartmışlar. Onlar öləndə belə əzabla ölərlər.

Tarix boyu Məmun kimi bir çox facir və fasiq insanlar görünmüşdür ki, onlar bacardıqları pislikləri etmişlər. Əgər hansısa pisliyi etməyiblərsə, deməli, əllərindən gəlmədiyinə görə etməyiblər. Əgər bacarsaydılar, onları da edərdilər.

Məmun bizanslılarla müharibəyə başlamışdı. Döyüşdən qayıdarkən gözəl mənzərəsi olan bir yerdə dayandılar və bir bulağın kənarında öz çadırlarını qurdular. Yeri xalça və palazla döşədilər. Məmun bulağın

---

[1] Mizanül-hikmə,12-ci cild, səh.5676.

axmasına tamaşa edirdi. Birdən gözü suyun içində üzən bir balığa sataşdı. Ətrafındakılara dedi: “Kim o balığı tuta bilsə, mükafat olaraq ona bir qılınc verəcəyəm.” Bir nəfər çox çətinliklə olsa da həmin balığı tuta bildi. Onu Məmuna gətirəndə balıq əlindən sürüşüb suya düşdü. Yenə də çox çətinliklə həmin balığı tutub gətirdi. Məmun göstəriş verdi ki, o balığı bişirib gətirsinlər. Qulluqçular balığı bişirməklə məşğul oldular. Elə bu vaxt birdən-birə Məmunu üşütmə tutdu. Onun üstünə nə qədər yorğan saldılarsa xeyri olmadı. Tonqal qaladılar, amma yenə də Məmun özünə gələ bilmədi. Onun üçün bir neçə həkim gətirdilər. Həkimlər baxıb gördülər ki, Məmunun vəziyyəti çox ağırdır. Məmun həkimlərin ona bir çarə edə bilmədiklərini görəndə başa düşdü ki, axırı çatıb. Odur ki, üzünü göyə tutub dedi: “Ey mülk və səltənəti əbədi olan Allah, mülk və səltənəti puça çıxan bəndənə rəhm et.”

Məmun bu sözü dedikdən sonra ona kəlmeyi-şəhadəti təlqin etmək üçün bir nəfəri çağırdılar. Həmin adam gəlib onun başı üzərində dayandı və dedi: “De: La ilahə illəllah.” Məmunun qulaqları tutulduğundan onu eşitmədi. Həmin adam nə qədər çalışdısa Məmuna bu sözləri təlqin edə bilmədi. Axırda qışqıra-qışqıra yenə də həmin sözləri ona təlqin etmək istədi. Amma Məmun yenə də onu eşitmədiyindən “La ilahə illəllah” demədi. Orada dayanmış həkimlərdən birinin adı İbn Masveyh idi. O, işin bu yerdə olduğunu görüb sözləri təlqin etmək istəyənin əlindən təngə gələrək əsəbiləşdi və dedi: “Nə üçün qışqırırsan? Bu bir ömür belə sözlər eşitməyib. Qulaqlarının kar olduğu və axır dəqiqələrində sən Allahın təkliyini ona başa sala biləcəksən? Məmun bu dəqiqə elə

bir haldadır ki, onun üçün Allahla Maninin[1] heç bir fərqi yoxdur."

Elə bu zaman Məmun gözlərini açıb İbn Masveyhi vurmaq istədi, amma bacarmadı. Onu söymək istədi, amma dili tutuldu. Elə o haldaca canını tapşırdı.[2]

İnsan bir ömür bu dünyada gəzib-dolaşır və istədiyini edir. Ona ölüm, qiyamət haqqında danışdıqda bütün bunları boş və əbəs bir şey sanır. Amma ölüm ayağına düşdükdə gözləri açılır və ona deyilən sözlərin həqiqət olduğunu görür. O halda peşman olmağın isə ona heç bir faydası yoxdur.

Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) belə buyurdu: "Ya Əli, ölüm mələyi kafir insanın canını cəhənnəm alovundan olan şişlərlə alar."

Həzrət Əli(ə) buyurur: "Soruşdum: Ya Rəsulallah, sənin ümmətindən olan insanlardan beləlari varmı?"

Peyğəmbər(s) buyurdu: "Əzrayıl mənim ümmətimdən üç qisim insanların canını elə alacaq. Zalım hakimlərin, yetim malını yeyənlərin və yalançı şahidlik edənlərin."

Sonra Həzrət(s) belə buyurur: "İt qabı yaladığı kimi, yalançı şahidlər də cəhənnəm odunu dili ilə elə yalayacaqlar."

## Hər kəs öz əməlindən asılıdır

[1] Mani o dövrün məşhur rəssamlarından biri idi. Bəhram hakimiyyətə gəldikdə onu tutub dərisini soydu.
[2] Murucuz-zəhəb,1-ci cild, səh.276.

İnsan elə başa düşməməlidir ki, bu dünyada nə istəsə, onu da edə bilər. Bu dünyanın hesab-kitabı var. Allah-təala bu dünyanı onə görə yaratmayıb ki, hər gələn öz bildiyini etsin. Hər kəs bilməlidir ki, etdiyi əməllərinə görə mütləq cavab verəcək. Həmçinin hər bir insan etdiyi əməllərin girovundadır. Necə ki, Allah-təala "Muddəssir" surəsinin 38-ci ayəsində buyurur:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ

-Hər kəs öz əməlinin girovundadır.

Hər kəs Əzrayılı(ə) yaxşı simada görmək istəyirsə, hər kəs Əzrayılın(ə) onunla yaxşı rəftar etməsini istəyirsə, həmçinin hər nə istəyirsə əməllərinə diqqət yetirməlidir. Çünki Əzrayılın(ə) insanla rəftarının necə olması da onun öz əməllərindən asılıdır. Ölüm zamanı insanın dünyasını necə dəyişməsini onun öz əməlləri müəyyən edir.

Belə rəvayət olunur ki, Bəni-İsraildə təkəbbürlü, var-dövlətli zalım bir şəxs yaşayırdı. Günlərin birində o, öz həyat yoldaşı ilə evdə əyləşmişdi. Birdən heybətli bir nəfər içəri daxil oldu. Kişi onu gördükdə hirslənib soruşdu: "Sən kimsən və evə girməyə kim sənə icazə verib?" Həmin şəxs dedi: "Mən elə bir kəsəm ki, kiminsə icazəsinə ehtiyacım yoxdur. Şahların belə heybət və zəhmindən qorxmuram." Kişi dedi: "Sən Əzrayılsanmı?" Həmin şəxs dedi: "Düz tapdın." Kişi dedi: "Özüm haqda düşünməyə mənə möhlət ver." Əzrayıl(ə) dedi: "Ömrünün müddəti və nəfəslərinin sayı bitmişdir. Sənə heç bir möhlət və çıxış yolu yoxdur." Kişi soruşdu: "Məni hara aparacaqsan?" Əzrayıl(ə) dedi: "Öz əməllərinin yanına." Kişi dedi: "Axı mənim yaxşı əməlim olmayıb." Əzrayıl(ə) dedi: "Səni elə bir yerə aparacağam ki, onun adına

cəhənnəm deyilir. Orada sənin başının dərisini soyacaqlar.”[1]

[1] Üzürlü məmur, səh. 39.

## Möminin ölüm halı
## Ölüm mələyinin möminlərlə rəftarı

İnsan ömrünün son anlarında can verərkən mütləq Əzrayılı(ə) görəcəkdir. Qeyd olundu ki, Əzrayıl(ə) can alarkən bütün insanların gözünə eyni şəkildə görünmür. Həmçinin onun insanlara qarşı rəhftarı da fərqli-fərqli olur. Əzrayılın(ə) kafir və fasiq insanların canını alarkən onlarla necə rəftar etdiyi barədə azacıq da olsa söhbət etdik. Burada yaxşı olardı ki, Əzrayılın(ə) mömin və təqvalı insanlarla necə rəftar etdiyi haqda da söz açaq.

Mömin insan dünyasını dəyişərkən ölüm mələkləri onunla mehriban rəftar edir, onu salamlayır və cənnətlə müjdələyir. Allah-təala "Nəhl" surəsinin 32-ci ayəsində belə buyurur:

الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلامٌ عَلَيْكُمُ ادْخُلُواْ الْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ

-O kəslər ki, mələklər onların canlarını pak olan halda alarkən (onlara) "salam olsun sizə, etdiklərinizin mükafatı olaraq cənnətə  daxil olun" deyərlər.

Bu ayə təqvalı insanlar barəsində nazil olmuşdur. Mələklər təqvalı insanın canını alarkən ona salam verər və cənnətlə müjdələyərlər. Sonra bildirərlər ki, bu müjdə sənin etdiyin əməllərin mükafatı və nəticəsidir. Yəni bu ayədə təqvalı insanın can verərkən üç mühüm məsələ ilə qarşılaşdığı bəyan olunur. Birincisi, o, pak halda dünyadan gedir, ikincisi, onun üçün salamatlıq və əmin-amanlıq olacaq, üçüncüsü, cənnətə aparılacaq."

Mərhum Əllamə Təbatəbayi deyir: "Bu, həmin sözdür ki, Allah-təala "Ənam" surəsinin 82-ci ayəsində buyurmuşdur:

ٱلَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ أُوْلَئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ

-İman gətirib imanlarını zülmə qarışdırmayanlar üçün əmin-amanlıq vardır və onlar hidayət olunmuşlar.

Öncəki ayədə təqvalı insanın can verərkən qarşılaşdığı hallara, bu ayədə isə onların həyatdakı əməllərinə işarədir. Bu ayə bildirir ki, təqvalı və mömin insanlar həyatda ikən Allaha iman gətirmiş, imanlarına heç bir zülm və natəmizlik qarışdırmamışlar. Onlar hidayət olunmuş insanlardır. Deməli, belə olduqda ölüm zamanı pak halda dünyadan gedər, mələklər onu salamlayar (əmin-amanlıqda olduğunu bildirər) və cənnətlə müjdələyərlər.

Hədislərdə belə nəql olunur ki, İslam Peyğəmbəri(s) möminlərin ölüm anlarını iki dəfə dua etmişdir. Həmin dualardan biri merac gecəsi cənab Əzrayılla(ə) görüşüb söhbət edərkən etdiyi duadır. İkincisi isə Həzrətin(s) özünün ölüm ayağında olarkən etdiyi dua olmuşdur. Həzrət Peyğəmbər(s) son anlarında olarkən cənab Əzrayıl(ə) nazil olub qapının arxasında dayandı. İçəri daxil olmaq üçün Peyğəmbərdən(s) izn istədi. Peyğəmbər(s) bir neçə an ona içəri daxil olmağa icazə vermədi. Həzrət(s) özü ölüm halını yaşadığını və həyəcanlandığını hiss etdiyi üçün bu fürsətdən istifadə edərək belə dua etdi: "İlahi, ölümü mənim ümmətimin möminlərinə asan elə." Bu duanı etdikdən sonra Həzrət(s) Əzrayıla(ə) içəri daxil olmaq üçün icazə verdi.

Ümumiyyətlə, ölüm hər bir insanın başına bir dəfə gəldiyi üçün çox həyəcan və nigarançılıq keçirir. Mömin insan dünyasını dəyişərkən gözlərindən pərdələr götürülür. Belə olduqda bir sıra mələyin sağ tərəfində, digər sıranın isə sol tərəfində dayandığını görür. Onlar dayanıb Allahın

əmrini gözləyərlər. Can verən mömin bu halı gördükdə çox həyəcanlanar və birdən-birə Allahı səsləyib deyər: "Ey çarəsizlərin çağırışını eşidən Allah!" Elə bu halda Əzrayıl(ə) Allahın əmri ilə nazil olub ona təsəlli verir. Allah-təala Əzrayıla(ə) əmr verir ki, bu bəndəmin gözünə gözəl və nurani şəkildə görün və onunla xoş rəftar et. Onun canını elə rahat al ki, əziyyət çəkməsin.

قال رسولُ اللّهِ صلى الله عليه و آله . و قد نَظَرَ إلى مَلَكِ الموتِ عندَ رأسِ رجُلٍ من الأنصارِ . : يا مَلَكَ الموتِ، ارفُقْ بصاحِبي فإنّهُ مؤمنٌ، فقالَ ملَكُ الموتِ: طِبْ نَفسا و قُرَّ عَينا، و اعلَمْ أنّي بكلِّ مؤمنٍ رَفيقٌ، و اعلَمْ يا محمّدُ أنّي لَأقبِضُ رُوحَ ابنِ آدمَ فإذا صَرَخَ صارِخٌ مِن أهلِهِ قُمتُ في الدّارِ و مَعي رُوحُهُ فقلتُ: ما هذا الصّارِخُ؟! و اللّهِ ما ظَلَمناهُ، و لا سَبَقنا أجَلَهُ، و لا استَعجَلنا قَدرَهُ، و ما لَنا في قَبضِهِ مِن ذَنبٍ، و إن تَرضَوا بما صَنَعَ اللّهُ تُؤجَروا، و إن تَحزَنوا و تَسخَطوا تأثَموا و تُؤزَروا

-Peyğəmbərin(s) səhabələrindən biri ölüm yatağına düşmüşdü. Həzrət Peyğəmbər(s) ona baş çəkməyə getdi. Cənab Əzrayılın(ə) onun başı üzərində dayandığını gördü. Peyğəmbər(s) Əzrayıla(ə) buyurdu: Ey ölüm mələyi, bu, mənim səhabəm və mömin bir insandır. Onunla mehriban ol. Əzrayıl(ə) dedi: Ya Rəsulallah, xatircəm ol və qəm yemə. Mən bütün möminlərlə dost və mehribanam. Ya Rəsulallah, Adəm övladından hər birinin canını aldıqda dayanıb onun ailəsinə və qohum-əqrəbasına baxırıq. Onların ağlayaraq fəryad qopardıqlarını gördükdə belə

deyərik: Bu nə hay-küy, bu nə fəryaddır? And olsun Allaha ki, biz onun canını alanda ona zülm etmədik və əcəli çatmamışdan qabaq onun canını almadıq. Onun canını almaqda bizim heç bir günahımız yoxdur. Allahın əmrilə razılaşın ki, əcr və mükafatınız çoxalsın. Yox, əgər Allahın təqdirinə razı qalmasanız (qəmlənib etiraz etsəniz) günahkar olarsınız.[1]

Hədislərdə belə nəql olunmuşdur ki, Əzrayıl(ə) mömin insanın canını alarkən ona qarşı hətta atasından daha mehriban olar.

الإمامُ الصّادقُ (عَلَيهِ الّسَلامُ) ـ لما سُئلَ: هل يكرَهُ المؤمنُ على قَبضِ رُوحِهِ ؟ ـ: لا واللّه، إنّهُ إذا أتاهُ ملَكُ الموتِ لقَبضِ رُوحهِ جَزِعَ عِندَ ذلكَ، فيَقولُ لَهُ ملَكُ الموتِ: يا وَليَّ اللّه لا تَجزَعْ، فوالّذي بَعَثَ محمّداً (صَلَّيَ اللهُ عَلَيهِ وَ آلِهِ) لَأنا أبَرُّ بِكَ وأشفَقُ علَيكَ من والِدٍ رَحيمٍ لو حَضرَكَ، افتَحْ عَينَكَ فانظُرْ. قالَ: ويُمَثَّلُ لَهُ رسولُ اللّه (صَلَّيَ اللهُ عَلَيهِ وَ آلِهِ) وأميرُ المؤمنينَ وفاطمةُ والحسنُ والحسينُ والأئمةُ من ذُرِّيتِهِم (عَلَيهِمُ الّسَلامُ) فيقالُ لَهُ: هذا رسولُ اللّه و ... رُفَقاؤكَ ... فما شيءٌ أحَبَّ إلَيهِ مِنِ استِلالِ رُوحِهِ واللُّحوقِ بالمنادي.

-İmam Sadiqdən(ə) soruşdular: “Mömin insanın ölümdən acığı gələrmi? Həzrət(ə) buyurdu: And olsun Allaha ki, xeyr. Ölüm mələyi onun (möminin) canını

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19136.

almağa gəldikdə, o, əl-ayaq ataraq təlaşlanar. Ölüm mələyi (Əzrayıl) ona deyər: Ey Allahın dostu, təlaşlanma. And olsun Məhəmmədi(s) peyğəmbərliyə məbus edənə ki, mən övladına qarşı mehriban olan atadan daha çox sənə mehriban və rəhimli olacağam. Heç narahat olma, gözlərini aç və ətrafına bax. Gözlərini açdıqda Peyğəmbəri(s), Əmirəlmöminin Əlini(ə), Fatiməni(s.ə), Həsəni(ə), Hüseyni(ə) və onların zürriyyətlərindən olan imamları başının üzərində görər. Onu on dörd məsumla bir-bir tanış edib deyərlər: Bunlar sənin dostlarındır. (Canını tapşıran mömin) on dörd məsumla tanış olduqda canını tez tapşırmaq və onlara qoşulmaq istəyər."[1]

"Mühəccətül-beyza"da belə rəvayət olunur ki, cənab Əzrayıl(ə) insan surətində bir saleh insanın canını almağa gəlir. Salamlaşdıqdan sonra ona deyir: "İcazə verirsənmi sənin qulağına bir söz deyim? Həmin insan ona icazə verdikdən sonra Əzrayıl(ə) onun qulağına deyir: Mən Əzrayılam və sənin canını almağa gəlmişəm. Həmin saleh bəndə bu sözləri eşidən kimi sevinib dedi: Çox xoş gəlmisən. Mən neçə vaxtdır ki, sənin intizarındayam. Əzrayıl(ə) dedi: Nə istək və arzun varsa söylə. O dedi: Mənim Allahın görüşünə getməkdən başqa heç bir arzu və istəyim yoxdur. Əzrayıl(ə) dedi: Hansı halda canını almağımı istəyirsən? O dedi: Buna icazəm varmı? Əzrayıl(ə) dedi: Bəli, Allah-təala sənin kimi bəndələrinə bu möhləti vermişdir. O dedi: İstəyirəm ki, mənim canımı Allaha səcdə edən halda alasan. Əzrayıl(ə) ona möhlət verdi. O, ayağa qalxıb dəstəmaz aldı və namaz qılmağa başladı. Əzrayıl(ə) onun canını səcdə halında aldı."

[1] Biharül-ənvar,6-cı cild, səh.163. Mizanül-hikmə, 12-ci cild, səh.5700.

Ölüm mələyi Allahın əmri ilə mömin insanın gözünə nurani şəkildə görünər və onunla mehriban rəftar edər. Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, möminlər də dərəcələrinə görə fərqlənirlər. Bütün möminlər bərabər dərəcədə deyil. Hər kəs öz əməlindən asılı olduğu üçün Əzrayılın(ə) rəftarı da həmin əməllərə uyğun fərqlənir. Hədislərdə belə nəql olunmuşdur ki, Əzrayıl(ə) mömininin qarşısında hətta zəlil qullar kimi dayanar. Hədis belədir:

قَالَ رَسُولُ اللّهِ(ص) إنّ مَلَكَ المَوتِ لَيَقِفُ مِن المؤمنِ عِندَ مَوتِهِ مَوقِفَ العَبدِ الذَّليلِ مِن المولى، فَيَقومُ و أصحابَهُ لا يَدنُو(نَ) مِنهُ حتّى يَبدأَهُ بالتَّسليمِ و يُبشِّرَهُ بالجَنّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin insan canını tapşırarkən ölüm mələyi onun qarşısında ağasının qarşısında dayanmış zəlil qul kimi dayanar. Ona salam verər və cənnətlə müjdələyər."[1]

Beləliklə görürük ki, mömin insanlar dünyasını dəyişərkən cənab Əzrayıl(ə) onlara qarşı mehriban olar, onların gözünə nurani və gözəl şəkildə görünər. Müxtəlif kitablarda bu qəbil hədislərə çox rast gəlmək mümkündür. Burada xatırlatmaq üçün bir neçə mətləbi də möminlərin diqqətinə yetirmək yerinə düşər. Bəzən bir insan canını tapşırarkən görürük ki, çox çətin vəziyyətdir. Bəzən şahidi oluruq ki, bir anın içində gözlərini yumub dünyadan köçür. Bəzən də görürük ki, günlərlə yataq xəstəsi olub yemək yemir, danışmır, eşitmir, yerində çapalayır və dünyasını dəyişir. Bütün bu kimi hallarda bizə icazə verilmir ki, kimin rahat can verib-verməməsi, yaxud ölən insanın cənnətə, yaxud cəhənnəmə

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19116.

getməsi barədə bir hökm verək. Yəni kiminsə birinin tez canını tapşırmasını, yaxud çətin can verməsini əlində əsas tutaraq onun cənnətə və ya cəhənnəmə getməsi barədə hökm verə bilməz. İnsanın canvermə anına düşməsi, yaxud çətin və asan can vermək məsələsi pərdənin arxa tərəfinə aid olan bir məsələdir. Ola bilsin ki, bir insan həyatda pis adam olmuş olsun. Amma əcəli çatdıqda rahatlıqla dünyadan köçür. Bəzən də yaxşı bir insanın çətinliklə canını tapşırmasını görürük. Hər bir halda bütün bunlar bizə əsas vermir ki, o insanın cənnətlik, yoxsa cəhənnəmlik olduğu barədə bir fikir söyləyək. İnsanın canvermə ayağında olarkən çapalayıb əl-ayağını atması onun ölümünün çətinliyinə, yaxud başqa birisinin gözünü yumub ölməsi onun ölümünün asanlığına dəlalət etmir. Həmçinin kiminsə dünyasını dəyişdikdən sonra onun cənnətə və ya cəhənnəmə getməsi barədə hökm çıxarmağa heç kimə icazə verilmir. Çünki bu məsələ Allahın Özünə aid olan bir işdir. Allah-təala bizə bu işə qarışmağa icazə verməmişdir. Amma Peyğəmbər (s) və məsum imamlarımız Allahın izni ilə bunu söyləyə bilirlər. Məsləhət olan yerdə bizə xəbər vermiş, məsləhət olmayan yerdə isə söyləməmişlər. Hədislərdə mömin bir insanın ağır, yaxud kafir bir insanın asan can verməsi barədə bir izah verilmişdir. Bəzən Allah kafir və fasiq insanın canını rahat alır ki, dünyada etdiyi yaxşılıqlarının əvəzi olsun. Bəzən də möminin canını elə ağır şəkildə alır ki, dünyada etdiyi xırda günahlardan təmizlənsin və (həmin günahların) hesab-kitabı o biri dünyaya qalmasın. Həmin hədislərdən biri belədir:

قَالَ الإِمامُ الكاظمُ(ع): المِوتُ هُو المِصْفاةُ يُصَفّي المؤمنينَ مِن ذُنوبِهِم فيكونُ آخِرُ أَلَمٍ يُصيبُهُم كَفّارَةَ آخِرِ وِزرٍ بَقِيَ علَيهِم، و يُصَفّي الكافِرينَ مِن حَسَناتِهِم فيكونُ آخِرَ لَذّةٍ أو راحَةٍ تَلحَقُهُم

-İmam Museyi Kazim(ə) buyurur: "Ölüm möminləri günahlarından təmizləyən bir saflaşdırıcıdır. Vücudunda olan son günahın kəffarəsi kimi ona çatır. Kafirləri də yaxşılıqlarından təmizləyir və (dünyada etdiyi) yaxşılığın son mükafatı kimi ona verilən son rahatlıq və asayişdir."[1]

### Həzrət Əzrayıla(ə) salam və salavat göndərmək

Yuxarıda qeyd olundu ki, ölüm ayağına düşən insanın gözünə görünən kəslərdən birincisi ölüm mələyi cənab Əzrayıldır. Həmçinin qeyd olundu ki, Əzrayıl(ə) insanların əməllərindən asılı olaraq hər kəsin gözünə müxtəlif surətlərdə görünür. Müstəhəb və gözəl əməllərdən biri budur ki, insan öz ölümünü yada salaraq bəzi duaları oxusun və Əzrayıla(ə) salam və salavat göndərsin. Kitablarda Əzrayılın(ə) insanlara qarşı mehriban olması üçün belə bir dua qeyd olunmuşdur.

اَللَّهُمَّ إِذَا صُرنَا إِلَى مَا صَارُوا إِلَيهِ، فَأمُر مَلكَ الْمَوت أَن يَكُونَ بِنَا رَؤُوفاً رَحِيماً

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19110.

-İlahi, bizim gedəcəyimiz yerə getdiyimiz zaman (ölən zaman) ölüm mələyinə əmr et ki, bizə qarşı mehriban və mərhəmətli olsun.[1]

Bu duadan əlavə müstəhəbdir ki, ehtiram əlaməti olaraq insan hərdənbir Əzrayılın(ə) özünə də salam və salavat göndərsin. Əlbəttə, bu salavatın da bir neçə qaydası vardır ki, qısası belədir:

اَللّهمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّد، وَصَلِّ عَلَى مَلكِ الْمَوتِ وَأَعوَانِه

-Ey mənim Allahım, Məhəmməd və onun Əhli-beytinə salam və rəhmətini göndər. Ey mənim Allahım, ölüm mələyinə və onun yardımçılarına salam və rəhmətini göndər.

## İnsanın ölüm ayağında gördükləri

### 2. Can verən insanın qoruqçu mələkləri görməsi

Ötən bəhslərdə qeyd olundu ki, insan ölüm ayağına düşdükdə beş mənzərəni görür. Həmin mənzərələrdən biri ölüm mələyi olan cənab Əzrayıldır. Yəni insan can verən zaman ilk növbədə Əzrayılı(ə) başı üzərində görür və başa düşür ki, onun əcəli artıq çatmışdır. Belə olduqda həmin insanın dili bağlanır və ona danışmaq icazəsi verilmir. Ölüm ayağında olarkən insanın gördüyü ikinci mənzərə qoruqçu mələklərdir. Onlar həmin mələklərdir ki, biz onları Ətit və Rəqib ləqəbləri ilə tanıyırıq. Allah-təala həmin mələklərə tapşırmışdır ki, həmişə insanın yanında olsunlar və onu nəzarətdə saxlasınlar. Onlar həmişə insanın yanında olarlar. Çox nadir hallarda insandan ayrı

[1] Üzürlü məmur, səh. 106.

qalarlar. Ayə və hədislərdən belə başa düşdük ki, Allah-təala iki qrup mələyi insan üçün təyin etmişdir. Onların bir qrupu insanı müxtəlif hadisələrdən qoruyur, bir qrupu isə insanın bütün hərəkətlərini yazaraq çəkiliş aparırlar. Quranda "Rəd" surəsinin 11-ci ayəsində bu mələklər haqqında belə oxuyuruq:

لَهُ مُعَقِّبَاتٌ مِّن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ يَحْفَظُونَهُ مِنْ أَمْرِ اللَّهِ

-İnsan üçün onun önündə və arxasında (mələklərdən olan) nəzarətçilər (təqibçilər) vardır ki, Allahın əmri ilə daim onu qoruyurlar.

قَالَ عَلِيٌّ(ع): إِنَّ مَعَ كُلِّ إِنْسَانٍ مَلَكَيْنِ يَحْفَظَانِهِ، فَإِذَا جَاءَ الْقَدَرُ خَلَّيَا بَيْنَهُ وَبَيْنَهُ

-İmam Əli əleyhissalam bu ayənin şərhində belə buyurmuşdur: "Hər bir kəsin yanında onu qoruyan iki mələk var. (İlahi) təqdir gələndə *(onun əcəli çatanda)* həmin iki mələk onunla təqdirin arasını boşaldır. Əcəl *(ölüm müqabilində)* möhkəm qalxandır. *(Buna görə də ömür sona çatmayınca şəxs ölmür.)"*[1]

Bu mələklər insanı müxtəlif hadisələrdən qoruyurlar. Məsələn, təzəcə ayaq açmış uşaq yıxılmasın, əlini oda vurmasın, quyuya düşməsin deyə anası həmişə onu nəzarətdə saxlayır və onun ardınca düşür. Amma uşağın xəbəri yoxdur ki, onu qoruyanlar var. Ana onu qoruyur, amma onun bundan xəbəri yoxdur. Uşaq ayaq açıb gəzdiyinə görə sevinir, amma başa düşmür ki, bütün ailə əl-ələ verib onu nəzarətdə saxlayırlar. Əsas məsələ isə budur ki, onun üçün bir təhlükə yaranmasın. Eləcə də

[1] Nəhcül-bəlağə, 196-cı hikmət.

bütün insanları xəbərləri olmadan qoruyan mələklər vardır. Biz pərdəarxasındakıları görmədiyimiz üçün elə başa düşürük ki, bütün müqəddəratımız öz əlimizdədir. İnsan bilmir ki, həmin pərdənin arxasında onun üçün hesab açıblar. Hər bir insan üçün gecə və gündüz qoruqçu mələklər vardır. Gecə mələkləri gəlir və gündüzün mələkləri işləri onlara təhvil verib gedirlər. Onlar insanları təhlükələrdən qoruyur, onların əməllərini yazır, nəzarət edir və çəkilişlər aparırlar. Amma bizim bütün bunlardan xəbərimiz olmur. İnsanın təqdirinə yazılmış zaman, yəni əcəli çatdıqda bu mələklər kənara çəkilirlər.

قَالَ البَاقِرُ(ع): ...هُمَا مَلَكَانِ يَحفَظانِهِ باللَّيلِ، و مَلَكانِ يَحفَظانِهِ بالنَّهارِ يَتَعاقَبانِ

-İmam Baqir(ə) buyurur: "Onlar (qoruqçu mələklər) iki gecə mələyi və iki gündüz mələyindən ibarətdir ki, növbə ilə bir-birini dəyişib insanları qoruyurlar."[1]

Neçə illər bundan əvvəl bir nəfər danışır ki, Qum şəhərində Xanım Məsumənin(s.ə) hərəmində əyləşmişdim. Sübh azanının vaxtını gözləyirdim ki, namazımı qılım. Amma namaz vaxtının olub-olmadığını bilmirdim. Böyük və görkəmli alimlərdən biri də hərəmdə əyləşmişdi. Öz-özümə dedim ki, gedib ağadan namaz vaxtının olub-olmadığını soruşaram. Ayağa qalxıb onun yanına getdim. Salam ərz etdikdən sonra soruşdum: "Ağa, sübh namazının vaxtı olubmu? O, belə buyurdu: Məgər gecə mələklərinin getdiyini və gündüzün mələklərinin gəldiyini görmədinizmi? Əlbəttə ki, namazın vaxtı gəlib."

[1] Mələklər, səh.269.

Hər kim sübh namazını düz vaxtında qıla bilsə, həmin namazı həm gecənin, həm də gündüzün mələkləri yazarlar. Belə olduqda gecə mələklərinin axırıncı yazısı və gündüz mələklərinin birinci yazısı insanın vaxtında qıldığı sübh namazı olur.

Burada bir mətləbi də nəzərə çatdıraq ki, həmin mələklər insan dünyaya gəldiyi gündən dünyadan gedənə qədər insanın yanındadırlar. Amma insanın əməllərini yazan və çəkiliş aparan mələklər isə insan həddi-büluğa çatdıqdan sonra işə başlayırlar. İnsan həddi-büluğa çatana qədər onun heç bir əməlini yazmırlar. Çünki insan həddi-büluğa çatmayınca onun boynuna heç bir şəri vəzifə düşmür. Həddi- büluğa çatan kimi ilahi təkliflər onun boynuna düşür və Allahın xitabında qərar tutur. Elə həmin andan əməlləri yazan mələklər ona qoşulur. “İnfitar” surəsinin 10-12-ci ayələrində oxuyuruq:

وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ. يَعْلَمُونَ مَا تَفْعَلُونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi bilirlər.[1]

“Qaf” surəsinin 17-18-ci ayələrində Allah-təala bu mələklər barədə bizə belə xəbər verir:

إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ. مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

-(Yada sal) o zaman(ı) ki, (insanın düşüncə və əməllərini) qəbul edən o ikisi (o iki mələk) onun sağında və solunda oturub qəbul edirlər. Dilinə elə bir söz

---

[1] İnfitar surəsi, ayə 10-12.

gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

Nə üçün bu mələklərə möhtərəm yazanlar deyilmişdir? Onlar nə iş görürlər ki, onların hörmətli olduğu xüsusi qeyd olunmuşdur? Cavab belədir ki, iki səbəbə görə bu mələklərin adları xüsusi hörmətlə çəkilir. Səbəblərdən biri budur ki, onlar insanın əməllərini yazıb (gecə və gündüzün mələkləri) yerlərini əvəz etdikdən sonra ərşə qalxırlar. Allah-təala onlardan soruşur: "Mənim bəndəmin halı necədir?" Mələklər həmin bəndənin günahlarını dillərinə gətirməyib deyərlər: "İlahi, Sən Özün bəndənin halını bizdən də yaxşı bilirsən. İzn ver, biz onların barəsində pərdəni götürməyək. Sən özün eyibləri gizlədənsən və bəndələrinə də buyurmusan ki, heç bir kəsin barəsində pərdəni açmayın. Biz də Sənin əmrinə uyğun olaraq onun əməllərini yazıb pərdə altında saxlamışıq."

Həmin mələklərə bax bu xasiyyətlərinə görə möhtərəm deyilir. Onların adlarının xüsusi hörmətlə çəkilməsinin səbəblərindən biri də odur ki, onlar insanın yaxşı əməllərini dərhal yazar, pis əməllərini isə yazmayıb müəyyən vaxta qədər gözləyərlər.  Bəlkə tövbə edib etdiyi günahı bağışlatsın. Hədislərdə belə nəql olunur ki, sağ tərəfdə əyləşən mələk yaxşı işləri, sol tərəfdə əyləşən mələklər isə pis əməlləri yazırlar. İnsandan bir xəta və günah iş baş verdikdə sağda əyləşən mələk soldakına deyir: "Onun bu günahını yazma, bəlkə tövbə etdi." Beləcə, yeddi saat keçir, amma həmin adam tövbə etmir. Belə olduqda sağda əyləşən mələk soldakına deyir: "Bunun günahını yaz. Allah bizi bunun əlindən rahat eləsin. Bizim nə pis yoldaşımız var."

Hədislərdə belə nəql olunur ki, günlərin birində Həzrət Əli(ə) bir cavan oğlanın boş-boş sözlər danışdığını görüb ona belə buyurdu: "Sən danışdıqca iki mələk sözlərini yazır. Buna görə də lazımsız və haram sözləri dilinə gətirmə."

Həmin mələklər barəsində bir mətləbə də diqqət yetirək. Sual oluna bilər ki, əgər Allah insanın bütün əməllərinə nəzarətçidirsə və hər bir şeydən xəbərdardırsa, bəs bu mələklərə nə ehtiyac vardır?

Bu mələklər insanın bütün əməllərini, hətta aldıqları nəfəslərinin sayını da yazırlar. Əbdül Əla adlı tanınmış bir mömin deyir: "Günlərin birində İmam Sadiqin(ə) hüzurunda idim. İmam(ə) mənə buyurdu: Allah-təala "Məryəm" surəsinin 84-cü ayəsində belə buyurur: "Həqiqətən, Biz onların barəsində diqqətlə sayırıq."

Sənin fikrincə, insanların barəsində nəyi sayırlar? Dedim: Yəqin ki, bizim yaşadığımız günləri sayırlar. İmam(ə) buyurdu: Ata və analar da övladının günlərini saya bilirlər. Dedim: Ey Allahın höccəti, bəs bunun mənası nədir? İmam(ə) buyurdu: İnsanın aldığı nəfəslərin sayını belə sayırlar."[1]

Bu mələklər insanın bütün ömrü boyu aldığı nəfəslərinin sayını belə yazırlar. Hətta insanın aldığı hansı nəfəsində xeyir və şər məqsəd güddüyünü də dəqiqliklə qeydə alırlar. Qiyamət günü insanın məhkəməsi də onların yazdıqları kitab əsasında qurulacaqdır. Bu elə bir məhkəmədir ki, insanın ağlına gəlməyən şahidlər onun üçün şahidlik edəcəklər. Məsələn, "Nur" surəsinin 24-cü ayəsində bu barədə belə oxuyuruq:

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis19021.

يَوْمَ تَشْهَدُ عَلَيْهِمْ أَلْسِنَتُهُمْ وَأَيْدِيهِمْ وَأَرْجُلُهُم بِمَا كَانُوا يَعْمَلُونَ

-O gün ki, dilləri, əlləri və ayaqları onların ziyanına (dünyada) etdiklərinə şəhadət verəcəklər.

"Yasin" surəsinin 65-ci ayəsində belə buyurulur:

الْيَوْمَ نَخْتِمُ عَلَى أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

-Bu gün onların ağızlarını möhürləyərik. Onların əlləri Bizimlə danışar, ayaqları isə etdikləri əməllər barədə şəhadət verərlər.

"Fussilət" surəsinin 19-23-cü ayələrində belə oxuyuruq:

وَيَوْمَ يُحْشَرُ أَعْدَاء اللَّهِ إِلَى النَّارِ فَهُمْ يُوزَعُونَ. حَتَّى إِذَا مَا جَاؤُوهَا شَهِدَ عَلَيْهِمْ سَمْعُهُمْ وَأَبْصَارُهُمْ وَجُلُودُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ. وَقَالُوا لِجُلُودِهِمْ لِمَ شَهِدتُّمْ عَلَيْنَا قَالُوا أَنطَقَنَا اللَّهُ الَّذِي أَنطَقَ كُلَّ شَيْءٍ وَهُوَ خَلَقَكُمْ أَوَّلَ مَرَّةٍ وَإِلَيْهِ تُرْجَعُونَ. وَمَا كُنتُمْ تَسْتَتِرُونَ أَنْ يَشْهَدَ عَلَيْكُمْ سَمْعُكُمْ وَلَا أَبْصَارُكُمْ وَلَا جُلُودُكُمْ وَلَكِن ظَنَنتُمْ أَنَّ اللَّهَ لَا يَعْلَمُ كَثِيرًا مِّمَّا تَعْمَلُونَ. وَذَلِكُمْ ظَنُّكُمُ الَّذِي ظَنَنتُم بِرَبِّكُمْ أَرْدَاكُمْ فَأَصْبَحْتُم مِّنْ الْخَاسِرِينَ

-Və (yada sal) o gün(ü) ki, Allahın düşmənlərini (qəbirlərdən və müxtəlif yerlərdən) oda tərəf toplayacaqlar. Beləliklə, onların birincisindən sonuncusunadək (hamısı bir yerə) toplanılacaqlar. Nəhayət, onların hamısı oda çatanda ətləri, gözləri və bədənlərinin dəriləri onlara qarşı, (dünyada) etdiklərinə (dünyada görüb şahid olduqlarına) şəhadət verərlər. Onlar öz dərilərinə deyərlər:

“Nə üçün bizim əleyhimizə şəhadət verdiniz?” (Dəriləri) deyər: “Bizi hər şeyi (bütün danışanları) dilə gətirən Allah danışdırdı. Sizin hamınızı ilk dəfə O yaradıb və indi (də) Ona tərəf qaytarılırsınız. Siz (dünyada günah edən zaman) qulaq, göz və dərilərinizin sizə qarşı şəhadət vermələrindən (qorxub) gizlənmir, (yalnız insanlardan gizlənirdiniz və) Allahın sizin (camaatdan gizlin) etdiklərinizin çoxunu bilmədiyini güman edirdiniz. Rəbbiniz barəsində olan bu gümanınız sizi məhv etdi və beləcə, ziyana uğrayanlardan oldunuz.”

İnsanın əməllərini qeydə alan mələklərin özünəməxsus bir cəhəti də budur ki, insan günah edərkən onlardan da xəcalət çəkmiş olsun. Yəni insan ona nəzarətçi mələklər olduğunu başa düşməklə edəcəyi günahlardan xəcalət çəksin və həmin günahları etməsin.

Bu mələklər barəsində danışmaqda məqsədimiz odur ki, insan ölüm ayağına düşdükdə Əzrayılı(ə) gördükdən sonra onu qoruyan və onun əməllərini yazan həmin mələklər də gözünə görünəcək. İnsan həyatda ikən onları görmür. Amma can verərkən, yəni pərdələr gözündən götürüldükdə mələklər də insanın gözünə görünərlər. Əgər can verən insan mömin və təqvalı olsa, mələklər həmin insana yazdıqları kitabı göstərər, sonra isə belə deyərlər: “Allah bizim barəmizdə sənə xeyir inayət etsin. Çünki sən yaxşı məclislərdə iştirak edir və Allahın razı olduğu yerlərdə olurdun. Beləliklə bizi də özünlə oralara aparırdın.” Əgər dünyasını dəyişən insan fasiq və günahkar olarsa, həmin mələklər ona kitabını göstərdikdən sonra belə deyərlər: “Allah bizim barəmizdə sənə xeyir verməsin. Çünki sən bizi də özünlə pis və xoşumuz gəlməyən məclislərə aparırdın.” Beləcə, insan onlara baxa-baxa dünyasını dəyişir.”

Digər bir hədisdə isə belə nəql olunur ki, qiyamət günü insanın əməl dəftərini həmin bu mələklər gətirib təqdim edəcəklər. İnsan kitabı aldıqdan sonra hər bir şeyin orada yazıldığını görəcəkdir. Həmin vaxt günahkar insanların vəziyyəti çox pis olacaq. "Kəhf" surəsinin 49-cu ayəsində oxuyuruq:

وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا

-Və Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O, bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!" Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər.

## İnsanın ölüm ayağında gördükləri

### 3. Can verən insanın məsumları görməsi

Qeyd olundu ki, insan ölüm ayağında olarkən gözlərindən pərdələr çəkilir və beş mənzərənin şahidi olur. Dedik ki, onlardan biri ölüm mələyi cənab Əzrayıl(ə), ikincisi isə insanın əməllərini və bütün hərəkətlərini, hətta nəfəslərinin sayını belə yazan mələklərdir. İnsan dünyasını dəyişərkən gördüyü üçüncü mənzərə məsumlardır. Yəni insan Həzrət Peyğəmbəri(s), Həzrət Fatimeyi Zəhranı(s.ə) və on iki imamı görəcəkdir. Lakin onlara iman gətirən insanlar ölən zaman onları gördükdə sevinəcək, iman gətirməyənlər isə narahat və peşman olacaqlar. Bu barədə nəql olunmuş hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ الصَّادِقُ(ع): مَا مِن مُؤمِنٍ يَحضُرُهُ الموتُ إلاّ رَأَى مُحَمَّدًا وَ عَلِيًّا عَلَيهِمَا السَّلام حَيثُ تَقَرُّ عَينُهُ، و لا مُشرِكٌ يَموتُ إلاّ رآهُما حيثُ يَسوؤهُ

-İmam Sadiq(ə) buyurur: "Elə bir mömin yoxdur ki, ölüm ayağında Məhəmmədi(s) və Əlini(ə) gördükdə gözləri aydınlaşmasın. Elə bir müşrik də yoxdur ki, ölüm ayağında onları gördükdə narahat olmasın."[1]

Yəni mömin insan dünyasını dəyişərkən həmin çətin anlarda Həzrət Peyğəmbəri(s) və İmam Əlini(ə) gördükdə bütün narahatçılığı aradan gedər, sevinər və gözləri aydınlaşar. Kafir və müşrik də Həzrət Peyğəmbəri(s) və İmam Əlini(ə) görəcəkdir. Amma onlar həyatda ikən Peyğəmbəri(s) və Əlini(ə) inkar etdiklərinə görə çox pis bir vəziyyətdə qalacaqlar.

İbn Yəfur İmam Sadiqin(ə) səhabələrindən, həm də çox hədis nəql edən rəvayətçilərdən biri idi. O deyir: "Mənim Xəttab adlı bir nəfərlə zahiri dostluğum var idi. Səlahiyyətli və ləyaqətli bir şəxs olmadığı üçün onu təqiyyə edirdim. Onun da xəvariclərdən[2] bir neçə nəfər dostları var idi. Mən də məcburiyyət qarşısında təqiyyə edərək onlarla zahiri dostluq edirdim. Günlərin birində eşitdim ki, Xəttab ölüm yatağına düşüb. Onun yanına gedib başı üzərində dayandım. Gördüm ki, doğrudan da onun vəziyyəti çox ağırdır. Ona baxdıqda başa düşdüm ki,

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis19248.

[2] Xəvaric - Həzrət Əlinin(ə) əleyhinə müharibə edənlər idi. İmamı(ə) öldürmək üçün İbn Mülcəmi də onlar göndərmişdilər.

dodaqlarında nəsə pıçıldayır. Diqqətlə qulaq asdıqda gördüm ki, hey bu sözü təkrar edir: “Mənim Əli ilə nə işim var idi axı?” Mən onun bu halına çox təəccübləndim. Çünki o da Əlinin(ə) düşmənlərindən idi. Ölüm ayağında onun belə peşman olması məndə çox təəccüb doğurdu. Sonra çıxıb İmam Sadiqin(ə) hüzuruna getdim. Əhvalatı olduğu kimi Həzrətə(ə) söylədim. İmam(ə) üç dəfə bu sözü buyurdu: “And olsun Kəbənin Rəbbinə ki, (o, həmin halda) Əlini(ə) görürdü.”

Seyrəfi adlı bir nəfər deyir: “Günlərin birində İmam Sadiqin(ə) hüzurunda əyləşmişdik. Soruşdum: Ey Allahın höccəti, mömin insan canının alınmasından narahat olarmı? (ölümdən qorxarmı?) İmam Sadiq(ə) buyurdu:

لا و اللّهِ، إنّهُ إذا أتاهُ ملَكُ الموتِ لقَبضِ رُوحهِ جَزِعَ عِندَ ذلكَ، فيَقولُ لَهُ ملَكُ الموتِ: يا وَليَّ اللّهِ لا تَجزَعْ، فوالّذي بَعَثَ محمّدا صلى الله عليه و آله لَأنا أبَرُّ بِكَ و أشفَقُ علَيكَ من والِدٍ رَحيمٍ، افتَحْ عَينَكَ فانظُرْ. قالَ: و يُمَثَّلُ لَهُ رسولُ اللّهِ صلى الله عليه و آله و أميرُ المؤمنينَ و فاطمةُ و الحسنُ و الحسينُ و الأئمةُ من ذُرِّيَتِهِم عليهم السلام فيقالُ لَهُ: هذا رسولُ اللّهِ و ... رُفَقاؤكَ ... فما شيءٌ أحَبَّ إلَيهِ مِن استِلالِ رُوحِهِ و اللُّحوقِ بالمنادي.

-Yox, Allaha and olsun ki, yox! Ölüm mələyi (Əzrayıl) onun canını almağa gələndə o dözmür. Ancaq Əzrayıl ona deyir: “Ey Allahın dostu, dözümsüz olma! Çünki and olsun Məhəmmədi(s) seçənə ki, mən yastığının başına gələn mehriban atadan sənə qarşı daha səmimi və daha mehribanam. Gözünü aç və bax.” Həzrət buyurdu:

“Allahın Peyğəmbəri(s), Əmirəlmöminin, Fatimə, Həsən, Hüseyn və onun nəslindən olan imamlar gözünün önündə görünər və ona deyilər: “Bu, Allahın Peyğəmbəri və… sənin dostların və yoldaşlarındır… Belə bir şəraitdə heç nə, canının bədənindən ayrılması və carçıya qovuşması qədər onunçün xoş olmur.”[1]

Böyük alimlərdən birinin barəsində belə yazırlar: “O, anası ilə birlikdə Kazimeyn şəhərinə ziyarətə gedir. Belə olur ki, xəstələnib ölüm yatağına düşür. Anası qaldıqları evin damına çıxıb üzünü İmam Museyi Kazimin(ə) hərəminə tutaraq belə deyir: “Ey Peyğəmbər(s) övladı, mən sənin ziyarətinə oğlumla birgə gəlmişəm. İstəmirəm ki, onu burada dəfn edib evimə tək qayıdım.”

Qadın təvəssül etdikdən sonra oğlunun başı üzərinə gəlir. Oğlu onu görən kimi deyir: “Anacan, bütün işləri xarab etdin. Mən Peyğəmbəri(s) və Əhli-beyti(ə) görürdüm. Onlara qoşulub getmək istəyirdim ki, birdən İmam Museyi Kazim(ə) Peyğəmbərə(s) yaxınlaşıb dedi: “Ya Rəsulallah, bunun anası mənə təvəssül edib. Əmr et ki, onu geri qaytarsınlar.”

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, belə hallar çox müstəsna hallardır. Çünki insan ölüm ayağına düşdükdə gözləri açıldıqdan sonra onun geri qayıtması mümkün deyil. Amma müstəsna hallarda hərdən belə hadisələr ola bilir ki, bu da Allahın hikmətidir. Bir qadının ərə getmədən uşaq doğması mümkün deyildir. Amma istisna hallarda Allahın iradəsi ilə bu da mümkün olur. Buna misal olaraq Həzrət Məryəmi(s.ə) misal çəkmək olar. Yaxud odun xüsusiyyəti yandırmaqdır. Amma istisna

[1] Mizanül-hikmə,12-ci cild, hədis19244.

hallarda mümkündür ki, od Allahın iradəsi ilə yandırmasın. Həzrət İbrahimi(ə) buna misal çəkmək olar.

Bir nəfər deyir: “Bir gün İmam Sadiqdən(ə) soruşdum: Mümkündürmü ki, bir insan can verərkən Peyğəmbəri(s) və Əlini(ə) görsün və sonradan dünyaya qayıtsın? İmam(ə) buyurdu: Hər kəs (can verərkən) onları gördüsə, mütləq getməlidir.”[1]

Haris Həmədani Həzrət Əlinin(ə) yaxın dostlarından biri idi. Günlərin birində o, xəstə yatırdı. Həzrət Əli(ə) ona baş çəkməyə gedir. Söhbət əsnasında ona buyurur: “Sənə müjdə verirəm ki, dörd yerdə məni görüb tanıyacaqsan. Can verən zaman, Siratdan keçərkən, Kövsər hovuzunun kənarında və Müqasəmədə.

Haris soruşur: Müqasəmə nədir?

İmam(ə) buyurur: Allahın izni ilə cənnət və cəhənnəmin əhlini mən böləcəyəm. Cəhənnəmə deyəcəyəm ki, ey atəş, bu, mənim dostumdur, onu rahat burax.

Sonra Həzrət Əli(ə) buyurur: Günlərin birində münafiqlərin mənə etdikləri paxıllıqlardan Peyğəmbərə(s) şikayət etdim. Peyğəmbər(s) mənim əlimdən tutub buyurdu: Qiyamət günü baş verdikdə mən Allahın rəhmət ətəyindən tutacağam. Sən mənim ətəyimdən, şiələrin də sənin ətəyindən tutacaqlar.

Haris, həmin gün mən səni öz əməlinə və sevdiyin insanlara tapşıracağam. (Məhşərə öz əməllərin və sevdiyin insanlarla daxil olacaqsan.)”[2]

---

[1] Ruhun qəbzi, səh.106.
[2] Yenə orada, səh.107.

Odur ki, kimliyindən asılı olmayaraq hər kəs dünyasını dəyişən zaman Həzrət Peyğəmbəri(s) və İmam Əlini(ə) görəcəkdir. Onlara iman gətirənlər sevinəcək, onları qəbul etməyənlər isə çox narahat olacaqlar. Ona görə narahat olacaqlar ki, nə üçün biz Həzrət Peyğəmbərə(s) və İmam Əliyə(ə) iman gətirmədik.

Rəvayətçilərdən biri belə nəql edir: "Bir gün İmam Sadiqin(ə) hüzurunda idik. İmam(ə) bizə buyurdu: Əhli-beyti(ə) sevən şəxslər ölən zaman görürlər. Soruşdum: Ey Peyğəmbərin(s) övladı, onlar kimi görürlər? Həzrət(ə) yenə həmin sözü təkrar edərək buyurdu: Onlar görürlər. Yenə soruşdum: Ey ağam, onlar kimi görürlər? Mən beləcə on dəfə İmamdan(ə) xahiş etdikdən sonra Həzrət(ə) buyurdu. Biz Əhli-beyti(ə) sevən şəxslər dünyasını dəyişdikləri zaman o iki nəfəri görürlər. Soruşdum: Ey Peyğəmbərin(s) övladı, o iki nəfər kimlərdir? İmam(ə) buyurdu: Peyğəmbər(s) və Əli(ə)."

Soruşduq: Buna dair Quranda bir dəlil varmı? İmam(ə) buyurdu: Allah-təala "Yunis" surəsinin 64-65-ci ayələrində belə buyurur:

الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ. لَهُمُ الْبُشْرَى فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ لاَ تَبْدِيلَ لِكَلِمَاتِ اللّهِ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-O kəslər ki, iman gətirib təqvalı olublar (həmişə günahlardan çəkinirdilər.) Onlar üçün dünya həyatında və axirətdə müjdə vardır. Allahın kəlamlarında (Onun vədlərində) heç bir dəyişiklik yoxdur. Budur böyük uğur və qurtuluş!

Bu ayədə verilmiş müjdə odur ki, mömin və təqvalı insan ölən zaman Həzrət Peyğəmbəri(s) və İmam Əlini(ə) görüb sevinəcəkdir.

Hədislərdə belə nəql olunur ki, mömin insan canını tapşırarkən gözlərindən pərdələr götürüldükdə məsumları görər. Elə bu halda ona həmin ayələr nida olunar.

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً. فَادْخُلِي فِي عِبَادِي. وَادْخُلِي جَنَّتِي

-Ey arxayın olmuş nəfs, dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə daxil ol!

Bu ayələrdə Allah-təala həmin mömin bəndəyə ilk növbədə bəndələrinin zümrəsinə daxil olmağı, sonra cənnəti müjdə verir. Allahın bəndələrinin zümrəsi həmin Həzrət Peyğəmbər(s) və Əhli-beytidir.

Bu ayələr "Fəcr" surəsinin axırıncı ayələridir. "Fəcr" surəsinin çox böyük fəzilət və xüsusiyyətləri vardır.

İmam Sadiq (ə) buyurur: "Fəcr" surəsini özünüzün vacib və müstəhəb namazlarınızda oxuyun, çünki bu surə Hüseyn ibn Əliyə (ə) məxsusdur. (Onunla bağlıdır.) Hər kəs onu ("Fəcr" surəsini) oxusa, qiyamətdə İmam Hüseynlə(ə) və onun qonşuluğunda həmin dərəcədə behiştdə məskunlaşacaq ki, Həzrət Hüseyn(ə) orada məskunlaşmışdır. Həqiqətən, Allah əziz və həkimdir."[1]

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bu surəni zilhiccə ayının ilk on gecəsində oxusa, Allah onu bağışlayar. Hər kəs başqa günlərdə onu oxusa, qiyamət günündə onun üçün bir nur olacaqdır."[2]

---

[1] Təfsiri-nümunə, 26-cı cild, səh.438.
[2] Yenə orada.

## İnsanın ölüm ayağında gördükləri

### 4. Can verən insanın gedəcəyi yeri görməsi

Ayə və hədislərə istinadən qeyd olundu ki, insan ölüm ayağına düşdükdə və canını tapşıran zaman gözləri açılar və beş mənzərəni görər. Ötən bəhslərimizdə onlardan üçünü qeyd etdik. Dördüncüsü budur ki, insan canını tapşırarkən hara gedəcəyini ona göstərərlər. Yəni öldükdən sonra məskunlaşacağı yeri ona göstərirlər. Bəzi hədislərdə belə nəql olunur ki, insan son anlarında dünyasının nəticəsini bir anın içində gördükdən sonra öləcək. Bəzi hədislərdə belə nəql olunur ki, insan son anlarında öz məqam və taleyini gördükdən sonra dünyasını dəyişəcəkdir.

Kimliyindən asılı olmayaraq hər bir insan canını tapşırarkən bu mənzərəni görəcəkdir. Fasiq və kafirlər də gedəcəkləri yeri görəcəklər, möminlər də öz məqamlarını müşahidə edəcəklər. Canın çıxması insanın ən çətin və ağır anlarından biri olduğu üçün çox nigarançılıq çəkir. Kənardan baxanlar isə onun nə halda olduğunu başa düşməzlər. Elə bilirlər ki, ona hansısa iynəni vurmaqla və yaxud dərman verməklə sakitləşəcəkdir. Amma onun gördüklərini və hiss etdiklərini heç bir kəs başa düşmür. Allah rəhmət eləsin, böyük ayətullahlardan biri xəstələnmişdi. Onu xəstəxanaya yerləşdirdik. Həkimlər onun ətrafına toplaşdılar. Ona sistem qoşub müxtəlif iynələr vurmağa başladılar. O isə həmin həkimlərin hərəkətlərinə baxıb gülümsəyirdi. Onun yaxın adamlarından biri soruşdu: “Dünyanı necə görürsən? Həmin alim arif insan olduğundan buyurdu: Ustadımın buyurduğu kimi.”

Amma ustadının adını çəkmədi. Bir neçə kəlmə danışdıqdan sonra həkimlərə işarə edərək buyurdu: "Bunlar Əzrayılla(ə) müharibə etməyə gəliblər. Lakin hamı bisin ki, onların dediyi yox, Əzrayılın(ə) dediyi olacaq."

Odur ki, son saatlarda insana öz məqamını və gedəcəyi yeri göstərirlər. İnsan gedəcəyi yeri gördükdən sonra etdiyi bütün günahlara, şəhvət və dünyəvi istəklərə görə peşman olur. Amma mömin və təqvalı insan isə həmin anı gördükdə rahatlaşacaq. Çünki Allaha imanı olan insan aqibətinin necə olacağı barədə nigarandır. Bəzi insanlar heç bir vaxt aqibəti haqda fikirləşmirlər. Çünki belələri həmin şeyləri anlamırlar. Məsələn, altıaylıq uşaq ilan gördükdə ondan qorxmur. Əlini atıb ilanı tutmağa çalışır. Hətta tuta bilsə, onu götürüb ağzına tərəf aparır. Uşağın ilandan qorxmaması onun şücaətli və cəsarətli olmasına dəlalət etmir. Bu sadəcə olaraq onun ağlının kəsməməsindən və başa düşməməsindən irəli gəlir. Uşaq ilanın nə olduğunu anlamadığından ondan qorxmur. Amma məharətli ilan tutan isə başqa səbəbə görə ilandan qorxmur. Onun qorxmamasının dəyər və qiyməti vardır, lakin altıaylıq uşağın ilandan qorxmamasının dəyəri və qiyməti yoxdur. Çünki başa düşmədiyi və anlamadığı üçün ilandan qorxmur. Buna görə də aqibətini düşünən hər bir insan sonrakı aqibətinin necə olacağından qorxur. Həmişə bu barədə düşünüb nigarançılıq çəkir. Öz-özünə fikirləşir ki, görəsən, mənim barəmdə Allahın fəzli, Peyğəmbərin(s) kərəmi necə olacaq? Görəsən, mənim aqibətim xeyirlə qurtaracaqmı? Bu hal mömінlərdə son anlarına qədər qalır. Ömrünün son anlarında öz məqamını və gedəcəyi yeri gördükdən sonra rahat olacaqdır.

İbn Abbas Həzrət Peyğəmbərdən(s) bu barədə belə bir hədis nəql edir: “Mömin insan ehtizar halına (ölüm ayağına) düşdükdə cənnəti ona təqdim edərlər (göstərərlər). Hər bir mömin cənnətdəki məqamını görər.”[1]

Digər bir hədisdə isə Həzrət Peyğəmbər(s) buyurur: “Mömin canını tapşırana qədər həmişə öz aqibəti barədə nigarançılıq keçirir. Can ayağına düşdükdə mələklər onun yanına gələrlər. Belə olduqda həmin möminin nəfəsi daralar və aqibətinin necə olacagına görə qəmginləşər. Əzrayıl(ə) ona deyər: Niyə bu qədər qəmli və narahatsan? Heç ağıllı adam da dünya malından əlinin üzüldüyünə görə narahat olar?”

Sonra Əzrayıl(ə) ona deyər: “Başının üzərinə bax və öz məqamını və gedəcəyin yeri gör. Həmin insan cənnətdəki məqamını gördükdə Əzrayıl(ə) ona deyər: Gördüyün bu qəsrlər və dərəcələr sənə aiddir. Sənin dostların, yaxınların və saleh övladların da orada səninlə birgə olacaqlar.”[2]

Belə olduqda həmin insanın ürəyi sakitləşir və Allahın lütf və kərəmi ilə şad olur. Çünki dünyada yaşadığı müddət ərzində aqibətinin necə olacağını düşünüb qəmgin olur və ürəyi sakitləşmirdi.

Hədislərdə belə nəql olunur ki, Əbu Bəsir İmam Sadiqdən(ə) bəzi ayələr barədə soruşarmış. Bir ayə barədə soruşduqda da İmam(ə) belə buyurur: “İnsanın canı hülqumuna çatdıqda ona cənnətdəki yerini və mənzilini göstərərlər. Bu mənzərəni gördükdə həyəcana gələrək

---

[1] Ruhun qəbzi, səh.111.

[2] Üzürlü məmur, səh.31.

deyər: Məni dünyaya qaytarın ki, gördüklərimi ailəmə danışım. Cavabında ona belə deyərlər: Bu, mümkün deyil. Sənin dünyaya qayıtmağına icazə yoxdur.”[1]

Bu məsələ şəhidlər barəsində də bəyan olunmuşdur. Cabir ibn Abdullah Ənsari Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. Onun atası Abdullah Həzrət Peyğəmbərin(s) məhzərində və döyüşlərin birində şəhid oldu. O, şəhid olandan sonra onun ruhu şəhidlərin ruhuna qovuşub cənnətdəki məqamına nail oldu. Abdullah orada Allahdan bir arzu dilədi. Dedi: “İlahi, məni dünyaya qaytar, gedim Peyğəmbərin(s) məhzərində bir də şəhid olum. İstəyirəm ki, bir daha şəhadət feyzinə nail olum. Allah-təala ona xitab edərək bildirdi ki, əgər bir insan dünyasını dəyişərsə, onu bir daha dünyaya qaytarmaram. Məndən başqa bir şey dilə. Cabir dedi: İlahi, onda mənim buradakı məqamımı və naz-nemətin mənə aid olduğunu ailəmə və mənim barəmdə narahat olanlara çatdır. Qoy onlar bilsinlər ki, mən burada hansı cah-cəlalın içindəyəm.

Allah-təala bu ayəni Peyğəmbərə(s) nazil etdi:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir.”[2]

## İnsanın ölüm ayağında gördükləri

### 5. Can verən insanın şeytanı və köməkçilərini görməsi

[1] Ruhun qəbzi, səh.111.
[2] Ali-İmran surəsi, ayə 169.

Can verən insanın gördüyü beşinci mənzərə isə şeytan və onun köməkçiləridir. İnsan yaşadığı bu dünyada ömrü boyu daxilən mübarizə aparır. Yəni insan yaşadığı müddət ərzində onun daxilində nəfslə ağlın mübarizəsi gedir. Şeytan Allaha söz vermişdir ki, insanların son nəfəsinə qədər onlardan əl çəkməyəcək və bacardığı qədər onları cəhənnəmə tərəf çəkəcək. Şeytan belə bir söz verdiyi üçün insanın son nəfəslərində belə ondan əl çəkmir. İstəyir ki, insan Allaha olan əqidəsini dəyişsin və imansız olaraq dünyadan getsin. Bu, şeytanın missiyasıdır. İnsan ehtizar halına düşdükdə şeytanın onu vəsvəsə etməsinə "ədilə" deyilir. "Ədilə" ərəb dilində "üdul" sözündən götürülüb və insanın ölən zaman son anlarında şeytanın vəsvəsəsi ilə haqdan batilə keçməsi deməkdir.

İmam Sadiq(ə) bu barədə belə buyurur: "İnsan dünyasını dəyişərkən iblis bir qrup şeytanı həmin şəxsin başı üzərinə göndərir. Onlar gəlib insanı ruhu bədənindən ayrılana qədər küfrə tərəf çəkməyə çalışırlar. Əgər can verən insan mömin olsa, şeytanlar onunla bacarmayacaq. Buna görə də ölüm ayağında olan insanın başı üzərinə gedin və onlara kəlmeyi-şəhadəti – "Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah" təlqin edin."[1]

Əgər can verən şəxs imanlı insan olsa, bu təlqin ona öz təsirini göstərər. Yox, əgər imanı olmasa, şeytanın dəstəsi ona qələbə çalacaq. Bir daha qeyd etmək lazımdır ki, can verən insanın halını və nələri gördüyünü kənardan baxanlar hiss etmirlər. Çətin və yaxud ağır can vermək bu dünyaya aid olan məsələ deyil ki, hər baxan bunu hiss etmiş olsun. Bütün bunlar pərdənin arxa tərəfində baş

---

[1] Ruhun qəbzi, səh.125.

verən hallardır ki, ayə və hədislərdə bizim üçün izah olunmuşdur. Tarixdə bəzən milyonda bir dəfə istisna hallar olur ki, bir insan can ayağında bu vəziyyəti görüb yenidən dünyaya qayıtsın.

Nəcəfdəki alimlərin biri haqqında belə bir əhvalat yazmışlar: “Deyirlər ki, o, xəstələnib ölüm ayağına düşmüşdü. Dostları onun yanına getdikdə görürlər ki, son anlarını yaşayır. Ona kəlmeyi-şəhadəti təlqin etməyə başlayırlar. De: “La ilahə illəllah.” O dedi: Bu, kəlamın başlanğıcıdır.”

Dini elmi mübahisələrdə alimlər bəhs edərkən bir mətləbin sübutu üçün bir-birinə dəlil-sübut gətirirlər. Əgər dəlil gətirənin sözü zəif olsa, tərəf müqabili deyir: “Bu, kəlamın başlanğıcıdır.” Yəni sənin bu dəlilinin düz olub-olmaması barədə də müzakirə aparılmalıdır. Sənin dediyin bu sözün haqq, yaxud batil olması üzə çıxmalıdır.

Buna görə də həmin alimə can ayağında “La ilahə illəllah” kəlməsini təlqin edərkən o dedi: “Bu, kəlamın başlanğıcıdır.” (Yəni bu kəlmənin haqq və yaxud batil olması müzakirə olunmalıdır.) Bir neçə dəfə ona bu ifadəni təlqin etdilər, amma o, bu ifadəni işlətmədi və üzünü yana çevirdi. Hamı onun bu halına təəccüb edirdi. Belə oldu ki, təsadüfən onun halı özünə gəldi və sağaldı. Bu hadisədən bir neçə gün keçdikdən sonra dostları onun yanına gedib soruşdular: “Sən can ayağında olarkən biz sənə təlqin deyirdik. Nə üçün sən “La ilahə illəllah” kəlməsini demirdin? O dedi: Mənim sandıqçamı yanıma gətirin. Sandıqçanı onun yanına apardılar. Sandığı açıb içindən bir sənəd çıxartdı və onu cırıb yerə tökdü. Sonra dedi: Bir nəfər məndən külli miqdarda borc pul alıb. Borcu verərkən hər ikimiz bu sənədi imzalamışıq. Siz mənə təlqin edərkən bir nəfər bu sənədi əlində tutub belə

deyirdi: Əgər "La ilahə illəllah" - desən, sənədi cıracağam. Buna görə də mən "La ilahə illəllah" kəlməsini dilimə gətirmirdim. Allahın lütfü ilə sağaldım və bu sənədi öz əlimlə cırıb yerə tökdüm ki, şeytan məni vəsvəsə etməsin."[1]

Alimlərdən biri deyir: "Cavan bir oğlan ölüm yatağına düşmüşdü. Biz onun başı üzərində dayanıb təlqin deməyə başladıq. Ona deyirdik ki, "La ilahə illəllah" - de. O, üzünü yana çevirib belə deyirdi: "Sındırma, demərém." Bir neçə dəfə ona təlqin etdik, amma o, həmin sözü təkrar edirdi. Hamı onun bu halına təəccüblənmişdi. Üstündən bir neçə gün keçdikdən sonra xəbər tutduq ki, həmin oğlanın halı yaxşılaşıb. Yenə də onun yanına getdik. Gördük ki, artıq özünə gəlib və yaxşılaşıb. Ondan soruşdum: "Biz elə bildik ki, sən ölürsən. Buna görə də sənə "La ilahə illəllah" kəlməsini təlqin etməyə başladıq. Amma sən üzünü yana çevirib deyirdin: "Sındırma, demərəm." Bu nə məsələdir belə? Oğlan dedi: Mənim saatımı gətirin. Onun gözəl bir saatı var idi. Saatı ona verdikdə götürüb daşla sındırdı. Sonra dedi: Mənim bu saatdan çox xoşum gəlirdi. Siz məni təlqin edərkən şeytan da o tərəfdə dayanıb əlində bu saatı tutmuşdu. O, mənə deyirdi ki, əgər "La ilahə illəllah" - desən bu saatı sındıracağam. Buna görə də mən ona deyirdim: "Sındırma, demərəm." Allah mənə nəsib etdi ki, sağ qaldım. Öz əlimlə bu saatı sındırıram ki, qoy şeytan mənə onun vasitəsilə təzyiq göstərməsin."[2]

---

[1] Ruhun qəbzi, səh.126.
[2] Bərzəx aləmi, səh.28.

Mərhum İmam Xomeyninin(r) nəvələrindən birinin adı Əli idi. İmam(r) onu çox istəyirdi. Bəzi vaxtlarda İmam(r) onun əlindən tutub gəzdirərdi. Xəstəxanada olarkən ömrünün axır günlərində göstəriş verdi ki, Əlini daha onun yanına gətirməsinlər.

Əgər insan bir şeyə çox həvəs göstərsə və ürək bağlasa, mümkündür ki, can verən zaman şeytan həmin şeydən istifadə edərək onu haqdan uzaqlaşdırsın. Məsələn, şəhvətpərəst, vəzifəpərəst və mal-dövlətə məhəbbəti olan insanlar can verərkən həmin amillər şeytanın onu yoldan çıxarması üçün bir vasitə ola bilər. Çünki şeytan Allahın düşməni olduğu üçün hər bir vasitədən istifadə edərək insanın son anlarında belə onu Allahdan ayırmaq istəyir.

## İnsana son anlarında Ədilədən (şeytanın çəngindən) nicat verən amillər

Qeyd olundu ki, insan can verərkən onun çətin hallarından biri "ədilə"dir. Yəni həmin halda şeytan insanı vəsvəsə edir. Şeytan insanın son anlarında da olsa belə onun imanını əlindən almağa çalışır. Bu hal can verən insan üçün pis və təhlükəli bir haldır. Can ayağında olan insan şeytanın vəsvəsəsindən amanda qalmaq üçün həyatda olarkən bəzi əməllərə riayət edərsə, şeytanın çəngindən amanda qalmaq şansı əldə edə bilər. Həmin amillərdən bir neçəsini diqqətinizə çatdırıram:

### 1. "Rəziytu billah" duasını oxumaq

Bu duanı oxumaq insan üçün çox faydalıdır. Həmin duanın xüsusiyyətlərindən biri budur ki, insan canını tapşırarkən şeytanın vəsvəsəsindən nicat tapar. Şeyx Tusi kimi böyük alimlər yazmışlar ki, Süleyman Deyləmi adlı bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib ərz etdi: "Ey Allahın höccəti, sizin dostlarınız deyirlər ki, iman iki cürdür: Sabit və qeyri-sabit iman. Mənə bir dua öyrədin ki, onu oxumaqla öz imanımı möhkəmləndirim. İmam Sadiq(ə) ona bu duanı öyrətdi. Əgər insan hər namazdan sonra bu duanı oxusa, həm sağlığında şeytanın hiyləsindən nicat tapar, həm də ölən zaman şeytanın ona gücü çatmaz. Həmin dua belədir:

رَضيتُ بِاللّهِ رَبّا وَبِمُحَمَّدٍ صَلَّى اللّهُ عَلَيْهِ وآلِهِ نَبِيّا وَبِالاِسْلامِ دينا وَبِالْقُرآنِ كِتابا وَبِالْكَعْبَةِ قِبْلَةً وَبِعَلِي وَلِيّا وَاِماما وَبِالْحَسَنِ وَالْحُسَيْنِ وَعَلِيِّ بْنِ الْحُسَيْنِ وَمُحَمَّدِ بْنِ عَلِي وَجَعْفَرِ بْنِ مُحَمَّدٍ وَمُوسى بْنِ جَعْفَرٍ وَعَلِيِّ بْنِ مُوسى وَمُحَمَّدِ بْنِ عَلِي وَعَلِيِّ بْنِ مُحَمَّدٍ وَالْحَسَنِ بْنِ عَلِي

وَالْحُجَّةِ بْنِ الْحَسَنِ صَلَواتُ اللّهِ عَلَيْهِمْ اَئِمَّةً اَللّهُمَّ اِنّى رَضيتُ بِهِمْ اَئِمَّةً فَارْضَنى لَهُمْ اِنَّكَ عَلى كُلِّ شَىْءٍ قَديرٌ

**2. Əqidəni möhkəmləndirmək**

Hədislərdə və alimlərin kitablarında qeyd olunmuşdur ki, mömin insan həyatında öz əqidəsini bir dəfə dilinə gətirib danışsın və yaxud yazsın. Yəni Allaha iman gətirdiyini, Onun cəlal və camal sifətlərinə inandığını, Quranın Allah tərəfindən nazil olunduğunu, Peyğəmbərin(s) nübüvvətini, Həzrət Əlinin(ə) vilayət və imamətini və məad kimi əqidə prinsiplərini mükəmməl şəkildə özü üçün danışsın. Sonra isə bu duanı oxusun:

اَللّهُمَّ يا اَرْحَمَ الرّاحِمينَ اِنّى اَوْدَعْتُكَ يَقينى هذا وَثَباتَ دينى وَاَنْتَ خَيْرُ مُسْتَوْدَعٍ وَقَدْ اَمَرْتَنا بِحِفْظِ الْوَدآئِعِ فَرُدَّهُ عَلَىَّ وَقْتَ حُضُورِ مَوْتى

**3. Bu duanı davamlı şəkildə zikr etmək**

Can verərkən insana "ədilə"dən nicat verən amillərdən biri bu duanı davamlı şəkildə zikr etməkdir:

اَللَّهُمَّ اِنِّى اَعُوذُ بِكَ مِنَ العَدِيلَه عِندَ الْمَوت

**4. "Ədilə" duasını oxumaq**

"Ədilə" duasını oxumaq da insana son anlarında şeytanın vəsvəsə və hiyləsindən nicat verər. Bu dua "Məfatih" kitabında nəql olunmuşdur.

**5. "Ali-İmran" surəsinin 8-ci ayəsini davamlı şəkildə oxumaq**

Bu ayəni bəzən namazın qunutlarında da oxuyurlar. Həmin ayəni davamlı şəkildə oxumağın

xüsusiyyətlərindən biri belədir ki, insan canını tapşırdıqda şeytanın vəsvəsəsindən amanda qalar.

رَبَّنَا لاَ تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً إِنَّكَ أَنتَ الْوَهَّابُ

-Ey Rəbbimiz, bizi doğru yola yönəltdikdən sonra qəlblərimizi azdırma və bizə Öz tərəfindən bir rəhmət bəxş et, çünki çox-çox bağışlayan Sənsən!

**6. Xanım Fatimeyi Zəhranın(s.ə) zikrini demək**

Xanım Fatimeyi Zəhranın(s.ə) zikrini deməyin böyük savab və bir çox xüsusiyyətləri vardır. Qaydası belədir: 34 dəfə Allahu əkbər, 33 dəfə Əlhəmudillah, 33 dəfə Subhanallah.

Bu zikrin xüsusiyyətlərindən biri budur ki, hər kəs gündəlik vacib namazlarından sonra bu zikri yerinə yetirsə, ölüm ayağında "ədilə"dən nicat tapar.

**7. Cümə günləri "Möminun" surəsini oxumaq**

İnsana "ədilə"dən nicat verən amillərdən biri cümə günləri bir dəfə "Möminun" surəsini oxumaqdır.

**8. Əqiqdaşlı üzük taxmaq**

Barmağa əqiqdaşlı üzük taxmaq insanın ölüm zamanı şeytanın vəsvəsəsindən amanda qalmasına səbəb olar. Xüsusilə həmin üzüyün qaşı üzərində bu kəlmələr yazılmış olsa: "Muhəmmədun nəbiyyullah və Əliyyun vəliyyullah."

**9. Hər sübh və məğrib namazından sonra bu zikri demək:**

بِسمِ اللّهِ الرّحمنِ الرَّحِيم لاَحَوْلَ وَلاَقُوَّةَ إِلاَّ بِاللّهِ الْعَلِيِّ الْعَظِيْمِ

-Hər kəs subh və məğrib namazından sonra Xanım Fatimeyi Zəhranın(s.ə) zikrini etdikdən sonra bu zikri etsə, “ədilə”dən nicat tapar.

**10. Şəban ayının altıncı gecəsinin xüsusi namazı**

Seyid ibn Tavus Həzrət Peyğəmbərdən(s) belə nəql etmişdir: “Hər kim şəban ayının altıncı (beşindən altısına keçən) gecəsinin məxsus namazını qılsa, Allah-təala onun canını xoşbəxt insanlar kimi alar, qəbrini genişləndirər və qiyamət günü qəbirdən çıxarkən üzünü ay kimi nurlu edər. Qəbirdən çıxarkən “Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah” deyə-deyə məhşərə gələr. Həmin namazı qılmağın qaydası belədir: Dörd rükət müstəhəb namazdır ki, sübh namazı kimi iki rükət, iki rükət qılınır. Hər rükətdə bir dəfə “Fatihə” (Həmd) surəsi, əlli dəfə “Tövhid” (İxlas) surəsi oxunur.

**11. “Rəcəb” ayının 22-ci gecəsinin xüsusi namazı**

İnsana “ədilə”dən nicat verən amillərdən biri rəcəb ayının 22-ci gecəsinin (yəni rəcəb ayının 21-dən 22-nə keçən gecə) namazını qılmaqdır. Bu namazın qaydası isə belədir: Səkkiz rükət müstəhəb namazdır ki, hər rükətdə 1 dəfə “Həmd”, 7 dəfə “Kafirun” surəsi oxunur. Namazı qılıb qurtardıqdan sonra 10 dəfə salavat, on dəfə istiğfar edilir.

**12. Vacib namazları vaxtlı-vaxtında qılmaq**

Hər kəs vacib namazlarının vaxtına riayət etsə, onları azan deyilən kimi vaxtında qılsa, ömrünün son anlarında

Allah-təala həmin şəxsi şeytanın vəsvəsələrindən amanda saxlayar.

Qeyd olunan bu amillər insan ölüm ayağına düşdükdə dərdinə dəyə bilər. Məsələn, insan xəstələnərkən onun xəstəliyinə aid olan dərmanlar olduğu kimi, mənəvi xəstəliklərin dərmanları da vardır. Qeyd olunan amillər insanın son anlarında şeytanın ona qarşı etdiyi vəsvəsələrinin qarşısını kəsə bilir.

## Ehtizar halı insanın aqibətini müəyyənləşdirən andır

Ölüm halı Adəm övladının ən çətin anlarından biridir. Belə deyək ki, ehtizar halı insanın taleyinin və aqibətinin müəyyən olunduğu bir andır. İnsan ölüm ayağına düşüb canını tapşırarkən pərdələr kənara çəkilər və bütün həqiqətlər gözünə görünər.

Hədislərdə belə nəql olunur ki, insanın ölüm vaxtı yetişdikdə Əzrayıl(ə) onun gözünə gürünər və deyər: “Sənin ömrün qurtarıb. Bir neçə andan artıq vaxtın qalmayıb.” Bu zaman həmin insan o qədər təəssüflənir ki, bütün dünya onun olsa, öz günahlarını əfv etdirməkdən ötrü ömrünü bir saat artırmaq üçün əlində olan dünyanı Əzrayıla(ə) verməyə hazır olar. Lakin bu iş mümkün olmayacaq.”[1]

Günahkar insan bu halda keçmişdə etdiyi günahlara görə və eləcə də gələcəyinin bərbad olduğunu başa düşüb çox peşman olur. Elə bu halda da dünyasını dəyişir.

Hədislərdə belə nəql olunur ki, insan canını tapşırarkən gözlərindən pərdələr götürülür və Əzrayılı(ə)

[1] Üzürlü məmur, səh.26.

görür. Onu görən kimi öləcəyini başa düşür və Əzrayıla(ə) deyir: "Bircə gün mənə möhlət ver ki, tövbə edim. Əzrayıl(ə) deyir: Çox günləri əldən buraxmısan. İndi isə sənə möhlət verilməyəcək."

Elə o halda tövbə qapıları insanın üzünə bağlanar, ruhu təlatümə gələr, nəfəsi daralar və zay etdiyi ömrünə görə həsrət çəkər. Beləliklə də canını tapşırar.

Əgər Allahın hökmü onun barəsində səadət və xoşbəxtlik olsa, onun ruhu tövhidlə dünyadan ayrılacaq və aqibəti xeyir olacaq. Yox, əgər Allahın hökmü onun barəsində bədbəxtlik olsa, onun ruhu şəkk və iztirabla bədənindən çıxar və aqibəti puç olacaq."[1]

Cüneydi Bağdadi Bağdadda yaşayan böyük arif və alimlərdən biri idi. O, ömrünün son anlarında Allaha səcdə edib ağlamağa başladı. Ətrafına yığışan möminlər soruşdular: "Nə üçün ağlayırsan? Sənin bütün ömrün tövhid, zikr, elm və xidmətlə keçib. Bu ağlamağının səbəbi nədir? O dedi: Yetmiş il etdiyim bütün ibadətlərimin hamısını bir tükdən asılı vəziyyətdə görürəm. Külək də əsərək onu yellədir. Bilmirəm, bu külək fəzl küləyidir, yoxsa vəsl küləyi. Bilmirəm ki, bu ip qırıldıqda əməllərim cənnətə düşəcək, yoxsa cəhənnəmə."

Odur ki, ehtizar halı insanın taleyini və aqibətini müəyyənləşdirən bir andır. Buna görə də insan o halda çox narahat və qəmgin olur. Çünki aqibətinin necə olacağını gözləyir. Ya aqibəti xeyirlə qurtaracaq, ya da şərlə. İnsanın aqibətinin necə olacağı həmin an müəyyən olunur.

## Ölümü insana asanlaşdıran amillər

---

[1] Üzürlü məmur, səh.26.

## “Ədilə”də insana nicat verən amillər

Çox yaxşı olar ki, ölüm barədə bir mətləbə də diqqət yetirək. Həmin mətləb budur ki, insan ölüm ayağına düşdükdə hansı amillər ölümü insan üçün asanlaşdırar? Çünki ölüm insanın bu dünyaya olan əlaqələrini kəsən və axirət aləminə açılan birinci qapı və ilk addımdır. Bu qapıdan keçmək çox da asan bir şey deyil. Hədislərdə belə bəyan olunur ki, insanın ölüm anı ən çətin hallardan biridir. Ayə və hədislərə əsaslanaraq demək olar ki, bir sıra yaxşı əməllər vardır ki, əgər insan dünyada onlara riayət etsə, ölüm həmin şəxs üçün rahat və asan olacaq. Həmçinin bir sıra pis əməllər də vardır ki, ölümü insana çətinləşdirər. İnsanın ölümünün çətinliyi və ya asanlığının onun əməlləri ilə bağlılığı vardır. Yəni pis və ya yaxşı əməllər ölüm anında insana mütləq öz təsirini göstərməlidir. İnsanın xoşbəxt, yaxud bədbəxt olması da onun əməllərindən asılıdır. Burada ilk növbədə ölümü insana asanlaşdıran əməllərdən bir neçəsinə diqqət yetirək:

### 1. “Vərə” və təqva

Əqidə (tövhid, nübüvvət, imamət, məad və s. dinin prinsipləri) öz yerində olmaq şərtilə ölümü insana asanlaşdıran və insanı xoşbəxtliyə çatdıran mühüm amillərdən biri “vərə”, yaxud günahlardan çəkinməkdir. “Vərə” insanı günahlardan çəkindirən bir qüvvədir. Yəni insanla günah arasında pərdə yaradan qüvvəyə “vərə” deyilir. Bu, insan üçün çox mühüm amillərdəndir. İnsan günahla üz-üzə gəldikdə həmin qüvvə insanı günahdan saxlayır. Hər kəsdə belə bir qüvvə olsa, ölüm onun üçün asan və rahat olacaqdır. Əgər insan özünü günahlardan qoruya bilməsə, özündə “vərə” yarada bilməsə ruhu

murdarlaşar və aydındır ki, murdar insanı cənnətə də buraxmazlar.

قَالَ الصَّادِق(ع): أمّا المؤمنُ فما يُحِسُّ بخُروجِها، و ذلكَ قَولُ اللّهِ سبحانَهُ و تعالى: "يا أَيَّتُها النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَرْضِيَّةً" ذلكَ لِمَن كانَ وَرِعًا مُواسِيا لإخوانِهِ وَصُولاً لَهُم

-İmam Sadiq(ə) buyurur: “Mömin ölən zaman ruhunun çıxdığını hiss etməz. Bu həmin ayədir ki, Allah-təala buyurmuşdur: “Ey arxayın olmuş nəfs, dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə daxil ol!” Bu, günahlardan çəkinən və öz qardaşları ilə həmdərd olaraq onlarla qohumluq əlaqələri yaradan möminlərə aiddir.”[1]

Hər kəs özü ilə günah arasında bir pərdə yarada bilsə, dünyadan gedərkən ruhunun bədənindən çıxmasını hiss etməz. Sanki bir dəstə gülü iyləmiş və məst olmuşdur. Onun canını elə rahatlıqla alarlar ki, heç bir narahatlıq hiss etməz.

في حَديثِ المِعراجِ: يا أحمدُ، علَيكَ بِالوَرَعِ؛ فإنّ الوَرَعَ رأسُ الدِّينِ و وسَطُ الدِّينِ و آخِرُ الدِّينِ... إنّ الوَرَعَ كالشُّنوفِ بَينَ الحُلِيِّ و الخُبزِ بَينَ الطَّعامِ، إنَّ الوَرَعَ رأسُ الإيمانِ و عِمادُ الدِّينِ، إنّ الوَرَعَ مَثَلُهُ كمَثَلِ السَّفينَةِ؛ كما أنَّ فِي البَحرِ لا يَنجو إلاّ مَن كانَ فيها

Merac gecəsi Allah-təala Həzrət Peyğəmbərə(s) buyurdu: “Ey Əhməd, sənə günahlardan çəkinməyi tapşırıram. Çünki bu, dinin əvvəli (əsası), ortası və

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis19117.

axırıdır. (Yəni dinin hamısı günahlardan çəkinməkdir. Əgər "vərə" olmasa, insanda din qalmaz.) Sırğa zinət əşyalarının arasında fərqləndiyi kimi, çörək yeməklərin içərisində seçildiyi kimi, "vərə" də əməllərin içərisində seçilir. "Vərə"nin məsəli gəminin məsəlinə bənzəyir. Dənizlərdə gəmi insana (boğulmaqdan) nicat verdiyi kimi, "vərə" də insana nicat verir."[1]

Günahlardan çəkinmə insanı təhlükələrdən qoruyan amildir. Günah insan üçün ən böyük təhlükə olduğundan onun qarşısını alan ən mühüm amil də məhz "vərə"dir.

Kitablarda qeyd olunmuşdur ki, Mədinədə bir nəfərin paltarından çox gözəl ətir iyi gəlirmiş. Bir gün dostları ondan soruşurlar ki, istifadə etdiyin bu ətri haradan almısan? Biz çox ətirlər almışıq, amma belə xoşrayihəlisini tapa bilmirik. Hətta xalis müşk ənbərdən belə gözəl iy gəlmir. Həmin şəxs deyir: "Bunun bir sirri vardır. Dostları deyir: Xahiş edirik ki, o sirri bizim üçün də açasan. O deyir: Bunun sirrini deyə bilmərəm. Çox xahiş etdilər, amma o danışmadı. Axırda ona and verdilər ki, bunun sirrini açsın. O, axırda razılaşıb dedi: Sizə bunun sirrini deyərəm, amma şərtim budur ki, mən ölənə qədər bunu heç kəsə danışmayacaqsınız. Hamı razılaşdıqdan sonra o, başına gələn əhvalatı danışmağa başladı:

-Gənc yaşlarımda mən çox yaraşıqlı bir oğlan idim. Bazarda parça satmaqla məşğul olurdum. Günlərin birində bir xanım mənə yaxınlaşdı və xeyli parça aldı. Sonra mənə dedi: "Səndən xahiş edirəm ki, bu parçaları evimə aparmaqda mənə kömək edəsən. Yaşadığım ev çox da uzaqda deyil. Evə çatdıqda sənin pulunu da verərəm."

---

[1] Mizanül-hikmə,14-cü cild, hədis 21592.

Mən parçaları götürüb o xanımın ardınca düşdüm. Evlərinə çatdıqda o, içəri daxil oldu. Mən də qapının ağzında onu gözləməyə başladım. Bir neçə dəqiqədən sonra başqa bir adam qapını açıb məni içəri dəvət etdi. İçəri girdikdə gördüm ki, çox gözəl evləri var. Parçaları yerə qoyub bir tərəfdə əyləşdim. Qulluqçular mənə qulluq etməyə başladılar. Onlara dedim: Mənə qulluq lazım deyil. Parçanın pulunu versəydiniz gedərdim. Elə bu zaman məndən parça alan qadın içəri daxil oldu və üzünü açdı. Ona baxdıqda gördüm ki, çox gözəl bir qadındır. Gəlib mənim yanımda əyləşdikdən sonra dedi: “Mənə parça lazım deyildi. Sənə gözüm düşdüyü üçün bu bəhanə ilə səni evimə gətirmişəm. Səni çoxdan görmüşəm və sənin arzunla yaşayıram. Sən bu gün mütləq mənimlə olmalısan.” Tələyə düşdüyümü görüb ona dedim: Bu iş haramdır. Dedi: Mənə dəxli yoxdur. Mütləq səninlə istədiyimi edəcəyəm. Mən ona nə qədər üzr gətirdimsə xeyri olmadı. Qulluqçularına göstəriş verdi ki, məni tutub əl-ayağımı bağlasınlar. Əl-ayağımı bağladıqdan sonra mənə dedi: Sən ya bu gün mənim dediyimi edəcəksən, ya da səni öldürəcəyəm. Elə o andaca Allaha təvəkkül edib ürəkdən Onu səslədim. Birdən kimsə sanki bu ayəni qulağıma oxudu: “Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub və nəfsini saxlamışsa, şübhəsiz, onun yeri cənnətdir.” Bədənim əsməyə başladı. Bir tərəfdən əl-ayağımın bağlı olması, bir tərəfdən şeytanın vəsvəsəsi, digər tərəfdən isə qadının təzyiqi məni çox narahat edirdi. Allaha təvəkkül etdiyim üçün elə həmin halda ağlıma bir fikir gəldi. Qadına dedim: Yaxşı, mən səninlə razılaşaram. İcazə verin, ayaqyoluna gedim. Əl-ayağımı açıb məni buraxdılar. Ayaqyoluna girib nəcisi bütün paltarıma yaxdım. Sonra çıxıb həmin qadının

qarşısında dayandım. Qadın məni görüb iyrəndi və evindən qovdu. Mən qaça-qaça özümü şəhərin kənarındakı bir bulağın başına yetirdim. Elə oradaca Allaha belə bir minacat etdim: "İlahi, mənim paltarım və bədənim murdar oldu. Amma Sənin lütfünlə ruhumu murdar etməyə razı olmadım. Şükürlər olsun Sənə ki, ruhumu murdar olmağa qoymadın."

Sonra paltarlarımı çıxarıb bulaqda yudum. Daşın üzərinə sərib qurumasını gözləyirdim ki, birdən nurani bir insan mənə yaxınlaşıb dedi: "Sən Allahın əzəmətini yadına salaraq öz nəfsi istəklərini ayaqlarının altına atdın. Buna görə də sənə bir dəst paltar və bir ətir gətirmişəm." Mən onun gətirdiyi paltarı əynimə geyinib, həmin ətirlə özümü ətirlədim. Başımı qaldırdıqda gördüm ki, həmin adam yanımda yoxdur. Bu hadisənin üstündən neçə illər keçib. Amma nə həmin paltar köhnəlir, nə də o ətrin iyi bədənimdən gedir. Bu, həmin günahdan qorunduğum üçün Allahın mənə bu dünyada etdiyi bir mərhəmətdir. Axirətdə isə mənə nə verəcəyini bilmirəm."[1]

**2. Sileyi rəhm**

İnsana ölümü asanlaşdıran amillərdən ikincisi sileyi rəhmdir, yəni insanın öz qohum-əqrəbası, dostları ilə əlaqəsini kəsməməsidir. Sileyi rəhm barədə çoxlu hədis və rəvayət nəql olunmuşdur. Bu əməlin insanın dünya və axirəti üçün çox faydası və təsirləri vardır. Bəhsimizə uyğun olaraq həmin hədislərdən birini diqqətinizə çatdırıram:

---

[1] Naziat surəsi, ayə 40-41.

قَالَ الصَّادقُ(ع): مَن أحَبَّ أن يُخَفِّفَ اللّهُ عَزَّ و جلَّ عَنه سَكَراتِ المَوتِ، فلْيَكُنْ لقَرابَتِهِ وَصُولاً و بوالِدَيهِ بارّا ، فإذا كانَ كذلكَ هَوَّنَ اللّهُ عَزَّ و جلَّ علَيهِ سَكَراتِ المَوتِ

-İmam Sadiq(ə) buyurur: "Kim Allahın onun ölümünü asanlaşdırmasını istəyirsə, qohum-əqrəbasına baş çəksin və valideyninə yaxşılıq (qulluq) etsin. Belə olduqda Allah-təala həmin insanın ölümünü (ölümün bihuşluğunu) asanlaşdırar."[1]

**3. Ata-anaya yaxşılıq etmək**

İnsana ölüm ayağında nicat verən, ölümü onun üçün asanlaşdıran amillərdən üçüncüsü ata-anaya yaxşılıq və xidmət etməkdir. Demək olar ki, hər bir kəs valideynlərə qarşı mehriban olmaq və onların üzünə ağ olmamaq barədə ayə və hədislərlə tanışdır. Həm Quran ayələrində, həm də bir çox hədislərdə təkid olunur ki, insan öz valideynlərinə qarşı mehriban, xoşrəftar olmalı və onların üzünə ağ olmamalıdır. Valideynlərə xidmət etməyin, onlarla gözəl davranmağın insanın dünya və axirətinə də çox böyük faydaları vardır. Hətta yuxarıdakı hədisdə də qeyd olunduğu kimi, valideynlərinə xidmət edən və onlarla xoşrəftar olan insan can verərkən Allah ölümü onun üçün asanlaşdırar.

Həzrət Əli(ə) buyurur: "Can verən kəs valideyninə yaxşılıq edən insan olsa, Ölüm mələyi onun üzünə gülər.

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19237.

Yox, əgər valideynin üzünə ağ olan insan olsa, Əzrayıl onun üzünə qəzəblə baxar.”[1]

**4. Camaatla həmdərd olmaq və yoxsullara əl tutmaq**

Əgər kimsə öz həyatında camaatla qaynayıb qarışan, onların dərdinə şərik olan, yoxsullara baş çəkən və öz (dini) qardaşlarına yardım əli uzadan bir insan olsa, Allah-təala belə bir şəxsə ölümü asan və rahat edər.

Qeyd etmək lazımdır ki, yaxşılıq etmək və imkansızlara əl tutmaq nə qədər gizli olsa, bir o qədər yaxşıdır. Əgər insan bu işi başqalarının gözü qarşısında görmüş olsa da belə heç bir eybi yoxdur. Amma gizli yaxşılıqla aşkarda olunan yaxşılığın savab fərqi vardır. Hər iki halda bu iş Allaha xatir olmalıdır. Təkcə bu deyil, hər hansı bir əməl Allaha xatir olmasa, onun savab və əcri olmayacaq. Məsələn, bir insan yaşlı bir insanın ayaqqabılarını cütləyir və yaxud geyinməkdə ona kömək edir. Ürəyində niyyət edir ki, Allah ağsaqqala ehtiram göstərməyi tövsiyə etdiyi üçün mən də Ona xatir bu işi görürəm. Onun bu əməli ibadət hesab olunur. Çünki bu işi Allaha xatir görmüşdür. Ona görə də insan Allah bəyənən hər hansı bir işi sırf Allaha xatir görərsə, o, ibadət etmişdir.

Bu ibadətlərin hansının qəbul olub-olmamasını heç bir kəs bilmir. İnsan əməllərinin hansının qəbul olunduğunu bilmir. Ola bilsin ki, insan bir iş görmüş olsun və onu bəzəyib düzəsin və elə hesab etsin ki, Allah onun bu əməlini qəbul edib. Mümkündür ki, onun bəzəyib-düzədiyi bu əməlin ölçüsü qiymət verən Allahın ölçüsü ilə

---

[1] Üzürlü məmur, səh.29.

düz gəlməsin. Allahın ölçüsünün əsas şərti budur ki, insanın gördüyü hər nası bir əməl sırf Ona xatir olmuş olsun. Əgər insanın əməli Allaha xatir olsa, bu işdən yorulmaz, minnət qoymaz, etdiyini dilə gətirməz və bu əməlini heç yerdə danışmaz. Allahın onun etdiyindən xəbərdar olması ona bəs edər. Kiminsə onu tərifləməsini, etdiyi iş barədə danışmasını xoşlamaz. Buna görə də əməllərin qəbul olunub-olunmaması insanın niyyətindən asılıdır.

Məsələn, yaşlı bir insan məclisə daxil olduqda bir nəfər niyyət edib Allaha xatir ayağa qalxaraq öz yerini ona verir. Ola bilsin ki, başqa birisi çox oturduğuna görə beli ağrıyır və qoca bir kişinin içəri girdiyini görüb ayağa qalxır. Ürəyindən keçir ki, həm bir az ayaq üstə qalsın və belinin ağrısı keçsin, həm də camaat elə bilsin ki, həmin bu kişiyə hörmət etmişdir. Hər bir halda Allah insanların ürəklərindən keçən bütün niyyətlərdən xəbərdardır. Allah bəyəndiyi əməlləri qəbul edəcək, bəyənmədiyi əməlləri isə götürməyəcək. Məsələn, bəzi insanlar əşyaları yerbəyer edərkən özlərinə lazım olanları götürür, qalanlarını isə uşaqlara paylayırlar. Ola bilsin ki, həmin əşyaların içində yaxşı və təzə əşyalar da olmuş olsun, amma ona lazım deyil. Deyir ki, kim istəyir götürsün, mənə lazım deyil. İnsanın əməlləri də belədir. Qiyamət günündə də belə olacaq. Allah yalnız bəyəndiyi və Özünə aid olan əməlləri götürəcək. Ola bilsin ki, insanın əməli zahirdə çox gözəl olmuş olsun. Amma ixlasla görülmədiyi üçün Allah onu qəbul etməyəcək. Allahın Öz ölçüsü vardır ki, bəyəndiyi əməllər də bu ölçülər əsasındadır. Allahın ölçüsündə də hər bir əməlin başında niyyət dayanır. Kimə görə və nə üçün etmisən?

Odur ki, əgər insan sırf Allaha xatir camaatın dərdinə şərik olsa, mömin qardaşlarına əl tutsa, can verərkən Allah-təala ölümü ona asanlaşdırar. Əlbəttə, bunu da bilmək lazımdır ki, bir yoxsula ömründə bir dəfə əl tutan insana dərdə dəyən adam deməzlər. Ömürdə bir dəfə düz danışmaqla adama düz danışan deyilmədiyi kimi, insan ömründə bir dəfə yaxşılıq etməklə də yaxşı adam hesab olunmur. Yaxşı adam odur ki, etdiyi yaxşılığı həmişə etsin və bir dəfə ilə kifayətlənməsin. Lazım da deyil ki, insan niyyətində çoxlu pul tutmuş olsun. Söhbət pulun çoxluğundan, yaxud azlığından getmir. Söhbət ondadır ki, insan imkan daxilində əlindən gələni əsirgəməsin və bu işi davamlı şəkildə görsün.

Hər bir kəs yaşadığı məntəqədəki yoxsul insanları tanıyır. Əgər tanımırsa, axtarıb tapa bilər. Məsələn, elə bir yoxsul adam tapa bilər ki, öz abrını qoruyaraq kiməsə ağız açmır. Beləcə, ona əlindən gələn qədərköməklik göstərə bilər. Amma bunu da qeyd etmək lazımdır ki, bəzən insan niyyətinə fəsad məsələləri qarışdırmamalıdır. Məsələn, bəzi ailələr var ki, çox imkansızdırlar və heç bir kəsə də ağız açmırlar. Əgər evin kişisi varsa, onunla əlaqə saxlayıb həmin ailəyə əl tutmaq olar. Yox, əgər kişi dünyasını dəyişib, qadın da öz abrını qoruyaraq yetimlərini saxlayırsa, bu zaman sənin ora getməyin və yardım göstərməyin düzgün deyil. Bu iş üçün öz həyat yoldaşını, yaxud qonşunu vasitəçi kimi istifadə edə bilərsən. Əks təqdirdə bu işin fəsada düşmək ehtimalı ola bilər. Həmçinin qohum-əqrəbada yaşlı bir insana baş çəkmək, yaxud ən azından telefonla əlaqə yaradıb hal-əhval tutmaq da mühüm məsələlərdəndir. Xüsusilə yaşlı insanlar həmişə tanışlarından nəsə umurlar və istəyirlər ki, onlara baş çəksinlər və hal-əhval tutsunlar. Əgər hər kəs

qohum- əqrəbasına baş çəksə, öz qardaşlarının dərdinə şərik olub onlara əl tutsa, bu əməlin xüsusiyyətlərindən biri odur ki, insanın ölümünü asanlaşdırar.

قَالَ الصَّادِق(ع): أمّا المؤمنُ فما يُحِسُّ بخُروجِها، و ذلكَ قَولُ اللّهِ سبحانَهُ و تعالى: "يا أَيَّتُها النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَرْضِيَّةً" ذلكَ لِمَن كانَ وَرِعًا مُواسِيا لإخوانِهِ وَصُولاً لَهُم

-İmam Sadiq(ə) buyurur: “Mömin ölən zaman ruhunun çıxdığını hiss etməz. Bu həmin ayədir ki, Allah-təala buyurmuşdur: “Ey arxayın olmuş nəfs, dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə daxil ol!” Bu, günahlardan çəkinən və öz qardaşları ilə həmdərd olaraq onlarla əlaqələri kəsməyən möminlərə aiddir.”[1]

قَالَ الصَّادِق(ع): مَنْ كَسَا أَخَاهُ كِسْوَةَ شِتَاءٍ أَوْ صَيْفٍ كَانَ حَقّاً عَلَى اللَّهِ أَنْ يَكْسُوَهُ مِنْ ثِيَابِ الْجَنَّةِ وَ أَنْ يُهَوِّنَ عَلَيْهِ سَكَرَاتِ الْمَوْتِ وَ أَنْ يُوَسِّعَ عَلَيْهِ فِي قَبْرِهِ وَ أَنْ يَلْقَى الْمَلَائِكَةَ إِذَا خَرَجَ مِنْ قَبْرِهِ بِالْبُشْرَى وَ هُوَ قَوْلُ اللَّهِ عَزَّ وَ جَلَّ فِي كِتَابِهِ "وَ تَتَلَقّاهُمُ الْمَلائِكَةُ هذا يَوْمُكُمُ الَّذِي كُنْتُمْ تُوعَدُونَ"

-İmam Sadiq(ə) buyurur: “Hər kim öz (imkansız) qardaşına qış və yaxud yay paltarı geyindirsə, Allah-təala həmin şəxsə cənnət libası geyindirməyi Özünə haqq bilər. Ölümün çətinliklərini ona asan edər, qəbrini genişləndirər, (qiyamət günü) qəbirdən qalxarkən mələklər onun

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19117.

görüşünə gəlib müjdələyərlər. Necə ki, Allah-təala buyurmuşdur: "Və mələklər onları (təbriklə) qarşılayar(aq deyərlər): "Bu, (dünyada) sizə vəd olunmuş həmin o gününüzdür.[1]"[2]

**5. Rəcəb ayının yeddinci gecəsinin namazı**

İnsana ölümü asanlaşdıran amillərdən biri rəcəb ayının 6-dan 7-nə keçən gecəsinin namazıdır. Bu namazın qılınma qaydası belədir: "Dörd rükətli müstəhəb namazdır ki, hər bir rükətdə 1 dəfə "Həmd" surəsi, 3 dəfə "Tövhid" surəsi, bir dəfə də "Nas" və "Fələq" surələri oxunur. Namaz qurtardıqdan sonra 10 dəfə salavat, 10 dəfə Təsbihati-ərbəə (Subhanallah, vəlhəmdülillah, və la ilahə illəllahu vəllahu Əkbər) deyilir."

Bir daha qeyd edək ki, ölüm insanın ən çətin hallarından biridir. Saydığımız bu amillər isə insana ölümü asanlaşdıran əməllərdir. Əgər insan ölümün necə çətin bir hal olduğunu başa düşsə, məsələnin çox ciddi olduğunu anlasa, bu əməllərə bacardığı qədər riayət edər və xüsusən rəcəb ayının 7-ci gecəsinin namazını yaddan çıxarmaz. Məsələn, bəzən insan ciddi bir problemi olmasa da belə həkimə gedib özünü müayinə etdirir. Həkim onu müayinə etdikdən sonra müəyyən dərmanlar yazır. Əgər o xəstədə ciddi problem olmasa, məsələyə yüngül yanaşaraq həkimin yazdığı dərmanlardan axıra qədər istifadə etməyəcək. Bir neçə gün istifadə etdikdən sonra dərman içməyi yadından çıxaracaq. Yox, əgər onun xəstəliyi çox ciddi və qorxulu olarsa, həkimin yazdığı dərmanlardan

---

[1] Ənbiya surəsi, ayə 103.
[2] Üsuli-Kafi,1-ci cild, səh.292.

vaxtlı-vaxtında istifadə edəcək. Hətta hansı dərmanı nə vaxt içəcəyini dəqiqcəsinə yadında saxlayar.

Bəzi dərmanlar var ki, yeməkdən əvvəl, bəzisi yeməkdən sonra, bəzisi yeməyin arasında, bəzisi gündə bir dəfə, bəzisi gündə üç dəfə və s. istifadə olunmalıdır. Həkimin yazdığı reseptə tam riayət olunmalıdır. Əks təqdirdə xəstə öz xəstəliyini aradan qaldıra bilməyəcək. İnsanda qorxulu və ciddi bir xəstəlik olduqda həkimin bütün göstərişlərinə və yazdığı dərmanlara dəqiqliklə riayət edir və heç nəyi yadından çıxarmır. Bir yerə gedəsi də olsa dərmanlarını özü ilə aparır ki, vaxtlı-vaxtında qəbul etsin. Bir sözlə desək, problem ciddi olduğu üçün məsələyə də son dərəcə ciddi yanaşır. Beləcə ölümü qorxulu və ciddi bir məsələ kimi başa düşməyən insanlar ölümü asanlaşdıran məsələlərə də ciddi yanaşmırlar. Belə olduqda rəcəb ayının 7-si keçdikdən sonra yadına düşür ki, həmin gecə namaz qılmalı idi. Əgər bir insan ölümün belə ciddi, qorxulu olacağını başa düşsə və buna görə nigaran olsa, daim onun fikrində olar və çıxış yolu üçün göstərilən əməllərə dəqiqliklə riayət edər.

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bu namazı qılsa, Allah-təala həmin şəxsi (qiyamət günü) ərşin kölgəsində qərar verər, ona ramazan ayının orucunun savabını inayət edər, namazı qılıb qurtarana qədər mələklər onun üçün Allahdan bağışlanmaq diləyərlər. Həmçinin ölərkən canını rahat tapşırar, qəbir əzabı yüngülləşər, dünyadan gedərkən cənnətdəki məqamını görər və Allah-təala onu böyük qorxulu gündə (Fəzəi əkbərdə) amanda saxlayar."[1]

---

[1] Qəbir əzabları, səh. 16.

Sual oluna bilər ki, görəsən, "Fəzəi əkbər" nədir? Bu məsələyə həm Quranda işarə olunmuş, həm də onun barəsində hədislərdə müfəssəl bəhs olunmuşdur. Həzrət Peyğəmbər(s) bəzən iman gətirməyən, amma Həzrətlə(s) münasibətlərini saxlayan insanlara bu haqda danışar və onları başa salardı. Həmin söhbətlərdən biri belədir:

-Həzrət Peyğəmbər(s) Təbuk müharibəsini qələbə ilə başa vurdu. Şəhərə qayıdarkən camaat İslam döyüşçülərini qarşılamağa çıxdı. Əmr adlı bir nəfər də camaata qoşuldu. O, iman gətirməmişdi, amma Həzrət Peyğəmbərlə(s) münasibəti yaxşı olduğundan Həzrəti(s) qarşılamağa çıxmışdı. Həzrət Peyğəmbər(s) camaatla görüşdükdə Əmr də onun gözünə sataşdı. Əmrin isti havada zəhmət çəkib onu qarşılamaq üçün uzaq yol gəldiyini görən Peyğəmbər(s) onun halına yandı.[1] Üzünü ona tutaraq buyurdu: "Ey Əmr, zəhmət çəkib gəldiyin üçün qoy mən də sənin haqqını ödəyim. Gəl, İslamı qəbul et ki, Allah da səni "Fəzəi əkbər"də amanda saxlasın. Əmr ərz etdi: "Fəzəi əkbər" nədir? Mən ondan qorxmuram. Peyğəmbər(s) buyurdu: Bu, sən fikirləşdiyin kimi deyil. Sən onun nə olduğunu və nə baş verəcəyini bilmədiyin üçün qorxmursan. "Fəzəi əkbər" o gündür ki, Allahın əmri ilə qorxulu bir səs gələcək. O səsin vəhşətindən dirilər ölər, ölülər dirilər. İkinci dəfə həmin səs gəldikdə onun vəhşətindən hamı torpaqdan qalxıb bir cərgəyə düzülərək məhşərə gələcək. Göy yarılacaq və yer dağılacaq. Dağlar parçalanıb toz olacaq. O gün elə bir

---

[1] Çünki Allaha iman gətirməyən, amma yaxşı xüsusiyyətlərə malik olan insanlara qiyamət günü etdikləri yaxşılıqların heç bir faydası olmayacaq. Buna görə də Peyğəmbərin(s) ürəyi onun halına yandı.

canlı (xüsusilə insan) olmayacaq ki, qorxudan ürəyi qopmasın. O gün hamının yadına öz dini düşəcək. (Heç bir kəsin yadına övladı, ata-anası, sərvəti və s. düşməyəcək. Çünki orada insanın dərdinə dəyən yeganə şey Allahın dinidir.) Ey Əmr, həmin gün sən harada olacaqsan? Əmr fikir dəryasına qərq oldu. Sonra belə ərz etdi: Ya Rəsulallah, çox təəccüblü və böyük hadisənin baş verəcəyini eşidirəm. Mənə etdiyin bu təklifdə maddi maraq ummadığını, yalnız mən öldükdən sonra halıma acıdığını və mənə həmin gündən nicat yolunu öyrətdiyini görürəm. Sözlərində ruhaniyyət və nuraniyyətdən başqa bir şey görmürəm. Sən yalnız mənim halımı düşünür və aqibətimin, ölümdən sonrakı vəziyyətimin yaxşı olmasını düşünürsən. Buna görə də mən sənə iman gətirirəm."[1]

**6. İmam Hüseynə(ə) əzadarlıq etmək**

İnsana ölümü asanlaşdıran amillərdən biri də İmam Hüseyə(ə) əzadarlıq etməkdir. Əgər insan eşq və məhəbbətlə Həzrətin(ə) əzadarlığında əlindən gələn qədər iştirak etsə, bu əzadarlıq çox yerdə onun dərdinə dəyəcək. Əzadarlığın müxtəlif yolları vardır. Qara geyinməklə, mərsiyə oxumaqla, ehsan süfrəsi açmaqla, rövzə deyib ağlamaqla, məclislərdə qulluq etmək, ziyarətə getmək və s. kimi əməllərlə əzadarlıq saxlamaq olar. Bəzi insanlar bütün bunları etməyə imkanları olduğu üçün edirlər. Bəzisi qara paltar geyməklə, bəzisi ağlamaqla, bəzsisi rövzə deyib ağlatmaqla öz əzadarlığını bildirir. Bir sözlə desək, hər bir kəsin əlindən gələn qədər İmam Hüseynə(ə) hüzn saxlaması və əzadarlıq etməsi məqbuldur. Bütün

---

[1] Qəbir əzabları, səh. 16.

bunlarla hər bir insan İmam Hüseynin(ə) əzadarlığına öz hörmətini və münasibətini bildirir.

İmam Sadiqin(ə) zamanında İraqda yaşayan qazilərdən biri Həzrəti(ə) çox istəyir və ona böyük ehtiram bəsləyirdi. Hərdənbir gizlicə İmamın(ə) hüzuruna da gəlib söhbət edirdi. Dövlət məmuru olduğu üçün İmamla(ə) gizli görüşürdü. Əgər onun İmamla(ə) əlaqəsi olduğunu bilsəydilər, çox incidə bilərdilər. Günlərin birində həmin qazi yenə də İmamın(ə) hüzuruna getmişdi. İmam(ə) Mədinədə yaşadığı üçün ondan soruşdu: "İraqda İmam Hüseynin(ə) ziyarətinə gedirsənmi? O dedi: Ağa, biz nəzarət altında yaşadığımız üçün mən ora gedə bilmirəm. Biz orada təşkilatın qazilərindənik. Əgər sizinlə bir yerdə olduğumu bilsələr, məni orada işləməyə qoymazlar. Biz möminlərə köməyimiz dəysin deyə orada işləyirik. İmam(ə) soruşdu: Elə isə de görüm, İmam Hüseynə(ə) əza saxlayırsanmı? O dedi: Bəli. İmam(ə) Soruşdu: Onu yad edərkən gözlərindən yaş axırmı? O dedi: Ey Peyğəmbər övladı, hərdən İmam Hüseyn(ə) yadıma düşdükdə o qədər ağlayıram ki, boğazım quruyur. Yemək yeyərkən onu xatırladıqda o qədər ağlayıram ki, iştaham kəsilir və daha yemək istəmirəm. İmam Sadiq(ə) buyurdu: Sənə müjdə verirəm ki, İmam Hüseynə(ə) etdiyin bu əzadarlıq beş yerdə sənin dərdinə dəyəcək: can verən zaman, qəbirdə, bərzəxdə, qiyamətdə və hesab-kitab zamanı. (Bütün bu kimi hallarda İmam Hüseyn(ə) sənin yanında olacaq.)"

Hədislərdə belə nəql olunur ki, hər kim aşura günü bütün işlərini bir kənara qoyub İmam Hüseynə(ə) əzadarlıq etsə və o günü özünə qəm, müsibət, hüzn və ağlamaq günü qərar verərsə, Allah-təala qiyamət gününü onun üçün sevinc və fərəh günü qərar verər.

**7. Rəcəb ayının orucları**

Ölümü insan üçün asanlaşdıran və qorxunu götürən amillərdən biri rəcəb ayında 24 gün oruc tutmaqdır. Ümumiyyətlə, rəcəb ayının şərafət və fəzilətləri haqda çox söhbət etmək olar. Amma bəhsimizə uyğun olaraq bu fəziləti qeyd etdim. Hədislərdə belə nəql olunur ki, hər kim əgər rəcəb ayında 24 gün oruc tutsa, ölüm anında cənab Əzrayıl(ə) yaraşıqlı bir gəncin surətində gələr və onun canını alarkən ona bir qədəh cənnət şərabı içirdər. Beləcə, həmin insana ölümün çətinliyi asanlaşar.[1]

Rəcəb, şəban və xüsusilə ramazan ayının çoxlu şərafət və fəzilətləri vardır. Hər bir insan bu aylardan öz bəhrəsini götürə bilər. Buna görə də insan gərək bu fürsətləri əldən verməsin. Ramazan ayının orucu vacib olmaqla yanaşı, onun xüsusi fəzilətləri də vardır. Rəcəb və şəban aylarında oruc tutmağın müstəhəb olmasına baxmayaraq, həmin bu ayların da xüsusi şərafət və üstünlükləri vardır. Bu aylarda hətta ən azından bircə gün belə müstəhəb oruc tutmağın da böyük savab və təsirləri vardır.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələri ilə bir qəbiristanlığın kənarından keçirdi. Birdən Peyğəmbər(s) qəbirlərdən birinin kənarında dayandı və dua etməyə başladı. Soruşdular: "Ya Rəsulallah, nə üçün məhz bu qəbrin kənarında dayanıb dua etdin? Peyğəmbər(s) buyurdu: Bu qəbirdə yatan məni səslədi. Gördüm ki, ona əzab verirlər. Buna görə də ona dua etdim və Allahdan bağışlanmasını dilədim. Allah mənim dualarıma xatir onu bağışladı və onun üstündən əzabı

[1] Qəbir əzabları, səh. 16.

götürdü. Əgər bu insan rəcəb ayında bircə gün oruc tutsaydı, qəbirdə ona belə əzab verməzdilər.”

İmam Sadiq(ə) buyurur: “Hər kim rəcəb ayının axırlarında bircə gün oruc tutsa, Allah-təala onu ölümün çətinliklərindən, ölümdən sonrakı qorxulardan və qəbir əzabından amanda saxlayar.”[1]

**8. “Zəlzələ” surəsini oxumaq**

İnsana ölümü asanlaşdıran amillərdən biri “Zəlzələ” surəsini oxumaqdır. Yəni Quranın bütün surələri insanın mənəviyyatı üçün faydalıdır. Amma bu surənin xüsusi təsirlərindən biri də budur ki, hər kəs həyatında bu surəni tez-tez oxusa, ölüm zamanı canını rahat tapşırar və ölüm anı onun üçün rahat keçər.

عَنْ أَبِي عَبْدِ اللَّهِ(ع): أَنَّهُ قَالَ لَا تَمَلُّوا مِنْ قِرَاءَةِ إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا فَإِنَّهُ مَنْ كَانَتْ قِرَاءَتُهُ بِهَا فِي نَوَافِلِهِ... وَ إِذَا مَاتَ نَزَلَ عَلَيْهِ مَلَكٌ كَرِيمٌ مِنْ عِنْدِ رَبِّهِ فَيَقْعُدُ عِنْدَ رَأْسِهِ فَيَقُولُ يَا مَلَكَ الْمَوْتِ ارْفُقْ بِوَلِيِّ اللَّهِ فَإِنَّهُ كَانَ كَثِيراً مَا يَذْكُرُنِي وَ يَذْكُرُ تِلَاوَةَ هَذِهِ السُّورَةِ وَ تَقُولُ لَهُ السُّورَةُ مِثْلَ ذَلِكَ وَ يَقُولُ مَلَكُ الْمَوْتِ قَدْ أَمَرَنِي رَبِّي أَنْ أَسْمَعَ لَهُ وَ أُطِيعَ وَ لَا أُخْرِجَ رُوحَهُ حَتَّى يَأْمُرَنِي بِذَلِكَ فَإِذَا أَمَرَنِي أَخْرَجْتُ رُوحَهُ وَ لَا يَزَالُ مَلَكُ الْمَوْتِ عِنْدَهُ حَتَّى يَأْمُرَهُ بِقَبْضِ رُوحِهِ وَ إِذَا كُشِفَ لَهُ الْغِطَاءُ فَيَرَى مَنَازِلَهُ فِي الْجَنَّةِ فَيُخْرِجُ رُوحَهُ مِنْ أَلْيَنِ مَا

[1] Qəbir əzabları, səh. 15.

يَكُونُ مِنَ الْعِلَاجِ ثُمَّ يُشَيِّعُ رُوحَهُ إِلَى الْجَنَّةِ سَبْعُونَ أَلْفَ مَلَكٍ يَبْتَدِرُونَ بِهَا إِلَى الْجَنَّةِ

-İmam Sadiq(ə) buyurur: "İza zulzilətil ərzu zilzaləha" surəsini oxumaqdan yorulmayın. Çünki hər kəs namazlarda bu surəni oxusa,... ölən zaman Allah tərəfindən kərim bir mələk nazil olub onun başı üzərində dayanar və Əzrayıla(ə) deyər: Allahın dostu ilə xoş rəftar et və onun canını asan al. Çünki bu insan məni çox yad etmiş və bu surəni çox oxumuşdur. Həmçinin "Zəlzələ" surəsi də mücəssəm surətdə onun başı üzərində dayanıb Əzrayıla(ə) həmin sözləri deyər. Əzrayıl onların cavabında belə deyər: Allahım mənə əmr verib ki, mən bunun itaətində dayanım. (Əcəli çatmış bu insan) özü göstəriş verənə qədər onun canını almayacağam.

Pərdələr onun (həmin can verən bəndənin) gözündən götürüldükdə cənnətdəki mənzil və məqamlarını görər. (Cənnətə getmək üçün canının tez çıxmasını istəyər.) Beləliklə ruhu bədənindən çox rahatlıqla çıxar. Sonra yetmiş min mələk onu müşayiət edər və tələsə-tələsə onu cənnətə aparарlar."[1]

### 9. Aşağıdakı zikri oxumaq

İnsana ölümü asanlaşdıran amillərdən biri gündə yetmiş dəfə bu zikri deməkdir:

يَا أَسْمَعَ السَّامِعِينَ وَ يَا أَبْصَرَ الْمُبْصِرِينَ وَ يَا أَسْرَعَ الْحَاسِبِينَ وَ يَا أَحْكَمَ الْحَاكِمِينَ

[1] Üsuli-Kafi,4-cü cild, səh.434.

-Ey eşidənlərin (ən yaxşı) eşidəni, ey görənlərin (ən yaxşı) görəni, ey hesab edənlərin ən tez hesab edəni və ey hakimlərin hakimi.

Bu zikrin böyük fəzilətləri vardır. Onlardan biri də budur ki, gündə yetmiş dəfə bu zikri oxuyan insan can verərkən onu müjdələyərlər.[1]

**10. "Fərəc" kəlmələrini oxumaq**

İnsan üçün ölümü asan və rahat edən amillərdən biri gündə on dəfə "Kəlimatul fərəc" duasını oxumaqdır. Qeyd etmək lazımdır ki, bu zikr İmam Zamanın(ə.s) fərəc duası ilə fərqlidir. Bu duanın çox fəzilət və şərafəti vardır ki, həm dünyada, həm də ölən zaman insana nicat verir.

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim bu duanı gündə on dəfə (ürəkdən) oxusa, Allah-təala həmin insanı... ölümün çətinliklərindən, qəbrin sıxıntısından, qiyamətin qorxusundan, şeytan və onun qoşununun şərindən amanda saxlayar. Həmçinin borclardan və qəm-qüssədən azad olar. Həmin dua belədir:

أَعْدَدْتُ لِكُلِّ هَوْلٍ لَا إِلَهَ إِلَّا اللَهُ، وَ لِكُلِّ هَمٍّ وَ غَمٍّ مَا شَآءَ اللَهُ، وَ لِكُلِّ نِعْمَةٍ الْحَمْدُ لِلَّهِ، وَ لِكُلِّ رَخَآءٍ وَ شِدَّةٍ الشُّكْرُ لِلَّهِ، وَ لِكُلِّ أُعْجُوبَةٍ سُبْحَانَ اللَهِ، وَ لِكُلِّ ذَنْبٍ أَسْتَغْفِرُ اللَهَ، وَ لِكُلِّ مُصِيبَةٍ إِنَّا لِلَّهِ وَ إِنَّا إِلَيْهِ رَاجِعُونَ، وَ لِكُلِّ ضِيقٍ حَسْبِيَ اللَهُ، وَ لِكُلِّ قَضَآءٍ وَ

[1] Axirət mənzilləri, səh. 10.

قَدَرٍ تَوَكَّلْتُ عَلَى اللَهِ، وَ لِكُلِّ عَدُوٍّ اعْتَصَمْتُ بِاللَهِ، وَ لِكُلِّ طَاعَةٍ وَ مَعْصِيَةٍ لَا حَوْلَ وَ لَا قُوَّةَ إِلَّا بِاللَهِ الْعَلِيِّ الْعَظِيمِ

-Hər bir qorxu ilə üzləşdikdə (ondan nicat tapmaq üçün) özümü “La ilahə illəllah” - “Allahdan başqa heç bir məbud yoxdur” deməyə hazırlamışam. Hər bir kədərlə üzləşdikdə (qəm-qüssədən rahat olmaq üçün) “Maşallah”, “Allah istədiyi” deyərəm. Hər bir nemət üçün “Əlhəmdulillah” (“Həmd olsun Allaha”), hər bir rahatlıq üçün “Əşşukru lillah” (“Şükür olsun Allaha”) deyərəm. Qəribə və təəccüblü hallarla qarşılaşdıqda “Subhanallah” (“Allah pak və münəzzəhdir”) və hər bir günah üçün “Əstəğfirullah” (“Allahdan bağışlanmaq diləyirəm”) deyərəm. Hər hansı müsibətlə üzləşdikdə “İnna lillah və inna ileyhi raciun” (“Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq” deyərəm. Hər bir sıxıntı və çətinlikdə “Həsbiyəllah” (“Allah mənə bəs edər”) deyərəm. Hər bir qəzavü-qədərdə “Təvəkkəltu ələllah” (“Allaha təvəkkül edirəm, arxalanıram”) deyərəm. Hər hansı düşmənlə qarşı-qarşıya gəldikdə (nicat tapmaq üçün) “İtəsəmtu billah” (“Allahın ətəyindən yapışıram”) deyərəm. Hər itaət və günah üçün “La hövlə vəla quvvətə illa bilahil-əliyyil əzim” (“Uca və əzəmətli Allahın köməyindən başqa heç bir güc-qüvvə yoxdur.”)[1]

### 11. Özünü cənnət nemətləri ilə təşviq etmək

Ölümü insan üçün asanlaşdıran amillərdən biri budur ki, insanın özünü cənnət nemətləri ilə təşviq etməsidir.

[1] Mənazilül-axirə, səh. 10.

قَالَ عَلِيٌّ(ع): شَوِّقوا أنفُسَكُم الى نَعيمِ الجَنَّةِ تُحِبّوا الموتَ و تَمقُتوا الحَياةَ

-Həzrət Əli(ə) buyurur: "Ölümü sevməyiniz və dünyadan acığınız gəlməsi üçün özünüzü cənnətin nemətləri ilə təşviq edin."[1]

Əgər insan həmişə cənnətin nemətlərini xatırlasa, getdikcə dünyadan acığı gələr və ölümü xoşlayar. Yəni cənnətin nemətlərini xatırlayıb dünyanın nemətləri ilə müqayisə etdikdə insan cənnətin nemətlərinə tez çatmaq istəyər. Bunun üçün də ölümdən qorxmaz.

Günlərin birində Cabir ibn Abdullah Ənsari Həzrət Əlinin(ə) hüzurunda ikən dərindən ah çəkir. Həzrət Əli(ə) soruşur: "Dünya üçün ah çəkirsən, yoxsa axirətin üçün?

Cabir ərz edir: Dünya və ruzigar üçün.

Həzrət Əli(ə) buyurur: Dünyanın bütün ləzzətləri yeməlilər, içməlilər, fəxrli paltarlar, cinsi ləzzət, minik, gözəl ətir və nəğmələrdən başqa bir şey deyil. Yeməlilərdən ən şirini baldır ki, bir heyvanın (arının) qusmağıdır. İsməlilərdən ən yaxşısı sudur ki, hər yerdə vardır. Geyimlərin ən yaxşısı ipəkdir ki, bir heyvanın (baramanın) ağzının suyudur. Ən yaxşı cinsi ləzzət iki pis üzvün birləşməsidir. Ən yaxşı minik atdır ki, o da təhlükədir. (Ümid yoxdur ki, səni apardığın yerdən salamat qaytarsın). Ən gözəl qoxu müşk ənbərdir ki, heyvanın göbəyinin qanıdır. Ey Cabir, ağıllı insan bütün bunlara görə ah çəkərmi?

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19235.

Cabir deyir: And olsun Allaha ki, İmamın(ə) bu sözlərindən sonra heç bir vaxt dünya (istəkləri) ürəyimdən keçmədi.”

Odur ki, əgər insan dünya nemətləri ilə cənnət nemətlərini müqayisə etsə, nə qədər fərqli olduğunu görər və cənnətə getməyə həvəslənər. Belə olduqda ölümü rahatlıqla qəbul edər. Ölüm yadına düşdükdə daha ondan qorxmaz. Əgər insan dünya və cənnətin hər bir nemətini müqayisə etsə, ora getməyə can atar və cənnətə çatmaq üçün əlindən gələni əsirgəməz. Aşura gecəsi İmam Hüseyn(ə) onunla qalan səhabələrinə cənnətdəki məqamlarını göstərdi. Hər kəs öz yerini gördükdə səhərin tez açılmasını və döyüşün tez başlanmasını istəyir ki, şəhid olub cənnətə getsin.

### 12. Həzrət Əliyə(ə) məhəbbət və onun vilayətini qəbul etmək

İnsan üçün ölümü asan və rahat edən amillərdən biri də Həzrət Əlinin(ə) məhəbbət və vilayətidir. Əgər insan həqiqi mənada Həzrət Əlinin(ə) vilayət və imamətinə iman gətirsə, bu iman həmin şəxsin qəlbini və cismini nurani edər, ölümdən qorxmamağı bir tərəfə, ölümü eşqlə qarşılayar.

قَالَ رَسُولُ اللَّهِ(ص): حُبِّي وَ حُبُّ أَهْلِ بَيْتِي نَافِعٌ فِي سَبْعَةِ مَوَاطِنَ أَهْوَالُهُنَّ عَظِيمَةٌ عِنْدَ الْوَفَاةِ وَ فِي الْقَبْرِ وَ عِنْدَ النُّشُورِ وَ عِنْدَ الْكِتَابِ وَ عِنْدَ الْحِسَابِ وَ عِنْدَ الْمِيزَانِ وَ عِنْدَ الصِّرَاطِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Mənim və Əhli-beytimin məhəbbəti yeddi qorxulu halda insanın dərdinə

dəyəcək. Can verən zaman, qəbrə qoyulan zaman, qəbirdən qalxan zaman, nameyi-əməl verilən zaman, hesab-kitab olunan zaman, əməllərin ölçüləcəyi zaman və siratdan keçən zaman."[1]

Mərhum İmam Xomeyni(r) "Qırx hədis" kitabında belə bir hədis nəql edir: "Günlərin birində İmam Sadiq(ə) öz səhabələrinə belə buyurdu: Sizdən biriniz ehtizar halına (ölüm ayağına) düşdükdə Peyğəmbər(s), Əli(ə), imamlar, Cəbrayıl(ə), Mikayıl(ə) və Əzrayıl(ə) onun başı üzərində dayanarlar. Cəbrayıl(ə) Həzrət Peyğəmbərə(s) belə ərz edər: Ya Rəsulallah, bu mömin səni və Əhli-beytini sevirdi. Siz də onu sevin. Sonra Əzrayıla deyər: Bu bəndə Allahı və Peyğəmbərini(s) sevirdi, onunla mehriban ol. Əzrayıl(ə) həmin can verənə deyər: Ey Allahın bəndəsi, aman və azadlığını əldə edə bilmisənmi? Can verən şəxs deyər: Bəli. Əzrayıl(ə) soruşar: Nəyin vasitəsilə? O deyər: Əli ibn Əbu Talibin vilayətinin vasitəsilə. Əzrayıl(ə) deyər: Allah səni qorxduğun şeydən amanda saxladı və arzuna çatdırdı.

Həmin bəndəni qəbrə qoyduqdan sonra cənnət qapılarından biri onun üzünə açılar və ona deyərlər: Daxil ol cənnətə və gəlin öz otağında rahat yatdığı kimi yat."[2]

Həzrət Peyğəmbər(s) buyurur: "Göy əhlindən Əli ibn Əbu Talibi özünə ilk dəfə qardaş bilən İsrafil, sonra Mikayıl, sonra isə Cəbrayıl olmuşdur. Göylərdə Əlinin(ə) məhəbbətini qəbul edən ilk kəs isə cənnəti rizvanın qoruqçuları və Əzrayıl oldu."

---

[1] Əhli-beyt Quran və hədislərdə,2-ci cild, səh.656.
[2] Qırx hədis, səh.459. (Mərhum İmam Xomeyni).

Sonra Peyğəmbər(s) belə buyurdu: "Ölüm mələyi peyğəmbərlərə qarşı mərhəmətli olduğu kimi, Əlini(ə) sevənlərə qarşı da elə mərhəmətli olacaq."[1]

Hədislərdə belə nəql olunmuşdur ki, Qədr-Xumda Peyğəmbər(s) Həzrət Əlinin(ə) əlindən tutub yuxarı qaldıraraq buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır." Peyğəmbər(s) bu sözü buyuran kimi, Cəbrayıl(ə) dedi: "Mən Əlini sevənlərdən və onu özümə qardaş bilənlərdən olduğuma görə fəxr edirəm." Mikayıl(ə) dedi: "Əlinin məhəbbəti mənim qəlbimdə olduğuna görə fəxr edirəm." İsrafil(ə) dedi: "Əlinin(ə) beşiyini tərpətdiyimə görə fəxr edirəm." Əzrayıl(ə) belə dedi: "Mən Əlinin(ə) şiələrinin canını onun icazə və razılığı ilə aldığıma görə fəxr edirəm."[2]

Haris Həmdani Həzrət Əlinin(ə) yaxın dostlarından biri idi. Günlərin birində o, xəstə yatırdı. Həzrət Əli(ə) onun görüşünə getdi. Söhbət əsnasında Həzrət(ə) buyurdu: "Sənə müjdə verirəm ki, dörd yerdə məni görüb tanıyacaqsan. Can verən zaman, Siratdan keçərkən, Kövsər hovuzunun kənarında və Müqasəmədə.

Haris Həmədani soruşdu: Müqasəmə nədir?

İmam(ə) buyurdu: Allahın izni ilə cənnət və cəhənnəmin əhlini mən bölüşdürəcəyəm. Cəhənnəmə deyəcəyəm ki, ey atəş, bu, mənim dostumdur, onu rahat burax."

Sonra Həzrət Əli(ə) buyurdu: "Günlərin birində münafiqlərin mənə qarşı etdikləri paxıllıqlardan Peyğəmbərə(s) şikayət etdim. Peyğəmbər(s) mənim

---

[1] Üzürlü məmur, səh. 21.
[2] Üzürlü məmur, səh.20.

əlimdən tutub buyurdu: Qiyamət günü baş verdikdə mən Allahın rəhmət ətəyindən tutacağam. Sən mənim ətəyimdən, şiələrin də sənin ətəyindən tutacaqlar.

Haris, həmin gün mən səni öz əməlinə və sevdiyin insanlara tapşıracağam. (Məhşərə öz əməllərin və sevdiyin insanlarla daxil olacaqsan.)

Haris deyir: Həzrət Əlidən(ə) ölən zaman onun camalını görəcəyim barədə xəbəri eşitdikdən sonra ölümdən qorxmadım və sevinərək ölməyə tələsirdim."[1]

Deməli, hər bir kəsin qəlbində Həzrət Əlinin(ə) vilayətini qəbul etməklə yanaşı, Həzrətə(ə) qarşı xalis məhəbbəti olarsa, ruhu bədənindən ayrılan kimi onun camalını görəcəkdir. Təbii məsələdir ki, Həzrət Əliyə(ə) xalis məhəbbəti olan insan günaha tərəf getməz. Təmiz məhəbbət insanı günah və haramlara tərəf getməyə qoymaz.

---

[1] Ruhun qəbzi, səh.107.

## Ölümü çətinləşdirən amillər

## Ölüm zamanı şeytanı insana qarşı cürətləndirən amillər

Ötən bəhslərimizdə qeyd olundu ki, insanın canını tapşırdığı hala ehtizar halı deyilir. Bu barədə kifayət qədər söhbət etmişik. Bəhsimizə bir mətləbi də əlavə etmək istərdim. Qeyd olundu ki, can ayağında olarkən insanın gördükləri mənzərələrdən biri şeytan və onun qoşunudur. Ehtizar halında olan insanın bu mənzərəni görməsinə “ədilə” deyilir. “Ədilə” can verən insanın ən çətin hallarından biridir. “Ədilə” insan üçün çox pis və təhlükəli anlardan biridir. Məlumdur ki, şeytan ömrü boyu insanı haqq yoldan çıxarmağa çalışmışdır. Hətta insan ölüm ayağında olarkən belə şeytan ümidini kəsmir və o anda həmin insanı vəsvəsə edərək hadqan döndərməyə çalışır.

Yuxarıda insana ölümü asanlaşdıran və “ədilə”dən nicat verən amillərdən bir neçəsini qeyd etdik. Lakin bunu da bilmək lazımdır ki, bəzi amillər də vardır ki, ölüm ayağında şeytanın insana qarşı daha da cəsarətlənməsinə səbəb olur. Bu söhbətə başlamazdan öncə bir məsələni də xatırlatmaq istərdim. Həmin məsələ budur ki, bəzi hallarda insan öz ixtiyar və iradəsindən xaric olur. Əgər bir şagird imtahan suallarına yaxşı cavab verirsə, deməli imtahandan öncə dərslərini yaxşı oxumuşdur. Belə deyil ki, şagird imtahan suallarına öz iradəsi ilə cavab vermiş olsun. Əgər kitabı açmayıbsa və dərslərini oxumayıbsa, necə imtahan verə bilər? İnsan öz əməllərindən asılıdır və öz əməllərinin girovundadır. Belə deyil ki, insan ölüm ayağına düşdükdə şeytanı özündən uzaqlaşdıra bilsin. İnsan öldükdən sonra ixtiyar onun əlindən çıxdığı üçün əməllərindən asılı olduğu kimi, can ayağında da (həyatda

etdiyi) əməllərindən asılı olur. Əgər insanın əməli yaxşı olubsa, ölüm zamanı şeytana onun əməlləri cavab verəcəkdir. Ehtizar halı insanın həyatda ixtiyarlı halı kimi deyil. Əgər insanın həyatda gördüyü əməlləri pis olarsa, can verən zaman şeytana məğlub olacaq. Qeyd olunduğu kimi, bir sıra amillər ölüm ayağında insana nicat verər və bəzi amillər də şeytanı ona qarşı cəsarətləndirər və qalib edər. "İbrahim" surəsinin 27-ci ayəsində oxuyuruq:

يُثَبِّتُ اللّهُ الَّذِينَ آمَنُواْ بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ وَيُضِلُّ اللّهُ الظَّالِمِينَ وَيَفْعَلُ اللّهُ مَا يَشَاء

-Allah iman gətirmiş kəsləri möhkəm söz (tövhid kəlməsi) ilə dünya həyatında və axirətdə sabitqədəm edir. Həmçinin Allah-təala zalımları zəlil edir. Allah istədiyini edir.

قَالَ الصَّادِقُ(ع): إِنَّ الشَّيْطَانَ لَيَأتِي الرَّجُلَ مِنْ أَوْلِيَائِنَا عِنْدَ مَوْتِهِ، يَأْتِيهِ عَنْ يَمِينِهِ وَ عَنْ شِمَالِهِ لِيَصُدَّهُ عَمَّا هُوَ عَلَيْهِ؛ فَيَأبَيَ اللَهُ لَهُ ذَلِكَ وَ كَذَلِكَ قَالَ اللَهِ "يُثَبِّتُ اللَهُ الَّذِينَ ءَامَنُوا بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَواةِ الدُّنْيَا وَ فِي الأْخِرَةِ"

-İmam Sadiq(ə) bu ayənin barəsində buyurur: "Bizim dostlarımız ölüm ayağına düşdükdə şeytan onları haqq yoldan (əqidə və imanından) uzaqlaşdırmaq üçün sağdan və soldan onlara yaxınlaşar. Allah-təala şeytanın həmin mömini yoldan çıxarmasına imkan vermir. Bu həmin ayədir ki, Allah-təala buyurur: "Allah iman gətirmiş

kəsləri möhkəm söz ilə dünya həyatında və axirətdə sabitqədəm edir."[1]

Bu ayə və hədis o möminlər barəsindədir ki, onlar həyatlarında insana "ədilə"dən nicat verən amillərə riayət etmiş və "ədilə"yə səbəb olan amillərdən çəkinmişlər. Burada çox yaxşı olar ki, "ədilə"yə səbəb olan və ölüm zamanı şeytanı insana qarşı cürətləndirən amillərdən bir neçəsinə diqqət yetirək.

**1. Şərab içmək**

"Ədilə"yə səbəb olan və şeytanı ölüm zamanı insana qalib edən amillərdən biri şərab içməkdir. Hər kəs şərab içməkdə israrlı olsa və bu əməlindən tövbə etməsə, ölən zaman şeytanın çəngindən qurtara bilməyəcək. Şərab barədə nəql olunmuş hədislərin birində belə bəyan olunur ki, hər bir kəs şərab içən insan olsa, axırda dünyadan kafir kimi gedəcək.

Əbu Bəsir deyir: "Günlərin birində Ümmi Xalid adlı bir qadın İmam Sadiqin(ə) hüzuruna gəlib ərz etdi: Ey Allahın höccəti, mən elə bir xəstəliyə düçar olmuşam ki, həkim dərdimə əlacı şərabda görür. Yəni şərabı bəzi ədviyyələrlə qarışdırıb yeməyi mənə tövsiyə edib. Həkim mənə bu dərmanı tövsiyə etdikdən sonra öz-özümə fikirləşdim ki, sizin bu əməldən xoşunuz gəlmir. Buna görə də həmin dərmandan imtina edib məsələni öyrənmək üçün sizin hüzurunuza gəldim. İmam(ə) soruşdu: Səni o dərmanı yeməkdən saxlayan nə oldu? Ümmi Xalid dedi: Mən sizə itaət etməyi boyunbağı kimi boynumdan asmışam. (Yəni sizin əmrinizə tabeyəm.) Əgər icazə versəniz, bu dərmanı

---

[1] Təfsiri-nümunə,10-cu cild, səh.338.

qəbul edərəm. Qiyamət günü səbəbini soruşsalar deyəcəyəm ki, Cəfər ibn Məhəmməd(ə) icazə verib. Əgər desələr ki, nə üçün qəbul etməyib öldün, yenə də sizin qadağanızı əsas göstərəcəyəm."

İmam Sadiq (ə) üzünü mənə tərəf tutub buyurdu: "Ey Əbu Bəsir! Eşitdinmi xanımın dediklərini? Bu xanımın iman və təqvası o qədər güclüdür ki, bizim göstərişimiz olmadan həkimin də tövsiyəsinə tabe olmur və şərabdan çəkinir."

Sonra İmam(ə) üzünü qadına tutub buyurdu: "And olsun Allaha, icazə verməröm ki, bir damla şərab içəsən." Sonra Həzrət(ə) əli ilə boğazına işarə edərək üç dəfə buyurdu: "Hər kəs bir damla şərab içsə, can bura (boğaza) yetişdikdə peşman olacaq."[1]

Əlbəttə, qeyd olunmalıdır ki, şərab içən insan əgər sağlığında tövbə edib həmin haram işdən əl çəksə, Allah onu bağışlayar. Amma tövbə etməyən insan isə can verərkən tutduğu işin pis olduğunu başa düşər və sonrakı peşmançılığın ona faydası dəyməz.

قَالَ الصَّادقُ(ع): إنّ أهلَ الرَّيِّ فِي الدُّنيا مِن المسْكِرِ يَموتونَ عِطاشا، و يُحْشَرونَ عِطاشا، و يَدخُلونَ النّار عِطاشا

-İmam Sadiq(ə) buyurur: "Hər kəs dünyada özünü şərabla doyursa (şərab içsə), susuz ölər, susuz halda məhşərə gələr və susus halda cəhənnəmə daxil olar."[2]

### 2-3. Söz gəzdirmək və paxıllıq

[1] Mənazilül-axirə, səh. 10.
[2] Mizanül-hikmə,4-cü cild, hədis 5153.

İnsan üçün ölümü çətinləşdirən və “ədilə”də məğlub edən amillərdən biri söz gəzdirmək (ara vurmaq), biri də paxıllıqdır.

قَالَ الصَّادقُ(ع): إنّ مِن أكبَرِ السِّحرِ النَّميمَةَ؛ يُفَرَّقُ بها بَينَ المتَحابَّينِ، و يُجلَبُ العَداوَةُ علَى المتَصافِيَينِ، و يُسفَكُ بها الدِّماءُ، و يُهدَمُ بها الدُّورُ، و يُكشَفُ بها السُّتورُ، و النَّمّامُ أشَرُّ مَن وَطِئَ علَى الأرضِ بقَدَمٍ

-İmam Sadiq(ə) buyurur: “Xəbərçilik ən böyük cadulardandır. Çünki xəbərçiliklə dostlar arasına ayrılıq salınır, qəlbi bir olan adamlar bir-birinə düşmən kəsilir, onun vasitəsilə qanlar tökülür, evlər dağıdılır və pərdələr aradan götürülür. Xəbərçi yer üzündə addımlayan ən pis şəxsdir.”[1]

Füzeyl ibn Ayaz yolkəsən və quldur bir insan idi. O, bir evə oğurluğa gedərkən ev sahibinin Quran oxuduğunu eşidir və onun təsiri altına düşür. Tamamilə dəyişilib başqa bir insan olur. Onun barəsində çox söhbət etmək olar. Tövbə etdikdən sonra Məkkəyə köçür və ölənə qədər də orada yaşayır. Artıq o, ibadət, irfan və hikmət əhlinə çevrilmişdi. Hər il aşura günü Kəbənin kənarında İmam Hüseynə(ə) əzadarlıq edirdi. O, aşura günü elə oradaca dünyasını dəyişdi.

Onun şagirdlərindən biri ölüm ayağında idi. Füzeyl onun başı üzərinə gəlib təlqin etməyə başladı. Ona dedi: “De, La ilahə illəllah. Can verən adam dedi: Demirəm.” Füzeyl bir neçə dəfə təkrar etdi, amma şagirdi həmin

[1] Yenə orada,13-cü cild, hədis 20704.

sözləri  deməyəcəyini söylədi və elə o haldaca dünyasını dəyişdi. Füzeyl narahat halda evinə qayıtdı. Gecələrin birində onu yuxuda görüb soruşdu ki, can verərkən nə üçün “La ilahə illəllah” kəlməsini demədin? O dedi: “Çünki dünyada mən üç əməlin sahibi idim. Həm sözgəzdirən idim, həm paxıl idim, həm də məndə bir xəstəlik olduğu üçün həkim mənə şərab içməyi tövsiyə etmişdi və mən də (sizin bundan xəbəriniz olmadan) içirdim. Buna görə də pis aqibətlə dünyadan köçdüm.”[1]

Düzdür, bu, bir yuxudur. Amma Peyğəmbər(s) və Əhli-beytin(ə) bu barədə olan hədisləri də kifayət qədərdir. Bəzən Allah-təala reallıqda da insanlara belə hadisələri göstərir ki, ibrət götürsünlər.

### 4. Zəkat verməmək

İnsan üçün ölümü çətinləşdirən və şeytanı insana qarşı cəsarətləndirən amillərdən biri zəkat verməkdən boyun qaçırmaqdır.

İmam Sadiq(ə) buyurur: “Zəkatından bir qirat[2] verməyən hər bir müsəlmana de ki, istəyir yəhudi kimi, istəyirsə  xaçpərəst  kimi ölsün.”[3]

### 5. (Vacib olduğu halda) həccə getməmək

İnsanı “ədilə” zamanı məğlub edən amillərdən biri imkan olan halda bilərəkdən həccə getməməkdir. Eynilə

---

[1] Mənazilül-axirə, səh. 14.
[2] Qirat - karat, qiymətli daşların 0,2 qrama bərabər çəki ölçüsü.
[3] Mənazilül-axirə, səh. 17.

zəkat barədə nəql olunmuş hədis həcc barəsində də nəql edilmişdir.

**6. Qəlbdə naməhrəm məhəbbətini saxlamaq**

İnsana ölümü çətinləşdirən və ölüm zamanı şeytanı ona qarşı cəsarətləndirərək qalib edən amillərdən biri də haram şeylərə olan məhəbbətdir. Xüsusilə əgər bir insanın qəlbində naməhrəm məhəbbəti olarsa, bu məhəbbət həmin şəxsi dünyadan mömin kimi getməsinə imkan verməyəcək. Haram şeylərin məhəbbəti ilk növbədə baxmaqdan başlanır. Göz baxdıqdan sonra onun məhəbbəti qəlbə düşür.

قَالَ عَلِيٌّ(ع): اَلعِينُ بَرِيدُ القَلب

-Həzrət Əli(ə) buyurur: “Gözlər qəlbin qasididir.”[1]

İnsan naməhrəmə baxdıqda gözlər həmin naməhrəmin məhəbbətini insanın ürəyinə çatdırır. Buna görə də həm ayələrdə, həm də hədislərdə naməhrəmə baxmaq haram buyurulmuşdur. “Nur” surəsinin 30-31-ci ayələrində belə buyurulur:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ.

-Mömin kişilərə de ki, (başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini (ondan) çevirsinlər və ayıb yerlərini (görünməkdən) qorusunlar. Bu, onlar üçün daha pakdır. Həqiqətən, Allah onların etdiklərindən xəbərdardır.

---

[1] Mizanül-hikmə,13-cü cild, hədis 20238.

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا

-Mömin qadınlara de ki, (başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini (ondan) çevirsinlər və öz ayıb yerlərini (üz və əllərindən başqa bədənlərinin hər yerini yadların görməsindən) qorusunlar. Həmçinin öz zinət və bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və sairəni naçarlıqdan öz-özlüyündə) görünən (üst paltarları, əl və üz kimi şeylər) istisna olmaqla, üzə çıxarmasınlar.

Bu ayədən açıq-aydın görürük ki, naməhrəmə baxmaq məsələsi təkcə kişilərə aid deyil. Bu məsələ qadınlara da aiddir. Həm kişilər, həm də qadınlar naməhrəmdən qorunmalı və onlara baxmamalıdırlar. Naməhrəmə baxmaq şeytanın hiylə və tələlərindəndir ki, hər kəs bu tələyə düşsə, şeytan onu aparacaqdır.

قَالَ عَلِيٌّ(ع):العُيونُ مَصائدُ الشَّيطانِ

-Həzrət Əli(ə) buyurur: “ Gözlər(in baxışları) şeytanın torlarıdır.”[1]

قَالَ رَسُولُ اللَّهِ(ص): مَن مَلأَ عَينَهُ مِن حَرامٍ مَلأَ اللّهُ عَينَهُ يومَ القِيامَةِ مِن النّارِ، إلاّ أن يَتوبَ و يَرجِعَ

[1] Mizanül-hikmə,13-cü cild, hədis 20244.

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim gözlərini haramla doldursa, tövbə edib əməlindən əl çəkməsə, Allah qiyamət günü onun gözlərini odla doldurar.”[1]

Naməhrəm və naməhrəmə baxmaq məsələsi o qədər mühüm məsələlərdir ki, hətta onlara salam vermək və yeməyə dəvət etmək kimi əməllər də bəyənilmir.

قَالَ عَلِيٌّ(ع): لا تَبدَؤُوا النِّسَاءَ بِالسَّلامِ وَ لا تَدعُوهُنَّ إِلَى الطَّعَامِ

-Həzrət Əli(ə) buyurur: “Naməhrəm qadınlara salam verməyin və onları yeməyə də dəvət etməyin.”[2]

Hətta naməhrəmlə həddindən artıq danışmaq və zarafatlaşmağa da icazə verilmir. Çünki bütün bu işlərin sonu haram və günaha gətirib çıxarır.

Əbu Bəsir deyir: “Tələbələrə Quran dərsi keçirdim. Qız tələbələrindən biri ilə bir məsələnin üstündə (heç bir qərəzli niyyət olmadan) yüngülcə zarafat etdim. Bir gün İmam Sadiqin(ə) hüzuruna getmişdim. İmam(ə) mənə baxıb buyurdu: Nə üçün xanımla zarafat etdin? İmamın(ə) bu sözlərini eşidib xəcalətimdən başımı aşağı saldım. İmam(ə) buyurdu: Bir daha belə iş görmə.”[3]

“Əhzab” surəsinin 32-ci ayəsində Allah-təala Peyğəmbərin(s) arvadlarına xitab edərək bütün müsəlman qadınlarına belə buyurur:

يَا نِسَاءَ النَّبِيِّ... فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ

---

[1] Yenə orada, hədis 20280.
[2] Hicabın siması, səh. 94.
[3] Yenə orada, səh. 95.

-Siz, ey Peyğəmbərin zövcələri!.. Buna görə də danışığınızda naz-qəmzə və işvə etməyin ki, qəlbində (günah, pozğunluq) xəstəliyi olan kəs tamaha düşməsin.

قَالَ رَسُولُ اللَّهِ(ص): مَنْ صَافَحَ امْرَأَةً حَرَاماً جَاءَ يَوْمَ الْقِيَامَةِ مَغْلُولًا ثُمَّ يُؤْمَرُ بِهِ إِلَى النَّارمَنْ فاكَهَ بِامْرَأَةٍ لا يَمْلِكُها حُبِسَ بِكُلِّ كَلِمَةٍ كَلَّمَها فِى الدُّنيا اَلْفَ عامٍ فِى النّارِ...»

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs naməhrəm qadına əl verə (əl-ələ görüşsə), qiyamət günündə zəncirə çəkilmiş halda məşhur olar və sonra fərman gələr ki, onu cəhənnəmə yollayın. Hər kəs naməhrəm qadınla zarafat etsə, hər kəlməsinə görə min il cəhənnəmdə məhbus olacaq."[1]

قَالَ الْمَسِيحُ(ع): إِيّاكُم و النَّظَرَ إِلَى المحذوراتِ؛ فإنّها بَذرُ الشَّهَواتِ و نَباتُ الفِسقِ

-Həzrət İsa(ə) həvarilərinə buyurdu: "Qadağan və haram olunmuş baxışlardan çəkinin. Çünki o (haram baxışlar) şəhvətin toxumu, günahların bitkisidir."[2]

قَالَ رَسُولُ اللهِ(ص): غُضُّوا أبصارَكُم تَرَونَ العَجائِبَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Gözlərinizi (harama) yumun ki, füsunkarlıqları görəsiniz."[3]

---

[1] Hicabın siması, səh. 93.
[2] Mizanül-hikmə,13-cü cild, hədis 20250.
[3] Hicabın siması, səh. 88.

قال الصّادِقُ(ع): النَّظرَةُ سَهمٌ مِن سِهامِ إبليسَ مَسمومٌ، مَن تَرَكَها لِلّهِ عَزَّ و جلَّ لا لغَيرِهِ أعقَبَهُ اللّهُ إيمانا يَجِدُ طَعمَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Baxış iblisin zəhərli oxlarından biridir. Kim başqası üçün deyil, Allaha xatir öz gözünü (naməhrəmə) yumsa, bunun ardınca Allah ona tamını daddığı bir iman verər."[1]

قال رسول اللهِ(ص): ما مِن مُسلِمٍ يَنظُرُ امرأةً أوّلَ رَمقَةٍ ثُمّ يَغُضُّ بَصَرَهُ إلاّ أحدَثَ اللّهُ تعالى لَهُ عِبادَةً يَجِدُ حَلاوَتَها في قَلبِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir müsəlman kişinin baxışları naməhrəm qadına düşdükdə gözlərini aşağı dikib ona baxmasa, Allah-təala onu ibadətlərində müvəffəq edər və ibadətin şirinliyini ona dadızdırar."[2]

Odur ki, naməhrəmin məhəbbəti ilk növbədə baxışlardan başlayır. Hər kəsin ürəyində naməhrəm məhəbbəti olsa, ölən zaman şeytana məğlub olacaq. Çünki bu məhəbbət insanda hətta ölən zaman öz təsirini göstərəcəkdir. Tarixi mənbələrdə belə rəvayət olunur ki, bir kişi öz evinin qapısında əyləşmişdi. Küçədən keçən bir qadın ondan Məncab hamamının yerini soruşur. Kişi yaxşı adam olmadığı üçün öz evini ona göstərir. Qadın ona inanıb içəri keçdikdən sonra kişi də onun apdınca həyətə girib qapını bağlayır. Qadın tələyə düşdüyünü anlayır. Elə o haldaca ürəyində Allahla minacat etməyə başlayır. Öz-özünə deyir: "İlahi, mənim ətəyim təmizdir. Mən həmişə

---

[1] Mizanül-hikmə,13-cü cild, hədis 20284.
[2] Yenə orada, hədis 20282.

öz iffətimi qoruyub saxlamışam. Ey mənim Rəbbim, sən özün mənə kömək ol.” Elə hmin anda ağlına bir fikir gəlir. Kişiyə deyir: “Mən bir söz demirəm. Mən yamanca acmışam. Bir şey gətir yeyək, sonra məşğul olarıq.” Kişi bu sözləri eşitdikdə elə başa düşür ki, qadın da onunla olmağa razıdır. Ərzaq almaq üçün dükana gedir və qapını bağlamır. Qadın da fürsətdən istifadə edib aradan çıxır. Kişi birdən ayılıb görür ki, qadın qaçıb. Sonra əlinə qələm götürüb belə bir şeir yazır:

يَا رُبَّ قَائِلَةٍ يَومًا وَ قَد تَعِبَت     اَينَ الطَّرِيق اِلى حَمَّامِ مَنجَاب

*Məncab hamamının yolunu soruşan,*
*Həmin yorğun qadın necə oldu*?

O, bu şeri yazdıqdan sonra hər dəfə o qadın yadına düşdükdə dilində zümzümə edirdi. Ölüm ayağına düşdükdə dostları ona “La ilahə illəllah” kəlməsini təlqin edərkən o, təlqinin yerinə bu şeri oxuyurdu.[1]

İnsan ölüm ayağına düşdükdə ixtiyar özündə olmur. O halda başına gələnlərin hamısı əməllərinə görədir. Əgər bu insan ölən zaman naməhrəm qadın üçün yazdığı şeri oxuyursa, onu oxudan əməlləridir. Çünki qəlbini naməhrəm məhəbbəti ilə doldurmuşdur.

## Möhtəzirin (ölüm ayağında olan insanın) hökmləri

Ötən bəhslərimizdə can ayağında olan insanın halları barədə lazımi qədər söhbət etdik. Bu bəhsimizdə bir mətləbi də qeyd etmək istərdim. Bu mətləb can verən insanın özü barəsində yox, onun ətrafında olan insanlarla

[1] Hicabın siması. Səh. 93

bağlıdır. Yəni bir insan can ayağına düşüb dünyasını dəyişərkən onun yanında olan insanların öhdəsinə hansı dini vəzifələr düşür?

## Möhtəzirə (yaxud yanında olanlara) vacib olan əməllər

### Can verən insanı üzü qibləyə uzatmaq

Bu məsələ şəriət məsələsi kimi müəyyən qədər risalələrdə qeyd olunmuşdur. Bəzi məsələlər isə hədislərdə nəql edilmişdir. Həmin hədislərdən bir neçəsini nəzərinizə çatdırmaq istərdim. Ümumiyyətlə, möhtəzirin (can verən) insanın yanında olanlara bir əməli yerinə yetirmək vacibdir. Həmin əməl budur ki, can verən insan üzü qibləyə uzadılmalıdır. Yəni onu (kürəyi üstə) elə uzatmaq lazımdır ki, ayaqlarının altı üzü qibləyə düşsün. Əgər can verən insan bu işi özü görə bilərsə, özü etməli, yox, əgər bu işə taqəti yoxdursa, yanında olan insanlara bu əməl vacibdir. Can verən insan istər kişi, istər qadın və istərsə də uşaq olsun, heç bir fərqi yoxdur. Hər bir müsəlman dünyasını dəyişərkən ya özü, ya da onun ətrafında olanlar onu qeyd olunan qaydada üzü qibləyə uzatmalıdırlar. Can verən insan dünyasını dəyişdikdən sonra ona meyit qüslü verənədək üzü qiblədə qalmalıdır. Qüsldən sonra isə çox yaxşı olar ki, həmin meyitin sağ tərəfini qibləyə qoysunlar. Yəni meyit namazını qılarkən onu necə qoyurlarsa, eləcə də uzatsınlar. Ona qüsl vermək, kəfənə bükmək, namazını qılmaq və dəfn etmək öləndən sonrakı vacib məsələlərdir. Bizim hazırkı söhbətimiz isə insan ölməmişdən öncə can ayağında olduğu halın hökmləri barədədir.

## Möhtəzirə (yaxud yanında olanlara) müstəhəb sayılan əməllər

Qeyd etmək lazımdır ki, möhtəzirin yanında olanlara vacib olan əməllərdən başqa, müstəhəb və məkruh olan əməllər də vardır ki, bu barədə də bir qədər söhbət edərik.

1) Can verən insana "La ilahə illəllah" kəlməsini təlqin etmək

Can verən insana müstəhəb və savablı əməllərdən biri budur ki, ona "La ilahə illəllah" kəlməsi təlqin edilsin. Çünki hədislərdə belə nəql olunmuşdur ki, hər kəsin sonuncu kəlməsi "La ilahə illəllah" olsa, cənnətə daxil olar.

2) Can verən insana kəlmeyi-şəhadəti təlqin etmək

Müstəhəbdir ki, can verən insana kəlmeyi-şəhadət və on iki imamın adları təlqin olunsun. Əgər can verən insan "Əşhədu ənla ilahə illəllah, əşhədu ənnə Muhəmmədən rəsulullah, əşhədu ənnə əmirəlmömininə Əliyyən vəliyyullah" kəlmələri ilə dünyasını dəyişsə, Allah-təala həmin şəxsi cənnətə aparar. Bu şəhadətin hansı hissəsində canını tapşırıb qurtarsa da belə. Çünki həmin insanın ağzı bu kəlmələrlə bağlanmışdır. Bir daha qeyd etmək lazımdır ki, Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini can verən insana təlqin etdikdən sonra müstəhəbdir ki, məsum imamların adları da ona təlqin olunsun. Bu təlqinin can verən insan üçün çox böyük əhəmiyyəti vardır.

Əbu Bəkr Həzrəmi Peyğəmbərin(s) səhabələrindən biri idi. O deyir: "Qardaşımın oğlu xəstələnib ölüm yatağına düşmüşdü. Mən onun yanına gedəndə gördüm ki,

onun vəziyyəti çox pisdir. Bir qədər onun yanında dayandım. Vəziyyətindən başa düşdüm ki, o, artıq ölüm ayağındadır. Sakitcə onu danışdırmağa başladım. Ona dedim: İstəyirsənmi sənə nəsihət edim? O dedi: Bəli. Dedim: Bu kəlmələri zikr elə: "Əşhədu ənla ilahə illəllah." O, bu kəlmələri təkrar etməyə başladı. Ona dedim: Bu sözləri yəqinlə zikr et. Dedi: Səmimi qəlbdən və yəqinliklə deyirəm. Sonra dedim: De ki, "Əşhədu ənnə Muhəmmədən rəsulullah", o da təkrar etdi. Sonra dedim: De ki, "Əli(ə) Peyğəmbərin(s) vəsisi və canişinidir. Onun itaəti vacibdir." O da bunu təkrar etdi. Sonra bütün məsum imamların adını etiraf edərək dünyasını dəyişdi. Onu aparıb dəfn etdik."

Həyat yoldaşı onun aqibəti barədə çox narahat idi. Bir neçə gündən sonra ailəsindən hal-əhval tutmaq üçün onların evinə getdim. Yoldaşının əhvalı çox yaxşı idi. Səbəbini soruşduqda belə dedi: "Dünən gecə onu yuxuda gördüm. Gördüm ki, yanıma gəlib. Soruşdum: Məgər sən ölmədinmi? O dedi: Mən ölmüşəm, amma Əbu Bəkr Həzrəmi mənə "kəlmeyi-şəhadəti və imamların adlarını" təlqin etdi, mən onunla da nicat tapdım."[1]

Bu, bir yuxudur. Yuxu insan üçün höccət olmasa da, yuxuda ilham vardır. Əgər yuxular ayə və hədislərlə uyğun gəlirsə, bu da bir həqiqətdir. Yəni yuxu ayə və hədislərlə uyğun gəlirsə, bu yuxunun etibarı çoxalır.

3) Can verən insana "fərəc" kəlmələrini təlqin etmək

Müstəhəb əməllərdən biri can verən insana "fərəc" kəlmələrini təlqin etməkdir. "Fərəc" kəlmələri İmam

[1] Üsuli-Kafi,3-cü cild, səh 122.

Zamanın(ə.c) “Fərəc” duasından fərqlidir. O, başqa bir duadır, bu isə başqa bir dua. “Fərəc” kəlmələri bəzən namazın qunutunda da oxunur. Hədislərdə belə nəql olunur ki, can verən insana “fərəc” kəlmələrini təlqin etsələr, bunun çox böyük faydası vardır. “Fərəc” sözünün mənası insanın üzünə qapıların açılması deməkdir.

İmam Baqir(ə) buyurur: “Əgər birini can verən halda görsəniz, ona “fərəc” kəlmələrini təlqin edin.”

لا إِلهَ إِلاَّ اللهُ الحَلِيمُ، الكَرِيمُ، لا إِلهَ إِلاَّ اللهُ العَلِيُّ العَظِيمُ، سُبْحَانَ اللهِ رَبِّ السَّموَاتِ السَّبْعِ، وَرَبِّ الأَرْضِينَ السَّبْعِ وَمَا فِيهِنَّ، وَمَا بَيْنَهُنَّ، وَرَبِّ العَرْشِ العَظِم. وَالحَمْدُ للهِ رَبِّ العَالَمِينَ

-Kərəm və helm sahibi olan Allahdan baqa bir məbud, ibadətə layiq olan kimsə yoxdur. Böyük, uca mərtəbə əzəmətli olan Allahdan başqa ibadətə layiq olan bir məbud yoxdur. Pak və münəzzəhdir O Allah ki, yeddi qat göylərin, yeddi qat yerlərin və onların arasında olanların, əzəmətli ərşin Rəbbidir. Həmd və səna, aləmləri idarə edən, bütün mövcudları bəsləyən Allaha məxsusdur.

4) Can verən insanı həmişə namaz qıldığı yerdə uzatmaq

Müstəhəb əməllərdən biri də budur ki, can ayağında olan insanı evdə həmişə namaz qıldığı yerdə uzatsınlar. Bu əməlin xüsusiyyəti odur ki, ölüm ayağında olan insan canını tez tapşırar. Bunu da qeyd etmək lazımdır ki, evdən kənarda müxtəlif yerlərdə, məscidlərdə, hətta məscidlərin müxtəlif yerlərində namaz qılması da müstəhəbdir. Çünki insanın namaz qıldığı hər bir yer qiyamət günü onun üçün

şahid dayanacaq. Amma evdə isə həmişə bir yerdə namaz qılmaq müstəhəbdir. Əgər can verən insanı evdə həmişə namaz qıldığı məkana qoysalar, canını tez tapşırar.

İmam Səccad(ə) buyurur: "Peyğəmbərin(s) səhabələrindən biri ölüm yatağına düşmüşdü. Çox çətinliklə can verirdi. Onu götürüb evdə həmişə namaz qıldığı yerə qoydular. Beləcə, o, canını tez tapşırdı."

İmam Sadiqin(ə) oğlanlarından biri can ayağına düşmüşdü. Lakin çox çətinliklə can verirdi. İmama(ə) bu xəbəri verdikdə Həzrət(ə) buyurdu: "Onu həmişə namaz qıldığı yerə qoyun." Elə də etdilər. Bir neçə dəqiqə keçməmiş o, canını tapşırdı.

5) Can verən insanın başı üzərində Quran oxumaq

Müstəhəbdir ki, can verən insanın başı üzərində Quran oxusunlar. Quranın hər hansı bir hissəsini oxusalar, yenə də savabı vardır. Amma "Yasin", "Saffat", "Əhzab" surələrini, "Ayətəl-kürsi"ni, "Bəqərə" surəsinin son üç ayəsini və "Əraf" surəsinin 54-cü ayəsini oxumağın savabı daha çoxdur. Həmçinin bunları oxumağın can verən insana təsiri daha çox olur.

6) Allaha qarşı xoşniyyətli olmaq

Can verən insan üçün çox faydası olan amillərdən biri də Allaha qarşı xoşniyyətli olmaq və Onun rəhmətinə ümid bəsləməkdir. Əlbəttə, bu elə bir şeydir ki, insan həyatında və yaxud can verən halda Allaha qarşı xoşniyyətli olmalı və Onun rəhmətinə ümid bəsləməlidir.

Vasilə Peyğəmbərin(s) səhabələrindən biri idi. O deyir: "Günlərin birində ölüm ayağında olan bir xəstənin yanına getdim. Qohumları onun ətrafına yığışmışdı. Mən həmin xəstədən soruşdum: Allaha qarşı gümanın necədir? O dedi: Günah içində boğuluram, özüm də ölüm ayağındayam. Amma Allahın rəhmətinə ümidim daha çoxdur."

Vasilə bu sözü eşidən kimi təkbir - "Allahu Əkbər" dedi. Ətrafdakılar da ona qoşulub təkbir dedilər. Sonra dedi: "Peyğəmbərdən(s) eşitmişəm ki, belə buyurmuşdu: "Allah buyurur: Mən bəndəmin Mənə bəslədiyi xoş gümanın yanındayam. Elə isə istədiyi qədər mənə qarşı xoşniyyətli olsun."[1]

İnsan hər nə qədər günah etmiş olsa da belə Allahın rəhmət və mərhəmətindən ümidini kəsməməlidir. "Zumər" surəsinin 53-cü ayəsində belə buyurulur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-De: "Ey Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün

[1] Ruhun qəbzi, səh.125.

günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!”

Allahın rəhmətindən naümid olmaq isə kafir insanların xüsusiyyətlərindəndir. “Yusif” surəsinin 87-ci ayəsində belə buyurulur:

وَلاَ تَيْأَسُواْ مِن رَّوْحِ اللّهِ إِنَّهُ لاَ يَيْأَسُ مِن رَّوْحِ اللّهِ إِلاَّ الْقَوْمُ الْكَافِرُونَ

-Allahın qurtuluş və mərhəmətindən naümid olmayın ki, Allahın mərhəmətindən kafirlərdən başqa heç kim naümid olmaz.

Allahın rəhmətindən məyus və naümid olmaq böyük günahlardandır. Allah həm Özü rəhm etməyi xoşlayır, həm də rəhm edənləri sevir. Belə ki, Allah-təala Musanı(ə) bu kimi xüsusiyyətlərinə görə peyğəmbər və xəlil seçmişdi.

Həzrət Musa(ə) Allahla minacat edərkən soruşdu: “İlahi, məni nə üçün Özünə həmçöhbət və peyğəmbər seçdin? Allah-təala ona vəhy edərək buyurdu: Bir zamanlar Şüeybin(ə) qoyunlarını otarırdın. Günlərin birində bir quzu sürüdən ayrılıb qaçmağa başladı. Sən də onu tutmaq üçün ardınca qaçdın. O qaçdı, sən qaçdın. Çox çətinliklə də olsa onu tuta bildin. Tutduqdan sonra qəzəblənmədin və onunla mehriban rəftar etdin. Dedin ki, ey Allahın heyvanı, özünü də zəhmətə saldın, məni də. Sonra onu boynuna alıb aparıb sürüyə qoşdun. Sənin hətta heyvanlara qarşı mehriban olmağın ona səbəb oldu ki, səni Özümə həmsöhbət etdim və peyğəmbər seçdim.”[1]

Bütün peyğəmbərlər mehriban, ürəyiyumşaq və rəhimli olmuşlar. İslam Peyğəmbərinin(s) həyatına nəzər

---

[1] 500 dastan, 2-ci cild, səh.265.

saldıqda isə görürük ki, O, mərhəmətin nümunəsi idi. Allah-təala onun vücudunu aləmlərə rəhmət olaraq bəxş etmişdir. İnsan Həzrətin(s) mərhəmət və mehribançılığından danışdıqca danışmaq istəyir.

Müğeyrə həm Peyğəmbərin(s) əmisi oğlu, həm də Həzrətin(s) süd qardaşı idi. Müğeyrə Həzrətlə(s) birgə böyüyüb boya-başa çatmışdı. Hər ikisi demək olar ki, eyni yaşda idilər. Qohum və qardaş olmasından əlavə, o, qırx il Həzrətlə(s) yaxın və səmimi dost idi. Peyğəmbər(s) peyğəmbərliyə məbus olduqda Müğeyrə gedib müşriklərə və Həzrəti(s) incidənlərə qoşuldu. Peyğəmbər(s) Mədinəyə hicrət etdi. Bir neçə ildən sonra Məkkəni fəth etmək üçün geri qayıtdı. Yolda Nəbəq adlı bir yaşayış məntəqəsində dincəlmək üçün məskunlaşdılar. Müğeyrə Peyğəmbərdən(s) ayrıldığı və düşmənlərə qoşulduğu üçün çox peşman olmuşdu. Peyğəmbərin(s) gəlişini eşitdikdə Abdullah ibn Üməyyə ilə birgə Məkkədən çıxıb həmin məntəqəyə sarı yollandı. Peyğəmbərlə(s) görüşmək istədi. Həzrət(s) onlara görüşmək üçün icazə vermədi. Müğeyrə nə qədər üz vurdusa, Peyğəmbər(s) onu qəbul etmədi. Müğeyrə dedi: "Elə isə mən körpə uşağımı götürüb dağlara gedəcək və Allah məni bağışlayana qədər orada ağlayacağam. Əgər Peyğəmbər(s) məni qəbul etmirsə, bundan başqa çarəm yoxdur." O, bu sözü deyə-deyə Peyğəmbərin(s) karvanından ayrıldı. Peyğəmbər(s) bu sözləri eşidib səhabələrinə göstəriş verdi ki, onu geri qaytarsınlar. Həzrət Əli(ə) Müğeyrəyə buyurdu: "Sən Peyğəmbərin(s) yanına get və "Yusif" surəsinin 91-ci ayəsini oxu: "Allaha and olsun ki, Allah səni seçərək bizdən üstün etmişdir və biz doğrudan da səhv etmişik." Belə olduqda Həzrət(s) sizi bağışlayacaq. Müğeyrə Abdullahla birgə Peyğəmbərin(s) hüzurunda əyləşib bu

ayəni oxudu və ondan üzr dilədilər. Peyğəmbər(s) onları bağışlayıb buyurdu: “Allah bağışlayan və mehribandır. Onun rəhmi hər şeydən çoxdur.”[1]

Odur ki, insan heç bir vaxt Allahın rəhmət və mərhəmətindən naümid olmamalıdır. Allah-təala bəndələrinə qarşı çox bağışlayan və çox mehribandır. Hətta qiyamət günü cəhənnəmdə olan insanlar Allahın rəhmətinə ümid bəslədikdə Allah onları ümidsiz qoymaz.

Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü bir kəsi cəhənnəmə atdıqda o hey belə səslənəcək: “Ya Hənnan! Ya Mənnan!” Allah-təala Cəbrayıla əmr verəcək ki, onu cəhənnəmdən çıxarıb gətirin. Gətirdikdən sonra Allah ondan soruşar: Yerin necə idi? O deyər: İlahi, çox pis idi. Allah-təala əmr verər ki, onu yenidən cəhənnəmə atsınlar. Onu cəhənnəmə sarı apardıqda dəfələrlə dönüb arxaya baxar, sonra yoluna davam edər. Allah-təala ondan soruşar: Nə üçün tez-tez arxaya baxırsan? O deyər: İlahi, Sənin rəhmətinə o qədər ümid bəsləyirəm ki, sanki bir daha məni ora göndərməyəcəksən. Onun Allahın rəhmətinə olan ümidi və xoşniyyətliliyi Allahın kərəmini cuşa gətirər. Allah-təala əmr verər ki, onu cənnətə aparsınlar.”[2]

Odur ki, əgər insan hətta ölüm ayağında olarkən Allaha qarşı xoşniyyətli olsa, Onun rəhmətinə ümid bəsləsə, bu ümid onu cəhənnəmdə yanmağa qoymaz.

---

[1] Yenə orada, 2-ci cuild, səh.266.
[2] 500 dastan,2-ci cild, səh. 535.

7) Ərin və valideynin razılığı

Əgər bir qadın can ayağında olsa, ərinin ondan razılıq etməsinin ona çox xeyri olar. Yəni qadın can verərkən əri gəlib onun başı üzərində dayanaraq "İlahi, mən bundan razıyam" - deməsi həmin qadın üçün çox təsirlidir. Həmçinin əgər valideynlər can verən övladının başı üzərinə gəlib ondan razılıq etsələr, həmin övladın dili açılar, kəlmeyi-şəhadəti dilinə gətirər və rahatlıqla can verər.

Mədinədə bir cavan oğlan ölüm yatağına düşmüşdü. Peyğəmbər(s) onun yanına gedib ona təlqin etməyə başladı. Buyurdu ki, "La ilahə illəllah" - de. Onun dili bağlandı və danışa bilmədi. Peyğəmbər(s) bir neçə dəfə bu sözləri təkrar etdi, lakin o, yenə də danışa bilmədi. Sonra Peyğəmbər(s) üzünü orada dayanmış bir qadına tutub soruşdu: "Bunun anası kimdir? Həmin qadın dedi: Ya Rəsulallah, onun anası mənəm. Peyğəmbər(s) soruşdu: Oğlundan razısanmı? Qadın dedi: Xeyr. Peyğəmbər(s) buyurdu: Çox istərdim ki, onun barəsində razılıq edəsən. Qadın dedi: Ya Rəsulallah, sənin razılığın üçün mən də ona razılıq verdim." Sonra Peyğəmbər(s) üzünü həmin oğlana tutub "La ilahə illəllah" kəlməsini təlqin etdi. Oğlanın dili açıldı və həmin kəlmələri deməyə başladı."[1]

---

[1] Ruhun qəbzi, səh.123.

## Ölümün həqiqəti

Ötən bəhslərimizdə ölüm barəsində lazımi qədər söhbət etdik. İnsan can ayağına düşməyincə ölüm halında olduğunu bilmir. İstisna hallarda görünə bilər ki, bəzi insanlar öləcəyi vaxtı bilmiş olsunlar. Amma adətən insan ölümündən bir neçə saniyə öncə öləcəyini başa düşür. Ölüm barədə bura qədər etdiyimiz söhbətlər yalnız insanın can ayağına düşüb ölənə qədər olan söhbətlərdir. Lakin ölümün həqiqəti barədə söhbət etməmişik. Buna görə də çox yaxşı olar ki, ölümün həqiqəti və nə olduğu barədə də müəyyən qədər söz açaq.

Ölümün həqiqəti barədə həm müsəlman, həm də qeyri-müsəlman alimlər çox kitablar yazmışlar. Hər bir alim bu barədə öz fikrini söyləmişdir. Digər alimlərin fikirlərindən istifadə etmiş olsaq da bizim üçün İslamın fikri əsas və önəmlidir. Bu barədə bəzi mətləblərdən danışmaq olar. Həmin mətləblərdən biri ölümün haqq-həqiqət olmasıdır.

## Ölüm haqdır

Milliyyətindən və dinindən asılı olmayaraq hər bir kəs bilir ki, ölüm bir həqiqətdir. Bu elə bir şeydir ki, heç kəs nə onu dana bilər, nə də ondan qaça bilər. Alimlər kitablarında qeyd etmişlər ki, ölüm Allahın insana mərhəmət etdiyi böyük bir nemətdir. Ölüm qanunu Allahın hikmətli sünnə və qanunlarından biridir. İnsanın həyatı ölüm vasitəsilə balanslaşıb şirinləşir. Əgər ölüm olmasaydı, insanın həyatının şirinliyi və ləzzəti olmazdı. Həyatın ləzzəti ondadır ki, ağın əksi qara, gecənin əksi gündüz olduğu kimi, həyatın da qarşılığında ölüm dayanır.

Ölüm həyatın qarşılığıdır və heç bir kəs bunu inkar edə bilməz. Həzrət Əli(ə) belə buyurur:

أَيَّ يَومَيَّ مِنَ الْمَوتِ أَفِرّ    يَومَ ما قُدِّرَ أَو يَومَ قُدِرْ

يَومَ مَا قُدِّرَ لَمَ أَخشَ الرّدَى    وَ إِذَا قُدِّرَ لَم يُغنِ الْحَذِر

-İnsanın iki günü vardır. Ölüm insan üçün təqdir olduğu gün və olmadığı gün. Bu iki günün hansında ölümün çəngindən qaçım? Əgər o gün ki, ölüm mənim üçün təqdir olmayıb (yazılmayıb), nə üçün qorxub qaçmalıyam (qaçmağın nə faydası)? Yox, əgər o gün ki, ölüm mənə təqdir olunub (yazılıb), ondan qaçmağın heç bir faydası yoxdur.[1]

Deməli, ölüm elə bir həqiqətdir ki, ondan heç bir canlı yaxasını qurtara bilməyəcək. Allah-təala "Cümə" surəsinin 8-ci ayəsində buyurur:

قُلْ إِنَّ الْمَوْتَ الَّذِي تَفِرُّونَ مِنْهُ فَإِنَّهُ مُلَاقِيكُمْ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ

-De: "Şübhəsiz, qaçdığınız o ölüm mütləq sizə yetişəcək, sonra isə gizlini və aşkarı bilənə tərəf qaytarılacaqsınız. O da (dünyadakı) əməllərinizi sizə xəbər verəcəkdir."

Dünyasını dəyişmiş müsəlmanı qəbrə qoyarkən müstəhəb əməllərdən biri budur ki, ona təlqin oxunsun. Bu təlqini oxumağın həm onun özünə, həm də ətrafdan baxanlara faydası vardır. Qoy kənardan baxanlar ibrət götürsünlər ki, bu gündən onlar üçün də var. Təlqinin bir hissəsi belədir:

---

[1] Ruhun qəbzi, səh.123.

وَأَنَّ المَوتُ حَقٌّ وَسُؤالَ مُنْكَرٍ وَنَكيرٍ فِي القَبْرِ حَقٌّ وَالبَعْثَ حَقٌّ وَالنُشُورَ حَقٌّ وَالصِّراطَ حَقٌّ وَالمِيزانَ حَقٌّ وَتَطايُرَ الكُتُبِ حَقٌّ وَالجَنَّةَ حَقٌّ وَالنَّارَ حَقٌّ

-Ölüm haqdır. Qəbirdə inkir və munkirin sualları haqdır. İnsanların qəbirdən qalxacağı və qiyamətə gətiriləcəyi gün haqdır. Sirat və mizan haqdır. İnsanın əməl kitablarını yazanlar və oxuyanlar haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır.

Bütün bunlar elə bir həqiqətlərdir ki, insanlar onu görəcəklər. Onda heç bir şəkk-şübhə yoxdur. “Hücurat” surəsinin 99-cu ayəsində oxuyuruq:

وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ

-Və o yəqin iş (hər bir canlı üçün labüd olan ölüm) sənə yetişənə qədər Rəbbinə ibadət et!

Bu ayədə buyurulur ki, yəqin sənə yetişənə kimi Allaha ibadət et. Burada yəqinin mənası həmin ölümdür ki, onda heç bir şəkk-şübhə yeri yoxdur.

Belə bir sual yarana bilər ki, hamının ölümün haqq-həqiqət olduğunu bildiyi halda nə üçün Quranda onun haqq olduğu bəyan edilir? Yəni kimsə ölümü danırmı? Yaxud kimsə ölümü inkar edirmi? Əgər hamı ölümün həqiqət olduğunu bilirsə, nə üçün Quran onun haqq olduğunu bəyan edir? Bu sualın cavabı belədir ki, insan ölümü unutmamaq üçün Quran onun həqiqət olduğunu bəyan edərək bunu yada salır. Məsələn, evdə ata uşağı dükana göndərir və ona bəzi şeylərin alınmasını tapşırır. Sonra isə uşağın yaddan çıxarmaması üçün ondan nə alacağını bir daha soruşur. Çünki belə bir ehtimal edir ki, ola bilsin o, dükançını düz başa sala bilməsin. Buna görə

də dükandan nə alacağını uşaqdan soruşur və özü də bir dəfə həmin məsələni təkrarlayır.

Yenə sual oluna bilər ki, kimin ölümə şübhəsi var ki, Quran ayələri və hədislər onun həqiqət olduğuna bir daha təkid edir? Bu sualın cavabında demək olar ki, heç bir kəs ölümə şübhə etmir, qəflət və unutqanlığa düşür. İnsan ölümün haqq olduğunu bilir. Həmçinin bilir ki, bir gün ölüm onun da sorağına gələcək. Amma çox vaxt qəflətə düşür və öləcəyini unudur. Buna görə də Allah bu məsələni insanların yadına salır və təkid edir.

قَالَ الصَّادِقُ(ع): ما خَلقَ اللّٰهُ عَزَّوجلَّ يَقينا لا شَكَّ فيهِ أشبَهَ بشَكٍّ لا يَقينَ فيهِ مِن الموتِ

İmam Sadiq(ə) buyurur: "Allah ölüm kimi elə bir şey yaratmayıb ki, əmin olmalarına (yəqin bilmələrinə) və onda heç bir şəkk-şübhənin olmadığı halda, (azacıq belə) əminliyin olmadığı şəkkə bənzəsin."[1]

Yəni Allah-təala ölümü belə yaratmışdır ki, onda zərrə qədər şəkk-şübhə yoxdur. Amma bu elə bir şəkkə bənzəyir ki, sanki onda zərrə qədər də olsa yəqinlik yoxdur. Həzrət Əlinin(ə) bu barədə olan bir kəlamını oxuduqda bu hədisi daha geniş şəkildə başa düşmək olur.

قَالَ عليٌّ(ع): ما رَأيتُ إيمانا مَع يَقينٍ أشبَهَ مِنهُ بشَكٍّ على هذا الإنسانِ؛ إنّهُ كُلَّ يَومٍ يُوَدِّعُ إلَى القُبورِ و يُشَيِّعُ و إلى غُرورِ الدّنيا يَرجِعُ، و عنِ الشَّهوَةِ و الذُّنوبِ لا يُقلِعُ

[1] Mizanül-hikmə,12-ci cild, hədis19072.

-İmam Əli(ə) buyurur: “Elə bir imanla qarışıq yəqinlik görmədim ki, bu, insan üçün şübhəyə daha oxşar olsun. O, hər gün ölülərin cənazəsini qəbrə müşayiət edir, qəbirə tapşırır və bununla belə aldadıcı dünyaya üz tutur, şəhvət və günahlardan əl çəkmir.”[1]

İnsan dəfələrlə dəfn mənasimlərində iştirak edir. Qohumlarından və dost- tanışlarından dünyasını dəyişən insanın cənazəsini qəbiristanlığa müşayiət etməkdə və son nəticədə mərhumu dəfn etməkdə iştirak edir. Bəzi insanlar dəfndən sonra bir neçə saat ölümü xatırlayırlar. Bəzisi bir neçə gün təsir altına düşür. Bəzisi isə qəbiristanlıqdan çıxan kimi hər şeyi unudur və yenə günahlar etməkdə davam edirlər. Bu elə bir şeydir ki, hər kəsin ürəyinin bərkliyindən və yumşaqlığından asılıdır. Ürək nə qədər bərk olsa, təsir müddəti azalar. Yumşaq olduqda isə həmin təsirin müddəti çox olur. Bəzi ürəklər vardır ki, günlər və həftələrlə bircə moizənin təsiri altına düşür. Bəzi insanlar vardır ki, bir ay moizənin təsirində qalır. Amma günlər ötdükcə moizənin təsiri aradan getməyə başlayır. Bəzi insanlar da vardır ki, nəinki xətibin və yaxud alimin sözlərindən, əksinə, həyatda baş vermiş kiçik hadisələrdən belə özünə nəticə çıxarır.

Mərhum Ayətullah Şəhid Mədəni Təbriz şəhərinin dini xadimi idi. O, çox əzəmətli, elmli və təqvalı bir şəxsiyyət idi. Münafiqlər onu məsciddə namaz qılarkən mehrabda terror etdilər. O, tələbəlik çağlarında bir müddət Ayətullah Meşkini ilə qalmışdı. Yəni tələbəlik illərində hər ikisi bir mənzildə elmlə məşğul olmuşlar. Ayətullah Meşkini deyir: “Hər ikimiz tələbələrə dərs

[1] Yenə orada, hədis 19073.

deməklə məşğul idik. Sübh tezdən çıxıb günorta qayıdardıq. Günortaya qədər beş-altı dərs dedikdən sonra ağzımız qupquru quruyurdu. Mənim dərs proqramım belə idi ki, ondan yarım saat tez evə gəlirdim. O, həm yaşca məndən bir neçə il böyük idi, həm də peyğəmbər övladı (seyid) idi. Onun evə yorğun gələcəyini bildiyim üçün çay dəmləyib hazırlayırdım ki, o da gələndə bir yerdə içək. Günlərin birində mən təzə çay dəmləmişdim. Ayətullah Mədəni də gəlib çıxdı. Əyləşən kimi onun üçün bir fincan çay süzdüm. O qədər susamışdı ki, tələsik fincanı götürüb dodaqlarına yaxınlaşdırdı. Çay çox qaynar olduğundan onun dodağını yandırdı. Tez fincanı yerə qoyub hönkürtü ilə ağlamağa başladı. Gözünün yaşı yerə tökülürdü. Öz-özünə deyirdi: "Əstəğfirullahə Rəbbi və ətubu ileyh. Əuzu billahi minəş-şeytanir rəcim." Ondan soruşdum: Sənə nə oldu belə? Dedi: Çox susuz idim. Fincanı tələsik götürüb içmək istədim, amma dodaqlarım yandı. Bunu gördükdə cəhənnəm odunu xatırladım. Məni ağladan cəhənnəm atəşinin qorxusudur."

Görürük ki, bir fincan çayın istisindən moizə alaraq cəhənnəmi xatırlayan insanlar da vardır. Belə insanın aqibəti də şəhidlik məqamı olar. Şəhidlik məqamı hər insana nəsib olmaz. Bu məqamı əldə etmək insanın əməlindən asılıdır. Bəzən bir insan bir fincan isti çaydan moizə alır. Adam da vardır ki, heç bir şey ona kar etmir və heç nədən ibrət almır. Bunu da qeyd etmək lazımdır ki, moizə və ibrət öz əhlinə təsir edər.

Həmmam adlı bir mömin Həzrət Əlinin(ə) hüzuruna gəlib ərz etdi: "Ya Əmirəlmöminin, mənə təqvalı insanın xüsusiyyətlərini söylə. Həzrət Əli(ə) bildirdi ki, əgər

təqvalıların sifət və əlamətlərini onun üçün saysa, ürəyi tab gətirməyəcək. Buna görə də onun üçün bu ayəni oxudu: “Allahdan qorx və yaxşı işlər gör ki, Allah pəhrizkarlar və yaxşı işlər görənlərlədir.”

Həmmam bununla kifayətlənməyib israr etdi ki, Həzrət(ə) onun üçün bütün əlamətləri saysın. Çox isrardan sonra Həzrət Əli(ə) həmin əlamətləri saymağa başladı. Təxminən yüzdən artıq əlamət saymışdı ki, Həmmamın ürəyi tab gətirmədi və üzü üstə yerə yıxılıb günyasını dəyişdi.

Həzrət Əli(ə) onun başı üzərində dayanıb buyurdu: “Düzgün moizələr öz əhlinə belə (təsir) edir.”[1]

Odur ki, ölüm haqdır, amma insanlar qəflət üzündən onu yaddan çıxarırlar. Əgər insan qəflətdə olmasa və qəlbində nuraniyyət yarada bilsə, hər gün ölümü yad edər və insaniyyət mərhələsində uca məqamlara nail olar.

## Ölüm ümumi bir qaydadır

Bəhsimizə əlavə olunan ikinci mətləb isə budur ki, ölüm ümumi bir qaydadır. Yəni bütün canlılar ölümü dadmalıdırlar. Ölüm elə bir qaydadır ki, heç bir kəsə istisna olunmayacaq. Hətta sonda Əzrayılın özü də öləcək. “Ali-İmran” surəsinin 185-ci ayəsində belə buyurulur:

كُلُّ نَفْسٍ ذَآئِقَةُ الْمَوْتِ

-Hər bir nəfs (canlı mütləq) ölümü dadacaqdır.

“Nisa” surəsinin 78-ci ayəsində belə buyurulur:

أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ

[1] Nəhcül-bəlağə, xütbə 184.

-Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içərisində olsanız belə ölüm sizi haqlayacaqdır.

Allah Əzrayılı canları almaq üçün məmur etmişdir. Kimliyindən asılı olmayaraq əcəli çatmış hər bir kəsin canını mütləq almalıdır. O, kimdənsə icazə almır və vaxtlı- vaxtında öz işini yerinə yetirir.

Günlərin birində cənab Həzrət Süleyman(ə) bir məclisdə əyləşmişdi. Cənab Əzrayıl(ə) da həmin məclisdə idi. Əzrayıl(ə) Süleymanla(ə) söhbət etdikdən sonra çıxıb getdi. Bir kişi Süleyman Peyğəmbərdən(ə) soruşdu: "Ey Allahın peyğəmbəri, o kim idi? Süleyman(ə) buyurdu: O, ölüm mələyi idi. Həmin kişi dedi: Amma o, mənə uzun-uzadı baxırdı. Elə bil ki, o, mənim canımı almaq istəyirdi. Həzrət Süleyman(ə) soruşdu: Ürəyindən nə keçir? Həmin kişi dedi: İstəyirəm ki, mənə nicat verəsən." Həzrət Süleyman(ə) küləyə əmr verdi ki, bu kişini götürüb uzaq bir yerə aparsın. Külək həmin kişini götürüb Hindistana apardı. Əzrayıl(ə) bir dəfə də Süleymanın(ə) yanına gəlmişdi. Süleyman(ə) ondan soruşdu: "Keçən dəfə nə üçün mənim yanımda əyləşən kişiyə təəccüblə baxırdın? Əzrayıl(ə) dedi: Allah mənə əmr etmişdi ki, o kişinin canını uzaq bir yerdə alım. Amma onu həmin vaxt sənin yanında gördükdə çox təəccübləndim. Sizdən ayrılıb Allahın əmr etdiyi (onun canını alacaq uzaq) yerə getdikdə onu orada gördüm."[1]

---

[1] Ruhun qəbzi, səh.123.

Şairlərdən biri də bu əhvalatı fars dilində gözəl nəzmə çəkmişdir:

دیدمش اینجا و بس حیران شدم

در تفکر رفته سرگردان شدم

از عجب گفتم گر او را صد پر است

زو به هندوستان شدن دور اندر است

چون به امر حق به هندوستان شدم

دیدمش آنجا و جانش بستُدم

تو همه کار جهان را همچنین

کن قیاس و چشم بگشا و ببین

از که بگریزیم از خود این محال

از که برتابیم از حق، این وبال

Odur ki, ölüm hamı üçün mütləq və ümumi bir qaydadır. Ondan heç bir kəs qaça bilməyəcək. Bütün canlıların hamısı ölümə məhkumdur.

قَالَ عَلِيٌّ(ع): إِنَّ لِلَّهِ مَلَكاً يُنَادِى فِى كُلِّ يَوْمٍ لِدُوا لِلْمَوْتِ وَ اجْمَعُوا لِلْفَنَاءِ وَ ابْنُوا لِلْخَرَابِ

-Həzrət Əli(ə) buyurur: "Allah bir mələk yaratmışdır ki, hər gün o insanları səsləyərək belə deyir: Doğun

(doğulun) ölmək üçün. (Sərvət) toplayın fəna olmaq üçün. (Evlər) tikin xarab olmaq üçün.”[1]

Heç bir kəs elə fikirləşməsin ki, dünyada əbədi yaşayacaq və ölməyəcək. Heç kəs elə düşünməsin ki, yığdığı mal-dövlət həmişə onun olacaq. Heç bir kəs fikirləşməsin ki, tikdiyi evlər və imarətlər həmişə olduğu kimi duracaq. İnsanın hər nəfəsi onu ölümə yaxınlaşdırır.

قَالَ عَلِيٌّ(ع): نَفَسُ الْمَرْءِ خُطَاهُ إِلَى أَجَلِهِ

-Həzrət Əli(ə) buyurur: “İnsanın aldığı nəfəs ölümə tərəf atdığı addımdır.”[2]

İnsanın əcəli çatdıqda hətta bircə nəfəs almağa da belə icazəsi yoxdur. Əgər nəfəs aldığı vaxt əcəli çatıbsa, elə həmin halda, əgər nəfəsini buraxdığı halda əcəli yetişibsə, yenə də o halda getməlidir.”

Bir nəfər dedi: “Şükür edirəm O Allaha ki, ömrümün sayını bilir. Ona dedilər: Sənin ömrünün sayını anan da bilir. Doğulduğun gündən bu günə qədər hesablamaq mümkündür. Yaxşısı budur ki, belə deyəsən: Şükür edirəm O Allaha ki, nəfəslərimin sayını bilir.”[3]

## Ölümün həqiqəti nədir?

“Ölümün həqiqəti nədir?” sualı barədə çox sözlər yazılmış və çox fikirlər söylənilmişdir. Yəni bu sual yeni

[1] Mizanül-hikmə,12-ci cild, hədis 5658.
[2] Nəhcül-bəlağə, 71-ci hikmət.
[3] İnsanın aldığı nəfəslərin sayını Allahdan başqa heç kəs bilmir. Əgər insan bir gün aldığı nəfəslərin sayını hesablayıb yaşadığı illərin üstünə toplasa , yenə də sayını bilməz. Çünki insan həmişə eyni qaydada nəfəs almır.

bir sual deyil. Qədimdən həmişə bu sual verilmiş və müxtəlif cavablar söylənilmişdir.

Bu mətləbin bəyan edilməsinə başlamazdan öncə bəzi sözlərin mənasını da bilmək lazımdır. İlk növbədə “bəqa” və “fəna” sözlərinin mənasına diqqət yetirək. “bəqa” sözü qalmaq, var olmaq, “fəna” isə onun əksinə olaraq yoxluq və yox olmaq deməkdir. İkincisi isə “vücud” və “ədəm” sözlərinin mənasını bilməliyik. “Vücud” varlığa, “ədəm” isə onun əksi olaraq “yoxluğa” deyilir. Nə qədər ki, bir insan yaranmayıb, yaxud bir ağac əkilməyib “ədəm”dir. Yəni yoxdur. Amma yarandıqdan sonra vücud (varlıq) adlanır. Yaranmayan və vücuda gəlməyən bir şeyə varlıq demək olmaz. Həmçinin “təvəllüd” və “təvəffa” sözlərinə də diqqət yetirək. “Təvəllüd” yeni doğulan, “təvəffa” isə vəfat edən deməkdir. Deməli, dünyaya gələnə mütəvəllid, dünyadan gedənə isə mütəvəffa deyilir.

Əlbəttə, qeyd etməliyəm ki, bu mətləb barədə geniş söhbət etmək olar. Həmçinin incə bir mətləb olduğu üçün buna daha artıq diqqət yetirilməlidir. Bu bəhsi bilməyin bizim üçün çox böyük faydası vardır. Çünki imanla küfrün arasında olan fərqlərdən biri də bu mətləbdir. İmanla küfrün fərqi barədə yazılmış kitablar bu mövzudan kifayət qədər söz açır.

İndi isə keçək əsas suala. Həmin sual budur ki, barəsində danışdığımız ölüm “bəqa”dır, yoxsa “fəna”dır? Hər kəs ölümün bəqa və yaxud fəna olduğunu iddia etsə, mütləq buna dəlil-sübut gətirməlidir.

Quranda “təvəffa” kəlməsi on dörd dəfə zikr olunmuşdur. Həmin ayələrdən biri “Zumər” surəsinin 42-ci ayəsidir. Allah-təala bu ayədə belə buyurur:

اللَّهُ يَتَوَفَّى الْأَنفُسَ

-Ruhları (canları) tamamilə alan Allahdır.

"Təvəffa" sözü "vəfa" sözündən götürülüb və bir şeyi kamil surətdə tamamilə almağa deyilir. Məsələn, bir nəfər digərindən min manat borc pul alır. Borcun vaxtı çatdıqda həmin şəxs öz borcunu istəyir. Borclu şəxs ona beş yüz manatını qaytarır və qalan hissəsini də bir həftədən sonra verəcəyini söyləyir. Gələn həftə borc verən şəxs borc alandan pulunun qalan hissəsini də alır. Belə olduqda ona "təvəffa", yəni tamamilə almaq deyilir. Amma yarısını almağa "təvəffa" deyilməz.

Belə olduqda sual oluna bilər ki, bir şeyi almaq "vücud" varlıqdadır, yoxsa "ədəm" yoxluqda? Əgər yoxluqdadırsa, yox olan şeyi necə alıb vermək olar? Deməli, əgər Allah insanların canlarını təvəffa edirsə, yəni ölümü insana verirsə, sual oluna bilər ki, ölüm varlıqdır, yoxsa yoxluq? Çoxu elə başa düşür ki, ölüm yoxluqdur. Bir halda ki, ölümün özü də "vücuddur", yəni bir varlıqdır. Deməli, təvəffa vücudda (varlıqda) olar. Ədəmdə (yoxluqda) təvəffa olmaz. Belə olduqda ölüm gəlir və həyat gedir. Belə deyil ki, həyat getdikdən sonra ölüm gəlir. Çünki ölümün özü bir varlıq və vücuddur. Ölüm vücud olduğuna görə Allah onu bəxş edir. Əgər Allah bəxş edirsə, varlığı (vücudu) bəxş edir. Ölümü verdikdən sonra həyatın hamısını insandan alır. Deməli, həm həyat, həm də ölüm hər ikisi vücuddur. Yəni varlıqdır.

## Ölüm və həyat hər ikisi Allahın məxluqudur

Bu barədə olan digər mətləb isə belədir. Həm həyatın özü, həm də ölüm hər ikisi məxluqdur. Yəni Allah həyatı

xəlq etdiyi kimi, ölümü də xəlq edib. “Mülk” surəsinin 2-ci ayəsində belə buyurulur:

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

-Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur.

Deməli, görürük ki, ölüm də Allahın yaratdığı bir varlıqdır. Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərək belə buyurmuşdur:

فَتَفَهَّمْ يَا بُنَيَّ وَصِيَّتِي، وَاعْلَمْ أَنَّ مَالِكَ الْمَوْتِ هُوَ مَالِكُ الْحَيَاةِ، وَأَنَّ الْخَالِقَ هُوَ الْمُمِيتُ

-Buna görə də oğul, mənim vəsiyyət və tapşırığımı yaxşı anla. Bil ki, ölümün sahibi həyatın da sahibidir, yaradan öldürəndir...

Mərhum Şəhid Mütəhhəri yazdığı kitablarının birində bu məsələni elmi şəkildə açıqlamışdır. Onun bir hissəsi belədir: Quran həyatı bir varlıq olaraq bildiyi üçün Allah insanlara həyat vermək üçün elçi və məmurlar göndərir. Ölüm üçün də məmur və mələklər göndərir. Əgər ölüm yoxluq olsaydı, məmur və elçi göndərməyə nə ehtiyac vardı? Deməli, ölümün ədəm olmamasının (varlıq olduğunun) İslamda dəlillərindən biri budur ki, Allah həyat və ölümün hər ikisi üçün məmur göndərir.

Qeyd olunan mətləblərə bir mətləbi də əlavə edək. Həmin mətləb budur ki, bəzi kəlmələr müxtəlif baxışlarda fərqli olur. Yəni bəzi kəlmələrin mənaları düşüncələr baxımından fərqli və müxtəlif olur. Mümkündür ki, həyat və ölüm Peyğəmbərin(s) baxımından bir cür olsun, amma Allaha və qiyamətə inanmayanların baxışında başqa cür olsun. Materialistlər insanı maddi aləmdən başqa bir varlıq

kimi qəbul etmirlər. Buna görə də həyat və ölümü də başqa mənada başa düşürlər. Onlar insanı yaradan və insanın axırı (qiyamət) barədə  danışmırlar. Çünki bunlara inamları yoxdur. Sadəcə insanı bir material və maddi aləm kimi görür və onun barəsində öz nəzəriyyələrini irəli sürürlər. Onlar insanın ölümünü insanın bədəni ilə ölçürlər. Yəni nə qədər ki, ürək döyünür və beyin işləyir, insan həyatdadır. Ürək və beyin dayandısa, deməli insan öldü.

Amma İslam dini həyat və ölümə tamamilə dərindən və başqa cür yanaşır. İslam baxımından həyat və ölüm bədən və maddi cəhətlə ölçülmür. Quranda görürük ki, Allah bəzi ölülərə diri, bəzi dirilərə isə ölü deyir. Yəni ölüm məsələsində baxışlar fərqlidir. Kafir və materialistlər ölüm məsələsinə bir cür, İslam isə başqa cür yanaşır. Məsələn, Allah-təala "Nəml" surəsinin 80-81-ci ayələrində Peyğəmbərə(ə) belə buyurur:

إِنَّكَ لَا تُسْمِعُ الْمَوْتَى وَلَا تُسْمِعُ الصُّمَّ الدُّعَاء إِذَا وَلَّوْا مُدْبِرِينَ. وَمَا أَنتَ بِهَادِي الْعُمْيِ عَن ضَلَالَتِهِمْ إِن تُسْمِعُ إِلَّا مَن يُؤْمِنُ بِآيَاتِنَا فَهُم مُّسْلِمُونَ

-Şübhəsiz, sən ölülərə eşitdirə bilməzsən və öz dəvətini üz çevirib dönən karlara çatdıra bilməzsən. Sən (o) korqəlbliləri azğınlıqdan düz yola gətirən deyilsən! Sən (öz dəvətini) yalnız iman gətir(ə bil)ənlərə eşitdirə bilərsən. Elə buna görə də təslimdirlər.

Bu ayədən açıq-aydın görürük ki, Allah-təala qəlbləri kor, qulaqları haqqı eşitməkdə kar olan insanları ölü bəyan edir. Halbuki onlar həyatdadırlar və yaşayırlar. Digər ayələrdə isə bəzi dünyadan gedənləri, bədənləri torpağın

altında çürüyənləri diri hesab edir. “Ali-İmran” surəsinin 169-cu ayəsində belə oxuyuruq:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir.

Bəziləri belə iddia edirlər ki, ruh bədəndən çıxdıqdan sonra insan ölü hesab olunur. Həmin şəxs üçün qeyd olunan ayəni oxuduqda yenə də iddia edir ki, onlara bərzəx aləmində mənəvi ruzi verilir. Bu iddianın da cavabında “Bəqərə” surəsinin 154-cü ayəsini oxumaq olur.

وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ

-Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə diridirlər və lakin (bunu) siz dərk etmirsiniz.

Quranda Peyğəmbər(s) barəsində daha üstün məqamlar bəyan olunur. Belə ki, Peyğəmbər(s) həm görür, həm eşidir, həm də insanların bütün əməllərinə şahiddir. “Tövbə” surəsinin 94-cü ayəsində belə buyurulur:

وَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَرَسُولُهُ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ

-(Bundan belə) əməlinizi Allah da görəcək, Onun Peyğəmbəri də. Sonra qeybi və aşkarı bilənin (Allahın) hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir!

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ أَعْمَالَكُمْ تُعْرَضُ عَلَيَّ كُلَّ يَوْمٍ فَمَا كَانَ مِنْ حَسَنٍ اِسْتَزَدْتُ اللَّهَ لَكُمْ وَ مَا كَانَ مِنْ قَبِيحٍ اِسْتَغْفَرْتُ اللَّهَ لَكُمْ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizin əməlləriniz hər gün mənə göstərilir. Əməlləriniz yaxşı olduqda Allahdan işlərinizin (yaxşı əməllərinizin) artmasını diləyirəm, pis olduqda isə Allahdan sizin bağışlanmağınızı diləyirəm.”[1]

قَالَ الصَّادِقُ(ع): تُعْرَضُ الْأَعْمَالُ عَلَى رَسُولِ اللَّهِ أَعْمَالُ الْعِبَادِ كُلَّ صَبَاحٍ أَبْرَارُهَا وَ فُجَّارُهَا فَاحْذَرُوهَا وَ هُوَ قَوْلُ اللَّهِ عَزَّ وَ جَلَّ "اعْمَلُوا فَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَ رَسُولُهُ"

-İmam Sadiq(ə) buyurur: “Bəndələrin pis və yaxşı əməlləri hər gün sübh çağı Peyğəmbərə(s) təqdim olunur. Elə isə işlərinizdə diqqətli olun. Necə ki, Allah buyurur: “(Bundan belə) əməlinizi Allah da görəcək, Onun Peyğəmbəri də. Sonra qeybi və aşkarı bilənin (Allahın) hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir!”[2]

Bədr döyüşü kafirlərin məğlubiyyəti ilə başa çatdıqdan sonra Peyğəmbər(s) bir qrup səhabələrlə kafirlərin cəsədləri tökülmüş su quyusunun kənarında dayandı. Kafirlərin ölülərinin bir neçəsini adları ilə səsləyərək belə buyurdu:

يَا فُلاَنُ بْنَ فُلاَنٍ، وَيَا فُلاَنُ بْنَ فُلاَنٍ، أَيَسُرُّكُمْ أَنَّكُمْ أَطَعْتُمُ اللَّهَ وَرَسُولَهُ فَإِنَّا قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقًّا، فَهَلْ وَجَدْتُمْ مَا وَعَدَ رَبُّكُمْ حَقًّا فَقَالَ عُمَرُ: يَا رَسُولَ اللَّهِ، مَا تُكَلِّمُ مِنْ أَجْسَادٍ لاَ أَرْوَاحَ لَهَا.

---

[1] Mizanül-hikmə,9-cu cild, hədis 14389.
[2] Yenə orada, hədis 14388.

فَقَالَ رَسُولُ اللَّهِ(ص): وَالَّذِى نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ، مَا أَنْتُمْ بِأَسْمَعَ لِمَا أَقُولُ مِنْهُمْ

-Ey filankəsin oğlu filankəs! Allaha və Peyğəmbərinə(s) itaət etsəydiniz, sizin üçün yaxşı olmazdımı? Biz Allahın bizə verdiyi (qələbə) vədəsini gördük. Siz də Allahın sizin barənizdə verdiyi (əzab və məğlubiyyət) vədəsini gördünüzmü?"

Ömər dedi: "Ya Rəsulallah, ruhsuz bədənlərlə söhbət edirsənmi?"

Peyğəmbər(s) buyurdu: "And olsun o zata ki, Məhəmmədin canı onun əlindədir, siz mənim sözlərimi onların eşitdiyi kimi yaxşı eşitmirsiniz."[1]

Cəməl müharibəsində Həzrət Əli(ə) Peyğəmbərin(s) etdiyi eyni hərəkəti etdi. Cəməl döyüşü başa çatdıqdan sonra Həzrət(ə) cənazələrin arasında Kəb ibn Surun meyitini gördü. Kəb ibn Sur yolunu azmış qazilərdən biri idi. Bu müharibədə Quranı boynuna asıb özü və qohum-əqrəbası ilə birgə Həzrət Əliyə(ə) qarşı döyüşdülər. Müharibədən sonra Həzrət Əli(ə) onun meyitinə yaxınlaşıb bir nəfərə göstəriş verdi ki, onu otuzdursun. Həmin şəxs Kəbi otuzdurdu. Həzrət(ə) ona baxıb dedi: "Allahın mənə verdiyi vədəni gözlərimlə görmüşəm. Sən də Allahın verdiyi vədələri gözünlə gördünmü?" Bu sözləri söyləyəndən sonra həmin şəxsə dedi ki, onun cənazəsini əvvəlki kimi yerə uzatsın. Sonra Həzrət Əli(ə) Təlhənin başı üzərinə gəlib baxdıqdan sonra yanındakılara göstəriş verdi ki, onu da otuzdursunlar. Təlhəni də otuzdurdular. Həzrət(ə) həmin sözləri ona da buyurdu. Bu

[1] Təfsiri-nümunə,15-ci cild, səh.544. Səhihi-Buxari,5-ci cild, səh.97.

hadisədən sonra Həzrətə(ə) dedilər: "Ya Əli, sən ölülərlə söhbət edirsən? Onlar sənin sözlərini necə eşidə bilərlər?" Həzrət(ə) buyurdu: "And olsun Allaha, Bədr quyusunun kənarındakı ölülər Peyğəmbərin(s) sözlərini eşitdikləri kimi, bunlar da mənim sözlərimi çox yaxşı eşitdilər."[1]

Ayə və hədislərdən açıq-aydın görürük ki, ölən insanlar da eşidirlər. Əgər onlar eşitməsəydilər, Peyğəmbər(s) və Əli(ə) onların cəsədləri ilə söhbət edərdilərmi?

Həzrət Əli(ə) Siffeyn müharibəsindən qayıdarkən Kufə qəbiristanlığının yanında durub üzünü qəbirlərə tutaraq belə buyurdu:

يَا أَهْلَ الدِّيارِ الْمُوحِشَةِ وَ الْمحَالِ الْمُقْفِرَةِ والقُبُورِ الْمُظْلِمَةِ يَا أَهْلَ التُّرْبَةِ يَا أَهْلَ الْغُرْبَةِ يَا أَهْلَ الْوَحْدَةِ يَا أَهْلَ الْوَحْشَةِ أَنْتُمْ لَنَا فَرَطٌ سَابِقٌ وَنَحْنُ لَكُمْ تَبَعٌ لاحِقٌ أَمَّا الْدُورُ فَقَدْ سُكِنَتْ وَ أَمَّا الْأَزْوَاجُ فَقَدْ نُكِحَتْ وَ أَمَّا الْأَمْوَالُ فَقَدْ قُسِمَتْ هَذَا خَبَرٌ مَاعِنْدَ نَا وَ مَا خَبَرٌ مَا عِنْدَكُمْ ثُمَّ الْتَفَتَ إِلى أَصْحَابِهِ فَقَالَ: أَمَا لَوْ أُذِنَ لَهُمْ فِى كَلامِى لَأَ خبرُوكُمْ إِنَّ خَيْرَ الزَّادِ التَّقْوى

-Ey vəhşətli evlərin sakinləri! Ey zülmət qəbirlərin əhli! Ey torpaq altında yatanlar! Ey qürbət əhli! Ey tənha evlərin əhli! Ey vəhşət əhli! Siz bizdən əvvəl bu diyara gəldiniz və biz də sizə qovuşacağıq. Əgər burada olan xəbərləri eşitmək istəyirsinizsə, sizə çatacaq xəbərlər budur: Siz öləndən sonra evlərinizdə başqaları sakin oldu. Həyat yoldaşlarınız başqaları ilə evləndi. Vərəsələriniz

[1] Təfsiri-nümunə,15-ci cild, səh.544.

mallarınızı öz aralarında bölüb dağıtdılar. Buradan sizə çatacaq xəbərlər yalnız bunlardar. İndi orada olan xəbərləri siz deyin. Sonra Həzrət(ə) üzünü əshabına tərəf çevirib buyurdu: "Əgər onlara danışıq icazəsi verilsəydi, onlar durub belə deyərdilər: "Ya Əli, burada hər şeydən mühüm və dərdə dəyən əməl yalnız təqvadır."[1]

Həzrət Əlinin(ə) bu kəlamından da açıq-aydın başa düşürük ki, dünyasını dəyişənlər danışa bilərlər. Amma onlara danışmaq icazəsi verilmir. Buna görə də Həzrət Əli(ə) qəbiristanlıq əhlinə xitab etdikdən sonra səhabələrinə buyurdu: "Əgər onlara danışıq icazəsi verilsəydi, onlar durub belə deyərdilər: "Ya Əli, burada hər şeydən mühüm və dərdə dəyən əməl yalnız təqvadır."

Çox təəssüflər olsun ki, bəziləri yuxuya inanırlar, amma Peyğəmbər(s) və məsum imamların kəlamlarına o qədər inanmırlar. Bir nəfər danışırdı ki, atam rəhmətə getmişdi. Bir neçə gündən sonra onu yuxuda gördüm. O, mənə belə dedi: "Siz məni görmürsünüz. Amma mən sizin kənarınızda dayanıb sizə baxıram. Mənim üçün məclis qurub əza saxlayırsınız. Bütün danışıqlarınızı eşidirəm."

Odur ki, ölüm bir varlıqdır. İnsan ölməklə bir həyatdan başqa bir həyata köçür. Ölüm insanın yox olmağı demək deyil. Ölüm bir otaqdan digər otağa keçmək kimi bir şeydir. Ölüm əbədi həyata köçmək deməkdir. "Fəcr" surəsinin 24-cü ayəsində belə oxuyuruq:

يَقُولُ يَا لَيْتَنِي قَدَّمْتُ لِحَيَاتِي

-O: "Kaş ki, mən öz (əbədi) həyatım üçün əvvəlcədən (yaxşı əməllər) göndərmiş olaydım!" - deyər.

---

[1] Nəhcül-bəlağə, 130-cu hikmət.

İnsan qiyamət günü vəziyyətinin çətin olduğunu gördükdə dünyada tutduğu pis əməllərə və yaxşı əməllərinin azlığına çox peşman olacaq. Buna görə də təəssüflə deyəcək: “Kaş öz (əbədi) həyatım üçün əvvəlcədən yaxşı əməllər göndərəydim.”

## Ölümün misallarla izahı

Ötən bəhsimizdə ölümün həqiqəti barədə müəyyən qədər söhbət etdik. Ölümün bəqa və yaxud fəna olması, həmçinin ölümün varlıq olub-olmaması barədə qarşıya sual qoyuldu. Bu suala Quran ayələrinə istinad edərək cavab verildi. Nəticədə belə məna olundu ki, ölüm özü bir varlıqdır. Yəni həyatın getməsi ilə ölüm gəlmir. Ölüm gəldikdə həyat gedir. Bu barədə olan mətləblərdən biri də belə oldu ki, ölüm və həyat hər ikisi Allahın məxluqudur. Yəni ölüm də Allahın yaratdığı bir vücud və varlıqdır.

Bu bəhsimizdə isə Peyğəmbər(s) və məsum imamların hədislərində ölümün misallarla izahından söz açacağıq. Yəni Peyğəmbər(s) və imamlar məsəl çəkərək ölümü bənzətmə ilə bizim üçün izah etmişlər. Həmin bu məsəllərdən də başa düşürük ki, ölüm bir varlıqdır. Həmin hədislərdən bir neçəsinə diqqət yetirək. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, hədislərdə ölüm barədə çəkilmiş bu misallar hamının barəsində eyni dərəcədə deyildir. Yəni mömінin ölümünün məsəlləri ilə fasiq və kafirin ölümünün məsəlləri fərqlidir.

### 1. Ölüm mömin üçün çirkli paltarları təzə paltarlarla əvəz etmək kimidir

Hədislərdə belə nəql olunur ki, mömin insanın ölümü sanki çirkli paltarları əynindən çıxarıb təzə paltar geyinməsinə və kafir insan üçün isə təmiz paltarları çıxarıb çirkin paltarları geyinməsinə bənzəyir.

عن الامام جواد عليه السلام ـ لما سُئلَ عنِ الموتِ ـ : لِلمؤمنِ كَنَزعِ ثِيابٍ وَسِخَةٍ قَمِلَةٍ، و فَكِّ قُيودٍ و أغلالٍ ثَقيلَةٍ، و الاستِبدالِ بأفخَرِ

الثِّيابِ و أطيَبِها رَوائحَ، و أوطَأَ المراكِبِ، و آنَسِ المنازِلِ؛ و للكافِرِ كخَلعِ ثِيابٍ فاخِرَةٍ، و النَّقلِ عن مَنازِلَ أنيسَةٍ، و الاستِبدالِ بأوسَخِ الثِّيابِ و أخشَنِها، و أوحَشِ المنازِلِ، و أعظَمِ العَذابِ

-İmam Səccadın(ə) "Ölüm nədir?"- sualına cavabından: "Ölüm mömin üçün çirkli, bit-birəli paltarları bədənindən çıxarmaq, ağır zəncir və halqaları çıxardaraq onları ən qiymətli, xoş ətirli paltarlarla, ən rahat yol gedən miniklərlə və ən əmin-aman mənzillə dəyişməkdir. Kafir üçünsə bədənindən qiymətli paltarı qoparıb atmaq, təhlükəsiz mənzillərdən köçmək və onları ən çirkli, ən cod paltarlarla, ən qorxunc mənzillər və ən böyük əzabla əvəz etməkdir." [1]

**2. Ölüm təmizləyici bir qurğuya bənzəyir**

Ölüm mömin üçün saflaşdırıcı və təmizləyici bir qurğuya bənzəyir. Hədis belədir: "Günlərin birində İmam Museyi Kazim(ə) bir xəstəyə baş çəkməyə getmişdi. Həmin xəstə artıq ölüm yatağında idi. Ətrafda olanlar İmamdan(ə) xahiş etdilər ki, insanın can ayağında olması və ölümü barədə söhbət etsin. İmam(ə) onlar üçün bu barədə geniş söhbət etdi. Həmin söhbətin bir hissəsi belədir:

الموتُ هُو المِصْفاةُ يُصَفّي المؤمنينَ مِن ذُنوبِهِم فيكونُ آخِرُ ألَمٍ يُصيبُهُم كَفّارَةَ آخِرِ وِزرٍ بَقِيَ علَيهِم، و يُصَفّي الكافِرينَ مِن

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19107.

حَسَناتِهِم فيكونُ آخِرَ لَذّةٍ أو راحَةٍ تَلحَقُهُم، و هُو آخِرُ ثَوابِ حسَنَةٍ تكونُ لَهُم

-Ölüm möminləri günahlarından təmizləyən bir saflaşdırıcıdır. Vücudunda olan son günahın kəffarəsi kimi ona çatır. Kafirləri də yaxşılıqlarından təmizləyir və (dünyada etdiyi) yaxşılığın son mükafatı kimi ona verilən son rahatlıq və asayişdir. [1]

Biz ölümə qorxulu bir şey kimi baxırıq. Amma bu hədisləri oxuduqda görürük ki, ölüm mömin insan üçün rahatlıqdan başqa bir şey deyil. Əgər mömin insan ölümdən qorxursa, öz əməllərindən qorxur. Ölüm qorxulu deyil, insan öz əməllərindən nigaran olduğu üçün ölümdən qorxur.

**3. Ölüm möminlər üçün hamamda çimməyə bənzəyir**

İmam Həsən Əskəri(ə) buyurur: “Günlərin birində atam İmam Hadinin(ə) dostlarından biri xəstələnib ölüm yatağına düşmüşdü. Atam ona baş çəkməyə getdi. Həmin kişi ölümün qorxusundan ağlayır və dözümsüzlük edirdi. Atam ona buyurdu:

يا عبدَ اللّهِ، تَخافُ من الموتِ لأنّكَ لا تَعرِفُهُ، أ رأيتُكَ إذا اتَّسَختَ و تَقَذّرتَ و تَأذَّيتَ مِن كَثرَةِ القَذَرِ و الوَسَخِ علَيكَ و أصابَكَ قُروحٌ و جَرَبٌ و عَلِمتَ أنّ الغَسلَ في حَمّامٍ يُزيلُ ذلكَ كلَّهُ أما تُريدُ أن تَدخُلَهُ فَتَغسِلَ ذلكَ عنكَ؟ أ وَ ما تَكرَهُ أن لا تَدخُلَهُ فيَبقى

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19110.

ذلكَ علَيكَ؟ قالَ: بلى يَا بنَ رسولِ اللّهِ. قالَ : فذاكَ الموتُ هو ذلكَ الحَمّامُ، و هو آخِرُ ما بقِيَ علَيكَ مِن تَمحيصِ ذُنوبِكَ و تَنقِيَتِكَ مِن سَيِّئاتِكَ ، فإذا أنتَ وَرَدتَ علَيهِ و جاوَزتَهُ فقد نَجَوتَ مِن كُلِّ غَمٍّ و هَمٍّ و أذىً، و وصَلتَ إلى كُلِّ سُرورٍ و فَرَحٍ، فسَكَنَ الرّجُلُ و استَسلَمَ و نَشِطَ و غَمَّضَ عينَ نَفسهِ و مضى لِسَبيلِهِ

-Ey Allah bəndəsi, ölümü tanımadığın üçün ondan qorxursan. Əgər sənin bədənin çirkli olsa, bu çirkinlik və natəmizlik nəticəsində bədəninə yara düşüb sənə əziyyət versə və hamama gedib bədənini yumaqla həmin çirkdən və əziyyətdən xilas olacağını bilsən, hamama getməzsənmi? Yoxsa bədəninin çirkli və yaralı vəziyyətdə qalmasını istərdin? O dedi: Əlbəttə, hamama getməyi və bədənimi təmizləməyi istərdim. İmam(ə) buyurdu: Ölüm elə həmin hamama bənzəyir və sənin vücudunda olan günah və pislikləri təmizləyir. Elə isə bu hamama daxil olub çıxdıqdan sonra hər cür qəm-qüssədən və əziyyətdən nicat tapacaq və hər cür xoşluqlar və rahatlıqlara çatacaqsan.

Həmin kişi bu sözləri dinlədikdən sonra sakitləşdi və gözlərini yumaraq dünyasını dəyişdi.”[1]

**4. Ölüm bir körpüdür**

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19113.

İmam Zeynalabidin(ə) aşura hadisəsi barədə belə buyurur: “Müharibə başlandıqdan sonra bəzi səhabələr nigaran və narahatlıq keçirirdilər. Döyüş şiddətləndikcə və ölüm yaxınlaşdıqca İmam Hüseynin(ə) üzündə daha çox şadlıq və sevinc hiss olunurdu. İmam(ə) səhabələrin narahat olduğunu görüb onlara belə buyurdu:

صَبْرًا يَا بَنِى الكِرام فَمَا الْمَوتُ اِلاّ قَنْطَرَة تّعبُّرِ بِكُم عَنِ الْبُؤْسِ وَ الضَّراءِ اِلى الْجِنانِ الْواسِعَة وَ النَّعِمِ الدّائِمَة فَأَيُّكُم يَكْرَه اَنْ يَنْتَقِلَ مِن سِجْنِ اِلَى قَصْرٍ وَما هُوَ لِأَعْدائِكُم اِلاّ كَمَن يَنْتَقِلُ مِن قَصْرٍ اِلَى سِجْنٍ وَ عَذاب

-Ey kəramətli insanların övladları, səbir edin. Ölüm körpüdən başqa bir şey deyildir. İnsanlar bu körpüdən çətinliklə də olsa geniş və nemətləri tükənməyən bir cənnətə daxil olurlar. Sizlərdən kim istəməz ki, zindandan çıxıb gözəl qəsrlərə getsin? Sizin düşmənləriniz də bu körpüdən keçəcək. Lakin onlar cənnətdən zindana gedəcəklər.[1]

**5. Ölüm möminin xoş ətirli gül çələngidir**

Digər hədislərdə belə nəql olunur ki, ölüm möminlər üçün bir dəstə xoş ətirli gülü iyləmək kimidir.

قَالَ رَسُولُ اللهِ(ص): اَلْمَوت رِيْحَانَةُ الْمُؤمِن

-Allahın Peyğəmbəri (s) buyurur: “Ölüm möminin xoş ətirli gül çələngidir.”[2]

---

[1] Yenə orada, hədis 19106.
[2] Mizanül-hikmə,12-ci cild, hədis 19122.

İmam Sadiqdən(ə) ölümün izahı barədə soruşduqda Həzrət(ə) cavab verərək belə buyurdu:

لِلمُؤمِنِ كَأَطيَبِ رِيحٍ يَشَمُّهُ فيَنعَسُ لِطيبِهِ و يَنقَطِعُ التَّعَبُ و الألَمُ كلُّهُ عَنهُ، وَ لِلكَافِرِ كلَسعِ الأَفَاعِي وَ لَدغِ العَقارِبِ و أشَدَّ! قيلَ: فإنّ قَوما يقولونَ: إنّهُ أشَدُّ مِن نَشرٍ بالمِناشيرِ، و قَرضٍ بالمَقاريضِ، و رَضخٍ بالأحجار، و تَدويرِ قُطبِ الأرحِيَةِ علَى الأحداقِ! قالَ: كذلكَ هُو على بعضِ الكافِرينَ و الفاجِرينَ

-Ölüm mömininin iylədiyi ən xoş iyli ətirdir. Həmin ətri iylədikdə onun gözəl iyindən yuxuya gedir və bütün çətinliklər, ağrılar və narahatlıqlar canından çıxır. Amma ölüm kafir üçün əfi ilan və əqrəblərin çalması kimidir. Yox, bəlkə ondan daha da ağrılı və çətindir.

Bəziləri soruşdular: "Deyirlər, ölüm diri-diri bədənin mişarla doğranmasından, qayçı ilə kəsilməsindən, ağır daşların altında qalmaqdan, gözlərin dəyirman daşı altında ovulmasından daha əzablıdır."

İmam(ə) buyurdu: "Bəzi kafir və günahkarlar üçün belədir."[1]

Hədislərdə belə nəql olunur ki, bir mömininin əcəli çatdıqda Allah-təala onun canını almaq üçün məmur edərək buyurar: "Mən o bəndəmi sınaqdan çıxarmışam. O, bu sınaqlardan yaxşı çıxdı. Onu zəhmətə salmadan canını al." Cənab Əzrayıl(ə) beş yüz mələklə birgə həmin mömininin yanına gələr. Hansı mömininin dərəcəsi yüksək olarsa, həmin mələklərin sayı da çoxalar. Hər mələk əlində

[1] Yenə orada, hədis 19109.

bir dəstə gül onun yanına gələrlər. Bir-bir onu cənnətdəki məqamına görə təbrik edərlər. Heç biri təkrar məqam üçün təbrik deməzlər. Yəni hər biri ayrı-ayrı məqam və dərəcəyə görə ona təbrik deyər. Təbrik mərasimi qurtardıqdan sonra mələklər iki sıraya düzülür və əllərində tutduqları güllərdən bir dəstəsini həmin möminə verərlər. Mömin o gülü iylədikdə ruhu bədənindən çıxır və mələklərə qoşulub gedir.

**6. Ölüm uzunmüddətli bir yuxudur**

Bir sıra hədislərdə ölümü yuxuya bənzətmişlər. Yəni ölüm insan üçün bir yuxudur. Amma bu yuxunun müddəti uzundur. İmam Cavaddan(ə) ölüm barədə soruşduqda Həzrət(ə) belə buyurdu:

هُو النَّومُ الّذي يأتيكُم كُلَّ ليلَةٍ إلاّ أنّهُ طويلٌ مُدَّتُهُ لا يُنتَبَهُ مِنهُ إلاّ يَومَ القيامَةِ، فمَن رأى في نَومِهِ من أصنافِ الفَرَحِ ما لا يُقادِرُ قَدرَهُ، و مِن أصنافِ الأهوالِ ما لا يُقادِرُ قَدرَهُ، فكيفَ حالُ فَرِحٍ في النَّومِ و وَجِلٍ فيهِ ؟ هذا هُو الموتُ، فاستَعِدُّوا لَهُ

-Hər gecə sizin sorağınıza gələn, ancaq müddəti uzun olan yuxudur. İnsan yalnız qiyamət günü bu yuxudan oyanar. Yuxusunda müxtəlif növ saysız-hesabsız şadlıqlar, saysız qorxu-vəhşət görənin, ölüm yuxusunda şad olan və ya qorxuya düşənin halı necə olacaq? Budur ölüm. Belə isə, özünüzü ona hazırlayın.[1]

Peyğəmbərin(s) və imamların buyurduqları kəlamların hamısının kökündə və əslində Quran ayələri

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19108.

dayanır. İmamın(ə) bu kəlamının kökü də Qurandadır. Allah-təala “Zumər” surəsinin 42-ci ayəsində belə buyurur:

اللَّهُ يَتَوَفَّى الْأَنفُسَ حِينَ مَوْتِهَا وَالَّتِي لَمْ تَمُتْ فِي مَنَامِهَا فَيُمْسِكُ الَّتِي قَضَى عَلَيْهَا الْمَوْتَ وَيُرْسِلُ الْأُخْرَى إِلَى أَجَلٍ مُسَمًّى إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

-Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruh bədəni tərk edər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün əlamətlər vardır!

### 7. Ölüm bir dərmandır

Bəzi hədislərdə görürük ki, ölümü bir dərmana bənzətmişlər. İmam Cavad(ə) ölüm ayağında olan bir möminin yanına gəldi. Həmin mömin ölümdən qorxduğu üçün narahat idi. Ətrafda əyləşənlər İmamdan(ə) soruşdular:

ما بالُ هؤلاءِ المسلمينَ يَكرَهونَ الموتَ؟ قالَ: لأنّهُم جَهِلوهُ فكَرِهوهُ، و لو عَرَفوهُ و كانوا مِن أولياءِ اللّهِ عَزَّ و جلَّ لأحَبُّوهُ، و لَعلِموا أنّ الآخِرَةَ خَيرٌ لَهُم مِن الدّنيا. ثُمّ قالَ عليه السلام: يا أبا عبدِ اللّهِ، ما

بالُ الصَّبيِّ و المجنونِ يمتنعُ مِن الدَّواءِ المنقّي لبَدَنِهِ و النّافي للألَمِ عنهُ؟ قالَ: لجَهلِهِم بنَفعِ الدَّواءِ. قالَ: و الّذي بَعَثَ محمّدا بالحَقِّ نبيّا إنّ مَنِ استَعدَّ للمَوتِ حَقَّ الاستِعدادِ فهُو أنفَعُ لَهُ مِن هذا الدَّواءِ لهذا المتعالِجِ، أما إنّهُم لَو عَرَفوا ما يُؤدّي إلَيهِ الموتُ من النّعيمِ لاستَدعَوهُ و أحَبُّوهُ أشَدَّ ما يَستَدعي العاقِلُ الحازِمُ الدَّواءَ لدَفعِ الآفاتِ و اجتِلابِ السَّلاماتِ

-Ey Peyğəmbər(s) övladı, nə üçün müsəlman bir insanın ölümdən xoşu gəlmir? İmam(ə) buyurdu: Çünki camaat ölümü tanımır. Buna görə də ondan xoşları gəlmir. Əgər insanlar ölümü tanısaydılar, Allahın yaxın dostları olsaydılar, ölümdən acıqları gəlməzdi. Əgər insanların ölümdən xoşları gəlsəydi, başa düşərdilər ki, axirət dünyası onlar üçün dünyadan daha xeyirlidir.

Sonra İmam(ə) üzünü həmin xəstəyə tutub buyurdu: "Ey Əba Əbdillah, nə üçün uşaq və dəli onların xəstəliyinə faydası olan dərmanı içməkdən boyun qaçırırlar? O dedi: Çünki dərmanın onlar üçün faydalı olduğunu anlamırlar. İmam(ə) buyurdu: And olsun Məhəmmədi(s) peyğəmbər seçən Allaha ki, hər kəs ölümün nə olduğunu başa düşsə, özünü ona hazırlasa (təqvalı olsa), ölüm onun üçün (xəstə uşaq və dəliyə xeyri olan) həmin dərmandan daha faydalıdır. Əgər camaat ölüm vasitəsilə hansı nemətlərə çatacağını bilsəydi, ağıllı və uzaqgörən insanların öz xəstəliklərini aradan qaldırıb, canlarını sağlam

saxlamaqdan ötrü dərmanları xoşladıqları kimi ölümü xoşlayardılar.”[1]

### 8. Ölüm mömin üçün isti havada sərin su içmək kimidir

Hədislərdə ölüm barəsində belə nəql olunur ki, ölüm mömin insanlar üçün isti yay günlərində sərin su içmək kimidir. Həzrət Əli(ə) ömrünün son iki günündə onun əyadətinə gələnlər üçün bir neçə xütbə və kəlamlar buyurmuşdur. Həmin kəlamlardan bir qismi belədir:

اَنَا بِالاَمْسِ صاحِبُكُمْ، وَ الْيَوْمَ عِبْرَةٌ لَكُمْ، وَ غَداً مُفارِقُكُمْ. اِنْ اَبْقَ فَاَنَا وَلِيُّ دَمی، وَ اِنْ اَفْنَ فَالْفَناءُ ميعادی، وَ اِنْ اَعْفُ فَالْعَفْوُ لی قُرْبَةٌ، وَ هُوَ لَكُمْ حَسَنَةٌ، فَاعْفُوا «اَلا تُحِبُّونَ اَنْ يَغْفِرَ اللّهُ لَكُمْ»؟! وَ اللّهِ ما فَجَاَنی مِنَ الْمَوْتِ وارِدٌ كَرِهْتُهُ، وَ لا طالِعٌ اَنْكَرْتُهُ. وَ ما كُنْتُ اِلاّ كَقارِبٍ وَرَدَ، وَ طالِبٍ وَجَدَ «وَ ما عِنْدَاللّهِ خَيْرٌ لِلاَبْرارِ».

-Mən dünən sizin dost və yoldaşınız idim. Bu gün isə sizin üçün ibrət və nəsihətəm. Sabah sizdən ayrılacağam *(öləcəyəm)*! Əgər qalsam, öz qanımın ixtiyar sahibiyəm *(öz ixtiyarımla istəsəm İbn Mülcəmi cəzalandırar, istəsəm bağışlayaram)*. Əgər ölsəm, *(onsuz da)* ölüm mənim vədə yerimdir. *(Ölsəm heç bir ixtiyara malik deyiləm və siz öz şəri vəzifənizə əməl edin.)* Əgər *(onu)* bağışlasam, bağışlamaq mənim üçün itaət və bəndəlikdir. *(Siz onu bağışlamaq istəsəniz)* bağışlamaq sizin üçün xeyirxahlıqdır. Belə isə bağışlayan olun. *(Çünki Allah-*

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19110.

*təala Qurani-Kərimin "Nur" surəsinin 22-ci ayəsində buyurur:)* "Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayan və rəhm edəndir!"

Allaha and olsun ki, ölümlə mənim yanıma xoşlamadığım *(bir şey)* gəlməyəcək və *(ondan sonra)* istəmədiyim bir şey aşkar olmayacaq. *(Ölümə hazıram. Çünki ölümün arxasında əbədi səadət var və mən bu dünyadakı həyata vurulmamışam.)* Mən *(ölümə münasibətdə isti havada sərin)* su axtararaq *(onu)* tapan və bir şeyin arzusunda olub *(onu)* əldə edən şəxs kimiyəm. *(Çünki gözəllik və xoşbəxtlik ölümdən sonradır, necə ki, Qurani-Kərimin "Ali-İmran" surəsinin 198-ci ayəsində buyurulur:)* "Allah yanında olan *(əbədi)* nemətlər yaxşı əməl sahibləri üçün *(dünya mallarından)* daha xeyirlidir."[1]

Həzrət Əli(ə) bu kəlamında öz ölümünü isti havada sərin su tapmasına bənzədir. Yəni ölüm Həzrət(ə) üçün isti havada sərin bir su kimidir. Həzrət Əlinin(ə) şiə və aşiqləri də ölümə münasibətdə belədirlər.

قَالَ رَسُولُ اللهِ(ص): إنّ أشَدَّ شيعَتِنا لَنا حُبّا يكونُ خُروجُ نَفسهِ كشُربِ أحَدِكُم في يَومِ الصَّيفِ الماءَ البارِدَ الّذي يَنتَقِعُ بهِ القلوبُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Bizi eşq və məhəbbətlə sevən şiələrimizin canını tapşırması sizin isti havada içdiyiniz (ürəyinizi sərinlədən) soyuq su kimi kimidir."[2]

---

[1] Nəhcül-bəlağə, 23-cü məktub.
[2] Mizanül-hikmə,12-ci cild, hədis 19206.

## 9. Ölüm bir otaqdan digər otağa keçmək kimidir

Hədislərdə insanın ölümünü bir otaqdan digər otağa keçməyə bənzətmişlər. Əlbəttə, burada qeyd olunmalıdır ki, hamını eyni otaqdan başqa bir eyni otağa aparmırlar. Yəni bu otaqlar müxtəlif insanlar üçün fərqli otaqlardır. Həzrət Əli(ə) bu məsələni izah edərək belə buyurur:

أعظَمُ سُرورٍ يَرِدُ علَى المؤمنينَ إذ نُقِلوا عن دارِ النَّكَدِ إلى نَعيمِ الأبَدِ، و أعظَمُ ثُبورٍ يَرِدُ علَى الكافِرينَ إذ نُقِلوا عَن جَنَّتِهِم إلى نارٍ لا تَبيدُ و لا تَنفَدُ

-Mömin üçün bundan böyük şadlıq yoxdur ki, onu əzab-əziyyətli bir otaqdan rahatlıq, əbədi və nemətlə dolu olan otağına aparsınlar. Kafir üçün bundan fəlakətli və təhlükəli bir şey yoxdur ki, onu (təsəvvür etdiyi) cənnətindən (naz-nemət içində yaşadığı bu dünyadan) od-alovlu və sonu olmayan bir cəhənnəmə aparsınlar.[1]

## 10. Ölüm insan üçün uşağın anadan dünyaya gəlməsidir

Hədislərdə ölümü uşağın anadan olmasına bənzətmişlər. Yəni uşaq ananın bətnindən bu dünyaya gəldiyi kimi, öldüyü zaman eləcə də dünyadan gedir.

قَالَ رَسُولُ اللهِ(ص): ما شَبَّهتُ خُروجَ المؤمنِ مِن الدُّنيا إلاّ مِثلَ خُروجِ الصَّبيِّ من بَطنِ اُمِّهِ، مِن ذلكَ الغَمِّ و الظُّلمَةِ إلى رَوحِ الدُّنيا

[1] Yenə orada, hədis 19105.

-Həzrət Peyğəmbər(s) bu barədə buyurur: "Mömin insanın dünyadan getməsi, uşağın qaranlıq ana bətnindən işıqlı dünyaya gəlməsinə bənzəyir."[1]

İnsan bir müddət ana bətnində yaşayır. Ora insan üçün dar və qaranlıq bir məkandır. İnsanın ana bətnində yediyi yemək murdar qandır. Orada insana (ora nisbət) geniş bir dünyaya gedəcəyini xəbər verirlər. Amma ana bətnindən də geniş bir yer ola biləcəyinə inanmır. İnsan bu dünyaya gəldikdən sonra buranın genişliyini və müxtəlif yeməkləri gördükdə təəccüb edir. Bu dünyada da insana xəbər verilir ki, onu buradan daha geniş bir aləm gözləyir. Yenə də buna inanmır. Elə başa düşür ki, yaşadığı bu dünyadan geniş bir dünya ola bilməz. Hər kəs Allaha, Peyğəmbərə(ə) və qiyamətə inansa və əməlləri saleh olsa, gedəcəyi dünyanın naz-nemətini və genişliyini görəcəkdir. Ona görə də hədislərdə mömінin ölümünü uşağın ana bətnindən dünyaya gəlməsinə bənzətmişlər.

### 11. Mömінin ölümü səmimi dostun görüşünə getməyə bənzəyir

Hədislərdə belə nəql olunur ki, ölüm mömin üçün öz dostunun görüşünə getmək deməkdir. İki köhnə və səmimi dost bir-biri ilə görüşdükdə əhvalı necə xoş olursa, ölüm mömin insan üçün də elədir. Xəstəliyə, ölümün çətinliyinə, bədəninin ağrımasına baxmayaraq, ölümü gördükdə elə bil ki, iki səmimi dost bir-biri ilə görüşür. Çünki mömin insan Allahla dost olduğu üçün Onun görüşünün arzusu ilə yaşayır.

[1] Yenə orada, hədis 19115.

قالَ رَسُولُ اللهِ(ص): مَنْ اَحَبّ لِقاءَ اللَّهِ، اَحَبَّ اللَّهُ لِقاءَه؛ وَمَن كَرِهَ لِقاءَ اللَّهِ، كَرِهَ اللَّهُ لِقاءَه

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim Allahla görüşməyi istəsə, Allah da onunla görüşmək istər. Kim Allahla görüşü xoşlamasa, Allah da onunla görüşməyi xoşlamaz.”[1]

[1] Ölümün bihuşluğu, səh. 32.

## Allah dostlarının ölümü

Bəhsimizə əlavə olaraq burada yaxşı olar ki, Allah dostlarının ölməyi barədə də bir neçə nümunəni xatırlayaq. Tarixi mənbələrdə bəzi peyğəmbərlərlə bağlı əhvalat və hadisələr yazılmışdır. Həmçinin onların dünyanı necə dəyişdikləri barədə də qeydlər kifayət qədərdir. Təbiidir ki, biz bu bəhsimizdə tarixdə adları çəkilmiş peyğəmbərlərin hamısının barəsində danışa bilmərik. Mövzuya uyğun olaraq ölüm əhvalatlarından bir neçə nümunəni nəzərdən keçirək.

### 1. Həzrət Adəmin(ə) ölümü

Adəm Peyğəmbər(ə) 930 il ömür sürmüşdür. O, Həvva ilə ailə qurduqdan sonra bu müddət ərzində onun nəslinin sayı təxminən 40 min nəfərə çatırdı. Adəmin(ə) ömrünün son günlərində vəsiyyət etmək üçün bütün nəslini başına topladı. Hər bir böyük peyğəmbər dünyasını dəyişərkən özünə vəsi təyin etdiyi kimi, o da sonuncu övladı Hibətullah Şiysi özünə vəsi seçdiyini hamıya elan etdi.

Cənab Əzrayıl(ə) onun canını almağa gəldikdə Həzrət Adəm(ə) orada Allahla belə minacat etdi: "İlahi, Sənin vəhdaniyyətinə şəhadət verirəm. (Şəhadət verirəm ki, Səndən başqa heç bir məbud yoxdur). Şəhadət verirəm ki, mən Sənin bəndən və yer üzərində təyin etdiyin xəlifənəm. Şəhadət verirəm ki, mələkləri mənə səcdə etməyə Sən əmr verdin və bütün elm və kəlmələri mənə öyrətdin. Məni bir müddət cənnətində məskunlaşdırdığın və sonra yer üzərinə göndərdiyin və nəslimi çoxaltdığın üçün Sənə şükür edirəm."

Adəm(ə) beləcə minacat etdiyi halda cənab Əzrayıl(ə) onun canını aldı. Cəbrayıl(ə) cənnətdən onun üçün kəfən və hənut gətirmişdi. Yetmiş min mələklə birgə onun cənazə namazını qıldı.[1]

**2. Həzrət İbrahimin(ə) ölümü**

Günlərin birində cənab Əzrayıl(ə) Həzrət İbrahimin(ə) yanına gəlib salam verdi. Həzrət İbrahim(ə) onu tanıyıb salamına cavab verdi. Sonra soruşdu: "Ey Əzrayıl, ziyarətə gəlmisən, yoxsa aparmağa? Əzrayıl(ə) ərz etdi: Aparmağa gəlmişəm. Amma sənə bir az möhlət verilmişdir. Həzrət İbrahim(ə) bu fürsətdən istifadə edərək ondan soruşdu: Allah məni Özünə dost və xəlil seçib. Heç görmüsənmi ki, dost öz dostunu öldürsün? Əzrayıl(ə) getdi və onun sözlərini Allaha çatdırdı. Allah-təala Əzrayıla buyurdu: Get, İbrahimin cavabında belə söylə: Heç görmüsənmi ki, dost öz dostunun görüşünə getməkdən acığı gəlsin? Cənab Əzrayıl(ə) Allahın sözlərini İbrahimə(ə) çatdırdı. İbrahim(ə) təslim olub canını tapşırdı."[2]

**3. Həzrət Musanın(ə) ölümü**

Həzrət Musa(ə) 240 il ömür sürmüşdür. Günlərin birində cənab Əzrayıl(ə) nazil olub ona salam verdi. Musa(ə) onun salamını aldıqdan sonra kim olduğunu soruşdu. O dedi: "Mən Əzrayılam. Musa(ə) soruşdu: Bu dəfə gəlişində məqsəd nədir? Cəbrayıl(ə) ərz etdi: Səni aparmağa gəlmişəm. Musa(ə) ondan soruşdu: İndi ki,

---

[1] Ruhun qəbzi, səh.146.
[2] Yenə orada, səh.148.

mənim canımı alırsan, sənə bir sual verirəm. De görüm mənim canımı bədənimin hansı hissəsindən almağa başlayacaqsan? Əzrayıl(ə) ərz etdi: Ağzından. Musa(ə) dedi: Birbaşa Allahla söhbət etdiyim ağzımdanmı? Əzrayıl(ə) ərz etdi: Elə isə əllərindən başlayaram. Musa(ə) dedi: Lövhələri arada vasitə olmadan Allahdan aldığım əllərimdənmi? Əzrayıl(ə) ərz etdi: Onda ayaqlarından başlayaram. Musa(ə) dedi: O ayaqlardan ki, mən onlarla Turi Sinaya gedib ibadət edirdim? Əzrayıl(ə) ərz etdi: Gözlərindən. Musa(ə) dedi: Allahın ümidinə baxdığım bu gözlərdənmi? Əzrayıl(ə) ərz etdi: Qulaqlarından. Musa(ə) dedi: Allahın səsini eşitdiyim bu qulaqlarımdanmı?"

Əzrayıl(ə) gördü ki, hər nə desə Musa(ə) bir bəhanə gətirəcək. Bəzi rəvayətlərdə nəql olunur ki, ona bir naringi verib dedi: Bunu iylə. Həzrət Musa(ə) naringini ondan alıb iylədi və elə onunla da ruhu bədənindən çıxdı.

Bəzi rəvayətlərdə isə qeyd olunur ki, Allah-təala cənab Əzrayılı(ə) geri çağırdı və buyurdu: "Musa özü razılaşana qədər canını alma. O hadisədən sonra Həzrət Musa(ə) bir müddət ömür sürdü. Günlərin birində Yuşə ibn Nunu çağırıb vəsiyyət etdi və onu öz yerinə canişin seçdi. Sonra Tur dağına yollandı. Yolda gördü ki, bir nəfər külünglə qəbir qazır. Ona dedi: İstəyirsənmi sənə kömək edim? O dedi: Kömək etsəydin yaxşı olardı. Əl-ələ verib qəbir qazmağa başladılar. Qəbir tam hazır olduqdan sonra Musa(ə) o qəbri yoxlamaq üçün içinə uzandı. Elə o anda pərdələr gözündən götürüldü və cənnəti gördü. Musa(ə) cənnətdə öz yerini gördükdən sonra Allaha ərz etdi: İlahi, daha mən bu qəbirdən çıxmaq istəmirəm. Cənab Əzrayıl(ə) elə oradaca onun canını aldı. Orada Həzrət

Musa(ə) başa düşdü ki, onunla birgə qəbir qazan şəxs Əzrayılın(ə) özü imiş."[1]

**4. İslam Peyğəmbərinin(s) ölümü**

İslam Peyğəmbəri Həzrət Məhəmməd(s) dünyadan köçərkən cənab Əzrayıl(ə) onu aparmaq üçün icazə istəmişdi. Peyğəmbər(s) xəstə halda evində yatırdı. Həzrət Əli(ə) qapıda bir nəfərin dayandığını görüb soruşdu: Kimi istəyirsən? O dedi: Peyğəmbəri(s) görmək istəyirəm. Həzrət Əli(ə) Peyğəmbərin(s) yanına gəlib bir nəfərin onunla görüşmək üçün icazə istədiyini söylədi. Peyğəmbər(s) icazə verdikdən sonra həmin şəxs içəri keçdi. Peyğəmbər(s) soruşdu: Sən kimsən və istəyin nədir? O dedi: Ya Rəsulallah, mən ölüm mələyi Əzrayılam. Gəlmişəm bildirim ki, dünyada qalmaq və dünyadan köçməkdə ixtiyar sahibisən. Hansını istəyirsən seç. Peyğəmbər(s) buyurdu: Gözlə cənab Cəbrayıl(ə) gəlsin və mən onunla məsləhətləşim. Cəbrayıl(ə) nazil olub Əzrayıldan(ə) soruşdu: Peyğəmbərin(s) işi nə yerdə qaldı? Əzrayıl(ə) dedi: Səninlə məsləhətləşmək istəyir. Cəbrayıl(ə) dedi: Bəs ona göylərdə hamının onu gözlədiyini söyləmədinmi? Demədinmi ki, cənnətin bütün qapıları onun üzünə açılıb və bütün mələklər onu gözləyirlər? Əzrayıl(ə) dedi: Mən ona heç bir söz demədim. Çünki o, səninlə danışmaq istəyir. Cəbrayıl(ə) içəri daxil olub Peyğəmbərin(s) bütün adlarını çəkdi və ona salam ərz etdi. Peyğəmbər(s) onun cavabında buyurdu: Salam olsun sənə ey mənim həbibim. Əzrayıl(ə) təşrif gətirmişdi. O, məni qalmaq və getməkdə ixtiyarlı

[1] Ruhun qəbzi, səh.149.

qoydu. Mən də səninlə məsləhətləşmək istəyirəm ki, bunların hansını seçim. Cənab Cəbrayıl(ə) bu ayələri tilavət etdi:

وَلَلْآخِرَةُ خَيْرٌ لَّكَ مِنَ الْأُولَى. وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

-Və şübhəsiz, axirət sənin üçün dünyadan daha xeyirlidir. Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.

Peyğəmbər(s) belə məsləhət olduğunu gördükdə buyurdu: Cəbrayıl, gəl əlimdən tut. Cənab Cəbrayıl(ə) Peyğəmbərin(ə) əlindən tutdu. Cənab Mikayıl(ə) da nazil olub Həzrətin(s) digər əlindən tutdu. Əzrayıl(ə) məmur olduğu işi görməyə başladı. Peyğəmbər(s) işarə ilə Həzrət Əlini(ə) yanına çağırdı və yaxına gəlməyi göstəriş verdi. Həzrət Əli(ə) qulağını Peyğəmbərin(s) dodaqlarına yaxınlaşdırdı. Peyğəmbər(s) Həzrət Əliyə(ə) vəsiyyət edərək canını tapşırdı. Onun bu vəsiyyətini Həzrət Əlidən(ə) başqa kimsə eşitmədi.”[1]

## Ölümdən nə üçün qorxuruq?

Burada mövzuya uyğun olaraq ola bilsin ki, bəzilərinin fikrinə belə bir sual gəlsin. Əgər ölüm mömin insanlar üçün belə rahatdırsa, bir otaqdan digər otağa keçməyə, təmizləyici bir qurğuya, yuxuya, xoş ətirli gül çələnginə, hamamda çimib təmizlənməyə bənzəyirsə, bəs nə üçün biz ölümdən bu qədər qorxuruq? Əgər ölüm insan üçün belə rahat və asandırsa, bəs ölümdən qorxmağın səbəbi nədir?

---

[1] Ruhun qəbzi, səh.149.

Ümumiyyətlə, insanlar ölümün barəsində iki hissəyə bölünürlər. Bir qrup insanlar ölümdən qorxmurlar, əksinə olaraq ölümün şövqü ilə yaşayırlar. Belə insanlar ölümü gülə-gülə qarşılayırlar. İkinci qrup insanlar isə ölümdən qorxurlar. Hətta onlara bu haqda danışdıqda belə ölümün haqq olduğunu bildikləri halda onun adını eşitmək də istəmirlər. Allah-təala "Cümə" surəsinin 8-ci ayəsində Peyğəmbərə(s) belə buyurur:

قُلْ إِنَّ الْمَوْتَ الَّذِي تَفِرُّونَ مِنْهُ فَإِنَّهُ مُلَاقِيكُمْ

-De: "Şübhəsiz, qaçdığınız o ölüm mütləq sizə yetişəcək, sonra isə gizlini və aşkarı bilənə tərəfə qaytarılacaqsınız."

Həzrət İsa(ə) camaata etdiyi moizələrin birində belə buyurdu:

وَيلَكُم يَا عَبِيد الدُّنيَا وَتقُولُون إِنَّ الْمَوتَ حَقٌّ وَأَنتُم تَفِرُّونَ مِنهُ

-Ey dünyanın qulları, vay olsun sizə! Deyirsiniz ölüm haqdır. Amma ondan qaçırsınız?[1]

## Ölümdən qorxmağın səbəbləri

Sual oluna bilər ki, insanın ölümdən qorxmasının səbəbi nədir? Cavab olaraq demək olar ki, insanda ölümə qarşı qorxu yaradan müxtəlif səbəb və amillər vardır. Bu bəhsimizdə həmin amillərin ən mühüm və əsası barədə məlumat vermək istərdim.

1. Ölümü həyatın sonu bilmək

[1] Ruhun qəbzi, səh.86.

İnsanda ölümə qarşı qorxu yaradan amillərdən biri ölümü həyatın sonu kimi başa düşməkdir. Yəni bəzi insanlar elə başa düşürlər ki, ölüm həyatın sonudur. Elə fikirləşirlər ki, ölməklə bütün həyat da onun üçün yox olur. Əgər insan belə düşüncədə olsa, ölüm həmin şəxs üçün qorxulu olar. Kim istəyir ki, topladığı mal- dövlətə, tikdiyi imarətlərə, övladlarına son qoyulsun? Belə bir əqidə kafir insanların əqidəsidir ki, onlar ölümdən sonrakı həyata və qiyamətə inanmadıqları üçün ölümü də həyatlarının sonu bilirlər. Buna görə də ölməkdən çox qorxurlar. Hətta ölümün adını belə eşitmək istəmirlər. Başa da düşmək istəmirlər ki, insanı qarşıda əbədi bir həyat gözləyir. Allah-təala "Ənkəbut" surəsinin 64-cü ayəsində belə buyurur:

وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ

-Bu dünya həyatı bihudə əyləncədən və oyun-oyuncaqdan başqa bir şey deyildir. Həqiqətən də axirət evi əbədi həyatdır (onun yeri, göyü, heyvanat və nəbatat aləmi belə) əbədi diridir (və elə bil ki, həyatın özüdür). Kaş biləydilər!

الإمامُ عليٌّ عليه السلام . مِن وَصاياهُ لابنِهِ الحسنِ عليه السلام:

اعلَمْ يا بُنَيَّ أنَّكَ إنّما خُلِقتَ للآخِرَةِ لا للدُّنيا و للفَناءِ لا للبَقاءِ، و للمَوتِ لا للحَياةِ، و أنَّكَ في قُلعَةٍ و دارِ بُلغَةٍ و طَريقٍ إلَى الآخِرَةِ، و أنّكَ طَرِيدُ الموتِ الّذي لا يَنجو مِنهُ هارِبُهُ، و لا يَفوتُهُ طالِبُهُ، و لا بُدَّ أنّهُ مُدرِكُهُ، فكُن مِنهُ على حَذَرٍ أن يُدرِكَكَ و أنتَ على حالٍ

سَيِّئةٍ، قد كنتَ تُحَدِّثُ نفسَكَ مِنها بالتَّوبَةِ فيَحولُ بينَكَ و بينَ ذلكَ، فَإِذَا أنتَ قد أهلَكتَ نفسَكَ

-Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərək belə buyurdu: "Ey oğlum! Bil ki, sən əslində dünya üçün deyil, axirət üçün yaradılmısan. Qalmaq üçün deyil, getmək üçün və yaşamaq üçün deyil, ölmək üçün xəlq olunmusan. Sən köçüləsi bir mənzildə, davamsız, müvəqqəti verilən bir sarayda, axirət yolunun üstündəsən. Sən ölümdən (təqib etdiyi) fərarisən. Ölüm elədir ki, nə qaçan onun çəngindən xilas olar, nə də axtardığı əlindən çıxar, əksinə məcburən ona çatar. Ona görə qorx ki, ölüm, onlara görə tövbə edəcəyini vəd verdiyin günahların başında səni haqlasın və səni tövbə etməyə qoymasın. Bu vaxt özünü məhv etmiş olarsan."[1]

Digər bir yerdə Həzrət Əli(ə) təəccüblə belə buyurur:

عَجِبْتُ لِلْمُتَكَبِّرِ اَلَّذِي كَانَ بِالْأَمْسِ نُطْفَةً وَ يَكُونُ غَداً جِيفَةً وَ عَجِبْتُ لِمَنْ شَكَّ فِي اَللَّهِ وَ هُوَ يَرَى خَلْقَ اَللَّهِ وَ عَجِبْتُ لِمَنْ نَسِيَ اَلْمَوْتَ وَ هُوَ يَرَى مَنْ يَمُوتُ وَ عَجِبْتُ لِمَنْ أَنْكَرَ اَلنَّشْأَةَ اَلْأُخْرَى وَ هُوَ يَرَى اَلنَّشْأَةَ اَلْأُولَى وَ عَجِبْتُ لِعَامِرِ دَارِ اَلْفَنَاءِ وَ تَارِكِ دَارِ اَلْبَقَاءِ

-Dünən nütfə olmuş, sabah isə leş olacaq *(və əgər cəsədinin üstündən torpağı götürsələr, üfunətindən hamı qaçar)* təkəbbürlü adama təəccüb edirəm. Allahın yaratdıqlarını görməsinə baxmayaraq, Allah barəsində şəkk və tərəddüddə olan kəsə təəccüb edirəm. Təəccüb edirəm o

---
[1] Nəhcül-bəlağə, 31-ci məktub.

kəsə ki, ölənləri görə-görə ölümü unudur. Nütfədən yaranmanı görməsinə baxmayaraq, məadın olması və qiyamətdə təkrar qayıdış olacağını inkar edən şəxsə təəccüb edirəm. Yoxluq evini abadlaşdıran *(dünya üçün çalışan)*, varlıq evini *(axirəti)* isə buraxan *(onun üçün azuqə tədarük görmək fikrində olmayan)* kəsə təəccüb edirəm.[1]

Ümumiyyətlə, insan harada nə qədər qalacaqsa, qaldığı yer üçün bir o qədər fikirləşib tədarük görər. Hacılar Məkkəyə gedərkən əvvəlcə onları mehmanxanalarda yerləşdirirlər. Həmin mehmanxanalarda 10-15 gün qalmaq üçün şərait yaradırlar. Həmin mehmanxanaların şəraiti belədir ki, 15 gün insanı idarə edə bilər. Həm də həccə gedənlər orada 15 gündən çox qalmırlar. Sonra hamı Ərəfata gedir. Orada da insanların qalması üçün 1 günlük şərait yaradılır. Çünki orada 1 gündən çox qalmırlar. 1 günlük şəraiti olan yerdə 3 gün qalmaq mümkün deyil. Sonra hamı Müzdəlifəyə yollanır. Orada qalmağın şəraiti belədir ki, əgər insan 2 gecə orada qalsa xəstələnər. Amma orada qalmaq üçün 1 gecəlik şərait yaradıblar. Orada da bir neçə saat qaldıqdan sonra gün çıxan kimi Minaya hərəkət edirlər. Minada da 3 gün qalmaq üçün şərait yaradırlar. Çünki orada 3 gündən artıq heç bir kəs qalmır. Həcc mərasimi başa çatdıqdan sonra hacılar evlərinə qayıdırlar. Öz evlərinə gəldikdən sonra onlar rahatlaşırlar. Bilirlər ki, həmişə öz evlərində yaşayacaqlar. Buna görə də öz evlərini yaşamaq üçün abadlaşdırırlar. İnsan onu da bilməlidir ki, bu dünyada öz evində olsa da belə bir vaxt axirət evinə köçəcəkdir. Axirət evi isə bu dünya kimi fani yox, əbədi bir həyatdır.

[1] Yenə orada, 121-ci kəlam.

Nəyə görə müvəqqəti dünyanı abadlaşdırır, amma axirət evi üçün bir tətarük görmür? Halbuki bu dünya müvəqqəti, axirət isə əbədidir. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 203-cü xütbəsində belə buyurur:

أَيُّهَاالنَّاس إِنَّمَاالدُّنْيا دارُ مَجازٍ وَالْآخِرَةُ دَارُقَرارٍ فَخُذُوا مِنْ مَمَرِّكُمْ لِمَقَرِّكُمْ
وَ لا تَهْتِكُوا أَسْتَارَكُمْ عِنْدَ مَنْ يَعْلَمْ أَسْرارَكُمْ وَ أَخْرِجُوا مِنَ الدُّنْيا
قُلُوبَكُمْ مِنْ قَبْلِ أَنْ تُخْرَجَ مِنْهَا أَبْدانُكُمْ فَفِيهَا اخْتُبِرْتُمْ وَ لِغَيْرِهَا
خُلِقْتُمْ أَنَّ الْمَرْءَ إِذا هَلَكَ قَالَ النَّاسُ: مَا تَرَكَ؟ وَ قَالَتِ الْمَلائِكَةُ:
مَا قَدَّمَ؟ لِلّهِ آباؤُكُمْ فَقَدِّمُوا بَعْضًا يَكُنْ لَكُمْ وَ لا تُخَلِّفُوا كُلًّا فَيَكُونُ
عَلَيْكُمْ

-Ey camaat! Dünya fani evdir, axirət isə əbədi. Öz əbədi eviniz üçün hazırlıq işləri görün. Sizin bütün sirlərinizi bilən Allaha qarşı günah etməyin. Sizin bədənlərinizi aparmamışdan öncə dünya məhəbbətini qəlblərinizdən çıxarın. Çünki siz əbədi yaşamaq üçün dünyada imtahan olunursunuz. Bir nəfər dünyadan getdiyi zaman adamlar bir-birindən “nə irs qoyub getdi?”- deyə soruşarlar. Lakin mələklər bir-birindən “özü ilə nə gətirib?” – deyə soruşarlar.

Sonra Həzrət Əli(ə) əlavə edərək buyurdu: “Sizi and verirəm ata-babalarınızın canına, bu dünyaya aldanmayın!”

2. Ölümü tanımamaq və onun nə olduğunu bilməmək

Bəzi insanlar Allaha, Peyğəmbərə(s), axirətə və dinin digər əqidə prinsiplərinə  inanmalarına baxmayaraq, yenə də ölümdən qorxurlar. Onların ölümdən qorxmalarının

səbəbi ölümün nə olduğunu bilməmələridir. İnsan həmişə bilmədiyi şeydən qorxar. Məsələn, insan gecə vaxtı tanımadığı bir yolla gedir. Hər yer zülmət və qaranlıq olduğundan, eləcə də həmin yolu tanımadığından təbiidir ki, qorxur. Bu yolda hara gedəcəyini və başına nə gələcəyini bilmir. Başqa bir misalla desək, məsələn, fərz edək ki, evdə elektrik xəttində bir problem olduğu zaman şəbəkədəki nasazlığı aradan qaldırmaq üçün bu sahədən anlayışı olmayan bir adamı çağırırlar. O, naqillərə baxıb deyir: "Mənim bundan başım çıxmır. Birdən bilmədiyim bir şeyə əl vuraram və cərəyan məni vurar." Amma elektrik mühəndisini gətirdikdə o, naqillərə baxan kimi məsələnin nə yerdə olduğunu anlayır və demək olar ki, işıqları gözü bağlı halda düzəldir. Buna görə də insan ölümün nə olduğunu bilmədiyi üçün ondan qorxur.

İmam Həsən Əskəri(ə) buyurur: "Günlərin birində atam İmam Hadinin(ə) dostlarından biri xəstələnib ölüm yatağına düşmüşdü. Atam ona baş çəkməyə getdi. Həmin kişi ölümün qorxusundan ağlayır və çox bərk narahatlıq keçirirdi. Atam ona buyurdu:

يا عبدَ اللّهِ، تَخافُ من الموتِ لأنّكَ لا تَعرِفُهُ

-Ey Allah bəndəsi, ölümü tanımadığın üçün ondan qorxursan.

Sonra İmam(ə) ölümü həmin kişi üçün gözəl şəkildə izah etdi. Kişi bu sözləri dinlədikdən sonra sakitləşdi və gözlərini yumaraq dünyasını dəyişdi."[1]

Buna görə də əgər insan ölümü yaxşı tanıya bilsə, onun nə olduğundan agah olsa, daha ölümdən

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19113.

qorxmayacaq. Məsələn, fərz edək ki, bir nəfər heç bir vaxt təyyarəyə minməyib və xarici ölkələrdə də səfərdə olmayıb. Bir gün o, xaricə səfərə çıxmalı olur. Təyyarəyə mindikdə bərk həyəcan keçirir və gedəcəyi ölkədə vəziyyətinin necə olacağını düşünüb həyəcanlanır. Ona deyirlər ki, burada qorxulu bir şey yoxdur. Bir azdan təyyarə havaya qalxacaq və bir neçə saatdan sonra həmin ölkənin hava limanında yerə enəcəkdir. Təyyarədən düşdükdə səni orada qarşılayacaqlar.

Odur ki, əgər insan ölümün nə olduğunu başa düşə bilsə, heç bir zaman ölümdən qorxmaz.

3. Dünyaya bağlılıq

Bəzi insanlar ürək bağladıqları bu dünyanın əlindən çıxacağına görə ölümdən qorxur. Ümumiyyətlə, dünyaya ürək bağlayan, həvəs göstərən və özlərini dünyaya düyünləyən insanlar ondan ayrılmaqdan qorxurlar.

قَالَ الإمامُ الباقرُ(ع): أتى النَّبيَّ صلى الله عليه و آله رَجُلٌ فقالَ: ماليَ لا أُحِبُّ الموتَ؟ فقالَ لهُ: أ لكَ مالٌ؟ قالَ: نَعَم. قالَ: فقَدَّمتَهُ؟ قالَ: لا، قالَ : فمِن ثَمّ لا تُحِبُّ الموتَ

-İmam Baqir(ə) buyurur: “Bir kişi Peyğəmbərin(s) hüzuruna gəlib soruşdu: Ya Rəsulallah, mən nə üçün ölümdən qorxuram? Peyğəmbər(s) soruşur: Var-dövlətin varmı? Ərz etdi: Bəli. Buyurdu: Onu (axirət üçün) əvvəlcədən göndərmisənmi? Ərz etdi: Xeyr. Buyurdu: Ölümü xoşlamamağın da buna görədir.”[1]

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19238.

Əgər insan öz axirətini düşünüb əməl etsə, mal-dövlətindən ora göndərə bilsə, daha ölümdən qorxmaz. Çünki insan öz malına bağlı olur. Axirət üçün xərclədiyi malını da görmək istəyir. Belə olduqda bilir ki, axirətə göndərdiyi hər bir yaxşı əməl qorunub saxlanılır. Buna görə yaxşı əməllərinin yanına gedəcəyini bildikdə ölümdən qorxmur.

قالَ رَجُلٌ يا رَسولَ اللّهِ، ما لي لا أُحِبُّ الموتَ؟ قالَ: هَل لكَ مالٌ؟ فقَدِّمْ مالَكَ بينَ يدَيكَ؛ فإنّ المرءَ مَع مالهِ، إن قَدّمَهُ أحَبَّ أن يَلحَقَهُ، و إن خَلّفَهُ أحَبَّ أن يَتخَلّفَ مَعهُ.

-Digər bir hədisdə də rəvayət olunur ki, bir nəfər Peyğəmbərdən(s) soruşdu: "Ya Rəsulallah, mən nə üçün ölümdən qorxuram? Peyğəmbər(s) soruşdu: Var-dövlətin varmı? Ərz etdi: Bəli. Buyurdu: Həmin maldan axirətin üçün xərclə. Çünki insan öz mal-dövlətinə bağlı olur. Əgər insan malını axirəti üçün göndərsə, istəyəcək ki, gedib onu görsün. Yox, əgər göndərməsə, istəyəcək ki, malının yanında qalsın."[1]

قَالَ عَلِيٌّ(ع): تَزَوَّدُوا مِنْ أيّامِ الفَناءِ لِأَيَّامِ البَقاءِ

-Həzrət Əli(ə) buyurur: "Fani (məhv) olan günlərdən *(dünyadan)* qalacaq günlər *(axirət)* üçün azuqə yığın."[2]

4. Zülm və günah

---

[1] Yenə orada.
[2] Nəhcül-bəlağə, xütbə 156.

Ölümdən qorxmağın səbəblərindən biri də budur ki, insan etdiyi əməllərinə görə qorxur. Çox insanlar bu səbəbə görə ölümdən qorxur. Məsələn, biz Allaha, Peyğəmbərə(s) və qiyamətə inanırıq. Bilirik ki, bütün bu aləmi yaradan Allahdır. Əgər üstümüzdə Allahın nəzər və inayəti olmasa, bir anın içində məhv olub aradan gedərik. Göydən bir damla yağış da belə Allahın izni olmasa yerə düşməz. Bilirik ki, Allah-təala bizə kitab nazil edib və bu kitabın əvvəlindən axırına qədər heç bir qüsuru yoxdur. Peyğəmbərin(s) Allah tərəfindən göndərildiyinə də yəqinliyimiz var. Bütün bunlara inanırıq. Bunu da bilirik ki, bizi öz əməllərimizin yanına aparacaqlar. Buna görə də ölümdən qorxuruq. Hər bir insan öz əməlini və nə etdiyini çox yaxşı bilir. Məsələn, bir nəfər cinayət törətmiş şəxsi həbs edirlər. Halbuki onun məhkəməsi bir aydan sonra başlamalıdır. Məhkəmə günü yaxınlaşdıqca onun ürəyinə qorxu düşür. Bilir ki, etdiyi cinayətə görə məhkəmədə ona nə hökm oxunacaq. Belə olur ki, məhkəmə bir neçə ay da təxirə salınır. Həmin cinayətkar bir az sakitləşir və məhkəmənin təxirə düşdüyünə görə sevinir. Amma cinayəti olmayan bir insan heç vaxt məhkəmədən qorxmur. Digər bir məsəllə desək, dərslərini yaxşı oxuyan bir şagird heç bir vaxt imtahandan qorxmur. Bilir ki, imtahan nə vaxt olursa-olsun, bu imtahandan yaxşı keçəcək. Amma dərslərini oxumayan şagird isə imtahan vaxtı yaxınlaşdıqca həyəcanlanır. Bəzi səbəblərə görə imtahan vaxtı bir neçə gün təxirə salındıqda isə sevinir. Çünki vaxtında dərsləri ilə məşğul olmayıb, buna görə də imtahan yaxınlaşdıqca kəsiləcəyini bilir və qorxur. Bizim də ölümdən qorxmağımızın səbəbi əməllərimizə görədir. Hər kəs öz əməlini yaxşı tanıdığı üçün bilir ki,

öldükdən sonra etdiyi bütün əməllər haqda sorğu-sual olunacaq.

الإمامُ الحسنُ عليه السلام لَمّا قالَ لَهُ رجُلٌ: ما بالُنا نكرَهُ الموتَ لِأنّكُم أخرَبتُم آخِرَتَكُم، و عَمّرتُم دُنياكُم، و أنتُم تَكرَهونَ النُّقلَةَ مِن العُمرانِ إلَى الخَرابِ

-Bir nəfər İmam Həsəndən(ə) soruşdu: "Nə üçün bizim ölümdən acığımız gəlir? İmam(ə) ona belə cavab verdi: Çünki siz öz axirətinizi viran qoymusunuz, dünyanızı isə abad etmisiniz. Buna görə də abadlıqdan xarabaya köçmək istəmirsiniz."[1]

Təqvalı insanlar isə heç bir vaxt ölümdən qorxmazlar. Çünki əməllərində diqqətli olub öz hesab-kitablarını indidən hazırlayırlar. Həzrət Əli(ə) "Nəhcül-bəlağə"nin 184-cü xütbəsində təqvalı insanların vəsfində belə buyurur:

نَزَلَتْ أَنْفُسُهُمْ مِنْهُمْ فِي اَلْبَلاَءِ كَالَّتِي نَزَلَتْ فِي اَلرَّخَاءِ وَ لَوْ لاَ اَلْأَجَلُ اَلَّذِي كَتَبَ اَللَّهُ لَهُمْ لَمْ تَسْتَقِرَّ أَرْوَاحُهُمْ فِي أَجْسَادِهِمْ طَرْفَةَ عَيْنٍ شَوْقاً إِلَى اَلثَّوَابِ وَ خَوْفاً مِنَ اَلْعِقَابِ عَظُمَ اَلْخَالِقُ فِي أَنْفُسِهِمْ فَصَغُرَ مَا دُونَهُ فِي أَعْيُنِهِمْ فَهُمْ وَ اَلْجَنَّةُ كَمَنْ قَدْ رَآهَا فَهُمْ فِيهَا مُنَعَّمُونَ وَ هُمْ وَ اَلنَّارُ كَمَنْ قَدْ رَآهَا فَهُمْ فِيهَا مُعَذَّبُونَ

-Çətinlik zamanı başqalarının asayiş və rahatlıqda olduqları kimidirlər *(ilahi təqdirə boyun əyərək Allahın istədiyinə razıdırlar və onlar üçün çətinilklə rahatlıq birdir)*.

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19238.

Əgər Allahın onlar üçün *(dünyada)* müəyyənləşdirdiyi əcəl olmasaydı, savab şövqü və əzabın qorxusundan canları bir göz qırpımı belə bədənlərində qalmazdı. Onların nəzərində Allah böyük, Ondan başqası isə *(hər nə olmasından asılı olmayaraq)* kiçikdir. Onların cənnətə yəqin və inamları onun sakinlərinin rahatlıq içində olmalarını görən şəxsin yəqin və inamı kimidir. Həmçinin oda imanları onun sakinlərini əzaba düçar halda görən şəxsin imanı kimidir. [1]

Merac gecəsi Allah-təala İslam Peyğəmbərinə(s) belə buyurdu:

يا أَحْمَدُ! هَلْ تَدْرِي أيُّ عَيْش أهْنَأُ وَأيُّ حَياة أبْقى؟ قالَ: اَللّهُمَّ! لا قالَ: أمَّا الْعَيْشُ الهَنِيءُ فَهُوَ الَّذِي لا يَغْتَرُّ صاحِبُهُ عَنْ ذِكْرِي وَلا يَنْسى نِعْمَتِي وَلا يَجْهَلُ حَقِّي يَطْلُبُ رِضايَ لَيْلَهُ وَنَهارَهُ

-Ey Əhməd! Bilirsənmi şirin həyat və əbədi həyat nədir? Peyğəmbər(s) ərz etdi: İlahi, bilmirəm. Allah-təala buyurdu: Şirin həyat odur ki, onun sahibi Məni yad etməkdən qəflətdə olmasın, Mənim nemətlərimi unutmasın və Mənim haqqımda cahil olmasın. Gecə və gündüz mənim razılığım üçün çalışsın.

وَأَمَّا الْحَياةُ الْباقِيَةُ فَهِيَ الَّتِي يَعْمَلُ لِنَفْسِهِ حَتّى تَهُونَ عَلَيْهِ الدُّنْيا وَتَصْغُرَ فِي عَيْنَيْهِ وَتَعْظُمَ الأْخِرَةُ عِنْدَهُ وَيُؤْثِرَ هَوايَ عَلى هَواهُ وَيَبْتَغِي مَرْضاتِي (وَيُعَظِّمَنِي) حَقَّ عَظَمَتِي وَيَذْكُرَ عِلْمِي بِهِ وَيُراقِبَنِي بِاللَّيْلِ وَالنَّهارِ عِنْدَ كُلِّ سَيِّئَة وَمَعْصِيَة وَيُنَقِّي قَلْبَهُ عَنْ كُلِّ ما أكْرَهُ وَيُبْغِضَ

---

[1] Nəhcül-bəlağə, xütbə 184.

الشَّيْطانَ وَوَساوِسَهُ

لا يَجْعَلُ لاِبْلِيسَ عَلى قَلْبِهِ سُلْطاناً وَسَبِيلاً

-Amma əbədi həyat isə odur ki, onun sahibi (əbədi həyatı əldə etmək istəyən) elə əməl edir ki, dünya onun nəzərində qiymətsiz və gözündə isə çox kiçikdir. O, Mənim istəklərimi öz istəklərindən üstün tutur və Mənim razılığımı qazanmağa çalışır. Mənim haqqımı böyük (üstün) sayır və başa düşür ki, Mən ondan xəbərdaram. Gecə- gündüz günah etmək istədikdə Mənim onu gördüyümü başa düşür (həmin günahı etmir) və qəlbini Mənim istəmədiyim bütün əməllərdən pak saxlayır. Şeytana və onun vəsvəsələrinə qarşı qəzəbli olur, iblisin ona müsəllət olub qəlbinə girməsinə yol vermir.

فَإذا فَعَلَ ذلِكَ أَسْكَنْتُ فِي قَلْبِهِ حُبّاً حَتّى أجْعَلَ قَلْبَهُ لِي وَفَراغَهُ وَاشْتِغالَهُ وَهَمَّهُ وَحَدِيثَهُ مِنَ النِّعْمَةِ الَّتِي أنْعَمْتُ بِها عَلى أهْلِ مَحَبَّتِي مِنْ خَلْقِي، وَأفْتَحُ عَيْنَ قَلْبِهِ وَسَمْعِهِ حَتّى يَسْمَعَ بِقَلْبِهِ وَيَنْظُرَ بِقَلْبِهِ إلى جَلالِي وَعَظَمَتِي وأُضَيِّقُ عَلَيْهِ الدُّنْيا وأُبَغِّضُ إلَيْهِ ما فِيها مِنَ اللَّذّاتِ وَأُحَذِّرُهُ مِنَ الدُّنْيا وَما فِيها كَما يُحَذِّرُ الرّاعِي غَنَمَهُ مِنْ مَراتِعِ الْهَلَكَةِ

-Belə olduqda onun qəlbində elə bir eşq və məhəbbət yaradaram ki, onun qəlbi, fikri-zikri və bütün çalışqanlığı Mənim üçün olar. Onun sözlərini nemət verdiyim Məni sevən bəndələrimin şükründə qərar verərəm. Onun gözlərini və qəlbini elə açaram ki, ruhunun qulaqları ilə eşidər və qəlbinin gözləri ilə Mənim cəlal və əzəmətimi görər. Dünyanı onun gözündən elə salaram ki, onun (dünyanın) bütün ləzzətlərindən acığı gələr. Çoban

qoyunlarını təhlükəli və öldürücü otlaqlardan qoruduğu kimi, Mən də onu dünyadan (dünyanın təhlükələrindən və fəlakətlərindən) elə qoruyaram.[1]

Əgər insan özünü belə bir hala gətirə bilsə, ölümdən nə qorxusu olar? Əgər biz ölümdən qorxuruqsa, deməli əməl və günahlarımızdan qorxuruq. Yaxşı və pis əməllərimiz bizə mücəssəm olacaq. Hər hansı əməlimiz müəyyən şəkildə gözümüzə görünəcək. Buna görə də əgər insan əməllərini gözəlləşdirə bilsə, özünü günahlardan qoruya bilsə, ölüm həmin şəxs üçün isti havada sərin su içmək, bir dəstə gül çələngini iyləmək, hamamda yuyunmaq kimi rahat olacaq.

## Ölümü xatırlamaq

Bəhsimizə əlavə olaraq üç mətləbi də diqqətinizə çatdırmaq istərdim. Həmin mətləblərdən biri ölümü xatırlayıb yada salmaqdan ibarətdir. Bu mətləb İslamda müsəlmanlar üçün təkid olunan məsələlərdən biridir. İkinci mətləb ölümü xatırlamağın mənası və üçüncüsü isə ölümə hazırlaşmaq barədədir.

Qeyd etmək lazımdır ki, ölümü xatırlamaq hamının bacardığı bir şey deyil. Belə deyil ki, insanların hamısı bu məsələyə rəğbət göstərsinlər. Bu məsələ insanın ölümə baxışlarından asılıdır. Ölümü yada salmaq insanın ölümə necə yanaşması ilə əlaqədardır. Əgər insan ölümü bir dünyadan digərinə keçmək üçün bir körpü bilsə, əgər ölümü Allahla görüş mənasında qəbul etsə, əgər ölümü zindandan çıxıb cənnətə getmək kimi başa düşsə, belə halda ölümü yad etməyə meyilli olar. Belə olduqda həmin

[1] Biharul-ənvar,74-cü cild, səh.27.

insanın əhval-ruhiyyəsi yaxşılaşar, mənəvi ruhu yüksələr. Amma hər kəs ölümə həyatın sonu, arzu və istəklərin puça çıxdığı kimi baxsa, bu insanın heç vaxt ölümə rəğbət və meyli olmayacaq. Hətta belə insanlar ölümün adını belə eşitmək istəmirlər. Buna görə də əgər insan ölümə müsbət baxışlarla baxa bilsə, ölümü zindandan çıxıb cənnətə getmək kimi başa düşsə, onun üçün ölümü xatırlamağın heç bir narahatçılığı olmaz. Belə olduqda istəyər ki, ölümü tez-tez xatırlayıb yadına salsın.

Günlərin birində səhabələr Peyğəmbərin(s) hüzurunda bir nəfəri çox təriflədilər. Peyğəmbər(s) onları dinlədikdən sonra soruşdu: “Barəsində tərif etdiyiniz o dostunuzun ölümə münasibət və baxışları necədir? Ərz etdilər: Onu heç ölüm haqda danışarkən və ölümü xatırlayarkən görməmişik. Peyğəmbər(s) buyurdu: Elə isə o insan sizin təriflədiyiniz məqamda deyil.”[1]

Digər bir yerdə Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulallah, ən zirək və ən əziz insan kimdir? Buyurur: Ölümü çox xatırlayan kəs. Ölümü xatırlayan insan dünyanın şərəfini və axirətin kəramətini əldə etmişdir.”[2]

قَالَ الصَّادِقُ(ع): ذِكرُ الموتِ يُميتُ الشَّهَواتِ فِي النَّفسِ و يَقلَعُ مَنابِتَ الغَفلَةِ، و يُقَوّي القلبَ بِمَواعِدِ اللّهِ، و يُرِقُّ الطَّبعَ، و يَكسِرُ أعلامَ الهَوى و يُطفِئُ نارَ الحِرصِ، و يُحَقِّرُ الدُّنيا

-İmam Sadiq(ə) buyurur: “Ölümü yada salmaq nəfsin istəklərini öldürər, qəflət zəmilərini kökündən biçər və

---

[1] Ruhun qəbzi, səh.68.
[2] Yenə orada.

ürəyi Allahın vədləri ilə qüvvətləndirər. Təbiəti lətifləşdirər, həvəs bayraqlarını bir-birinə qatar, tamah odunu söndürər və dünyanı nəzərlərdə kiçildər.”[1]

Əgər insan ölümü həmişə xatırlayarsa və bu halı özündə saxlaya bilsə, yavaş- yavaş hədislərdə qeyd onunan nəticələri özündə hiss edəcək. Belə bir halı saxlamaq isə çox çətindir. Bunun üçün insan o qədər diqqətli olmalıdır ki, fikri yayınmasın. Amma qırx gün insan ölümü dəqiq xatırlaya bilsə, böyük sandığı bu dünya və onun ləzzətləri yavaş-yavaş gözündə kiçiləcək. Böyük bir qar topası günəş şüaları altında əriyib kiçildiyi kimi, dünya da həmin insanın gözündə eləcə kiçilər.

قَالَ رَسُولُ اللّهِ(ص): أَكثِرُوا ذِكرَ هَادِمِ اللَّذّاتِ، فَقِيلَ: يَا رَسُولَ اللّهِ، فَمَا هَادِمُ اللَّذّاتِ؟ قَالَ: المَوتُ، فَمَا ذَكَرَهُ عَبدٌ عَلَى الْحَقِيقَة فِى سَعَةٍ اِلَّا ضَاقَت عَلَيهِ الدُّنيَا وَ لا فِى شِدَّةٍ اِلّا اتَّسَعَت عَلَيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Xoşluqları (insanın içindəki ləzzətləri) viran qoyanı çox yada salın. Ərz olundu: Ey Allahın Peyğəmbəri. Xoşluqları viran qoyan nədir? Buyurdu: Ölüm. Möminlərin ən zirəyi ölümü daha çox yada salan və ona hazırlaşandır. Hər kəs ölümü həqiqi mənada yada salsa, geniş təsəvvür etdiyi bu dünya onun nəzərində dar və kiçik görünəcək. Həmçinin əgər çətinlik və əziyyətlərin (dərd-qəmin) içində ölümü xatırlasa, dünya onun üçün genişlənəcək. (Çətinliklərdən və qəmdən rahat olacaq.)”[2]

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis 19148.
[2] Yenə orada, hədis 19142.

Hədislərdən də açıq-aydın başa düşürük ki, əgər bir insan ölümü çox yada salsa, dünya və onun ləzzətləri gözündə kiçilər, bütün dərd və qəmlərdən azad olar. Əgər insan qırx gün ölümü zikr edib xatırlasa, baxıb görər ki, hədisdə buyurulduğu kimi, yavaş-yavaş dünya gözündə kiçilər, bütün dərd və qəmləri aradan gedər, ürəyi rahatlaşar və ruhu qüvvətlənər. İnsan bu mərhələdən keçdikdən sonra dünyaya və ölümə baxışları tamamilə dəyişər. Daha dünyaya başqaları kimi baxmaz. Hər bir şeyin həqiqətini görmək imkanı əldə edər. Məsələn, mahir həkimlər xəstənin üzünə baxan kimi vəziyyətin nə yerdə olduğunu bildikləri kimi, ölümü çox xatırlayan insan dünyanın və ölümün mahiyyətini başa düşür.

Tanıdığım bir insan deyir ki, evdə xəstəmiz var idi. Onun üçün həkim çağırdıq. Həkim içəri girib xəstənin üzünə baxan kimi onun vəziyyətinin nə yerdə olduğunu bildi. Sonra məni çağırıb dedi: "Mən sizin xəstənizə baxan kimi bildim ki, onda pis xəstəlik var. Bu, sağalan xəstəlik deyil. Müəyyən vaxta qədər ömrü qalıb. Ümid yalnız Allahın mərhəmət və inayətinədir. Həkimlər bu xəstəliyə əlac edə bilməzlər."

Xəstə yorğan-döşək xəstəsi deyildi. Hamını tanıyır, deyib-gülür, amma hərdən xəstəliyi onu narahat edirdi. Onun xəstəliyi hələ o qədər də ağırlaşmamışdı. Amma həkim onun üzünə baxan kimi dərisinin rəngindən başa düşdü ki, onda hansı xəstəlik yaranıb. Amma biz həmin xəstənin rənginə nə qədər fikir versək, onun dərdinin nə olduğunu bilmərik. Çünki həkimin baxışları ilə bizim baxışlarımız tamamilə fərqlidir.

Odur ki, əgər insan ölümü yad etməklə özünü mənəviyyat aləmində yüksəldə bilsə, həkim xəstənin üzünə baxıb onun xəstəliyini müəyyən etdiyi kimi,

həqiqəti müəyyən edə biləcəkdir. Buna görə də həm Quran ayələrində, həm də hədislərdə insanlara ölümü xatırlamaq çox təkid olunur.

قَالَ رَسُولُ اللّهِ(ص): أفضَلُ الزُّهدِ فِي الدّنيا ذِكرُ الموتِ، و أفضَلُ العِبادَةِ ذِكرُ الموتِ، و أفضَلُ التَّفكُّرِ ذِكرُ الموتِ، فمَن أثقَلَهُ ذِكرُ الموتِ وَجَدَ قَبرَهُ رَوضَةً مِن رِياضِ الجَنّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən üstün zöhd (dünyaya rəğbətsizlik), ən fəzilətli ibadət, ən üstün təfəkkür ölümü yada salmaqdır. Hər kəs ölümü çox yada salsa, öz qəbrini cənnət bağlarından birinə çevirmiş olar."[1]

Həzrət Əlinin(ə) anası Fatimə binti Əsəd idi. O, həmçinin Peyğəmbərə(s) də analıq etmiş və Həzrətin(s) xidmətində olmuşdur. Bu möhtərəm xanım ölümü çox yada salan bir insan idi. Günlərin birində Peyğəmbərə(s) xəbər verdilər ki, Fatimə binti Əsəd dünyasını dəyişdi. Peyğəmbər(s) gəlib onun cənazəsinin kənarında dayandı. Əllərini göyə qaldırıb belə dua etdi: "İlahi, bu xanım Əlinin(ə) anasıdır. Amma mənə də analıq etmişdir." Sonra tapşırıq verdi ki, ona qüsl verib kəfənə büksünlər. Bu işləri gördükdən sonra Peyğəmbər(s) qırx təkbirlə ona cənazə namazı qıldı. Namazı qılıb qurtardıqdan sonra qəbrə düşüb orada uzandı və dua etdi. Sonra Həzrət Əliyə(ə) də belə etməyi göstəriş verdi. Nəhayət, həmin xanımın cənazəsini qəbrə qoydular. Peyğəmbər(s) qəbrin baş tərəfində dayanıb belə təlqin oxudu: "Ey Fatimə binti Əsəd, səndən Rəbbin, Peyğəmbərin(s), kitabın, qiblən barədə soruşacaqlar. Sən onların cavabında de: Rəbbim

[1] Mizanül-hikmə. c.12, hədis-19142

Allah, peyğəmbərim Məhəmməd(s), kitabım Quran, qibləm Kəbədir. Əgər səndən imamının kim olduğunu soruşsalar belə deyərsən: İmamım oğlum Əlidir."

Görürük ki, ölümü həmişə yada salıb xatırlamağın böyük təsir və nəticələri vardır. Belə ki, bu insanın ruhunu gözəlləşdirər, mənəviyyatını artırar və onu elə bir ləyaqətli bəndəyə çevirər ki, ölən zaman Peyğəmbər(s) onun başı üzərinə gəlib dua edər. Ölümü xatırlayan insan öləndə də izzət və kəramətlə dünyadan köçər. Allah- təala həmin şəxsə gedəcəyi yerini və məqamını göstərər.

Həzrət Fatimeyi Zəhra(s.ə) dünyasını dəyişərkən bir nöqtəyə baxıb buyurdu: "Salam olsun Cəbrayıla. Salam olsun Allahın Rəsuluna. İlahi, məni Öz Rəsulunla birgə qərar ver. İlahi, məni Öz rizvanında, cəvarında və darus-səlamında qərar ver.

Sonra üzünü ətrafdakılara tutub buyurdu: Mən görənləri siz də görürsünüzmü?

Dedilər: Xeyr.

Buyurdu: Bu Cəbrayıldır. Bu Allahın Rəsuludur ki, mənə belə buyurur: Qızım, tələs. Qarşıda səni gözləyənlər sənin üçün çox xeyirlidir."

## Ölümə hazırlaşmaq və onun izahı

Qeyd olundu ki, ayə və hədislərdə insanlara ölümü yada salmaq təkid olunmuşdur. Ölümü yada salıb xatırlamağın nəticəsində insan özünü ölümə hazırlaşdırar. Çünki insanın ölümünün qarşısını heç bir kəs ala bilməz. İnsan yaranıbsa, deməli bir gün də ölməlidir. Ölüm insan üçün qaçılmaz və danılmaz bir şey olduğundan insanın ona hazır olmaqdan başqa çıxış yolu yoxdur. Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərək belə buyurur:

اِعْلَمْ أَنَّ أَمَامَكَ عَقَبَةً كَئُوداً اَلْمُخِفُّ فِيهَا أَحْسَنُ حَالاً مِنَ اَلْمُثْقِلِ وَ اَلْمُبْطِئُ عَلَيْهَا أَقْبَحُ حَالاً مِنَ اَلْمُسْرِعِ وَ أَنَّ مَهْبَطَهَا بِكَ لاَ مَحَالَةَ إِمَّا عَلَى جَنَّةٍ أَوْ عَلَى نَارٍ فَارْتَدْ لِنَفْسِكَ قَبْلَ نُزُولِكَ وَ وَطِّئِ اَلْمَنْزِلَ قَبْلَ حُلُولِكَ فَلَيْسَ بَعْدَ اَلْمَوْتِ مُسْتَعْتَبٌ وَ لاَ إِلَى اَلدُّنْيَا مُنْصَرَفٌ

-Bil ki, sənin qarşında çox təhlükəli və çətin bir keçid var. Orada yükü yüngül olan yükü ağır olandan xoşhaldır və ağır tərpənən sürətlə gedəndən pis və aciz vəziyyətdədir. Həmin yolda sənin enəcək yerin mütləq ya cənnətdir, ya da od. Buna görə də *(həmin diyara)* çatmamışdan özün üçün qabaqcadan hazırlıq görən göndər *(ki, sənin üçün asayiş və rahatlıq yeri əldə etsin)*. Getməmişdən qabaq mənzil hazırla ki, ölümündən sonra razı salmaq vasitələri yoxdur və heç bir kəs dünyaya qayıtmır. *(Orada yaxşı iş görmək mümkün deyil ki, günahdan keçsinlər, həmçinin dünyaya qayıtmaq olmur ki, pis işlərə görə tövbə edilsin.)*[1]

قَالَ عَلِيٌّ(ع): اِستَعِدّوا للمَوتِ فقد أظَلَّكُم، و كُونوا قَوما صِيحَ بِهِم فانتَبَهوا، و عَلِموا أنّ الدُّنيا لَيسَت لَهُم بدارٍ فاستَبدَلوا

-Həzrət Əli(ə) buyurur: "Ölüm üçün hazırlıq görün. Çünki ölüm öz kölgəsini başınızın üstünə salmışdır. Elə bir dəstə kimi olun ki, onların üstünə qışqırdıqda yuxudan ayıldılar və dünyanın onların sarayı olmadığını başa düşdüklərinə görə də onu (başqa dünya ilə) dəyişdilər."[2]

---

[1] Nəhcül-bəlağə, məktub 31.
[2] Mizanül-hikmə,12-ci cild, hədis 19165.

قَالَ الصّادقُ(ع): هَولٌ لا تَدري مَتى يَغشاكَ، ما يَمنَعُكَ أن تَستَعِدَّ لَهُ قبلَ أن يَفجَأكَ

-İmam Sadiq(ə) buyurur: "Ölüm elə bir vahimə və qorxudur ki, onun səni nə vaxt bürüyəcəyini bilmirsən. Qəfildən sənin sorağına gələcəyini bildiyin halda nə üçün özünü ona hazırlamırsan?"[1]

قَالَ رَسُولُ اللّهِ(ص): إنّ النُّورَ إذا دَخَلَ الصَّدرَ انفَسَحَ. قيلَ: هَل لذلكَ مِن عَلَمٍ يُعرَفُ بهِ؟ قالَ: نَعَم، التّجافي عن دارِ الغُرورِ، و الإنابَةُ إلى دارِ الخُلودِ، و الاستِعدادُ للمَوتِ قَبلَ نُزولِهِ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Nur insanın qəlbinə daxil olduqda sinə genişlənir. Soruşdular: Ya Rəsulallah, bunun əlaməti varmı? Peyğəmbər(s) buyurdu: Bəli. Aldadıcı dünyadan uzaq durmaq (dünyaya ürək bağlamamaq), əbədi olan saraya (axirətə) üz tutmaq (axirət üçün çalışmaq) və ölüm yetişməmişdən öncə ona hazır olmaq."[2]

Deməli, bildik ki, ölümü xatırlamaq və ona hazır olmaq insan üçün ən önəmli və mühüm məsələlərdəndir. Sual oluna bilər ki, insan özünü ölümə necə hazır etməlidir? Yaxud belə deyək ki, ölümə hazırlaşmağın mənası və izahı nədir? Hədislərdə bu sualın cavabı çox açıq şəkildə bəyan olunmuşdur. Həmin hədislərdən bir neçəsinə diqqət yetirək.

---

[1] Yenə orada, hədis 19167.
[2] Yenə orada, hədis 19174.

الإمامُ عليٌّ عليه السلام – لما سُئلَ عنِ الاستِعدادِ للمَوتِ – أداءُ الفَرائضِ، و اجتِنابُ المحارِمِ، و الاشتِمالُ علَى المكارِمِ، ثُمّ لا يُبالي أ وَقَعَ علَى الموتِ أم وَقَعَ الموتُ علَيهِ. و اللّهِ، ما يُبالي ابنُ أبي طالبٍ أوقَعَ علَى الموتِ أم وَقَعَ الموتُ علَيهِ

-İmam Əlinin(ə) *(Ölümə hazırlıq barədə suala cavabından):* "Vacib əməlləri yerinə yetirmək, haramlardan uzaq durmaq və yaxşı xasiyyətləri (ədəb-əxlaqları) öyrənmək. Bu işlərə riayət edəndən sonra adamın ölümünün sorağına çıxmasının, yoxsa ölümün onun sorağına gəlməsindən nə qorxusu ola bilər? Allaha and olsun, Əbu Talibin oğlunun ölümün onun sorağına gəlməsindən və ya onun ölümün sorağına getməsindən heç bir qorxusu yoxdur."[1]

İmam Səccaddan(ə) soruşdular: "İnsan üçün ən yaxşı ölüm hansı ölümdür? İmam(ə) buyurdu:

أن يكونَ قد فَرَغَ مِن أبنِيَتِهِ و دُورِهِ و قُصورِهِ. قيلَ: و كيفَ ذلكَ؟ قالَ: أن يكونَ مِن ذُنوبهِ تائبا، و علَى الخَيراتِ مُقيما، يَرِدُ علَى اللّهِ حَبيبا كريما

-İnsan üçün ən yaxşı ölüm saray və evlərindən uzaqlaşmaqdır. (Yəni özünü dünya malından bir qədər uzaq saxlasın). Soruşdular: Bu necə olur? İmam(ə) buyurdu: Günahlarından tövbə etsin və yaxşı (saleh) işlər görməyə başlasın. Belə olduqda həmin şəxs Allahın

---

[1] Mizanül-hikmə, 12-ci cild, hədis 19209.

məhzərinə həbib və kərim daxil olacaq. (Yəni həmin insanı Allahın hüzuruna bir dost kimi gətirəcəklər.)”[1]

Beləcə, qeyd olunan hədislərdən belə bir nəticəyə gəlirik ki, insan vacib əməlləri yerinə yetirməklə, haram işlərdən çəkinməklə, günahlardan tövbə etməklə, yaxşı və saleh əməlləri görməklə özünü ölümə hazırlaşdıra bilər.

## Ölümün xəbərdarlıqları

Əcəli yetişdikdə ölüm insana macal vermir. Hər bir canlı ölümü dadmalı və dünyadan getməlidir. Bəzən sual oluna bilər ki, nə üçün ölüm xəbərsiz və qəfil olaraq insanı yaxalayır? Əlbəttə, ölüm insana gəldikdə heç bir xəbər etmir. Amma özündən əvvəl müxtəlif xəbərdarlıqlar göndərir. Məsələn, başqasının ölümünü görmək, hər gün ölümə sarı addımlamaq, bədəndə yaranan ağrılar, qocalıq, saçın ağarması kimi hallar insanın ölümünə hazırlıqla bağlı olan xəbərdarlıqlardır.

قَالَ عَلِيٌّ(ع):عَجِبتُ لِمن يَرى أنّهُ يُنقَصُ كلَّ يَومٍ فِي نفسِهِ و عُمرِهِ و هُو لا يَتَأهَّبُ للمَوتِ

-Həzrət Əli(ə) buyurur: “Təəccüb edirəm o kəsə ki, hər gün ömründən azalır, amma özünü ölümə hazırlaşdırmır?”[2]

Həzrət İbrahimin(ə) ölümü çatdıqda (ürəyində) belə ərz etdi: “İlahi, kaş qabaqcadan məni xəbərdar edərdin. Özümü ölümə hazırlaşdırardım. Allah ona vəhy edərək

---

[1] Yenə orada, hədis 19210.

[2] Mizanül-hikmə,12-ci cild, hədis 19182.

buyurdu: Saçlarının (hər bir tükünün) ağarması sənə etdiyim xəbərdarlıq deyildimi?”[1]

Beləliklə, insan ölümü çox xatırlamalı, özünü ölüm üçün hazırlamalıdır. Əgər insan sidq ürəklə etdiyi günahlardan tövbə etsə, Allahın buyurduğu vacibləri yerinə yetirsə, özünü haramlardan qoruya bilsə, yaxşı və saleh işləri görə bilsə, deməli özünü ölümə hazırlamışdır. Əgər yaddan çıxmış xırda əməllər qalmış olsa da belə Allah-təala  Öz lütf və mərhəməti ilə onları qaydasına salar və bəndəsi üçün keçər.

[1] Yenə orada, hədis 19181.

# MÜNDƏRİCAT

**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR........**
Üçüncü nümunənin davamı..............................................
**TƏQVANI GÜCLƏNDİRƏN AMİLLƏR.....................**
**Günahlardan çəkinmək ................................................**
Allaha şərik qoşmayin....................................................
Quran baxımından şirk...................................................
Şirkin mənası................................................................
Dində pərakəndəlik və ayrı-seçkilik salmaq .......................
Müşriklərin bütlərini söymək olmaz ..................................
Bidət ..............................................................................
Allahın və Peyğəmbərin(s) işlərinə qarşı etiraz etməк ........
Şirkin əlamətləri ............................................................
Tağuta arxalanmaq və itaət etmək.....................................
Allahdan başqasını Ondan üstün tutmaq............................
Valideynin hörmətini saxlamaq və onlara
yaxşılıq etmək................................................................
Allaha itaət valideynə itaətdən üstündür ............................
Ailə qurmaq mühüm məsələdir..........................................
Allahın əmri və Ona məhəbbət hər şeydən üstündür ..........
Tövhidi başa düşmək üçün şirkdən uzaqlaşmaq lazımdır....
Doğru hədəfə düz yolla çatmaq olar ..................................
İmanla şirkin sərhədi ......................................................
İslam dini baxımından şirkin təsir və nəticələri .................
Nigarançılıq və narahatçılıq .............................................
Şəxsiyyətdə qərarsızlıq və təhlükə ....................................
Cəmiyyətdə ixtilaf və təfriqə............................................
Validеynlərə (ata-anaya) yaxşiliq edin...............................
Valideynlər dünyasini dəyişdikdən sonra övladin
vəzifəsi...........................................................................
Valideynlərin qəbrini ziyarət etmək..................................

Övladlarinizi  acliq və yoxsulluqdan öldürməyin ................
Aşkarda və xəlvətdə pis işlərə yaxinlaşmayin .....................
Nahaq yerə adam öldürməyin ...........................................
Yetim malina yaxinlaşmayin..............................................
Ölçü və çəkidə ədalətli olun ...............................................
Söz danişarkən ədalətə riayət edin ......................................
İlahi (allahla bağladiğiniz) əhdə vəfa edin ..........................
Allahin yoluna tabe olun və başqa yollara
tabe olmayin ........................................................................
**TƏQVANI  GÜCLƏNDİRƏN AMİLLƏR......................**
**Quran..................................................................................**
**TƏQVANI  GÜCLƏNDİRƏN AMİLLƏR......................**
**Güzəştə getmək və bağişlamaq..........................................**
**TƏQVANI  GÜCLƏNDİRƏN AMİLLƏR......................**
**Moizə və öyüd-nəsihət eşitmək.........................................**
**TƏQVANI  GÜCLƏNDİRƏN AMİLLƏR......................**
**Qiyaməti  xatirlamaq ......................................................**
Ölüm insan üçün bu dünyanin sonu,
axirətin başlanğicidir ..........................................................
Ölüm insanın çətin anlarından biridir..................................
Ölümün bihuşluğu ..............................................................
Ölümün vəsfi .......................................................................
Can alanlar kimdir? ............................................................
İnsanın ölüm ayağında gördükləri.......................................
Möhtəzirin Əzrayılı(ə) görməsi...........................................
Kafirin ölüm halı .................................................................
Ölüm mələyinin kafir və zalımlarla rəftarı..........................
Hər kəs öz əməlindən asılıdır .............................................
Möminin ölüm halı..............................................................
Ölüm mələyinin möminlərlə rəftarı.....................................
Həzrət Əzrayıla(ə) salam və salavat göndərmək.................
İnsanın ölüm ayağında gördükləri.......................................

Can verən insanın qoruqçu mələkləri görməsi....................
Can verən insanın məsumları görməsi ...............................
Can verən insanın gedəcəyi yeri görməsi............................
Can verən insanın şeytanı və köməkçilərini görməsi...........
İnsana son anlarında şeytanın çəngindən nicat verən amillər..................................................................................
Ehtizar halı insanın aqibətini müəyyənləşdirən andır..........
Ölümü insana asanlaşdıran amillər ....................................
Möhtəzirin (ölüm ayağında olan insanın) hökmləri............
Möhtəzirə (yaxud yanında olanlara) vacib olan əməllər.....................................................................................
Möhtəzirə (yaxud yanında olanlara) müstəhəb sayılan əməllər...........................................................................
Ölümün həqiqəti.................................................................
Ölüm haqdır.......................................................................
Ölüm ümumi bir qaydadır..................................................
Ölümün həqiqəti nədir?......................................................
Ölüm və həyat hər ikisi Allahın məxluqudur......................
Ölümün misallarla izahı .....................................................
Allah dostlarının ölümü......................................................
Ölümdən nə üçün qorxuruq?..............................................
Ölümdən qorxmağın səbəbləri ...........................................
Ölümü xatırlamaq..............................................................
Ölümə hazırlaşmaq və onun izahı ......................................
Ölümün xəbərdarlıqları ......................................................